**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏHMƏD AĞAOĞLU YARADICILIĞI TÜRKİYƏ ƏDƏBİ, İCTİMAİ-SİYASİ HƏYATINDA

İxtisas: 5716.01-Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru

elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: **Mədinə Adil qızı Karahan**

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

**Bakı – 2021**

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................................................ 3**

**I FƏSİL. Ə.AĞAOĞLU AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏDƏBİ-İCTİMAİ MÜHİTİNDƏ**

1.1. Ə.Ağaoğlu həyatı Azərbaycan və Türkiyə ədəbi, ictimai mühiti kontekstində...........................................................................................................16

1.2. "Sərbəst firqə xatirələri" sənədli-publisistik əsər kimi.............................56

**II FƏSİL. Ə.AĞAOĞLU YARADICILIĞI ƏDƏBİ, ELMİ VƏ KULTUROLOJİ KONTEKSTDƏ**

2.1. Ə.Ağaoğlunun ədəbi və elmi yaradıcılığı...............................................71

2.2. "Üç mədəniyyət" əsərində kulturoloji görüşləri.......................................86

**III FƏSİL. Ə.AĞAOĞLUNUN YARADICILIĞINDA YENİ CƏMİYYƏT AXTARIŞLARI**

3.1. Ə.Ağaoğlunun bədii-fəlsəfi traktatlarında yeni həyat prinsipləri..........................................................................................................103

3.2. Didaktik və utopik əsərlərində yeni cəmiyyət obrazı.................................................................................................. ........123

**NƏTİCƏ.................................................................................................... 141**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.....................................145**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə səviyyəsi.** XX əsr tariximizin ədəbi, ictimai düşüncəsində və siyasi həyatında böyük rolu olan Əhməd bəy Mirzə Həsən oğlu Ağayevin (Ağaoğlu) (1869-1939) yaradıcılığı yalnız Azərbaycanda deyil, həm də Türkiyədə, türk dünyasında, eləcə də Avropada geniş yayılmış, onun fəaliyyəti və əsərlərinin ictimai proseslərə təsiri böyük olmuşdur. Yaşadığı və yazıb yaratdığı mühitlərin (Fransa, Azərbaycan, Türkiyə, Malta) özü də dövrünün zəngin siyasi, ictimai hadisələri ilə doludur. XIX əsrin sonlarında Fransa və Azərbaycanda, XX əsrin 1909-cu ilindən sonra isə Türkiyədə yazıb-yaradan böyük ictimai fikir adamının siyasi, ictimai, ədəbi-bədii yaradıcılığı mövzu və problem baxımından son dərəcə zəngin olduğu kimi, həm də xalqının ictimai-siyasi həyatı ilə birbaşa bağlıdır. Yaradıcılığının ilk illəri çarlıq üsuli-idarəsinə düşən Ə.Ağaoğlu ali təhsil dalınca getdiyi Fransada yüksək təhsil almaqla yanaşı, Avropa mühitini dərindən öyrənmiş, təhsillə kifayətlənməyərək bu ölkənin ziyalı mühiti ilə yaxından tanış olmuş, Qərb dəyərlərini dərindən mənimsəmiş və burada bir şərqşünas kimi tanınmışdır. Londonda şərqşünasların X Beynəlxalq konfransında (1892) etdiyi "Şiə məzhəbinin mənbələri" mövzusu ilə konfrans iştirakçılarının marağını cəlb etmişdir. Sorbonna Universitetindəki Paris Hüquq məktəbində təhsil alan Ə.Ağaoğlu Fransa mühitində Ceyms Darmstater (1849-1894), Ernst Renan (1823-1892), Çariz Barbiye de Meynard (1826-1908) kimi alimlər, "La Nouvelle Revue"(Yeni jurnal) dərgisinin sahibi Cülyetta Adamla (1836-1936) tanış olmuşdur. Bu illərdə Parisdə nəşr edilən "La Nouvelle Revue"(Yeni jurnal), La Revue bleue politique et literaire" "(Siyasi və ədəbi jurnal), "Journal des debats" (Müzakirə jurnalı) kimi nüfuzlu qəzet və dərgilərdə Azərbaycan və bu regionda yaşayan xalqların mədəniyyəti, tarixi və ədəbiyyatı haqqında məqalələrlə çıxış etmişdir. Ə.Ağaoğlu altı illik Paris həyatında yalnız təhsil almamış, həm də fransız alimləri və Fransada yaşayan gənc türklər ilə sıx əlaqə quraraq gündəmi məşğul edən müzakirələr aparmışdır. Dövrün böyük Şərq mütəfəkkiri, filosofu və islahatçısı Şeyx Cəmaləddin Əfqani (1838-1897) ilə tanışlığı

onun fikirləri, ideyalarında mütərəqqi və islahatçı meyilləri gücləndirir. Fransa alimlərinin ona burada qalıb elmi işlə məşğul olmasına dair təkliflərinə baxmayaraq, ölkəsinə dönüb xalqına xeyir verməyi düşünən Ə.Ağaoğlunun həyatı və yaradıcılığının ən zəngin və çətin bir mərhələsi başlayır. Bu mərhələdə onun yaradıcılığında jurnalistlik fəaliyyəti əsas yer tutur. Çar Rusiyasının Azərbaycan xalqını əzdiyi, haqq və hüquqlarını tapdaladığı, torpaqlarını işğal etdiyi bir zamanda o, milli və siyasi maarifçiliyi əsas götürərək mübarizəyə başlayır. Rusca "Kaspi" qəzetindəki məqalələri ilə xalqın milli ictimai mücadiləsinə başlayan publisist sonrakı fəaliyyətində bu prioritet istiqaməti axıradək qoruyub saxlamışdır. Publisist kimi fəaliyyətini milli mətbuatda davam etdirən Ə.Ağaoğlu "Həyat" qəzetində cəmiyyəti məşğul edən ictimai, dini, milli problemlər qaldırırdı. "İslam və axund", "İslama görə və islamda qadın" əsərləri ilə yeni cəmiyyətin problemlərini önə çəkməyə çalışır. 1905-ci ildə Qafqazda çar Rusiyası siyasətinin davamı olaraq baş verən erməni terrorizmi Ə. Ağaoğlunun da fəaliyyət sferasının yönünü və istiqamətini dəyişir. Ə.Ağaoğlu bu fəaliyyəti ilə milli kimliyi tanıtdığı kimi, çar Rusiyasının Qafqazda erməniləri müdafiə etdiyini, terrora dəstək verməsini də gündəmə gətirir. "Difai" təşkilatının yaradılması da məhz xalqın milli müqavimət hissini qaldırmaqdan irəli gəlmişdir. "Həyat", "İrşad" qəzetlərdəki məqalələrində xalqın ictimai-siyasi təfəkkürünün formalaşması istiqamətində yeni ideyalar verir. O, "Difai" təşkilatının hərəkətverici qüvvələrindən biri olması ilə milli mücadilə yolunda yeni bir mərhələnin başlanğıcını qoymuş olur. Lakin Qafqaz canişini Vorontsov Daşkovun onu həbs etdirərək sürgünə göndərmək istəməsi və həyatı üçün təhlükənin yarandığı vaxt Ə.Ağaoğlu Türkiyəyə mühacirət etmək məcburiyyətində qalır. Onun zəngin yaradıcılığı və ictimai-siyasi fəaliyyətinin böyük bir hissəsi Türkiyə ilə bağlıdır. Türkiyəyə getdikdən sonra Ə.Ağaoğlunun yaradıcılığı daha böyük arenaya daxil olaraq mövzu və problematika baxımından geniş bir sahəni əhatə edir.

Ə.Ağaoğlunun yaradıcılığının və ədəbi, ictimai-siyasi fəaliyyətinin otuz ili Türkiyədə keçmişdir. Bu müddətdə o, həm Azərbaycan, həm də Türkiyə cəmiyyəti üçün ölçüyəgəlməz dərəcədə işlər görmüşdür. Bu işlərdən biri Azərbaycan və

Türkiyə, eləcə də türk dünyası siyasi tarixində xalqın şüurunda milli düşüncəni inkişaf etdirmək idi. Bu cəhətdən milliyyətçilik onun yaradıcılığının ilkin mərhələsində başlıca yer tutur. Onun həm yaradıcılığında, həm də fəaliyyətində milliyyətçilik, vətənçilik, türkçülük amili mühüm rol oynayır. Ufuk Özcanın yazdığı kimi: *"Ağaoğlu Türkiyədə milliyyətçi hərəkatın gəlişməsində birinci dərəcədə təsirli olmuş adamlar arasında yer alan, bununla birlikdə hərəkatın yerli üzvlərindən fərqliliklərilə diqqət çəkən bir ziyalıdır"* [138, s.5].

Yaradıcılığının və fəaliyyətinin əsas istiqamətlərindən biri isə Türk-müsəlman dünyasında qərbləşmə, modernləşməni nəinki təqdir etmək, həm də onun yollarını göstərməkdən ibarət idi. Bu istiqamət onu uzun müddət türk dünyasında türkçü kəsim olaraq tanıtmış, sovet elmi tərəfindən isə pantürkist kimi damğalanaraq vətənində yaradıcılığının araşdırılması uzun müddət qadağan olunmuşdur. Ə.Ağaoğlu sovet rejimi tərəfindən həm də bir islamçı, panislamist kimi qələmə verilmişdir. Bu da onun islamın dünəni, bugünü və problemlərilə bağlı elmi yazılarının dərc olunmasından, yeni fikir və ideya müəllifi olmasından irəli gəlirdi. Ə.Ağaoğlunun Türkiyədəki yaradıcılığında türk-islam istiqamətləri birləşməklə yanaşı, onların yanaşı hərəkət etmələrinin nəzəri əsasları da yaradılmışdı. Görkəmli fikir adamının Türkiyədəki dərnəkçilik və mətbuat fəaliyyəti sistemliliyi, yenilikçiliyi ilə yeni bir yolun, ictimai-siyasi tendensiyanın əsasını qoyur. Ə.Ağaoğlunun həm də Türkiyədə müxalifət institutunun yaradılmasında və liberalizm, demokratiya, idarəetmədə yenilikçilik görüşlərinin formalaşmasında müəyyən rolu olmuşdur. Bütün bu sıx ictimai, siyasi fəaliyyətlə yanaşı, Ə.Ağaoğlu həm də zəngin bir yaradıcılıq yolu keçmişdir. Onun yaradıcılığı ilə fəaliyyəti bir-biriylə qırılmaz şəkildə bağlıdır və bir-birini tamamlayır. Onlarla ədəbi, elmi, alleqorik, didaktik əsərlərində yeni cəmiyyət, dövlət, din, islam, hökumət, əxlaq və fərd, demokratiya, cəmiyyət və s. anlayışlarına yeni düşüncə stereotipləri nöqteyi nəzərindən yanaşmışdır. “Türk təşkilatı əsasiyyəsi”, “İngiltərə və Hindistan”, “Dövlət və fərd”, “Sərbəst insanlar ölkəsində”, “1500 ilə 1900 arasında İran”, “İran və inqilabı”, “Üç mədəniyyət”, “Mən nəyəm”, “İxtilalmı, inqilabmı”, “Könülsüz olmaz”, “Sərbəst firqə xatirələri”, “Etrusk mədəniyyəti və bunların Roma

mədəniyyətinə təsiri”, “Peyami Səfaya axirətdən məktublar”, “Türk tarixinin ana xətləri” və s. onlarla fundamental ədəbi, bədii, didaktik əsərləri Türkiyə və Azərbaycan bədii düşüncəsini zənginləşdirən əsərlərdəndir. Ə.Ağaoğlunun məktublaşmalarında Azərbaycan və türk siyasi, ədəbi düşüncəsini irəli aparacaq fikirlər söylənmiş, ictimai-siyasi prosesləri aydınladan məsələlərə aydınlıq gətirilmişdir. Bu məktublarında onun mövcud siyasi vəziyyətlə bağlı fikirlərini, düşüncələrini bilmək mümkün olduğu kimi, həm də siyasi həyatın mərkəzi fiqurlarından biri olduğunu yəqin etmiş oluruq. Onun Türkiyə qəzetlərində çıxmış yüzlərlə məqalələrini, haqqında Türkiyədə yazılmış xatirə, məqalə və tədqiqatları da buraya əlavə etsək, mövzunun aktuallığının gerçək mənzərəsi aydın olar.

Ə.Ağaoğlunun Türkiyə yaradıcılığının öyrənilməsi, eyni zamanda, onun Azərbaycan siyasi həyatındakı yerini və rolunu da müəyyənləşdirməyə imkan verir. Çox təəssüf ki, uzun illər Ə.Ağaoğlunun adı vətənində ancaq tənqid müstəvisində çəkilib, əsərləri nəşr olunmaq bir yana, haqqında tədqiqatlar aparmağa belə imkan verilməyib. Ədəbiyyatşünas Ə.Mirəhmədov sovet dövründə Ə.Ağaoğluna olan bu haqsızlığa gec də olsa, 1990-cı ildə reaksiya verərək özünün də içində olduğu tədqiqatçılar nəslinə üz tutaraq yazmışdı: *"Nə gizlədək, ilk Azərbaycan Respublikasını uzun illər əyri güzgüdə göstərməkdə hamı kimi bizim "Sex"in də, həmsənətlərimin də, mənim də "xidmətlərimiz" olub. "Tarix"ləri çox vaxt "gizli" arxivlərdən xəbəri olmadan yazmalı olurduq...Yaxşı ki, yalanlar zamanı çıxıb getməkdə, həqiqətlər zamanı gəlib çatmaqdadır. Uzun illər müasirlərdən gizli saxladığımız xadimlər də üzə çıxır. Onlardan biri Əhməd bəy Ağaoğludur"* [54, s.253].

Bunu da demək lazımdır ki, müstəqillik dövründə Ə.Ağaoğlunun həyatının, yaradıcılığının və fəaliyyətinin bəzi aspektləri barədə müəyyən araşdırmalar aparılsa da, Türkiyə yaradıcılığı, demək olar ki, tədqiqatdan kənarda qalmışdır. Bu cəhətdən fəlsəfə, tarix, mifologiya və din tarixi, ədəbiyyat, hüquq, ictimaiyyət və elm-mədəniyyət məsələlərinə həsr olunmuş ciddi elmi-nəzəri və publisist əsərlərin müəllifinin, fəal mədəniyyət, elm və siyasət xadimi - Əhməd bəy Ağaoğlunun Türkiyədə yazılmış əsərlərinin bir araya gətirilərək araşdırılması yaradıcılığının

bütövlüyünü təmin etmək baxımından önəmlidir. Böyük mütəfəkkirin əsərləri dövrünün ən aktual, vacib, həlli gərəkli məsələlərinə həsr edilib və bu zəngin irs Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illlik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən (10 aprel, 2019) ilk dəfə dövlət səviyyəsində geniş araşdırıldı, Azərbaycanın və Türkiyənin müxtəlif elm, mədəniyyət ocaqlarında yubiley tədbirləri keçirildi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Ə.Ağaoğlunun Türkiyə yaradıcılığını araşdırmaqdan və bu əsərlərin elmi, tarixi əhəmiyyətini üzə çıxararaq dəyərləndirməkdən, eləcə də Türkiyə mühitindəki, ictimai fikrindəki yerini, rolunu müəyyən etməkdən ibarətdir. Bu mənada onun bir çox əsərləri ilk dəfə olaraq tədqiqata cəlb edildiyi kimi, həm də Türkiyə və Avropa arealında əsərləri ilə bağlı araşdırmalarına kompleks elmi münasibət bildirilir. Bununla əlaqədar tədqiqat işində aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

1. Ə.Ağaoğlunun həyatını Azərbaycan və Türkiyə ədəbi mühiti kontekstində təhlil etmək;
2. Ə.Ağaoğlunun Türkiyədəki ədəbi, ictimai-siyasi fəaliyyəti yeni materiallar baxımından araşdırmaq;
3. Türkiyə yaradıcılığının mərhələ və problemlərini sistemli şəkildə tədqiqata cəlb etmək;
4. Türkiyə mətbuatı, ədəbi, ictimai mühitindəki fəaliyyətinə aydınlıq gətirmək;
5. Ə.Ağaoğlunu İttihad və Tərəqqiyə gətirən faktorlar və bu partiyadakı fəaliyyətini araşdırmaq;
6. Yaradıcılığında millətçilik və türkçülük problemlərini araşdırmaq;
7. Yaradıcılığında din, islam, islamçılıq problemlərinə münasibətini tədqiq etmək;
8. Ədibin demokratiya, azadlıq, idarəetmə konsepsiyasının özəlliklərini müəyyən etmək;

9. Türkiyə ictimai-siyasi mühitində müxalif "Axın" qəzetindəki fəaliyyətini və müxaliflik institutunun formalaşmasındakı rolunu aydınlaşdırmaq;

10. Ə.Ağaoğlu fəaliyyətindəki və yaradıcılığındakı liberal dəyərlərin Türkiyə ictimai mühitinə təsir problemlərini tədqiq etmək və s.

**Tədqiqat metodları.** Araşdırmanın əsas obyekti Ə.Ağaoğlunun Türkiyədəki ədəbi, ictimai-siyasi və publisistik fəaliyyəti, çoxtərəfli yaradıcılığıdır. Tədqiqat işinin predmetini isə Ə.Ağaoğlunun məqalələri, elmi-fəlsəfi əsərləri, xatirələri, məktubları və onun yaradıcılığı haqqında tədqiqatlar təşkil edir. Bu cəhətdən Ə.Ağaoğlunun həyatı, fəaliyyəti və yaradıcılığı haqqında Azərbaycanda və Türkiyədə aparılan tədqiqatlar araşdırmaya cəlb edilmişdir. Dissertasiyada tədqiqata cəlb olunan əsərlərin xronoloji başlanğıcı XIX əsrin 90-cı illərindən götürülür və bugünümüzə qədər davam edir. Eyni zamanda, Ə.Ağaoğlu ilə bağlı Türkiyənin Ankara Milli Kitabxanasında, İstanbul Beyazid Kitabxanasında, Azərbaycanda, qismən də Avropada aparılan araşdırmalara da paralel olaraq, yeri gəldikcə müraciət olunmuş, Türkiyədə yaşayan Ə. Ağaoğlu araşdırıcıları prof. Fahri Sakal və prof. Ufuk Özcanla sıx əməkdaşlıq edilmişdir.

Tədqiqat işi bədii irsin elmi, nəzəri cəhətdən öyrənilməsində tarixilik prinsipinə əsaslanaraq tarixi-müqayisəli tədqiqat metodu əsasında yazılmışdır. Dissertasiyanın yazılmasında elmi, nəzəri və publisistik-bədii materiallardan istifadə olunmuş, eyni zamanda Türkiyə və Azərbaycanda aparılan araşdırmaların elmi nəticələrindən də yan keçilməmişdir. Tədqiqatın xarakteri həm Azərbaycan, həm də Türkiyə ədəbi, ictimai-siyasi mühitini müqayisəli şəkildə öyrənməyi və paralel araşdırma aparmağı tələb etdiyindən elmi, bədii irsin müqayisəli tədqiqinə üstünlük verilmişdir. Bir çox problemlərin (mədəniyyət, islamçılıq, türkçülük, millətçilik, avropaçılıq, liberalizm, demokratiya və s.) araşdırılması zamanı mövcud nəzəri fikir və metodoloji meyillərdən və ədəbi əlaqələrdən də istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Ə.Ağaoğlunun Azərbaycan və Türkiyə ədəbi, ictimai, siyasi mühitində tutduğu yeri və mövqeyinin müəyyənləşdirilməsi;

- Ə.Ağaoğlu fəaliyyətinin Türkiyə ictimai-siyasi kontekstində formalaşması problemləri;

- Ə.Ağaoğlunun Türkiyə yaradıcılığı ədəbi, elmi və kulturoloji müstəvidə;

- Ə.Ağaoğlunun "Üç mədəniyyət" əsərində kulturoloji görüşlərinin müasirliyi və fundamentallığı;

- Ə.Ağaoğlu yaradıcılığında yeni cəmiyyət axtarışlarının formalaşması problemləri;

- Sənədli-publisistik "Sərbəst firqə xatirələri" əsəri siyasi münasibətlərin yeni forması kimi;

- Ə.Ağaoğlunun bədii-fəlsəfi traktatlarında yeni cəmiyyət quruculuğu məsələləri;

- Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərində demokratiya və azadlıq axtarışları;

- Ə.Ağaoğlunun didaktik və utopik əsərlərində yeni cəmiyyət və idarəetmə problemləri.

**Tədqiqatın elmi yeniliyi.** Zəngin yaradıcılığa malik Əhməd Ağaoğlunun Türkiyə yaradıcılığı öz vətənində ilk dəfə olaraq sistemli şəkildə araşdırma mövzusu olmuşdur. Yalnız 2019-cu ildə Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi fonunda millət fədaisi olan böyük insanın həyat və yaradıcılığı geniş araşdırıldı, haqqında kitablar və məqalələr yazıldı. Bundan əvvəl isə Azərbaycanda ayrı-ayrı alimlərin bu sahədəki bəzi araşdırmalarını nəzərə almasaq, Ə.Ağaoğlunun Türkiyə yaradıcılığı və fəaliyyəti ilk dəfədir ki, belə geniş şəkildə tədqiq edilir. Tədqiqata Ə.Ağaoğlunun Türkiyədə yazdığı əsərlər, məqalələr, çoxyönlü fəaliyyət istiqamətləri və onun haqqında yazılmış tədqiqatlar cəlb edilmişdir. Türkiyə yaradıcılığı və fəaliyyəti ilə Azərbaycanda aparılan tədqiqatlara da müəyyən yer verilmişdir. Tədqiqatda Ə.Ağaoğlunun həyat və yaradıcılığı paralel olaraq araşdırılmış, əsərləri, fikirləri əsasında Türkiyə mühitindəki yeri və rolu müəyyənlədirilmişdir. Tədqiqatın aşağıdakı elmi yenilikləri vardır:

- Ə.Ağaoğlunun həyatı, mühiti və fəaliyyəti ilk dəfə olaraq, Azərbaycan və Türkiyə kontekstində araşdırılaraq tərcümeyi halı bütövləşdirilir və həyatının bir çox məqamlarına aydınlıq gətirilir.

- Ədəbi və elmi yaradıcılığı ayrı-ayrı əsərlər əsasında araşdırılır.

- Kulturoloji görüşləri tədqiq edilir.

- "Sərbəst insanlar ölkəsində" əsəri ilk dəfə tədqiq edilir, müəyyən nəticələrə gəlinir və ədəbi, ictimai fikrimizdəki yeri müəyyənləşdirilir.

- "Mən kiməm", Könülsüz olmaz", "Tanrı dağında","Üç mədəniyyət" və s. əsərləri ilk dəfə olaraq ədəbiyyatşünaslıq mövqeyindən dəyərləndirilir.

- Ə.Ağaoğlu yaradıcılığı və fəaliyyəti ilk dəfə olaraq mərhələlərə bölünür.

Ə.Ağaoğlunun həyatı və yaradıcılığının öyrənilməsi səviyyəsini və tədqiqini onun yaradıcılığının zənginliyi və müxtəlifliyinə adekvat hesab etmək çətindir. Çünki onun yaradıcılığı zəngin, çoxjanrlı, problematika baxımından müxtəlif və çoxçeşidli olmasına baxmayaraq, çox az tədqiq edilmişdir. Ə.Ağaoğlunun 1909-cu ildən sonra Türkiyədə yazıb-yaratması, Sovet İttifaqının Türkiyəyə və Türkiyədəki Azərbaycan mühacirlərinin fəaliyyətinə münasibəti məsələsi də burada rol oynayan əsas faktorlardan olmuşdur. Bu üzdən də Ə.Ağaoğlu şəxsiyyətinə, həyatının, əsərlərinin öyrənilməsinə Sovet dövründə müəyyən mənada qadağa qoyulmuşdur. Sovet dövründə onun həyatı və mühiti sistemli şəkildə öyrənilməmiş, çox zaman "burjua mühərriri" kimi tənqid edilmiş, Azərbaycandakı fəaliyyəti bu və ya digər dərəcədə təhlilə cəlb edilsə də, Türkiyə yaradıcılığı tədqiqatdan kənarda qalmışdır. Görkəmli publisistin və fikir adamının yaradıcılığında milli, türkçü, dövlətçi, hüquqçu dəyərlər, liberal, demokratik təcrübə xüsusi yer tutduğundan, sovet dövründə vətənində burjua publisisti kimi qələmə verilmiş, haqqında tədqiqatlar aparılmamış, yalnız tənqid hədəfi edilərək xatırlanmışdır. Hətta 70-ci illərdə dərc edilən "Azərbaycan Sovet Ensiklopediyası" kitabında onun kiçik tərcümeyi-halı verilsə də şəkli dərc olunmamışdır. Kiçik tərcümeyi halında isə onun "panislamist və pantürkist ideyalar təbliğ etməsi", "inqilabi hərəkata və proletar beynəlmiləlçiliyinə qarşı" çıxdığı önə çəkilmişdir. Daha sonra oxuyuruq: *"1908-ci ildə İstanbula köçmüş, "İttihad və*

*tərəqqi" partiyasına daxil olmuşdur. Müxtəlif vaxtlarda "Süleymaniyyə" kitabxanasının müdiri, "Türk yurdu" jurnalının redaktorlarından biri olmuş, İstanbul Universitetində rus dilindən dərs demişdir. Birinci Dünya müharibəsi dövründə işğalçılıq məqsədi ilə Zaqafqaziyaya soxulmuş Türkiyə ordusunda siyasi müşavir idi. Müsavatçıların Azərbaycanda ağalığının ilk dövründə Azərbaycan parlamentinin üzvü, sonra isə parlament sədrinin müavini olmuşdu*r" [24, s. 96]. Göründüyü kimi, kiçik bir yazıda Ə.Ağaoğlunun gördüyü işin mahiyyəti dəyişilmiş, Azərbaycan ədəbi, ictimai fikir tarixində böyük rolu olmasına baxmayaraq, həyatı və yaradıcılığı xalqa olduğu kimi təqdim edilməmişdir.

80-ci illərdən sonra müəyyən qadağalar götürülsə də, Ə.Ağaoğlunun yaradıcılığı haqqında yenə də fundamental tədqiqatlar aparılmamışdır. Yalnız 80-ci illərin əvvəllərində ilk dəfə "Fikrin karvanı" [55] kitabında Ə. Ağaoğlu ilə bağlı, belə demək mümkün olarsa, müsbət yöndə oçerk dərc edilmişdir. Həmin onilliyin sonunda isə Kamal Talıbzadənin "Azərbaycan" jurnalında "Əhməd Ağaoğlu" məqaləsi [67] və publisistin "Rus ədəbiyyatının səciyyələri" əsərindən bir parça dərc edilmişdir [68, s.135-146]. Fəlsəfə üzrə fəlsəfə doktoru Şahnazər Hüseynovun "Əhməd bəy Ağaoğlunun dünyagörüşü [36] monoqrafiyası publisistin yaradıcılığı haqqında Azərbaycanda dərc edilmiş ilk monoqrafiyadır. Son illərdə isə Ə.Ağaoğlunun əsərlərinin dərc olunması və haqqında yazılan məqalələrdə müəyyən intensivlik hiss edilir. Filologiya elmləri doktoru Vilayət Quliyevin "Ağaoğlular" [47], "Son illərin yazıları" [51] kitablarında yazıçı-publisistin həyatının və yaradıcılığının bir çox məqamları açılır. Ə.Ağaoğlunun "Seçilmiş əsərləri"nin "Ön söz"ündə [7] onun yaradıcılığı və əsərləri geniş təhlil edilir. Bu yaxınlarda isə mərhum Əziz Mirəhmədovun "Əhməd bəy Ağaoğlu" [54] monoqrafiyası dərc edilmişdir. Monoqrafiya ədəbiyyatşünasın ölümündən də (2002-ci il) xeyli əvvəl yazılmasına baxmayaraq yalnız bu günlərdə işıq üzü görmüşdür.

Aydın məsələdir ki, görkəmli ədəbiyyatşünas Ə.Mirəhmədovun əlinin altında publisistin Türkiyədə yazdığı bütün əsərlər olmadığından, onun yaradıcılığının böyük bir hissəsi bu tədqiqatdan kənarda qalmışdır. Əslində tədqiqatçının məqsədi onun

Türkiyə yaradıcılığını deyil, ümumən həyatı və yaradıcılığını tədqiq etmək olduğundan Türkiyə mühitinə az yer vermişdir. Ümumiyyətlə, son illərə qədər yazılan bütün bu tədqiqatlarda daha çox görkəmli fikir adamının Azərbaycandakı yaradıcılığına çox önəm verilmiş, ən çox da onun şəxsiyyəti və fəaliyyəti üzərində araşdırmalar aparılmışdır. Ədibin Türkiyə yaradıcılığı və fəaliyyəti isə böyük ölçüdə Azərbaycanda tədqiqatlardan kənarda qalmışdır. Bu ona görə belə olmuşdur ki, Ə.Ağaoğlunun Türkiyədə yazdığı əsərləri, məqalələri, məktubları bizdə dərc edilmədiyindən təhlilə cəlb olunmamışdır. Son on beş ildə və xüsusilə, 2019 –cu ildə Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd edilməsi ilə bağlı bu sahədəki durğunluq aradan qaldırılaraq yazıçı-publisistin Türkiyə yaradıcılığını da əhatə edən bəzi əsərlər dərc edilmişdir. Ədəbiyyatşünaslardan Vaqif Sultanlı, Mübariz Süleymanlı, Bədirxan Əhmədov, Aydın Balayev və b. məqalələrində Türkiyə yaradıcılığı bu və ya digər şəkildə tədqiqata cəlb edilmişdir. Belə ki, böyük mütəfəkkirin əsərləri dövrünün ən aktual, vacib, həlli gərəkli məsələlərinə həsr edilib və bu zəngin irs Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illlik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən (10 aprel, 2019) ilk dəfə dövlət səviyyəsində geniş araşdırıldı, ölkənin, eləcə də, Türkiyənin müxtəlif elm, mədəniyyət ocaqlarında yubiley tədbirləri keçirildi, məqalə və kitablar yazıldı.

Türkiyə tədqiqatçısı Gülsərən Akalının "Türk düşüncə və siyasi həyatında Ağaoğlu" [21] kitabında onun yaradıcılığına ümumi şəkildə qiymət verilir. Filologiya elmləri doktorları Vaqif Sultanlı [62], Mübariz Süleymanlının məqalələrində [64; 65;] isə Türkiyə yaradıcılığı bu və ya digər şəkildə tədqiqata cəlb edilir. V.Sultanlı "Azərbaycan mühacirət ədəbiyyatı" [62] və Azərbaycanda ilk dəfə nəşr edilən "Üç mədəniyyət" (tərcümə edəni Ruhəngiz Soltanova) əsərinə yazdığı "Əhməd Ağaoğlu fenomeni" adlı ön sözündə [63] onun yaradıcılığına ümumi baxış ifadə edir. Mübariz Süleymanlının məqalə və konfrans çıxışlarında da [64; 65;] Ə. Ağaoğlu yaradıcılığına tez-tez rast gəlmək olur. Ədəbiyyatşünas Bədirxan Əhmədov ali məktəblər üçün yazdığı üç cildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyində Ə.Ağaoğlu ilə

bağlı geniş oçerk vermişdir [28]. Bu oçerkdə onun Azərbaycan və Türkiyə mühitindəki yeri, rolu və mövqeyinə obyektiv qiymət verilir, Türkiyə yaradıclığına kompleks baxış ifadə olunur.

Ə. Ağaoğlunun Türkiyə yaradıcılığına və fəaliyyətinə mühacir həyatı yaşadığı ölkədə də böyük maraq göstərilmişdir. Ahmed Mumçu [136], Əttar Aygün və Səbahəddin Şimşir [121], Əliheydər Bayat [122], Ebru Kayabaş [132], Hakkı Uyar [150], Gündoğdu Abdullah [129], Fəxrəddin Gülsevən [128], Murat Yılmaz [151], Sadoğlu Hüseyn [140], Taha Akyol [120], Yüce Nuri [153], Yılmaz Özkaya [152] və b. tədqiqatçılar müxtəlif problemlərlə bağlı bu və ya digər şəkildə onun yaradıcılığına müraciət etmişlər. Onun həyatı, fəaliyyəti və yaradıcılığı ilə bağlı Ufuk Özcan [138], Fahri Sakal [141], Bilal Şimşir [144] və b. onlarla məqalə və monoqrafiyaları nəşr edilmişdir. Lakin burada aparılan araşdırmaların əksəriyyəti də daha çox onun ictimai fəaliyyətinə yönəlmiş, əsərlərinin bir çoxu hərtərəfli tədqiqatdan, demək olar ki, kənarda qalmışdır və bütün bunlar geniş yaradıcılıq diapozonuna malik publisistin zəngin Türkiyə yaradıcılığını fundamental şəkildə dəyərləndirmək üçün geniş imkanlar yaradır. Ə.Ağaoğlunun yüzlərlə məqalələri, onlarla fəlsəfi, didaktik, əxlaqi əsərləri, xatirələri, məktubları onun Türkiyədəki yaradıcılığı və fəaliyyətini bütün istiqamətlərdən təhlil etmək üçün ən yaxşı yol olardı.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya mövzunun aktuallığı, əldə edilmiş nəticələri və yenilikləri ilə nəzəri, elmi və praktik əhəmiyyətə malikdir. Azərbaycan mühacirət irsinin mərhələ və problemlərini, strukturunu öyrənmək baxımından nəzəri səciyyə daşıyır. Dissertasiyanın nəzəri əhəmiyyətini şərtləndirən faktorlar içərisində Türkiyə və Azərbaycan mühitinin inkişaf yolunu, istiqamətlərini, eləcə də bir-birilə qarşılıqlı əlaqələrini öyrənməyə imkan verir.

Dissertasiyanın praktik əhəmiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan mühitinin problemlərini, inkişaf yolunu və konkret olaraq Ə.Ağaoğlu yaradıcılığına aid işin müddəaları və elmi yenilikləri ali məktəblərin filoloji fakultələrinin tələbələri, magistrantları üçün elmi-nəzəri baza kimi gərəklidir. Eyni zamanda, tədqiqat işindən Azərbaycan mühacirət ədəbiyyatı xüsusi kursu, yaxud seçmə fənn kimi də istifadə

edilə bilər. Tədqiqat işi Ə.Ağaoğlu və mühacirət irsi ilə bağlı gələcəkdə aparılacaq elmi araşdırmaların yazılmasında da etibarlı mənbə rolunu oynaya və istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu üzrə 10 məqalə; 3 konfrans olmaqla 13 elmi əsər tezisi nəşr olunmuşdur. Dissetrasiya işinin əsas nəticələri aşağıdakı konfranslarda məruzə edilmişdir**:** Türkoloji elmi-mədəni hərəkatında ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq Konfransında (Bakı, 14-15 noyabr, 2016), VII.Uluslararası Karşılaştırmalı Edebiyat Kongresi (Türkiyə, Sivas Cumhuriyyet Universitesi, 10-12 oktyabr, 2018), Azərbaycan İlahiyyat institutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Türk Ocaqları İstanbul şöbəsi və İstanbul Universiteti Türkiyat Araşdırmaları İnstitutunun birgə təşkil etdiyi elmi konfrans (Bakı,19-20 sentyabr, 2019). Dissertasiya işinə aid 10 elmi məqalə "Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi" jurnalında, "Mova i kultura" jurnalında, "Tarix və onun problemləri: nəzəri, elmi, metodik jurnal"ında, "Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal"ında, "Filologiya məsələləri" jurnalında, "Bakı Qızlar Universitetinin jurnalında, "Azərbaycan" ədəbi bədii jurnalında, "Khazar journal of humanities and social science" jurnallarında çap olunmuşdur/

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Xəzər Universitetinin Elmi Şurası tərəfindən təsdiq olunmuş, həmin universitetin "Dillər və ədəbiyyatlar" departamentində (5716.01) yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və işin həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya giriş (21 566 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf – 101 536 şərti işarə, ikinci fəsil iki paraqraf – 59 190 şərti işarə, üçüncü fəsil iki paraqraf – 79 877 şərti işarə), nəticə (6272 şərti işarə), istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi 285 729 şərti işarədir.

# I FƏSİL. Ə. AĞAOĞLU AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏDƏBİ-İCTİMAİ MÜHİTİNDƏ

## 1.1. Əhməd bəy Ağaoğlu həyatı Azərbaycan və Türkiyə ədəbi-ictimai mühiti kontekstində

Əhməd bəy Ağaoğlu (1869-1939) yalnız Azərbaycan ədəbi-ictimai mühitinin deyil, XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış bütün türk dünyasının tanınmış şəxsiyyətlərindəndir. Onun zəngin yaradıcılığı doğulub boya-başa çatdığı Azərbaycanla bağlı olduğu kimi, Türkiyə və Yaxın Şərqlə də eyni dərəcədə bağlı idi. O, bir publisist, alim, tənqidçi, ictimai xadim, fikir adamı və ideoloq kimi, həm də böyük bir mühitin yetirməsi idi. Dünyagörüşünün formalaşmasında, yaradıcılığında və ictimai-siyasi fəaliyyətində Şərqlə yanaşı Qərb dəyərləri də mühüm yer tuturdu. Ömrünün böyük bir hissəsini vətəndən uzaqlarda keçirən görkəmli fikir adamı fəaliyyətində və yaradıcılığında da Şərqlə Qərbi birləşdirməyə çalışmışdır. Onun Azərbaycan, rus, fransız, türk dillərində yazdığı əsərlərində mənsub olduğu xalqın, ictimai, siyasi problemlərilə yanaşı, Şərqdə və dünyada baş verən hadisələr eyni dərəcədə yer almışdır. Ona görə də Ə.Ağaoğlu yaradıcılığını, hər şeydən əvvəl, bu kontekstdə tədqiq etmək, həyat və yaradıcılığına məhz bu prizmadan baxmaq və dəyərləndirmək lazım gəlir.

Azərbaycanda Ə.Ağaoğlunun həyatı haqqında qiymətli tədqiqatlar aparılmışdır. Ə.Mirəhmədov [54], V.Quliyev [47; 48; 49; 50; 51], Ş.Hüseynov [36], Ü.Hüseynova [37], X.Sofiyev [61] tərəfindən aparılan araşdırmalarda, əsasən, Azərbaycan həyatına geniş yer verilmişdir. Eyni zamanda, ədibin övladlarından oğlu Səməd Ağaoğlu [7; 104; 105; 106; 107], qızı Sürəyya Ağaoğlunun [108] xatirələrindən həyatı və yaradıcılığı üçün bir çox məlumatlar əldə etmək mümkündür. Görkəmli fikir adamının həyatı bir neçə dəfə araşdırıldığından burada ancaq həyatının bəzi məqamları üzərində dayanmağı lazım bilirik.

Şuşa şəhərində dövrünün gözüaçıq adamlarından olan Həsən bəyin ailəsində anadan olan Ə.Ağaoğlunun babası İbrahim dövrünün adlı-sanlı ilahiyyat alimlərindən hesab edilirdi. Onun atası Mirzə Həsən və əmisi Mirzə Məhəmməd Şərq təhsili görmüşdü. Eyni zamanda, onların hər ikisi ərəb və fars dillərini də bilir, dünyəvi elmlərə maraq göstərirdilər. Qırxdan çox ailə üzvü olan nəslin ağsaqqalı Mirzə Məhəmməd sərt xarakterli idi və ailə haqqında qərarları da o verirdi. Səməd Ağaoğlu atasının xatirələrindən dərc etdiyi parçada həmin dövr belə təsvir edilirdi: *"Ocaqların saçdığı alovlardan və durmadan verilən dərman və nargilələrin dumanları arasında yenə durmadan vahi (boş, anlamsız, önəmsiz) mövzular ətrafında münaqişələr edilirdi. "İmam qaybı bilirmi?", "İmamım elmi əzəlimidir?", "Peyğəmbər meracı cismi iləmi, ruhu iləmi yapdı?" kimi məsələlər ətrafında saatlarca çəkişirdilər"* [104, s.10-11]. Daha sonra yazırdı: *"Ah, bu münaqişələri nə qədər gərgin bir diqqətlə dinlərdim. Bir şey anlamazdım. Fəqət mənə o qalın sarıqlı mollalar, o tahtalhanef, sallaşıq axundlar göydən enmiş varlıqlar kimi görünürdü"* [104, s.11]. Ağaoğlular ailəsi ilə bağlı tədqiqatlar aparan "Ağaoğlular" kitabının müəllifi ədəbiyyatşünas V.Quliyev bu köklü-köməcli ailə ocağını öz dövrü üçün "Şuşanın fikir mərkəzlərindən biri" və "intellektual salon" rolunu oynayan bir məkan hesab etməkdə tamamilə haqlıdır [47, s.5].

Böyük əmisi Hacı Mirzə Məhəmməd Əhməd bəyə çox ümid bəsləyir və bu üzdən də onu gələcəkdə müctəhid görmək istəyirdi. Ə.Ağaoğlu əmisini "babasından daha boylu", "iri" olduğunu, "az danışıb, gülməyən" adam kimi xatırlayır və böyük ailə üzərindəki güclü təsirindən bəhs edir. Onu da qeyd edir ki, ərəbi, farsı yaxşı bilirdi [47, s.10]. Görünür, buna görə də gənc Əhmədə xüsusi müəllimlər ərəb və fars dillərini öyrədirdilər. Ədəbiyyatşünas Ə.Mirəhmədovun yazdığına görə: *"Anasının dəvətilə Əhmədə evdə dərs deyən rus müəllimləri isə ona, tarix, coğrafiya, riyaziyyat elmlərini öyrədirdilər"* [54, s.10]. Ə.Ağaoğlunun xatirəsində olsun ki, əhəmiyyətsiz hesab etdiyi bu mübahisələrin, bu mühitin əslində onun bir fikir adamı kimi formalaşmasında rolunun, təsirinin heç də az olmadığını görmək olar. Məhz bu mübahisələrin nəticəsi idi ki, Ə.Ağaoğlu hələ tələbə ikən 1892-ci ildə Londonda

şərqşünasların V Beynəlxalq Konqresində "Şiə məzhəbinin mənbələri" mövzusunda məruzə etmişdir. Sonrakı yaradıcılığında da davamlı olaraq Şərq mövzusunda yazdığı yazılarda bu mübahisələrin təsiri olmuşdu. Bu mühit həm də ona Şərqin problemlərini öyrənməyə, Qərb alimləri ilə bərabər səviyyədə mübahisə aparmağa kömək etmişdi.

Ə.Ağaoğlu dini təhsili deyil, Şuşadakı rus gimnaziyasında təhsil almağa üstünlük verərək əmisindən xəbərsiz dayısının vasitəsilə rus gimnaziyasına getmişdir. Lakin rus gimnaziyasında təhsil almaq olduqca çətin idi; ona görə ki, burada ancaq erməni uşaqları oxuyurdu ki, bu da milli və dini fərqlilikdən dolayı azərbaycanlı şagirdlərə çətinliklər yaradırdı. Buna baxmayaraq, buradakı mühitin gənc Əhmədin formalaşmasında rolu böyük olur. Ona görə ki, Əhməd bəy burada fərqli bir mühitə düşmüşdü. Bu elə bir mühit idi ki, onun həyatını dəyişdiyi kimi, fəaliyyət istiqamətini də dəyişdirir. Belə ki, rus gimnaziyasında özündən başqa cəmi dörd nəfər azərbaycanlı oxuyurdu ki, onlar da erməni uşaqlarının hər gün davam edən hücumlarına məruz qalırdı. O günləri Ə.Ağaoğlu sonralar xatırlayaraq yazırdı: *"Bu beş nəfərin illər boyu davam edən təhsil həyatında erməni çocuqlarından çəkdikləri zülmü təsvir etmək imkan xaricindədir. Tənəffüslərdə biz, beş türk çocuğu cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilirdik. Yüzlərlə erməni çocuğu qəflətən üstümüzə hücum edirdi. Biri başımızdan papağı alıb atırdı. Qalanları dörd-beş altun qiyməti olan Buxara dərisindən tikilmiş papaqları təpiklə kos kimi ora-bura vururdular. Bəziləri qiymətli, əksərən dəvə yunundan toxunmuş pencəklərimizin ətəklərindən yapışır, o yan-bu yana çəkir, parçalayır, dartıb tikişlərini sökürdülər. Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında əzirdilər. Bəzən gizlində sözü bir yerə qoyub üzərimizə böhtan atır, hamısı üzümüzə şahid durub, bizə haqsız yerə cəza verirdilər"* [49, s.28]. Bu cür çətin şəraitdə gənc Əhmədin dostlarının çoxu bu zülmə dözə bilməyib məktəbi tərk etmişdilər. Özünün də yazdığı kimi, son sinfə keçərkən türklərdən yalnız Ə.Ağaoğlu qalmışdı.

Ə.Ağaoğlunun gələcək həyatına təsir edən başqa bir hadisə gimnaziyanı bitirdikdən sonra təhsilini Peterburq Texnologiya İnstitutunda davam etdirmək

qərarına gəlməsi idi. İlk imtahanları uğurla verən gənc Əhməd sonuncu-triqonometriya fənnindən şovinist müəllimin qərəzli münasibəti ucbatından qeyri-kafi alır və buranı tərk edərək Parisə getmək qərarına gəlir. Ə.Mirəhmədov yazır: *"Bu uğursuzluq elə təsirli olmuşdur ki, Ağaoğlu onu 1906-cı ildə "Həyat" qəzetindəki başqa bir məqaləsində də təəssüflə yad etmişdi. Eyni zamanda, bütün gələcək həyat yolunu başqa səmtə yönəldən həmin hadisə onun üçün iki cəhətdən nadir və gözlənilməz olmuşdu: birincisi, doğma yurdu Azərbaycandan da, mənəvi tellərlə Rusiyadan da uzaqlaşmış, ikincisi, onda Puşkin və Lermantovun, Belinski və Çernışevskinin vətənində o qaragüruhçu professor kimilərin də yaşadığına hədsiz təəccüb və təəssüf oyanmışdı"* [54, s.14].

Ə.Mirəhmədov, Ş.Hüseynov, V.Quliyevin araşdırmalarına görə, Rusiyada böyük haqsızlıqla üzləşən Əhməd bəy Parisə gedərək burada çox çətinliklə də olsa, 6 ay ərzində fransız dilini öyrənməyə nail olur. Burada hüquq məktəbində oxumaqla (1888-1889) yanaşı, Sorbonnadakı Şərq xalqları və dilləri məktəbində və "Əməli yüksək tədqiqat məktəbi"ndə bəzi dərslər də alır. Müəllimləri məşhur şərqşünas professor Ceyms Darmstater, Barbyü de Meynar və Şefer ilə yaxından tanış olur, E.Renanın tarixə, milli münasibətlərə aid mühazirələrini maraqla dinləyir [54, s.14]. Bu vaxtdan başlayaraq fransız qəzetlərində şərqşünaslığa dair məqalələri dərc olunur. Parisə gəlmiş "əfqanlı dərviş" adı ilə tanınan böyük islam islahatçısı Cəmaləddin Əfqani ilə müəllifin mübahisəsi şəklində yazılmış ilk məqaləsi "Jurnal de Deba"da (1890) müəllimi C.Darmstaterin giriş sözü ilə nəşr edilmişdi. Məqalənin əsasında isə Ə. Ağaoğlunun müşahidə etdiyi bir hadisə dayanırdı. Belə ki, İran şahı Nəsrəddin ilə Fransa prezidenti Sadn Karnonun görüşü ərəfəsində onların davranışları və geyimləri arasındakı fərqi üzə çıxarmağa çalışırdı. Bu görüşdə Fransa prezidenti nə qədər sadə geyinmişsə, İran şahının geyimi o qədər dəbdəbəli və təmtəraqlı olmuşdu.C.Əfqani bu iki dövlət başçısının geyimindəki fərqləri Şərq-Qərb idarəetmə təfəkkürünün nümunəsi olaraq dəyərləndirmişdi.

Fransada olarkən Əhməd bəyin C.Əfqani ilə görüşməsi onun yaradıcılığına öz təsirini göstərir. Ədəbiyyatşünas Bədirxan Əhmədov C. Əfqaninin gənc Əhmədin

dünyagörüşünün formalaşmasındakı rolu ilə bağlı yazır: *"Parisdə bir müddət bir yerdə yaşamaları həm də Əhməd bəyin düşüncələrini formalaşdırmış olur və onun sonrakı fəaliyyətində C.Əfqaninin layiqli davamçısı olduğu görünür"* [27, s.90]. Məhz bu səbəbdən də 1892-ci ildə təhsilini başa vurub vətənə dönərkən İstanbulda C.Əfqani ilə bir daha görüşmüşdü. C.Əfqani bu zaman şərqin böyük fikir adamlarından biri kimi İstanbulda qərar tutmuşdu. Onun dünyagörüşündə tərəqqi və müasirləşmə ilə yanaşı, islamı inkişaf etdirmək kimi missiya mühüm yer tuturdu. Yaradıcılığı yalnız Ə. Ağaoğlunun deyil, ümumiyyətlə Azərbaycanın bir çox görkəmli fikir adamlarının (C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ə.Cavad, Ə.Hüseynzadə və b.) da dünyagörüşünə əsaslı təsir göstərmişdi. M.E.Erişirgil onların İstanbuldakı görüşü barədə yazır: *"Ailəsinə dayaq olmaq məqsədilə Vətənə qayıdan Ağaoğlu yolüstü bir neçə gün İstanbulda qalıb Türkiyənin Parisdən tanıdığı məşhur adamları ilə görüşür. Parisli tanışları arasında ən görkəmli şəxsiyyətlərdən olan Cəmaləddin Əfqani də o zaman İstanbulda idi. Onunla Parisdə "həftələrlə bərabər qalmışdılar"* [124, s.33].

Fransa həyatı Ə. Ağaoğluna yalnız təhsil, elm və bilik vermir, həm də onun yenilikçi, qərbçi dünyagörüşünü formalaşdırır. O, burada fransız alimləri ilə yaxından dostlaşmaqla yanaşı, həm də gələcək həyatında mühüm rol oynayan ittihadçılarla tanışlığı baş verir. Məlumdur ki, bu zaman Parisdə türkcə-fransızca "Məşrutiyyət" adlı qəzet də nəşr edilirdi. Qəzetin redaktoru Əhməd Rza bəylə (1859-1930) tanışlığı onun sonralar ittihadçılarla yaxınlaşmasına və bir partiyada fəaliyyətinə əsas olmuşdur. Əhməd Rza bəy "İttihad və tərəqqi" partiyasının liderlərindən biri olaraq sonralar Türkiyə Böyük Millət məclisinin üzvü kimi fəaliyyət göstərmişdi. Onun Parisdə Əhməd Rza bəylə tanışlığı sonralar bu partiya ilə sıx əməkdaşlığa çevrilir. Onu da qeyd etmək lazımdır ki, Ə.Ağaoğlu Parisdə olduğu zaman Gənc türklər burda geniş fəaliyyət göstərirdi. Bu fəaliyyət istər-istəməz onun da yaradıcılığına öz təsirini göstərmişdir. Maraqlıdır ki, o, yaradıcılığının ilk illərində İran və Şərqlə, din, islam aləmi ilə daha çox maraqlanırdısa da, bir müddət keçmiş Türkiyə və türkçülük mövzusuna marağı artır. Əslində, Ə.Ağaoğlunun Azərbaycandakı publisistik

fəaliyyətində milli məsələyə diqqət daha da artmışdı. Başqa sözlə, Türkiyəyə getməzdən əvvəl artıq o, burada gedən proseslərlə yaxından maraqlanır, müsəlman, Şərq aləmi və türkçülük mövzusunda silsilə yazılar yazırdı. XX əsrin əvvəllərində onun Türkiyə və burada baş verən proseslərlə bağlı məqalələri daha geniş yer tuturdu. Bu məqalələrdə hadisələr əsasən Şərq-Qərb kontekstində təhlil edilir, müqayisələr aparılırdı. Bu məqalələrdən biri Osmanlıda baş verən proseslərə həsr olunmuşdu. "Kaspi" qəzetinin 1903-cü il 21 noyabrında dərc edilmiş "Tərəqqipərvərlər, yaxud gənc türklər" məqaləsində Avropanın təzyiqi altında sarsılmış, çaşıb qalmış müsəlman aləminin düşdüyü vəziyyət təhlil edilirdi [14]. Məsələ burasındadır ki, bu zaman ümumiyyətlə, mövcud ictimai-siyasi vəziyyətlə bağlı mətbuatda çoxlu təhlillər aparılırdı. Bu təhlillər içərisində iki bir-birinə zidd cərəyan əsas yer tuturdu. Bunlardan biri, bütün fəlakətlərin səbəbi kimi müsəlmanların geriliyi, onların dininin həyat uğrunda mübarizəyə yararsız olması, digəri isə, müsəlmanların köhnə adət-ənələrindən üz çevirməsi, uzaqlaşması idi. Birincilər Avropa təsisatlarına hədsiz dərəcədə inanır, ikincilər isə, keçmişə sayğısızlıq və sərbəst düşüncəyə qarşı çıxırdılar. Ə.Ağaoğlu isə bu cərəyanların ümumi yaxınlıq nöqtəsini axtarmağa çalışırdı. Şərqli gənclərin Avropaya XIX əsrin əvvəllərində başlanan axınının da məhz bu səbəblərdən irəli gəldiyini düşünürdü. Yüksək məmur və ticarət təbəqələrinin nümayəndələri olan bu gənclərin, "yeni müsəlmanlar"ın bir qismi Avropa aludəçiliyinə qapılmışdı. Türkiyədə də bu hərəkat tezliklə özünü göstərmişdi. Ə.Ağaoğlu bu baxımdan Türkiyədə "Gənc türklər"in siyasi proseslərdəki çəkisi haqqında yazırdı: *"Yeni müsəlmanlar"ın bir qismi həmişəlik siyasətə qurşandı və "Gənc türklər" adı ilə siyasi partiyaya çevrildi. Aralarında bir çox yüksək istedad sahiblərinin olduğu "Gənc türklər"in bu qisminin bütün qüvvə və enerjisi mövcud rejimə qarşı siyasi mübarizəyə həsr olunur. Onların idealları Midhət Paşa konstitusiyasını bərpa etməkdən, xalq qarşısında məsuliyyət hiss edən hakimiyyət yaratmaq və federativ dövlətin əsasını qoymaqdan ibarət idi"* [1, s.21].

Azərbaycanda baş verən hadisələrin, ictimai-siyasi proseslərin özünü də Ə.Ağaoğlunu Türkiyə mühitinə salan səbəblərdən biri kimi qiymətləndirmək olar.

Belə ki, 1905-ci ildə Qafqazda baş verən erməni-azərbaycanlı qarşıdırması hadisələri yeni müstəviyə gətirdi. Ə.Ağaoğlu, Ə.Hüseynzadə ilə birlikdə mühərriri olduğu "Həyat" qəzetində xalqı ictimai-siyasi proseslərə hazırlamaq məqsədilə məqalələr yazırdı. Lakin ermənilərin Qafqazda azərbaycanlılara qarşı törətdikləri terror onu bu proseslərin içinə atdı. Çar Rusiyası siyasətini Qafqazda həyata keçirən ermənilərin silahsız dinc əhaliyə qarşı törətdiyi terror hadisələri ilə bağlı hakim dairələr heç bir tədbir görmürdü. Tiflisdə keçirilən "sülh" danışıqlarının birində Ə.Ağaoğlu Qafqaz canişininə xəbərdarlıq edərək ermənilərin bu terrorunun qarşısının alınmasını irəli sürdü. M.S.Ordubadinin "Qanlı illər" kitabında yazdığına görə, Ə.Ağaoğlu Qafqazda bu cür vəziyyətin belə davam etməyəcəyilə bağlı sülh danışıqlarına Qafqaz canişini və ermənilərini nə qədər Qafqazda belə terror dəstələri hökm edərsə, asayiş və təhlükəsizlik bərpa olunmayacağı haqqında xəbərdar etmişdi [56, s.29]. O, sülh danışıqlarında səmimi olmağı onlara tövsiyə etmişdi.

Fikirlərini davam etdirən Ə.Ağaoğlu Qafqaz canişini Vorontsov-Daşkov qarşısında tələb qoyur: *"İndi ki belədir, indi ki, bir müsəlləh partiya on beş ildən bəridir təşkil olunub* (söhbət "Daşnaksütun" partiyasının yaranmasından və Qafqazda terror aktları törətməsindən gedir-M. K.) *və hökumət adamları bunu bilib də nəinki əlac etməyir, bəlkə onlarla həməqidədirlər, bizim istər hökumətdən, istərsə də ermənilərdən belə bir partiyanın aradan götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı etməliyik. Bizim də gərək mükəmməl və müsəlləh partiyalarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə..."*[56, s.29-30].

Lakin Ə.Ağaoğlunun Tiflisdə Qafqaz canişininin iştirak etdiyi yığıncaqdakı bu ultimativ xəbərdarlığından da bir nəticə çıxmır; 1906-cı ilin əvvəlindən başlayaraq ermənilərin terroru Şuşada, Qarabağda, Naxçıvanda, İrəvanda artan xətlə davam edir. Bu məqamda rusların müdafiə etdiyi ermənilərin qarşısını ala biləcək bir siyasi antiterror təşkilatının yaradılmasına ehtiyacın yarandığı məlum olur. Ədəbiyyatşünas Vilayət Quliyev "Son illərin yazıları" əsərində onun məhz bu zaman xalqın müdafiəçisinə çevrilməsi haqqında yazır: *"1905-ci ilə qədər daha çox "söz adamı"*

*kimi tanınan Əhməd bəy Ağaoğlu "zamanın dəyişdiyini", ermənilərin xəbis niyyətlərini artıq siyasi təşkilatlar və silahlı dəstələr vasitəsilə həyata keçirdiklərini görərək, adekvat qərar qəbul etdi. Qılıncla gələn qılıncdan ölməli idi. Quldurla onun öz dilində danışmaq lazımdır. Xalqı təşkil etmək, silahlandırmaq, ona şərəf və namusunu, evini və yurdunu əldə silah, qorumağı öyrətmək lazım idi. Bu işlərin öhdəsindən yalnız qəzetlərdə məqalələr yazmaqla gəlmək mümkün deyildi. Mütləq siyasi qurumlar yaratmaq, xalqı onların ətrafında toplamaq, birliyə nail olmaq tələb edilirdi"* [51, s.30]. Ə.Ağaoğlunun fəaliyyətini diqqətlə izlədikdə onun getdikcə bir söz adamından, qəzetçidən ictimai, siyasi arenaya atılan fikir adamı kimi görürük. Araşdırmalara görə, "Difai" təşkilatının yaradılmasının əsasını Ə. Ağaoğlu 1906-cı il fevralın 20-dən martın 6-dək Tiflisdə Vorontsov Daşkovun iştirakı ilə keçirilən sülh danışıqlarından sonra qoymuşdur [135].

Məhz bu hadisələrin məntiqi davamı olaraq Ə. Ağaoğlu əsas hərəkətverici və ideyadaşıyıcı nüvəsi olduğu "Difai" (Müdafiə) antiterror təşkilatını yaratmaq qərarına gəlir və bu istiqamətdə müəyyən işlər görür. Mirzəbala Məmmədzadə onun "Difai"dəki xidmətlərini nəzərdə tutaraq yazırdı: *"Azərbaycan heyəti ictimaiyyəsinin o zamankı düşünüş tərzinə tək müvafiq olan bu "müslümançılıq", daha doğrusu, islamçılıq, "islam millətçiliyinin ideoloqu Ağaoğlu Əhməd bəy idi"* [135,s.35]. Artıq bu dövrdə Ə. Ağaoğlu islam millətçiliyi ilə kifayətlənmir və siyasi proseslərə qoşulur. "Difai"nin yaradılması da buradan doğurdu. "Difai"nin əsasnaməsində onun Daşnaksütun partiyasına qarşı yaradıldığı aydın görünür. Burada qeyd olunurdu ki, düşmənin gücü onun "Daşnaksütun" partiyasının ətrafında birləşməsində ifadə olunmuşdur [51, s.34]. "Difai" təşkilatı erməni terrorunun qarşısını almaqla yanaşı, bu iki xalq arasında sülhü, əmin-amanlığı təmin etmək məqsədi də daşıyırdı. Əsasnamədə Düşnaksütun partiyası dinc əhaliyə qarşı hücuma keçərsə, ona layiqli cavab veriləcəyi də qeyd olunur*: "Daşnak partiyası əmin olsun ki, heç bir vaxt biz öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol verməri k"* [47] kimi xəbərdarlıq da edilirdi. "Difai"nin fəaliyyəti çox tezliklə öz bəhrəsini verdi, lakin onun fəaliyyətinin qarşısını almaq üçün ruslar və ermənilər

hərəkətə keçdilər. 1908-ci ilə qədər fəaliyyət göstərən təşkilat Azərbaycanda çar hakimiyyəti orqanlarının görməli işi gördüyündən bu hakimiyyətin mövcudluğunu da şübhə altına almış oldu. Ona görə də Qafqaz canişini 4 mart 1908-ci il tarixli fərmanında "Difai" partiyasının ləğv edilməsi haqqında sərəncam verdi. Bu planın həyata keçməsi üçün isə ilk növbədə Bakıdakı mərkəzi komitəsini ləğv etmək lazım gəlirdi. Mərkəzi komitənin sədri isə Əhməd bəy Ağayev idi. Buna görə də başda Ə.Ağayev olmaqla Mərkəzi komitə üzvlərini Qafqazdan çıxarmaq istənilirdi. Əsas hədəf isə Ə.Ağayev olduğundan onun redaktoru olduğu qəzetlər bağlandı, özü isə təqib olunmağa başladı. Onun milli məsələdə göstərdiyi son dərəcə prinsipiallıq düşmənlərini daha da çoxaltmışdı. Bütün bunlar onun cəmiyyətdən və mətbuatdan uzaqlaşdırılmasına səbəb olmuşdu. Hətta 1908-ci ildə Bakının Filarmoniya binasının yanında onu muzdla tutulmuş qoçulara döydürmək təşəbbüsündə də olmuşdular. Ə.Ağaoğlunun müasiri və yaxın dostlarından olan Yusif Akçura onun Türkiyəyə getməsini doğuran səbəblər içində "Difai" təşkilatındakı fəaliyyətini və yazılarını əsas götürürdü: *"Bu şəkildə çar hökumətinin şübhə və düşmənçiliyini çəkən Ağaoğlu Əhməd bəylə qəzeti "İrşad", ikidə bir hökumətin hücumuna məruz qalırdı: bəzən Əhməd bəyin evi axtarılır, bəzən mətbəəsi basılır, bəzən də qəzet bağlanırdı; ancaq daha öncə alınmış olan bir çox icazədən faydalanaraq bağlanmış qəzetin yerinə dərhal bir digəri çıxarılırdı"* [22, s.236].

Ə.Ağaoğlunun özünün bir tərcümeyi-halında Türkiyəyə getmə səbəbinin məhz təqib və irtica olduğunu aydın göstərir. Ədib nəşr olunmamış tərcümeyi-halında Türkiyəyə getməsini belə izah edirdi: *"Şiddətlə təqib edilənlər arasında idim. İş o dərəcəyə gəldi ki, artıq yalnız özümün deyil, ailəmin də rahatlıq və sakitliyi qaçırılmağa başlandı. 1908-ci ildə Türkiyədə inqilab olmuşdu. İş başına tanıdığım bəzi şəxslər gəlmişdi. Eyni zamanda Qafqaz ümumi valisi Varantsov-Daşkov mütləq məni tutmağa və sürgün etməyə qərar vermiş görünürdü. Bunu öyrənir-öyrənməz dərhal mən də qaçmağa qərar verdim və 1908-ci ilin sonuna doğru İstanbula qaçdım"* [51, s.237]. Bütün bunlar, Ə. Ağaoğlunun Türkiyəyə mühacirətə getməyə məcbur edən səbəblərdən idi.

Ə.Ağaoğlunun Türkiyəyə getməsinin, olsun ki, daha dərin səbəbləri vardır. Belə demək mümkünsə, Azərbaycanda bu dövrdə siyasi proseslər üzündən ilk Türkiyəyə üz tutan Ə. Ağaoğlunun olması heç də təsadüfi deyildi. Ondan bir qədər sonra isə başqa bir görkəmli ziyalımız Ə. Hüseynzadə Türkiyə yolunu tutacaq, buradakı siyasi proseslərdə Azərbaycan ziyalılarının çəkisini artıracaqdır. Bu, həm də Azərbaycan ziyalılarının Türkiyədə daha geniş meydan tapması anlamına gəlirdi. Araşdırmalarımız göstərir ki, Ə. Ağaoğlunun Türkiyə yolunu tutmasında iki amil başlıca rol oynamışdır. Bunlardan birincisi, onun türkçülük görüşlərinin getdikcə dərinləşməsi və Türkiyəni türk dünyasının xilaskarı kimi görməsi; ikincisi, Fransada olarkən tanıdığı Əhməd Rza və iki türk öyrəncilərinin (Bahəddin Şakir və Nazim bəy) Türkiyədəki siyasi proseslərdə "İttihad və Tərəqqi" partiyasının hakimiyyətə gəlməsi və onu Türkiyəyə dəvət etmələri olmuşdu. Əhməd Rza yaşlı, o birilər isə onun yaşıdıydı. Xüsusilə, Əhməd Rza ilə ilk görüşməsi onun üzərində ölənə qədər unutmadığı bir təsir buraxmışdı. Bunu Ə. Ağaoğlunun oğlu S. Ağaoğlu da təsdiq edir və atasının Kafkasiyadan Türkiyəyə gəlmə hekayəsini Parisdə oxuduğu illərdə, o zaman Fransada olan Əhməd Rza və iki türk tələbə gənci tanıması, daha sonra Məşrutiyyət dönəmində Osmanlı İmperatorluğunun son idarəçiləri arasında yer alacaq bu adamlarla bağlayır [104, s. 9]. Ə.Ağaoğlu çətin vaxtlarında onların təklifini qəbul edərək Türkiyəyə gedir: *"Parisdə tanıdığı bu üç insan atama Türkiyəyə gələrək bərabər işləməyi təklif edirlər. Aradan zaman keçir, təhsilini bitirərək Kafkasiyaya dönən atam orada bir yandan qəzet çıxararaq, bir yandan da açıq-gizli dərnəklər quraraq Türk və Islamların inkişafı hərəkatının öndərlərindən biri olur. Bu çalışmalar onun üçün çətin anlar yaşadır. Ruslar, ermənilər və mollalar arxasınca düşürlər. Yenə bu zamanlarda Türkiyədə məşrutiyyət inqilabı olur. Parisdəki dostlar indi İstanbulda ön safın adamları idi. Qısa bir məktublaşma olur. Atam Kafkasiyanı tərk edərək ana vətən saydığı, yer üzündə tək müstəqil türk-islam dövlətinin bayrağı altına gəlir"* [106, s.9-10].

Ə.Ağaoğlunun Türkiyəyə nə zaman gəlməsi ilə bağlı da müxtəlif fikirlər var; görkəmli publisist özü Türkiyəyə gəlişini 1908-ci ilin sonları olaraq göstərir.

Tədqiqatçı V. Quliyev isə xatirələrə dayanan bu tarixin doğru olmadığını qeyd edir: "O, İstanbula özünün yazdığı kimi, 1908-ci ilin sonlarında deyil, 1909-cu ilin ortalarında gəlmişdi. Bunu mühacirətə yola düşənə qədər redaktoru olduğu "Tərəqqi" redaksiyasına göndərdiyi 28 iyun 1909-cu il tarixli məktub da təsdiq edir. Həmin məktubda deyilirdi: *"Bu gün İstanbula azim oldum. Səfərimin nə qədər çəkəcəyini indidən təyin edə bilmərəm. Fəqət qarelərdən və ümumən, o kəslərdən ki, idarə ilə əlaqədar bulunurlar və yainki bulunmaq istəyirlər, təvəqqe edirəm ki, bəndə övdət edincəyə qədər əvəzimə müvəqqəti olaraq müdir təyin edilən Üzeyir bəy Hacıbəyov cənablarına müraciət etsin"* [49, s.17]. Əgər Ə.Ağaoğlu iyun ayında İstanbula gedibsə, onda 1908-ci ilin sonlarından iyuna qədər harada olub? Onun bu müddətdə Bakıda olması o demək idi ki, məqalələri çıxmalı, burada fəaliyyət göstərməli idi. Lakin bununla bağlı əlimizdə elə bir fakt yoxdur. Deməli, ola bilsin Bakıdan 1908-ci ilin sonlarında çıxan ədib bir müddət Gürcüstanda ləngidikdən sonra Batumidən dəniz yolu ilə İstanbula getmişdir.

Ə.Ağaoğlu Türkiyəyə getdikdən bir müddət sonra ailəsi də onun yanına köçür. Həyat yoldaşına yazdığı məktuba Sitarə xanım *"Sən harada olsan, mən də ordayam, uşaqları gətirirəm"* [109, s.68], - deyərək Türkiyəyə yola düşür. Qızı Sürəyya Ağaoğlu həmin günləri belə xatırlayırdı: *"...Batumda gəmiyə minməyimizi və Qalata limanına gəlməyimizi, izdiham içərisindən atamın bizə əl etdiyini gözlərim önünə gətirirəm. 1910-ci il idi...*

*Atam bizi köhnə pəncərəli barmaqlıqlı bir evə gətirdi. Bu tarixdən sonra mənim xatirələrim İstanbulda, Çaqaloğlunda Şərəf əfəndi küçəsindəki bu evlə başlanır"* [109, s.69].

Ə.Ağaoğlu Türkiyəyə gəldikdən dərhal sonra yeni cəmiyyətə tez uyğunlaşır, *"Dr. Nazim və Ahmet Rza Beyin yardımlarıyla özünə ev və iş axtaran Ağaoğlu məşrutiyyətin həyatı içərisində istəklərinə asanlıqla çata bilir"* [109, s.204]. Buna baxmayaraq, Osmanlının mürəkkəb, ziddiyyətli və hərəkətli ictimai-siyasi mühit olduğunu da qəbul etmək lazımdır. Bu zaman Osmanlıda böyük tarixi proseslər baş verirdi. Bir-birini əvəz edən siyasi proseslərdə türkçlük fəaliyyətini daha da

genişləndirir. Əvvəlcə "İslam məcmuəsi", "Sirati-müstəqim", "Hikmət", "Haqqa doğru", "Türk yurdu" qəzet və dərgilərində məqalələrlə çıxış edir. İstanbulda fransızca nəşr edilən "Le Jeune Turk" qəzetinə də yazılar yazan Ə. Ağaoğlu özünün qəzetini açmaq haqqında düşünür və ilk mətbuat orqanını "Tərcümani-həqiqət"i nəşr edir. Tezliklə azərbaycanlı mühacir burada baş verən ictimai-siyasi proseslərin mərkəzinə düşür. Onun evinə Türkiyənin gələcəyi üçün çalışan insanlar gəlirdi. Türkçülüyün elmi-nəzəri əsaslarını hazırlayan, Türkiyənin gələcəyini düşünən insanlar bu evə toplaşırdı. Qızı Sürəyya Ağaoğlu yazırdı: *"Türk ocağı"nın, "Türk yurdu"nun çalışmaları, dövrün siyasi və fikir inkişafı bizim evimizdə yaşanırdı. Bir yandan Ziya Göyalp, Hüseynzadə Əli bəy, Cəlal Sahir, Həmdullah Sübhi, Yusif Akçura, Fuad Köprülü, Abdullah Cövdət, göz həkimi Əsəd Paşa, Həlim Sabit, Ömər Naci bəy kimi yazıçı və türkçülər, Ənvər və Tələt paşalar, digər tərəfdən Seyid Tahir Əfəndi, Əbdürrəşid Əfəndi kimi din adamları tez-tez evimizə gəlirdilər. Bunların çoxu ilə də aramızda demək olar ki, ailəvi yaxınlıq vardı"* [107, s.141]. Səməd Ağaoğlu da onların evinə gedib gələn insanlar arasında Xalidə Ədib Adıvar, Həmdullah Sübhi Tanrıver, Ziya Göyalp, Mezihe Muhiddin, Ömər Naci, Şeyxülislam Xeyri Əfəndi, Yusuf Akçura, şair Məmməd Əmin Yurdaqul, Cəlal Sahir Erozan, Ömər Seyfəddin, Əli bəy Hüseynzadə, göz həkimi Əsəd Paşa, Halim Sabit, Abdullah Cövdət və başqalarının adını çəkir [106, s.31].

Sürəyya Ağaoğlu ilə Səməd Ağaoğlunun siyahısı, demək olar ki, üst-üstə düşür. Burada adları çəkilən fikir adamlarının çoxlarının xatirələrində Ağaoğluların fikirləri təsdiq olunur. Məhz bu cür görüşlərdə türkçülük ideyaları formalaşır, gələcək Türkiyə cəmiyyətinin konturları cızılırdı. "Türk ocağı" və "Türk yurdu"nun yaranması da bu proseslərin nəticəsi idi. 1911-ci ildə türkçülük ideyalarını yayan təşkilatlardan birini "Türk yurdu cəmiyyəti", "Türk yurdu" dərgisi, "Türk ocağı"nı quranlardan biri də Ə. Ağaoğlu idi. "Türk ocağı"nın qurucuları sırasında Ə.Ağaoğlu ilə birgə Məmməd Əmin Yurdaqul, Əhməd Fərid bəy, doktor Suat Sabit bəy də təmsil olunurdu. İlk toplantıda təşkilatın nizamnaməsi də qəbul edilmişdi. *"Hətta Türk ocaqları ilk quruluş toplantısını onun evində keçirmişdir"* [148, s.14-15].

"Türk ocağı"nın toplantıları çox canlı keçirdi. Sürəyya Ağaoğlunun yazdığına görə *"gecə toplantılarına ailəlikcə gedər, atəşin və yüksək mədəniyyətli natiqləri" dinləyərdilər* [37, s.142]. Ə. Ağaoğlunun ilk dəfə Bəkirağa bölüyündə üç ay boyunca həbsi də məhz bu qızğın ictimai-siyasi fəaliyyəti dövrünə düşür. Onun həbsi ilə bağlı qızı S. Ağaoğlu atasının *"Türkiyəyə gəldiyimizin ikinci ili ilk dəfə həbs olunduğunu" qeyd edir və bu həbsin bir həftə-on gün çəkdiyini yazır* [107, s.141].

Ə. Ağaoğlunun Türkiyəyə getmə səbəblərindən biri də getdikcə siyasi proseslərə tərəf istiqamətlənməsi olmuşdur. Azərbaycandakı fəaliyyətinin ilk illərində daha çox ədəbi, mədəni, dini fəaliyyət əsas yer tutsa da, son illərində artıq siyasi həyata, proseslərə qoşulmuşdu; ermənilərlə Tiflisdəki sülh danışıqlarında fəal iştirakı, "Difai" partiyasının yaradılmasındakı və fəaliyyətindəki rolu onu getdikcə siyasət meydanına atılmasına səbəb olmuşdu. Heç şübhəsiz, əgər Ə. Ağaoğlu Azərbaycanda qalsaydı, Cümhuriyyət öncəsi və Cümhuriyyət dövründə ən önəmli şəxslərdən biri olacaqdı. Fikrimizcə, Türkiyəyə getməsinin əsas səbəbi də məhz Azərbaycanda siyasətlə məşğul ola bilməməsi və özünün fəaliyyətini daha geniş bir arenaya çıxarmaq istəyi idi. Ə. Ağaoğlu Türkiyədə daha geniş ictimai-siyasi bir mühitə düşür, yaradıcılığı genişləndiyi kimi, ictimai-siyasi fəaliyyəti əhatəli bir yer tutur. Yəni əsrin əvvəllərində Osmanlıda baş verən proseslər dünyanın diqqət mərkəzində olduğundan, fəaliyyət diapazonu çox əhatəli idi. Buna görə də, demək olar ki, Ə. Ağaoğlunun parlaq fəaliyyəti yaradıcılığının məhz Türkiyə mərhələsinə düşür. Əlbəttə, demək olmaz ki, Ə. Ağaoğlu Azərbaycanda qalsa idi yaradıcılığı bu şəkildə geniş və hərtərəfli olmayacaqdı. Çünki Ə. Ağaoğlunun Azərbaycanda Cümhuriyyətin ilk millət vəkili olması və o dönəmdə siyasi hadisələrin mərkəzində durması onun Azərbaycanda da hərəkətli bir fəaliyyətə malik olacağından xəbər verirdi. Sadəcə olaraq, Ə. Ağaoğlunun Türkiyədə fəaliyyət meydanı genişlənir və dünyada gedən siyasi proseslərin mərkəzinə düşür. Bu pəncərədən baxdıqda Ə. Ağaoğlunun Türkiyəyə gəlişində daha çox islam problemi ilə məşğul olduğunu görürük. Məsələ burasındadır ki, islam məsələsi ilə o, hələ Fransada olarkən məşğul olmuş, bu mövzuda müəyyən əsərlər yazmışdı. Hələ tələbə ikən İngiltərədə iştirak etdiyi ilk

konfransda da "Şiə dinində məzdəkçi inanclar" [17] mövzusunda çıxış etmişdi. Bakıda dərc etdirdiyi "İslam və Axund" (1900), "İslama görə və islam aləmində qadın" (1901) kitabları, qəzetdə dərc etdirdiyi onlarla yazılarında islamın müxtəlif problemlərilə məşğul olur. Osmanlıya getdikdən sonrada yaradıcılığında bir müddət islam problemi xüsusi yer tutur. İlk vaxtlarda məqalələrini "Tərcümani müstəqim", "Sirati müstəqim" və "Sebilürreşad" kimi islami dərgilərdə dərc etdirməyə üstünlük verirdi."İki qüvvət arasında" [114], "Aləmi islam və siyasiyyatı ümumiyyə: bizim təqib edəcəyimiz məslək"[111], "Alemi islam: Türkiyədə mühacirət" [109], "Türkiyədə mühacirət məsələsi", "Aləmi islam:vəziyyəti siyasiyyeyi-hazırımız" [110], "Tərbiyeyi-milliyyə" [116] və s. onlarla məqalələrində islami problemləri qabardırdı. Lakin zaman keçdikcə Ə. Ağaoğlunun mövzuları da dəyişir, yavaş-yavaş yön dəyişdirərək milliyyətçi və türkçülük istiqamətinə meyillənir. Bu da başa düşülən idi; ona görə ki, Ə. Ağaoğlu Osmanlıda olarkən siyasi, hərbi hadisələrin tez-tez dəyişməsi, Osmanlının düşdüyü vəziyyət və s. bu proseslərə və cəmiyyətdə gedən tendensiyalara münasibət bildirməyi tələb edirdi. Əgər, ilk getdiyində o, Orta Avropa ölkələrində fəaliyyət göstərən Rusiyalı Müsəlman Türk-Tatarların Haqlarını Müdafiə Komitəsinin üzvü idisə, bir qədər sonra İttihad və Tərəqqinin sıralarında yer alaraq partiya adından çıxış etmiş və fəaliyyət göstərmişdir. İstanbul Darülfünunun ədəbiyyat fakultəsində yeni açılan türk Mədəniyyəti tarixi kafedrasının müdiri olması və burada türk-moğol tarixindən dərs verməsi onun fəaliyyət istiqamətinin dəyişməsində önəmli rol oynayır. Bu dönəmdə artıq onun "Sirati müstəqim" və "Sebilürreşad" kimi dərgilərdən daha çox, diplomatik çevrələrə yönəlik çalışma sferasına daxil olur və bu çevrələrə yaxın fransızca "Hilal" və "Le Jeune Turc" qəzetlərində məqalələrlə çıxış edir. Bundan sonra Ə. Ağaoğlunun yazdığı məqalələr daha çox partiyanın xətti ilə uzlaşırdı. Bu məqalələrində Ə. Ağaoğlu siyasi düşüncəsini ortaya qoymaqla yanaşı, ittihadçılıq adından çıxış edir və fransız mətbuatına, eləcə də Fransanın siyasi təzyiqlərinə, hücumlarına cavab verirdi. "Aləmi islam: vaziyəti-siyasiyeyi hazırımız" adlı məqaləsində Fransanın mədəniyyət nüfuzunun Osmanlılığa, xüsusilə də islam kimliyinə zidd olduğunu" bildirir və

*"Tənzimatçı qərbçiliyin siyasi və mənəvi kimliyin itirilməsinə gətirib çıxarmasına yol açdığı"* [110] qənaətinə gəlirdi. Eyni zamanda, milli mücadilə dönəmində də siyasi partiya quruculuğunda yaxından iştirak edir. Ə.Ağaoğlunun getdikcə türkçülüyə meyil etməsinin bir səbəbi də İttihad və Tərəqqi partiyasının üzvü olması və Türkiyədə gedən proseslərdə yaxından iştirakıdır. Özcan Ufuk bunu nəzərdə tutaraq yazır: *"Həqiqətən Ağaoğlu imperatorluğun koşullarının dəyişməsi və İttihadçılarla bağlarının gəlişməsi ölçüsündə pantürkist hərəkət içində etkin bir rol qazana bilmişdir. Onun fəaliyyəti ideolojik bir missiyanın gerçəkləşdirilməsindən daha çox, dövlət xidmətlərinin yerinə yetirilməsilə bağlıdır"* [138, s.80].

U.Özcanın Ə.Ağaoğlunun bu fəaliyyətini İttihadçılar ideologiyası kontekstində dəyərləndirməsinəbütünlüklə haqq qazandırmaq olmaz, bu fikrin yalnız bir qismi ilə razılaşmaq mümkündür. Belə ki, Ə. Ağaoğlu fəaliyyətində həmişə düzgün mövqe tutmağa çalışmışdır. Biz onu Bakıda da müstəqil hərəkət edən, ideoloji mövzulara meyli olan bir publisist kimi görürük. Doğrudur, Bakıdakı fəaliyyəti, əsasən, milli burjuaziyanın mətbuat orqanlarında olmuşdu, buna baxmayaraq, onun məqalələri tamamilə ideoloji yöndə idi və cəmiyyətin çıxarıları üçün yazılırdı. Osmanlıya ilk getdiyində, xüsusilə məşritiyyət illərində isə Ə. Ağaoğlu müxtəlif dövlət vəzifələrində olduğundan, istər-istəməz, rəsmi vəzifənin təsirindən çıxa bilməmiş, yazıları və fəaliyyəti də bu istiqamətdə olmuşdur. Əvvəlcə Maarif Nəzarəti müfəttişliyində, daha sonra isə İstanbul Darülfünunda dərs verməsi, İttihad və Tərəqqi partiyasının sıralarında parlament fəaliyyəti onun türkçü istiqamətini müəyyənləşdirmişdir. Ancaq istər həmin illərdə, itərsə də sonrakı proseslərdə biz Ə. Ağaoğlunun yazılarında cəmiyyəti daim məşğul edən problemlər haqqında problematik məqalələr müəllifi kimi tanıyırıq. Müxtəlif vəzifələrdə işləməsi ona bir publisist olaraq gündəmi məşğul edən yazılar yazmasına mane ola bilməmişdir.

İttihadçılarla yaxınlığı və onları dəstəkləməsi Ə.Ağaoğlunun sonrakı siyasi karyerasına öz təsirini göstərmişdir. Siyasi düşüncəsi, çoxlu dil bilməsi, fəaliyyətindəki məqsədyönlülük və s. onu tezliklə İttihad və Tərəqqi Cəmiyyətinin əsas mərkəz üzvlüyünə gətirib çıxarır və Afyon-Karahisardan Osmanlı parlamentinə

millət vəkili seçilir. Özcan Ufukun bunu *"türkçülüyün siyasi düzeyində mənimsənilməsinin və parlamentdə türkçü ünsürlərin daha təsirli olmalarına"* [138, s.82] bağlaması tamamilə doğrudur. Bu illərdə, doğrudan da, həm Ə. Ağaoğlu, həm də Rusiyadan gələn digər türklər (Y. Akçura, qismən də Ə. Hüseynzadə) türkçülük istiqamətində məqsədyönlü şəkildə çalışırdılar. Şübhəsiz, burada Balkan savaşları öncəsində Osmanlıda qurulan ilk türkçü dərnəklərin ("Türk dərnəyi", "Türk bilgi dərnəyi" və s.) də rolunu unutmaq olmaz. Doğrudur, bu dərnəklər yaranarkən maarifçilik istiqaməti əsas götürülmüşdü, yəni siyasi dərnək kimi nəzərdə tutulmamışdı. Elə dərnəyin nizamnaməsində də onun hər hansı bir siyasi tələbdə bulunmadığı, siyasətdən uzaq olduğu deyilir, məqsədlərinin arxeoloji, tarix, dilçilik, ədəbiyyat, etnoloji, sosioloji və coğrafiya kimi akademik çalışmalar olduğu göstərilirdi. Dərnəkdə bir araya gələnlər də siyasətdən uzaq olduqları, sadəcə elmi araşdırmalar aparacaqlarını qeyd edirdilər. Görünür, mövcud siyasi şərtlər bunu diqtə edirdi ya da bu cür yazmaqla özlərini sığorta edirdilər. Ancaq sonrakı siyasi hadisələr bunun tamamilə əksini göstərir. Belə ki, bu dərnəyin qurucu üzvləri Yusif Akçura, Ziya Göyalp, Nəcib Asim, Vələd Çələbi, Bursalı Mehmet Tahir kimi Ə. Ağaoğlu da siyasi proseslərdə önəmli rol oynayır. Elə buna görə də tədqiqatçı J. Landau belə bir qənaətə gəlir ki, bu illərdə türkçülük yönətim çevrələrdə alternativ bir siyasi tərcih olaraq mənimsənmiş deyildir. Buna qarşılıq Türk dərnəyi mədəni pantürkist bir örgüt olaraq görülmüş, üzvləri də pantürkist olaraq qiymətəndirilmişdir [157, s.389].

"Türk dərnəyi"ndən sonra eyni məqsədlə yaradılmış "Türk bilgi dərnəyi"ndə (1914) də Ə. Ağaoğlu qurucular arasında yer almış və fəlsəfə, ictimaiyyət və türkiyyat şöbələrinin üzvü olmuşdur. Burada "Şahnamə"yə görə Turanilər" mövzusunda məruzə etmişdir. "Türk ocağı" dərnəyində və "Türk yurdu" dərgisindəki çalışmaları da eyni məqsədə xidmət edirdi. Bu dərnəklərdə akademik çalışmalar nəzərdə tutulsa da, gedən siyasi proseslər və onların qurucularının həm də siyasi adamlar olması, əslində yaxında qurulacaq bir Cümhuriyyət kadrlarının formalaşmasında əhəmiyyətli rola malik olur.

Ə. Ağaoğlu "Türk yurdu"nun ilk saylarından başlayaraq məqalələrlə çıxış etmiş və bu məqalələrində türkçülük görüşlərini ifadə etmişdir. Buna qədərki məqalələrində isə onun yaradıcılığında islam və islamçılıqla bağlı mövzular çoxluq təşkil edirdi. Bunu Osmanlının Balkan məğlubiyyətinə bağlayan Ö. Ufukun yazdığına görə *"Ağaoğlunun türkçü görüşləri "Türk yurdu" dərgisində müəyyənləşməyə başlamışdır"* [138, s.91]. Doğrudur, bu zamandan başlayaraq Ə. Ağaoğlunun yaradıcılığında və fəaliyyətində türkçülük önə keçir, ancaq islamçılıq da yaddan çıxmır. Daha doğrusu, Türkçülük və İslamçılıq onun sonrakı yaradıcılığının prioritet istiqamətlərini təşkil edir. İslamçılıqla bağlı yazılarına türkçü tərəfdarlar da ciddiyyətlə yanaşırdı. Görünür, buna görə də Əli Əmiri Əfəndinin başçılığı ilə yaranmış "Asari İslamiyyə və Milliyyə Tədqiq Əncüməni" dərnəyinin üzvlüyündə Ziya Göyalp, Fuad Köprülü ilə birlikdə Ə. Ağaoğlu da yer almışdı.

Məşrutə illərində Ə. Ağaoğlu siyasi gündəmlə bağlı polemik fikirlərilə diqqət çəkmişdir. Onun Osmanlıçılıq tərəfdarı Süleyman Nazif və İslamçılıq tərəfdarı Ahmet Naimlə mübahisələri Osmanlının siyasi gündəmini bir müddət məşğul etmişdir. "Cevaba Cevab" [113], "Hüseyin Cahit beye Cevabım" [82], "Ahmet Cevdet Beye Cevaplarım "[72] və s. məqalələrində Osmanlıçılıq siyasətinə qarşı çıxdığı halda, türkçülük və islamçılığı təbliğ edirdi. O, türkçülüyün İslamçılıqla ziddiyyət təşkil etmədiyini və kəsişmədiyini önə sürür və türkçülüyü ancaq islami motivlərlə birgə qəbul edirdi. Doğrudur, Ə. Ağaoğlunun islamı islahatçı bir islam idi və dinin bəzi ənənəvi ünsürlərini cilalamağı üstün tuturdu. Süleyman Nazif isə yalnız Ə. Ağaoğlunu deyil, bütün türkçüləri hədəf alaraq onların türk tarixinin ən qədim örnəklərinə istinad etmələrini kəskin tənqid edirdi. Onun fikrincə, Osmanlı tarixi və peyğəmbər dönəmi İslamiyyəti haqqında məlumatlanmaq yetərlidir. Osmanlıdan əvvəlki türk tarixinin önə çəkilməsi və ucaldılmasını geriyə dönüşün bir ifadəsi olaraq qiymətləndirirdi. Bu baxımdan Süleyman Nazif türkçüləri bir tərəfdən qəbiləçilik və dinsizliklə, digər tərəfdən isə geridə qalmaqda günahlandırırdı. [143]. Bununla S. Nazif bəy əslində kosmopolit Osmanlılıq ideyasını önə sürür, Osmanlı

dövlətinin quruluş dönəmini gündəmə gətirir və bu dövləti Səlcuqlu türklərindən çox yerli xristian ünsürə (Bizans) dayandığını müdafiə etmiş olurdu.

Ə. Ağaoğlu isə Süleyman Nazif bəyin fikirlərinə qarşı iki tezis qoyurdu; ona görə islamiyyət milliyyətə (kavmiyyət) qarşı deyil və bunları bir-birinə qarşı qoymaq olmaz. İslam dininin qurulması mərhələsində son verdiyi və yenidən ortaya çıxmasına əngəl olan şey isə milliyyət deyil, köçəbə əşirət düzənidir [114]. Əslində Ə. Ağaoğlu ilə Süleyman Naim Əfəndinin bu mübahisəsi 30 ildən çox yol gələn yeni siyasi və dövlət düşüncəsinin formalaşması üzərindədir. Belə ki, hələ XIX yüzilin 70-ci illərində Osmanlıçılıq və milliyyətçilik anlayışları və Osmanlının gələcək siyasi istiqamətlərilə bağlı müəyyən mübahisələr otuz ildən çox idi ki, yol gəlirdi. Əli Süavinin bu istiqamətdə çoxlu çalışmaları olmuşdu. Əsrin başlanğıcında isə Y. Akçuranın "Üç tərzi siyasət" əsəri meydana gəlmişdi ki, bu əsərdə Osmanlı dövlətinin gələcək siyasi statusu müəyyənləşdirilirdi [118]. Bu mübahisələri də onun davamı hesab etmək olardı. Mübahisəyə səbəb isə Y. Akçuranın "Türk yurdu" dərgisində dərc edilən "Cengiz" adlı seriya məqalələri olmuşdu. Bundan sonra islamçılar Y. Akçuranı özlərinə hədəf seçmişdilər. Süleyman Nazif Y. Akçuraya qarşı "Cengiz Hastalığı" məqaləsini yazmışdır [143]. Lakin Y. Akçura islamçılara cavab verməkdən çəkinmişdir. Ziya Göyalp isə tənqidlərdən duyduğu narazılığından dolayı mübahisələrə girişməmiş və müdaxilə etməmişdir. Əslində islamçılıqla türkçülüyü bir arada yaradıcılığında həmişə yaşadan Ə. Ağaoğlu bu zaman səhnəyə çıxmış və türkçüləri müdafiə etmişdir. S. Naim Əfəndi bu zaman "Ahmet Ağayef Beyefendiye cevap" məqaləsi ilə çıxış etmişdir [142]. Əslində isə, Ə. Ağaoğlu türkçüləri müdafiəsi ilə islamçıları ittiham etmirdi, bəlkə də türkçülüklə islamçılığı bir arada uzlaşdırırmağa çalışırdı. Bu zaman Ə. Ağaoğlu məqalələrində islamda islahatlar edilməsi fikrini müdafiə edir,bütün dünyada islam reformatoru kimi tanınan Cəmaləddin Əfqaninin fikirlərinə söykənirdi. Maraqlıdır ki, Ə. Ağaoğlu C. Əfqanini islamçı görüşlərindən daha çox milliyyətçi yöndən tanıtmağa çalışırdı. "Cemaleddin Afgani "Vahdeti Cinsiye (İrkiye) Felsefesi məqaləsində [112] cəmiyyəti bir-birinə bağlayan iki önəmli faktordan danışır. Bunlardan biri dil birliyi (irq), digəri isə din

birliyidir. Müəllif qan və dil birliyinin din birliyinə nisbətən daha sürəklilik göstərdiyini, dünyəvi işlərdə milliyyət birliyinin din bağlılığından daha üstün olduğu qənaətinə gəlirdi [113].

Ə. Ağaoğlunun Türkiyə siyasi həyatında son dərəcə yaxından iştirakı və proseslərin içində olması onun Maltaya sürgünü ilə nəticələnir. Ə. Ağaoğlu da daxil olmaqla 61 nəfər sürgün həyatı yaşayanların əksəriyyəti İttihad və Tərəqqi partiyasının rəhbərləri, üzvləri, yaxud onlara yaxınlıqları ilə tanınan görkəmli fikir adamları idi. Məlumdur ki, 1919-cu ildə Maltaya sürgün edilərkən Ə. Ağaoğlunun üzərində onun haqqında ingilis generalı Tomsonun Parisdəki ingilis əskəri atteşesinə yazdığı bir tövsiyə məktubu və Azərbaycan Cümhuriyyətinin diplomatik pasportu var idi. Buna baxmayaraq İstanbulda həbs edilmiş və ittihadçılarla birlikdə Maltaya göndərilmişdi. Onun ingilislər tərəfindən Maltaya sürgün edilməsinə səbəb kimi Alman dəstəkli "Tərcümanı Həqiqət" qəzetində "Erməni qırğınını təşviqedici yazılar yazması" da var idi. Doğrudur, Ə. Ağaoğlunun həmin qəzetdə yazıları dərc edilirdi, ancaq bu yazılarında erməni qırğınına təşviq belə yox idi. Görünür, Almaniyanı dəstəkləyən bir mətbuat orqanında yazılar yazması ingilisləri razı salmamışdır. Bunun başqa bir səbəbi də Ə. Ağaoğlunun Paris Sülh konfransında Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istəyinin ermənilərin işinə yaramaması ola bilərdi. Yoxsa İstanbulda erməni qırğınının baş verməməsinin əsas adamı kimi Ə. Ağaoğlunun şərəfinə İstanbulun "Çırağan" restoranında qonaqlıq verən ermənilər nədən onu "erməni qırğınını təşviq edən" adam kimi qələmə vermişlər. Ə. Ağaoğlunun sürgünə göndərilməsinin başqa səbəbləri də yox deyildi. Onun haqqındakı ingilis sənədlərində həbsi ilə bağlı "Musəvi kökənli bir tatar" olduğu, gənclik illərində "çarlığa bağlı Oxrana adlı polis örgütündə provakator" olaraq çalışdığı, ermənilərə qarşı yürüdülən şiddət hərəkətlərindən məsuliyyət daşıdığı, rus yönətimincə "panislamizm propaqandaçılığı" ilə suçlandığı, islamlığa xidmətlərindən dolayı" Osmanlı vətəndaşlığına qəbul edildiyi və bolşevik çalışmaları üçün 1919-cu ilin martında Qafqaza gətirildiyi, 25 milyon rublun bir bölümünün ona verildiyi bildirilirdi [144, s.70].

Əlbəttə, bu ittihamlarda haqsızlıq çox olduğu kimi, Ə. Ağaoğluya aid olmayan məqamlar da vardır. Xüsusilə, ermənilərə yönəlik yazılarında qırğına təşviq etmək ittihamları Ə. Ağaoğlunun yaradıcılığına və xarakterinə uyğun gəlmirdi. Onun həbs olunmasının gerçək nədəni öndə gələn İttihadçılar arasında ingilis əleyinə kadroların önündə yer alması, Almaniya tərəfdarı olması və bu mövzuda xüsusilə yazılarının təhlükəli hesab edilməsi idi. Buna görə də Ufuk Özcan belə bir qənaətə gəlirdi ki: *"Hər nə qədər Ağaoğlu bu cür ittihamları qəbul etməsə də, onun Maltaya sürülməsinin səbəbini məşrutiyyət illərindəki siyasi faəliyyətlərində axtarmaq ən doğrusudur"* [138, s.136].

Ə. Ağaoğlu fəaliyyətinin bütün mərhələlərində olduğu kimi, Maltada da mübarizəsindən qalmır, siyasi düşüncələrini, etirazlarını davam etdirirdi. Xüsusilə, bu mərhələdə Maltada ingilis rəsmilərinə qarşı qorxmadan, son dərəcə açıq və sistemli şəkildə, təkzibolunmaz arqumentlərlə mübarizə aparan ikinci bir adam yoxdur. O, burada ingilis yaşam tərzini və cəmiyyət modelini müdafiə etməklə yanaşı, onları tənqid etməkdən də çəkinmir, Böyük Britaniya qüvvələrinin özbaşınalığına qarşı özünün kəskin etirazını dönə-dönə yazılı şəkildə bildirmişdir. Tədqiqatçı Bilal Şimşir onun ingilislərə qarşı bu cür kəskin hərəkətlərini nəzərdə tutaraq yazır: *"Ağaoğlu lütf deyil, haqq arayır və ingilislərin ikiüzlülüyünü irəli sürürdü. İngilislər açıqdan-açığa bu sərt adamla mübahisəyə girişmişdilər. Haqqında gizlindən-gizlinə saxta qovluq hazırlamağa başlamışdılar"* [144, s.29]. Ə. Ağaoğlu həbs olunması ilə bağlı ingilislərin haqsızlığını sürgün boyu sübut etməyə çalışmışdır. Özünün azad olunmağa haqqı olduğunu dönə-dönə irəli sürərək bu tələblə ingilis rəsmilərinə (Lordlar palatası, ədliyyə naziri və b.) məktub yazaraq ədalət tələbində: *"Lütf, ya da əfv istəmirəm. Ədalət istəyirəm. Bir məhkəmə önünə çıxarılmağımı və bu məhkəmənin qərarına boyun əyməyi öncədən qəbul edirəm. İngilislər dünya miqyasındakı gücləri ilə mənim kimi bir çox müdafiəsiz insanları əzə bilərlər. Lakin bu İngiltərənin şöhrətinə nə əlavə edəcək? Bütün bunları sizdən mərhəmət diləmək üçün söyləmirəm. Xeyr! Mərhəmət, ya da bağışlanmağı əsla qəbul etmirəm. Mən ədalət istəyirəm!"* [144, s.72] sözlərində aman diləmir, əksinə ittiham səsləndirirdi.

Ə. Ağaoğlu Maltada bir an da olsun azadlığa çıxacağından ümidini kəsmir, vətənini və yaşadığı Türkiyəni də unutmayaraq məktublarında *"Xatirəm ta uzaqlara, gənclik zamanıma, Qarabağa, Qalanın o gözəl dağlarına Yastı Burca, Daşaltına, Cıdır düzünə, Şah-nişinə, Dəlikdaşa, o yerlərdəki günlərə getdi", yaxud "İnşallah yaxında bütün vətənimizlə bərabər biz də qurtuluruz və haqq yerini tapır"* [2,s.17], - deyə özünə inam ifadə edirdi. Ufuk Özcana görə “Malta sürgünü yalnız Ə. Ağaoğlu üçün deyil, ümumiyyətlə İttihad və Tərəqqiçilər, dövlətin kilid nöqtələri əllərində olanlar üçün də gələcək həyatlarını nəzərdən keçirmək üçün bir fürsət olur” [138, s.137]. Doğrudan da, sürgündən sonra Ə. Ağaoğlunun fəaliyyətində yeni mərhələ başlayır və yaradıcılığında keyfiyyət dəyişikliyi baş verir. Onun "Üç mədəniyyət" əsərinin burada, bu düşüncələrlə yazılması da göstərir ki, Ə.Ağaoğlu dövlət, idarəetmə, mədəniyyətlər və cəmiyyətlərlə bağlı son dərəcə zəngin biliyə malik olduğu kimi, cəmiyyəti irəli aparacaq siyasi mədəni düşüncələrə də malikdir.

Ə. Ağaoğlu Malta sürgünündən döndükdən az müddət sonra Ankara hökumət rəsmilərinə yeni idarəetmədə yer almaq istəyilə bağlı müraciət etmiş və müsbət cavab almışdı. Bu vaxtlar Ankara xalq arasında təbliğat aparmaq məqsədilə Anadoluya qruplar göndərməyi qərara almışdı. Ə. Ağaoğlu Qara dəniz sahilindən Qarsa qədər gəzərək Milli mücadilə və kamalist hərəkatın lehinə təbliğat aparmağa başlayır. Bu yöndə ilk işi Qarsda bir gündəlik qəzet qurmaq və bir məktəb açmaq olur. Onun bu yöndə çalışmaları hökumət tərəfindən yaxşı qarşılanır. 1921-ci ildə Mətbuat və istihbarat ümum müdirliyinə gətirilir. Bu zaman Ankaraya gələn bolşevik diplomat Aralovu müşayiət etməsi və Milli mücadilə zamanı bolşeviklərlə Anadolu hökuməti arasında əlaqələrin qurulmasında Ə. Ağaoğlunun rolu böyük olur. Məhz buna görə də bütün vəzifələrində hökumət tərəfindən ödülləndirilir. Bu illərdə Ə. Ağaoğlu iki dönəm Qarsdan millət vəkili seçilmişdir. Eyni zamanda, Ankara Hüquq fakultəsində Anayasa hüququ dərsləri verməklə yanaşı, yeni Anayasanın yazılmasında da yaxından iştirak etmiş, Anayasa Komisyonunun üzvü olmuşdur. Cümhuriyyət Xalq Partiyasının Nizamnaməsinin yazılmasında da yaxından iştirak etmişdir. Xüsusilə hökumətin rəsmi yayın orqanı olan "Hakimiyyəti Milliyyə"nin baş redaktoru olması

və Cümhuriyyətin ilk dönəmində Avropa üslublu qəzetçiliyin əsasını qoyması Ə. Ağaoğlunun göstərdiyi xidmətlər içərisindədir.

Bu mərhələdə Ə. Ağaoğlunun siyasi düşüncələrində də müəyyən yeniləşmə olmuşdur. İndi daha əvvəlki kimi deyildi; Cümhiriyyətin ilk illəri idi. Ə. Ağaoğlunun əvvəlki yazılarına xas türkçülük və islamçılıq kimi mövzulara rast gəlinmir. Əgər bu mövzuda yazıları olurdusa, daha çox cəmiyyətə yönəlik problemlər qaldırılır, toplumun təməl prinsipləri önə çəkilirdi. Sovetlər Birliyi ilə Türkiyə Cümhuriyyətinin yaxınlaşması Orta Asiya türklüyü, Turançılıq ideyalarını arxa plana keçirmişdi. Yeni siyasətdə Türkiyə-Sovet əlaqələrində problemlərə yanaşmada korrekt münasibət özünü göstərdiyindən Ə. Ağaoğlunun yazılarında da bu siyasət gözlənilirdi. Rusiyadan getmiş (Azərbaycan da daxil olmaqla) mühacirlərin Türkiyədə siyasi fəaliyyətlərinə son verilməsi də məhz bu dövrə düşürdü. Hərçənd Ə. Ağaoğlu xarakterinə müvafiq olaraq, yeri gəldikcə, özünün doğru bildiyi fikirlərini də yazmaqdan çəkinmirdi. O, Lozan anlaşmasını *"dörd yüz ildən bəri Türkiyənin əleyhinə olaraq bir-biri üzərinə yığılan hesabların sonuclandırılması"* kimi dəyərləndirmişdir [96]. Lozan anlaşmasının gətirdiyi problemləri aydın görürdü, ancaq onu da görürdü ki, bu problemlər qısa bir zamanda ötüb keçəcəkdir, o zaman Qərb dünyası ilə uyumlu bir mərhələnin başlanmasını təqdir edirdi. İlk dəfə son iki yüz ildə cəmiyyətin Şərqdən ayrılaraq Qərb kontekstinə girməsi və bu dəyərləri mənimsəməsi bir qədər çətin olsa da, aşılması gərəkən bir mərhələ olaraq dəyərləndirilir.

Ə. Ağaoğlunun Türkiyə fəaliyyətində müəllimlik etməsi də mühüm yer tutmuşdur. Azərbaycandan Türkiyəyə köçərkən o, ilk vaxtlar məhz müəllimlik də etmişdir. Tədqiqatçı E. Kayabaş onun ilk fəaliyyət dövrü ilə bağlı yazır: *"1909-cu ilin oktyabrından etibarən İstanbul Darülfünunda Türk moğol tarixi və rus dili müəllimliyi etdi. Darülfünundakı vəzifəsi tarix və dil öyrətmək ilə məhdudlaşmamış, bunlarla yanaşı, Ədəbiyyat fakultəsi öyrətim üzvləri məclisinin və fakultə islahat komisiyasınınn başçılığını da etmişdir. Ayrıca bu dönəmdə Əbdürrəhman Şərəf bəydən sonra boşalan Ədəbiyyat fakultəsi dekanlığına da atanmışdır"* [132, s.443].

Holly Şisslerin "İki imperatorluq arasında Əhməd Ağaoğlu və yeni Türkiyə" adlı tədqiqatında yazdığına görə Ə. Ağaoğlunun tədris etdiyi bu Türk-Moğol dərsi Türk tarixinin önəmli hissəsi olaraq Darülfünun tarixində ilk dəfə Ağaoğlu ilə tədrisə girmişdir [158, s.279]. Ədibin əsas tədqiqatçılarından biri olan Özcan Ufuk "Əhməd Ağaoğlu və rol dəyişkliyi" monoqrafiyasında onun Darülfünundakı fəaliyyətini yalnız müəllimliklə məhdudlaşdırmayıb, həm də onun qurulmasındakı rolunu yüksək qiymətləndirərək yazır: *"Universitetin laik* (dünyəvi- M.K.) *və daxili işlərində müstəqil bir yapıya qovuşdurularaq Avropayönlü bir quruma çevrilməsinin başında duranlardan biri də Ə. Ağaoğludur (Nə var ki, bu xidmətləri 1933 Universitet islahatında (İstanbul Darülfünunu Hüquq fakultəsində) ilk tasviyə edilənlərdən biri olmasına əngəl olmayacaqdır). Ağaoğlu daha sonra keçmişdəki xidmətləri və təhsil müfəttişliyi bacarığı göz önündə tutularaq təlim və tərbiyə heyəti üzvlüyünə gətiriləcəkdir. Ancaq universitet islahatlarını uyğulamağa çalışan kadrların mütarəkə zamanında savaş suçlusu olaraq sürgünə göndərilmələri Darülfünundakı islahat çalışmalarını ciddi bir kəsintiyə uğratmışdır"* [138, s.92-93].

Dərs deməklə yanaşı, Ə. Ağaoğlunun "Sirati-müstəqim", "Hikmət kimi jurnal və qəzetlərdə məqalələri çap olunurdu, bir müddət Maarif müfəttişliyi və Süleymaniyyə kitabxanasının müdiri vəzifəsində işləyib [21, s.30]. Gülsərən Akalın Ə. Ağaoğlunun ittihadçı təmayüllərin hakim olduğu vaxtlarda rus dili və türk tarixi fənlərindən dərs dediyini də qeyd edir [21, s.30]. Rusiya türklərinin yaşadığı yerlərə Türkiyədən müəllimlər göndərilməsi işinə rəhbərlik edənlərdən biri də Ə. Ağaoğlu idi. Bu fikir son dərəcə qiymətlidir, ona görə ki, 20-ci illərdə Türkiyədən Azərbaycana bir çox görkəmli ziyalılar gələrək burada universitet və instututlarda müəllim işləmişdir. Mühiddin Birgenin, İsmayıl Hikmətin və b. Türkiyədən gələrək Bakıda çalışmaları kadr qıtlığını nisbətən aradan qaldırırdı. İ. Hikmət Pedaqoji İnstitutda dərs deməklə yanaşı, həmin dövrdə elmi-nəzəri məqalələr yazmışdı. "Azərbaycan ədəbiyyatı tarixi" adlı ikicildlik kitabı isə F. Köçərlinin ədəbiyyat tarixindən sonra dərc edilən ilk kitabdır. Doğrudur, Ə. Abidin də "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" üç cildlik kitabı olmuşdur, lakin bu əlyazması şəklində

qaldığından geniş oxucu kütləsinə çatmamışdır. M. Birgen də Azərbaycan ədəbi mühitində fəal iştirak etmişdir. O, "Maarif və mədəniyyət" (indiki "Azərbaycan"- M.K.) jurnalının təsis edilməsində böyük rol oynamaqla yanaşı, həm də ədəbi-elmi məqalələrlə mətbuat səhifələrində tez-tez çıxış edir, ali məktəblərdə dərs deyirdi.

Ə.Ağaoğlu həm də "Türk yurdu" (1911) cəmiyyətinin qurucularından olub. Türk dünyası, Osmanlı inqilabının Şərqdəki əks-sədası, İslamda davayi-milliyyət kimi mövzularda "Türk yurdu" dərgisində silsilə məqalələri çap olunub. Türkiyəli tədqiqatçı onun burada çap olunan məqalələrini təhlil edərək belə qənaətə gəlir ki: *"Əhməd Naim Babanzadə və Süleyman Nazif kimi yazarlarla girişdiyi mübarizədə türkçülüklə islamın bir-birinə zidd olmadığını sübut etməyə çalışmışdır"* [21, s.30].

Ə.Ağaoğlunun Türkiyədə ictimai-siyasi cəbhədə yorulmaz fəaliyyəti cəmiyyətin gözündən qaçmır və tezliklə öz bəhrəsini verir. Artıq o, Türkiyə həyatının üçüncü ilində, 1912-ci ildə tutduğu məmur vəzifələrindən istefa edərək Afyon-Qarahisardan Osmanlı Məclisi Məbusanına (parlamentinə) vəkil (deputat) seçilir. Çar Rusiyasında yaşayan qeyri-rus xalqların Lozannada 1915-ci ildə keçirilən konfransında Azərbaycanı təmsil edir. Rusiya imperiyasında yaşayan türk-müsəlman xalqların hüquqlarının tapdanması, dini, milli zəmində təzyiqlərə məruz qalması ilə bağlı Y.Akçura, Ə.Hüseynzadə və Ə.İbrahimovla birgə Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsona kollektiv müraciətə imza atanlardan biri olur. Ə.Ağaoğlunun Türkiyə tərcümeyi halı ilə bağlı bir məsələyə də burada aydınlıq gətirmək lazımdır. Bu da onun "Ə.Ağaoğlu" imzasının və adının nə vaxtdan başlayaraq işlədilməsinə aiddir. Məlumdur ki, Ə.Ağaoğlu Türkiyəyə gedənə qədər Bakıda müxtəlif mətbuat orqanlarında dərc edilən məqalələrinə "Əhməd bəy Ağayev", "Ə.Ağayev" imzalarını qoymuşdur. Bəs "Əhməd bəy Ağaoğlu", yaxud "Ə. Ağaoğlu" imzalarını nə vaxtdan işlətməyə başlamışdır? Azərbaycan tədqiqatçıları bu fikirdədir ki, Ə. Ağaoğlu Türkiyəyə gedənə qədər "Ə. Ağayev", Türkiyədə isə "Əhməd bəy Ağaoğlu" imzasından istifadə etmişdir. Onun yaradıcılığı ilə bağlı məqalə və tədqiqatlar yazanların, demək olar ki, hamısı bu fikirdədir. Ə. Ağaoğlunun əsas tədqiqatçılarından biri filologiya elmləri doktoru Vilayət Quliyev də bu

fikirdədir ki, 1909-cu il Türkiyəyə mühacirət edənə qədər bütün mənbələrdə "Əhməd bəy Ağayev" kimi getmiş, məqalə və əsərlərini də məhz bu adla dərc etdirmişdir [49, s.5]. Lakin Türkiyə araşdırıcıları başqa fikirdədirlər. Tədqiqatçı Ebru Kayabaş "Bir yavuz hüquqçu: Əhməd Ağaoğlu" məqaləsində Azərbaycan ədəbiyyatşünaslarının qənaətinə uyğun gəlməyən belə bir fikir irəli sürür: "Əhməd Ağaoğlu Rusiya vətəndaşı ikən soyadı Ağayevdi və Osmanlı dövlətində keçirdiyi mühacirlik illərində də bu şəkildə işlətməyə davam etmişdir. Osmanlı vətəndaşlığına keçdikdən bir müddət sonra Ağaoğlu Əhmədi və ən sonunda 1934-cü il tarixli soyadı qanunu ilə çalışmada da işlənə biləcək Əhməd Ağaoğlu adını almışdır" [132, s.441]. Göründüyü kimi, V. Quliyev onun Bakıda "Əhməd bəy Ağayev", Türkiyədə isə "Əhməd Ağaoğlu" imzalarından istifadə etdiyini, E.Kayabaş isə Türkiyəyə gəldikdən bir müddət sonra "Əhməd Ağaoğlu" imzasından istifadə etdiyini göstərməkdədir. Bu fikir bir qədər həqiqətə uyğun gəlir, ona görə ki, Türkiyədə müxtəlif mətbuat orqanlarında onun yazıları hələ "Ahmet Ağayef" imzası ilə çap olunmuşdur. Onun "Ağayef Ahmet" imzası ilə "İki kuvvet arasında" ["Tercümani-Hakikat, 29 Temmuz, 1912], "Alemi-İslam ve Siyasiyat-ı Ümumiye: Bizim Takib Edegeyimiz Meslek" ["Sirat-i Müstakim, IV-98-99, 1326], "Alemi-İslam: Türkiyede Mühacerat" ["Sirat-i Müstakim, IV, 102, 1326], "Terbiye-i Milliyye", ["İctihad", № 27, 15 Temmuz, 1327], "Cemaleddin Afgani "Vahdeti Cinsiye (İrkiye) Felsefesi" ["Türk yurdu", III/2, 1328] və s. onlarla məqalələri dərc edilmişdir. Buna görə də əlimizdə dəqiq sənəd olmasa da, E. Kayabaşın bu fikrini doğru hesab etmək olar. Hansı tarixdən bu imzanı işlətməsinə gəldikdə isə Fahri Sakal buna da aydınlıq gətirmişdir. Onun yazdığına görə "Türk yurdu" dərgisində bir oxucunun "Ağayev" soyadını nədən dəyişdirmədiyinə aid bir məktubu dərc olununca "bu adın sadəcə özünün deyil, əlaməti-farikası olduğunu söyləyib dəyişdirməmə istiqamətində bir təmayülü olduğu görülmüş, ancaq bir neçə ay sonra "Ağayev" yerinə "Ağaoğlu" imzasını işlətməyə başlamışdır" [141, s.25]. Tədqiqatçı onu da qeyd edir ki, "Ahmet Ağaoğlu" imzası ilə ilk dəfə "Erkeneqon və Bozqurd" [78] yazısında işlətmişdir [141, s.25]. F.Sakalın bu mənbəyinə istinad etməli olsaq, onda Ə.Ağaoğlunun ilk dəfə "Ergenekon ve Bozkurt"

məqaləsində işlətdiyini görmüş olarıq ki, bu məqalə "Tercümani Hakikat"in 1914-cü il 12 Eylul (sentyabr) sayında dərc edilmişdir [78].

Türkiyədə yaşamasına baxmayaraq, Ə.Ağaoğlu Azərbaycanı heç zaman yaddan çıxarmırdı. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra onu alqışlayanlardan biri də Ə.Ağaoğlu olur. Ancaq o, Cümhuriyyəti yalnızca təqdir etmir, onun işində yaxından iştirak etməyə çalışırdı. Qafqaz İslam ordusunun Bakıya gəlməsinə razı salmış və onun komandanı Nuru Paşanın müşaviri olaraq Azərbaycana gəlmişdir. O, bir müddət burada qalaraq Cümhuriyyətin ilk parlament seçkilərində iştirak etmiş və parlamentə üzv seçilmişdir. Beləliklə, Ə.Ağaoğlu iki ölkənin parlament üzvü kimi fəaliyyət göstərən ilk azərbaycanlı millət vəkili olmuşdur. Həmin vaxtlar Ənzəlidəki ingilis rəhbərliyi ilə danışıqlar aparan nümayəndə heyətinə başçılıq edir. Ədəbiyyatşünas Aybəniz Kəngərlinin yazdığına görə Ə.Ağaoğlu "Gəncədə "Türk sözü" adlı bir qəzet də nəşr edir. Ə.Ağaoğlu həmin dövrdə ayrı-ayrı türk cümhuriyyətlərinin Osmanlı dövlətinin tərkibində birləşməsi ideyasını müdafiə edirdi və Azərbaycan hökumətinin rəhbərlərinə fikrini bildirmiş, lakin onun təklifi qəbul edilməmiş, xüsusən M.Ə.Rəsulzadə və N.Yusifbəyli tərəfindən etirazla qarşılanmışdı [27, s.112]. Bu qənaətlə razılaşmaq bir qədər çətindir, ona görə ki, bu fikrin mənbəyi yoxdur, hardan, kimin xatirəsi, ya da hansı fakta əsaslandığı göstərilmir. Bu məsələni F. Sakal bir qədər fərqli şəkildə verir: *"Bu şərəfli görəvinə rəğmən, Ağaoğlunun işi o qədər də asan olmamışdır. Nuru Paşanın Azəri öndərləriylə tərs düşməsi üzərinə ortaya çıxan problemləri Əhməd bəyə həvalə etdiyi bilinməkdədir. Paşa solçu, müsavatçı və Rus yanlısı olaraq gördüyü adamları idarəetməyə gətirmək istəmir, panislamist və pantürkist adamlarla bir Azərbaycan Cümhuriyyəti qurmağı düşünürdü"* [141, s 27].

Ə. Ağaoğlu Azərbaycanda olarkən Paris Sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil edilir. Elə bu zaman Ə. Ağaoğlu İstanbulda Mollagiranidəki evinin yanması xəbərini alır. Bu məlumatı alan kimi Azərbaycandan İstanbula dönür. S. Ağaoğlu atasının Bakıdan dönməsini belə təsvir edir: "Atam yanğın xəbərini alar-almaz Qafqazdan İstanbula gəldi. O zaman Türbede

Ziya Göyalpın evində qalırdıq. Atam dönüncə Şahzadabaşında , Saraçxanədə məşhur bir paşa qonağının selamlıq bölümünü tutaraq daşındıq. Burada bir neçə ay bizimlə qalan atam yenə Qafqaza getdi" [104, s.57]. Ə. Ağaoğlunun İstanbuldan yenidən Bakıya gəlməsi barədə məlumatlar azdır. Ancaq o məlumdur ki, İstanbuldan Parisə getməliydi. Elə bu zaman İstanbulun bir hissəsini işğal edən ingilislər 1918-ci ilin noyabrında burada həbslər həyata keçirməyə başlayır. Həbs olunanlar müharibədə ingilis əsgərləri ilə kobud rəftar etməkdə və sözdə erməni "soyqırımında" iştirak etməkdə günahlandırılırdılar. Alman dəstəkli "Tərcümani-həqiqət" qəzetində "erməniləri qırmaqda təşviqedici yazılar yazdıqlarına" görə 61 adamın siyahısı dərc edilmiş və onlar da bu siyahı ilə həbs edilmişdi. Bunların çoxu türkçülər və ittihadçılar idi. Onlardan biri də Ə. Ağaoğlu idi. Bu günlərdə qızdırma içində xəstə yatan Ağaoğlu sağalmamış əmniyyət gücləri tərəfindən həbs edilir. Beləliklə, 1919-cu ilin sentyabrında diplomatik pasportu olmasına, Paris Sülh Konfransına nümayəndə heyəti tərkibinə daxil olmasına baxmayaraq, həbs edilərək Bəkirağa bölüyünə salınır və buradan da Maltaya sürgün edilir. Əvvəlcə evinin yanması, xəstələnməsi və həbs edilməsi, ardınca kiçik oğulları Bəşirin və Gültəkinin vəfat etməsi onun həyatının ən ağır günləri olur. Ailə, demək olar ki, başsız və köməksiz qalır. Ə. Ağaoğlu yalnız 1921-ci ilin 30 mayında həbsdən azad edilir.

Ə. Ağaoğlu həbsdən azad edildikdən sonra (1921) Ankarada ilk vəzifəsi Mətbuat və İstihbarat ümumi müdiri olur. Daha sonra Yunis Nadi və Xalidə Ədib Adıvarın proqramladıqları doğrultusunda qurulmuş Anadolu Ajansı da bu müdirliyə bağlanmışdır [141, s.40]. Bu iki qurumun müdirliyi ilə yanaşı, bir tərəfdən də "Hakimiyyəti Milliyyə"nin başyazarlığını (redaktor) yerinə yetirmişdir. Bir dönəm Milli Məclis müzakirələrində Ə. Ağaoğlunun da adı keçmişdir. Sovet hökumətinin türk hökumətinə göndərdiyi bir mesajı səfir Aralov ona verdikdə mətni türkcəyə çevirərək hökumətdən öncə mətbuata ötürmüşdür. Səhər açılanda millət vəkilləri xəbəri məclisdə oxunmadan mətbuatda oxuduqda sədr Rauf bəy əsəbiləşərək "Hakimiyyəti Milliyyə" qəzeti Türkiyəninmi, yoxsa Rus elçiliyininmi mətbuat orqanıdır?"-deyə soruşur: *"Bu hadisədən sonra ona müxalifətçilərin sayı artır. Hətta*

*Aralova inanmaq olarsa, onu vəzifədən almaq da istəmişlər, ancaq Mustafa Kamal "Ağaoğlu Əhməd bəy kimi köməkçilərə dayanaraq" daxili islahatları başaracağını, dolayısıyla, ona ehtiyacı olduğunu söyləyərək vəzifəsində saxlamışdır"* [141, s.42].

Ə. Ağaoğlu siyasətdən çəkildikdən sonra İstanbul Universitetində hüquq tarixindən dərs demiş, bir çox tələbələr yetişdirmişdir. Burada işləyərkən onun ən mühüm fəaliyyəti olaraq tədrisə "Sərbəst Ali dərsləri" proqramını gətirməsi olur. 1922-1923-cü illərdə özü də bu proqram üzrə bazar ertəsi günləri "Sərbəst Ali Dərsləri Müəsisse-i İlmiyyəsi" adıyla Mədəniyyət tarixi dərslərini keçmişdir. 1923-cü ildə Qarsdan Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçildikdən sonra Məclisdə Xarici, Ana Yasa qanunu, Kitabxana və Daimi Nizamnamə komisyonlarında üzv olmaqla qalmayıb, bu komissiyaların işində, yeni qanunların qəbulunda önəmli rollar oynayıb. 1925-ci ildə isə Qarsdan millət vəkili olmaqla yanaşı, Ankara Hüquq məktəbində müəllimlik edirdi. Oya Fisekçinin yazdığına görə, Ankara Hüquq məktəbində müəllimliyə 1925-ci ildə başlamış və 1931-ci ilə qədər professor vəzifəsində olmuşdur [125]. O. Fisəkçi onu yalnız məktəbin professoru hesab etmir, həm də məktəbin səkkiz nəfərlik qurucu heyətlərindən biri kimi göstərir [125, s.6]. Ahmet Mumçu ilə Hüquq məktəbinin qurucuları modern bir məktəb qurmaq haqqında düşünmüş və bir araya gəlmişlər. Onlar bu məktəbdə yetişəcək hüquqçuların, yeni hüququn çərçivələri daxilində dar bir sahədə qalmalarını lazım bilməmiş və türk hüququ ilə yanaşı əsas hüququnda məcburi dərs olaraq keçilməsini məqsədəuyğun bilmişlər. A. Mumçu məktəbin qurucularının Yusif Akçura, Şevket Məmmədəli Bilgişin, Cəmil Bilsəl, Mahmud Əsəd Bozkurd, Tofik Kamil Koperler, Yusif Kamal Tengirşek, Süheyp Nizami Derbil və Əhməd Ağaoğlu kimi tanınmış hüquq hocalarından ibarət olduğunu [136, s.66-67] göstərmişdir.

Ebru Kayabaşı da məktəbin ilk tədris ilinin açılması ilə bağlı maraqlı məlumat verir. Bu məlumata görə 1925-1926-cı tədris ilinin açılışı zamanı Cümhuriyyətin qurucusu Atatürkün və Mahmud Əsəd Bozqurdun açılış nitqindən sonra ilk dərsi Ə. Ağaoğlu vermişdir. Əsas Təşkilat Hüququ mövzusunda verdiyi dərsi o, 1930-cu ilə qədər davam etmişdir. Bu dərsləri keçərkən qadınlar mövzusuna və onların

hüquqlarına ağırlıq verdiyini və bu üzdən tələbələrin təpkisi ilə qarşılaşdığı bildirilir. Onun yazdığına görə, professor bu dərslərdə ilk dəfə olaraq qadınlarında kişilər kimi eyni hüquqa malik olduqlarının, seçmələri və seçilmələrini məmurluqda da eyni hüquqa malik olduqlarını daim müdafiə etmişdir [132, s.445]. Bu fakta həm də ona görə inanmaq olar ki, ədibin qızı Sürəyya Ağaoğlu Türkiyənin ilk qadın vəkillərindən biri olmuşdur.

20-ci illər Ə. Ağaoğlunun Türkiyə fəaliyyətinin zirvəsi hesab edilə bilər; belə ki, bu illər Hüquq məktəbində professor olaraq çalışmaqla yanaşı, həm də iki dönəm Qars millət vəkilliyini etmişdir. Bu illər, eyni zamanda, Cümhuriyyət Xalq Partiyasının İdarə heyətinin üzvü kimi fəaliyyət göstərmiş, 1924-cü ildə Atatürkün istəyi üzərinə Anadolu Xəbər Agentliyini quraraq bir dönəm əsas müdirliyini və Yönətim Kuruluna (İdarə Heyəti-M.K.) başçılıq etmişdir. Bundan başqa 1921-1924-cü illər Böyük Millət Məclisində Anayasa dəyişikliyi Komisyonunun üzvü kimi də müəyyən işlər görmüş və Türkiyə Cümhuriyyətinin Anayasasının yazılmasında böyük xidmətləri olmuşdur. Ə. Ağaoğlu yeni Anayasada Avropa ölkələrinə xas olan özəl sektor, sərbəst rəqabət, özəl mülkiyyətin qorunması kimi düşüncələrini irəli sürmüş və müdafiə etmişdir. 20-ci illərin sonuna doğru Ə. Ağaoğlu liberal görüşləri müdafiə etdiyindən üzvü olduğu Cümhuriyyət Xalq partiyasından ayrılır. Lakin Atatürkün təkidi ilə könülsüz olaraq Sərbəst Firqəyə qoşulur. Bu zaman Ə. Ağaoğlu iqtisadiyyatda liberal görüşləri müdafiə edərək İsmət İnönü hökumətini tənqid etməkdən belə çəkinmirdi. Yuxarıdan yarandığı kimi, yuxarının bir əmri ilə də bağlanan Sərbəst Firqənin ömrü o qədər də uzun olmur. Partiya qapandıqdan sonra isə yenidən CHP-yə girməmiş, liberal görüşlərini mətbuatda davam etdirmişdir. Bundan sonra Ə. Ağaoğlu parlamentdən kənarda qaldığından İstanbula köçmüş və hüquq professoru olaraq burada çalışmışdır. 1931-1933-cü illərdə İstanbul Dürülfünunun Hüquq fakultəsində dərs demişdir. Eyni zamanda "Axın" qəzetini nəşr edir və məqalələrində hökuməti tənqid edirdi. 1933-cü ildə baş redaktoru olduğu "Axın" qəzeti bağlanmaqla yanaşı, professor kimi çalışdığı İstanbul Universitetindən də islahat adı ilə təqaüdə göndərilir. Bundan sonra o, qəzetçi həyatından, eləcə də,

demək olar ki, fəaliyyətdən uzaqlaşdı. E. Kayabaş onun ömrünün sonlarında sevdiyi hərəkətli fəaliyyətdən bu vəziyyətə düşməsi haqqında yazır: *"Bir zamanlar dövlət və partiya sözçüsünə qədər yüksələn Ağaoğlunun belə bir vəziyyətə düşürüldüyünü, bir az da özünün qərarlı və inadcıl olmasına bağlamaq lazım gəlir. İllər sonra evinə çəkilmək məcburiyyətində qalan Ağaoğlu, hər şeyə rəğmən, düşüncə həyatından büsbütün uzaqlaşmamış, müxtəlif qəzet və jurnallarda çalışmalarını sürdürmüş, "Kültür həftəsi" və "İnsan" adlı jurnallarda antropoloji və fəlsəfi düşüncələrlə dəstəklədiyi uyğarlıq tarixi üzərinə gündəlik siyasətlə əlaqəsi olmayan yazılar yazmışdır"* [132, s.448].

Ə. Ağaoğlunun müxalifliyi çox davam edə bilmir, Sərbəst Firqənin buraxılmasından sonra dərs dediyi İstanbul Universitetindən çıxarılır, "Axın" qəzeti isə bağlanır. Prof.dr. Fahri Sakal onun son fəaliyyət dövrü haqqında yazır: "Ancaq keçmiş SCF-li müxalif qəzetində müxalifliyini davam etdirmək istəyincə iş dəyişir. Hərçənd Atatürkə qarşı diqqətli idi və daim Kamalizmi öyürdü. Bu onun təqib olunmasını qarşısını ala bilmir. Günün birində İnönünün dövlətçi siyasətini tənqid etdiyi üçün məhkəməyə verilir. Məhkəmə sədrinin keçmiş tələbəsi olduğunu görüncə söz alır və özünün müdafiə etmədən cəzalandırılmasını istəyir. Hər kəsin şaşqın olduğunu görüncə, hərəkətini belə anladır: *"Tələbəsinə fikir azadlığı və mətbuat azadlığı fikrini verə bilməyən bir hüquq müəllimi cəzanı haqq etmişdir"* [141, s.64].

Yenə də Fahri Sakala görə Ə. Ağaoğlunun müxalifliyi İsmət İnönüyə və onun dövlətçi siyasətinə qarşıdır: *"İnönünün dəmiryolu siyasətini tənqid etdiyi üçün onu narahat edirlər. "Axın" həyat yoldaşı Sitarə xanımın Azərbaycandan gətirdiyi xalıları və bəzi başqa əşyalarının satılması ilə çıxırdı. Bir axşam Atatürk Ağaoğlunu Dolmabaxça sarayına yeməyə dəvət etmişdir. Əvvəlcə onu böyük hörmətlə qarşılayan Paşa bir az sonra ətrafındakılara "Axın" qəzetini çıxarın" əmrini verincə Əhməd bəy sonun başlanğıcını başa düşmüşdür. Atatürk yazıları bir-bir oxudur. Bunların nə olduğunu soruşar. Ağaoğlu "cəmiyyətimizin qüsurlarını göstərən ictimai tənqidlər"* [141, s.29],- olduğunu söyləyir. O zaman Atatürk yanındakılara *"Bir zatın həm Dürülfünunda hocalıq yapıb, həm də iqtidarı tənqid etməsinin doğru olmadığını"*

söyləməsi üzərinə vəziyyət gərginləşir. Atatürk qəzet çıxarmaq üçün pulu haradan aldığını soruşur və əlavə edir: *"Sən unudursan ki, bir sığıntısın!".* Bunun üzərinə Ağaoğlu: *"Paşam, mənə bunu çox adam söylədi. Hamısına güldüm. Amma indi sizin ağzınızdan eşitmək mənim ruhumu ən dərindən sarsıtdı...Bir yandan da bütün dünyanın Türk irqindən, Türk millətindən gəldiyi tezisini ortaya atırsınız, digər tərəfdən sərhədimizdən iki saat o tərəfdəki xalis türk və yazıq ki, əsir bir vətəndən Türkün azadlığını qorumağa başarmış yenə xalis bir türkə "sığıntı" deyə bilirsiniz"* [141, s.30]. Bundan sonra Ağaoğlu qalxıb masanı tərk etmək istərkən, Atatürk *"Sən məni yanlış anladın, o cür demək istəmədim",*-deyərək onu öpmüş və təsəlli vermişdir. Bu hadisədən sonra Əhməd bəyin "Axın" qəzeti qapadılmış, universitetdən atılmış və "fəal həyat qapıları", demək olar ki, qapanmışdır.

Ə. Ağaoğlu idarədən, məmurluqdan və millət vəkilliyindən çıxdığı bir dönəmdə özünü daha çox əməyə, torpağa vermiş, Keçiörəndəki bağında əkinçilik etmişdir. O, bir müddət burada bağçılıq və arıçılıqla məşğul olmuşdur. Burada hər cür meyvə yetişdirərək siyasi çətinliklərini bu yolla həll etməyə çalışmışdır. Bu zaman Ankara kəndlilərini də özü ilə bərabər işlətmiş, onlara modern əkinçilik üsullarını öyrətmiş və əməkləri üçün yaxşı pul vermişdir. Çox qısa bir zamanda bu işlərinə və camaata münasibətinə görə Keçiörəndə məşhurlaşır və camaat onu Keçiörən muxtarlığına seçir [109, s.26].

30-cu illərdə Ə. Ağaoğlunun övladları Tezər, Əbdürrəhman və Səməd Avropada, yalnız Sürəyya Türkiyədə idi; Tezər Vyanada Freyd İnstitutunda çalışırdı. Əbdürrəhman çox gənc yaşlarından Qrenoblda elektrik mühəndisliyi üzrə təhsil almağa getmişdi. 1930-cu ildə Səməd Ankara Universitetinin hüquq fakultəsini bitirdikdən sonra aspitrantura təhsili almaq üçün Fransanın Strasburq şəhərinə getmişdir. Yay tətilində İstanbula dönərkən atasının təkidilə sonrakı illərdə təhsilini davam etdirmək üçün Ədliyyə nazirliyinə müraciət edir. Ədliyyə naziri Yusif Kamal Tetrişenk buna icazə verir. Lakin bu zaman ədliyyə naziri dəyişərək Ə. Ağaoğlunun keçmiş tələbəsi Şükrü Saracoğlu olur və Səmədə *"-Cibində vaxtilə rus pasportu daşımış bir adamın oğlunu mən Avropaya göndərə bilmərəm",* - deyir. Bunu

eşitdikdə Ə. Ağaoğlu Şükrü Saracoğluna sərt bir məktub yazır: *"Bundan çox illər öncə, İttihad və Tərəqqi müfəttişi kimi İzmirdə bir məktəbi təftiş etdiyim zaman bir gənc müəllim mənimlə görüşərək Avropaya təhsil almağa getmək istədiyini söylədi. İstanbula döndükdən sonra mən həmin gəncin istədiyini etdim. Yola çıxmamışdan əvvəl əlimi öpən gəncə "Xoşbəxt ol!" - dedim. Həmin gənc o qədər xoşbəxt oldu ki, vəzifəyə gələr-gəlməz onu Avropaya göndərən adamın oğluna bu sözləri söylədi..."* [34]. Bu dövrdə Ə.Ağaoğlu daha çox cəmiyyət, dövlət və fərd anlayışları üzərində düşünür və burada 14 məqalə yazaraq "Cümhuriyyət" qəzetində dərc etdirir. Bu barədə oğluna məktublarının birində yazırdı: *"Fərd və hüriyyət uğrunda mücadilə edirəm. Mənimlə mübahisə edənlər "Fərd yoxdur, dövlət var"-deyirlər. Mən isə həm fərd var, həm də dövlət"- deyirəm"* [4, s.142].

30-cu illərin əvvəllərində Ə. Ağaoğlunun Ankaradakı və İstanbuldakı evlərində böyük toplantılar davam etmişdir. Sürəyya Ağaoğlunun yazdığına görə, bu toplantılar zamanı Ankaranın Keçiörəndəki evinin önündə mülki paltarlı bir polis dayanır, buraya gəlib gedən avtomobillərin nömrəsini qeyd edirmiş. Ə. Ağaoğlu ürəyiyumşaqlığından soyuq qış günü həyat yoldaşına *"bu adamı içəri çağırın, donacaq",*- deyə onu içəri çağırtdırıb və o gündən başlayaraq İsmayıl Əfəndi vəzifəsini onların evinin içində davam etdirmişdir [47, s.174-175]. 1932-ci ildə İstanbula köçərkən anası Sitarə xanım Daxili İşlər naziri Şükrü Qayaya *"- Bəy əfəndi, Keçiörəndəki evimizin önünə qoyduğunuz polisi indi Topağandakı evimizə yollasaydınız yaxşı olardı, çünki oralar lap boşdur",* - deyə eyham vurmuşdu [109, s.175]. 1932-ci ildə ailəlikcə İstanbula daşındıqdan sonra belə burada da hər bazar ertəsi dövrün fikir adamları bu evə yığışardılar. Sağçılar, solçular, yazıçılar, şairlər, filosoflar həftədə bir dəfə yığışaraq fikir mübadiləsi aparırdılar. Bunların içərisində Pəyami Səfa, Mehmet və Zəkəriyyə Sertel, Həmdi Bəşər, professor Şekib bəy, professor Həlim Ziya, professor Ziyəddin Fəxri, Şükufə Nihal, Midhət Camal, Nadir Naci və başqaları var idi. Ən maraqlısı isə Nazim Hikmətin bu toplantılarda iştirak etməsidir. S. Ağaoğlu onu xüsusi qeyd edərək *"Nazim Hikmətdən tutmuş ən ifrat sağçı Peyami Səfaya qədər"* bir çox fikir adamlarının bu toplantılarda iştirak etdiyini

göstərirdi. O, yazır: *"Atam dünyasını dəyişən zaman qəzetlər "Türkiyədə intellektual toplantılar keçirilən yeganə ev də qapandı",-deyə yazdılar"* [104 s.197]. Bu fakt da göstərir ki, Ə. Ağaoğlu Türkiyədə yalnız bir ziyalı, redaktor, kulturoloq deyil, həm də bu cəmiyyəti irəli aparan, ziyalılarını birləşdirən görkəmli bir fikir adamı, ideoloq olmuşdur.

Ə. Ağaoğlunun Türkiyə fəaliyyətinin, Cümhuriyyətinin və cəmiyyətinin formalaşmasındakı böyük rollarından biri də müxalif fikirliliyi ilə seçilməsi, müxalifət qəzeti "Axın"ın başında durmasıdır. 20-30-cu illər Türkiyə ictimai-siyasi mühitinin mövcud durumuna rəğmən, onun yeni cəmiyyət və siyasət prinsiplərindən əl çəkməməsi və cəmiyyəti irəli aparacaq fikirlər söyləməsi bu cəmiyyətdəki və demokratik düşüncədəki yerini müəyyənləşdirir. Bu illərin Türkiyəsində ictimai fikirdə ən polemik məsələləri irəli sürən, zamanın onun mövqeyinin doğru çıxdığını təsdiq edən bir çox məsələlərdən biri də öz imkanları hesabına müxalif "Axın" qəzetini çıxarması idi. Doğrudur, o, qəzeti yaxşı tanımadığı adamlarla birlikdə çıxarmağa qərar verir və müəyyən mənada uğursuzluğa düçür olur. Belə ki, "Axın" qəzeti mövcud cəmiyyətdə müxalif mövqeyini çox sürdürə bilmir. Səməd Ağaoğlu "Atamın dostları" əsərində yazır ki, 1933-cü ilin yaz axşamı üç nəfər şəxs atamın görüşünə gəldi. Atam onlardan yalnız birini yaxşı insan kimi tanıyır, digər ikisini isə ilk dəfə görürdü. Səməd Ağaoğlu o günləri belə xatırlayırdı: *"Ertəsi gün atam anama "Qəzet çıxarıram, -dedi, -pulu onlar verəcək, mən baş redaktor olacağam".*

- *Anam soruşdu:*

-*Kim olduqlarını bilirsən?*

-*Yox, yalnız birini tanıyıram. O biriləri ilə tanışlığım yoxdur.*

-*O halda tanımadığın adamlarla iş görmə.*

*On beş gün sonra "Axın" qəzetinin ilk sayı çıxdı"* [7, s.142].

Bu hadisə bir neçə məsələni ortaya çıxarır; birincisi, Ə. Ağaoğlunun cəmiyyətdəki mövqeyini; ikincisi, ilk müxalifət qəzetini onun açmasını; üçüncüsü isə Ə. Ağaoğlunun böyük bir cəsarətə sahib olmasını. Əslində, bu dövrdə bir müxalifət qəzetinin dərc edilməsi böyük bir vətəndaşlıq cəsarəti idi. Çünki cəmiyyət hələ

müxalif sözü eşitməyə adət etməmişdi; Cümhuriyyətin qurulmasından, Atatürkün rəhbərliyi ilə türk ordusunun zəfərlərindən hələ çox az bir müddət keçmişdi. Ə. Ağaoğlu isə yeni cəmiyyət quruculuğunda tənqidi fikrə yer verir, cəmiyyətin demokratikləşməsi yolunda addımlar atılmasını istəyirdi. Onun cəsarətini, sözü üzə deməsini, heç nədən qorxmamasını və çəkinməməsini başqa mənbələr də təsdiq edir.

Ə. Ağaoğlu həm də Türkiyə ədəbi, ictimai mühitində özünün liberal görüşləri ilə tanınırdı. Bu sahədə o, əməli addımlar da atmışdı. Türkiyədə müxalif qəzeti çıxaran və bu düşüncəni formalaşdıran fikir adamlarından biri də məhz Ə. Ağaoğlu olmuşdur. Bu cəhətdən "Axın" qəzeti əsas yer tutur. Qəzeti öz imkanları hesabına çıxarmaları, əslində bu mətbuat orqanının heç bir siyasi qüvvədən asılı olmaması anlamına gəlirdi. Bu cəhətdən "Axın" qəzetini Türkiyənin ilk müxalifət qəzetlərindən biri də hesab etmək olar. Qəzetin ilk sayı 1933-cü il mayın 29-da bazar ertəsi günü dərc edilir. 1933-cü il 24 sentyabrında sonuncu 119-cu sayı dərc olunur. Qəzet İstanbulda nəşr edilirdi. Ə. Ağaoğlunun baş redaktorluğu ilə dərc olunan qəzet "Yevmi-ictimai-siyasi-müstəqil türk qəzeti" başlığı ilə dərc olunurdu. Qəzetin ilk sayı 8 səhifədən ibarət olub qiyməti 5 quruş idi. Sonrakı saylarda isə qəzetin səhifəsi 4, qiyməti isə 3 quruşa düşür. Bu da maliyyə məsələsində çətinlik çəkdiyinin göstəricisi idi. Araşdırmalar göstərir ki, qəzetin əvvəlindən axırına qədər baş yazarı Ə. Ağaoğlu olmamışdır. 10 avqustdan sonra qəzetdə Ə. Ağaoğlunun adına rast gəlinmir. Bu tarixdən sonrakı baş məqalələr imzasız olaraq çıxır. Ola bilsin ki, bu məqalələr də Ə. Ağaoğlunundur, lakin onun müxalifliyi ilə bağlı çoxlu söz-söhbətlər getdiyi üçün imzasını qoymamış da ola bilər. Türk ədəbiyyatşünası Haqqı Uyarın araşdırmalarına görə, qəzetin 24 avqust 1933-cü il 88-ci sayına qədər qəzetdə baş yazar olaraq Ə. Ağaoğlunun imzası getmişdir. 88-ci saydan sonra isə onun adına rast gəlinmir [150, s.47]. Qəzetin sahibi və ümumi işləri idarə edən yazı işləri müdiri isə Hacı Ağa oğlu Yusif Ziya bəy idi. O, bu vəzifəsində axıra qədər qalmışdır.

Ə. Ağaoğlunun müxalif qəzeti çıxarmasına razılıq verməsinin əsas səbəbi liberal görüşlərini cəmiyyətə aşılamaq, Sərbəst Firqədə edə bilmədiklərini ideya şəklində burada həyata keçirməkdən ibarət idi. İstər Azərbaycanda, istərsə də Türkiyə

ictimai-siyasi mühitində onun apardığı dava şəxsi dava olmayıb, ictimai, ümummilli, müsəlman və türk aləminin məsələlərini əhatə edirdi. Bu mənada "Axın" qəzetini çıxararkən qarşısında aydın bir yol dururdu. Bu yol "cümhuriyyətçi, xalqçı, laiklik və inqilabçı" olaraq müəyyənləşmişdi. Ona görə də "Axın" qəzetinin elə ilk "Qəzetəmizin yolu, diləyi və üslubu" baş yazısında özünün platformasını belə açıqlayırdı: *"Hökmlərimizdə şəxsi ehtiraslardan qaçmağı və türkün yüksək mənfəətlərini özümüz üçün tək məqsəd sayacağı bir borc sayacağız"* [74]. Ə. Ağaoğlunun başyazısını və qəzetdəki fəaliyyətini təhlil edən Haqqı Uyar onun bu fikirlərinin kamalizmdən fərqli bir görüş olduğu qənaətindədir: *"Qəzetin bu özəllikləri Ağaoğlu tərəfindən müəyyənləşirkən, sözü gedən özəlliklərin CHP-nin altı oxunun bir bölümü olduğu diqqət çəkməkdədir. Ağaoğlu dörd ölkəyə ayrı göndərmə yaparkən, milliyyətçilikdən dolaylı olaraq söz etməkdədir. Bu ölkədən dolaylı olaraq söz etməsi onun kamalist milliyyətçilikdən fərqli bir milliyyətçilik anlayışına sahib olduğunun işartısı olaraq alına bilir. Bu arada heç sözü edilməyən və dolayısıyla qəbul edilməyən ölkə dövlətçilikdir. Dövlətçilik ölkəsinin rəddi Sərbəst Cümhuriyyət Firqəsinin də özəlliklərindən biriydi"* [150, s.2].

"Axın" qəzeti nəşr olunduğu qısa vaxtda Türkiyə siyasi mühitində özünün yolu ilə tanındı"; qəzetin bütün saylarında, demək olar ki, Türkiyə gündəmini məşğul edən məqalələr, xəbərlər dərc edilirdi. Vaxtilə Hüseyn Cahit bəyə cavab olaraq yazdığı məqaləni Atatürkə göstərərək yenidən nəşr edən Nadi bəyin ona yönəlik tənqidlərinə *"Siz işinizə baxın və zəbunkeşlik kimi namərdlik hərəkətləri nəfsinizə rəva görməyiniz!",* - deyə cavab verirdi. Müxalif qəzet olduğundan iqtidar yanlıları "Axın" qəzetini haqlı-haqsız tənqid etməkdən belə çəkinmirdilər. Ə. Ağaoğlu bu tənqidlərə son dərəcə ağıllı, məntiqli cavabları ilə siyasi mühitə bir canlılıq gətirirdi. Onu tənqid edənlər sırasına "Xəbər" qəzeti də qoşularaq "Axın" qəzetini anlamadığını və haraya getdiyini" bilmədiklərini ifadə edərkən *"Haqqa, xalqa, dürüstlüyə, qəzetçilik namusuna doğru!",* -deyə bildirirdi. Ə. Ağaoğlu baş məqalələrində Türkiyə mətbuatına sanki bir demokratiya, mətbuat azadlığı dərsi keçdiyini yazırdı: "Demokratiyanın, özgürlüyün, görəvin məsuliyyətini xatırlatmaq istəyən "Axın"

yaxşıya yaxşı, pisə pis deməkdən çəkinməyən "arslanca" bir vətənsevərliyə doğru gedir. "Axın"ın haraya getdiyini soruşmaq "mankafalılık" və "vurdumduymazlıq"dır. "Axın" ilə onların getdiyi yol ayrıdır. "Axın" onların getmədiyi bir yolu özünə "Kəbə" etmişdir [75].

Ə. Ağaoğlu siyasi düşüncəsini son dərəcə sərrast, bir qədər də canlı şəkildə çatdırır, geniş oxucu kütləsinin başa düşdüyü dildə ifadə etməyə üstünlük verirdi. Onun burada dərc edilən bütün məqalələrində tənqidçilik həddini aşmırdı, mətbuatın qaydalarına əməl edirdi. eyni zamanda bu tənqidlərdə Türkiyə kimi cəmiyyətlərdə mətbuatın vəzifəsinin konturlarını müəyyənləşdirirdi: *"Axın" öz mənfəətini düşünmür; insanlığı, qəzetçilik şərəfini və mətbuat qürurunu amaclayır. Digər qəzetlər dünən əmniyyət müdirindən şikayət edərlər, sabah isə yalanlayarlar. Çünki çəkinib qorxarlar. Səciyyəsizdirlər. Ertəsi gün zabıtadan şikayət etmədiklərini, "arzu" etdiklərini söylərlər. Bu qədər "ödlək" olan bu qəzetlərdən "Axın"ı ayıran "Axın"ın tüpürdüklərini yalamamasıdır.*

*"Axın" fikir hürriyyətini, qələm hürriyyətini, vətən hürriyyətini təmsil edir. Halbuki "Xəbər" və dostları sadəcə qazanmaq, səhvləri saxlamaq, hər şeyi alqışlamaqla günlərini gün etmək istəyirlər. Biz bu qədər qadın ruhlu, maskara mətbuatla bir arada ola bilmərik"* [75].

"Axın" qəzeti 119-cu sayından başlayaraq dörd səhifəyə enir, qiymətini isə aşağı salaraq üç quruşa endirir. Buna baxmayaraq Ə. Ağaoğlu başyazısında bir çox önəmli mesajlar verirdi. Belə ki, onun "Bu gün Akın kim için ve ne için 3 Kuruşa Çıkıyor? Akın Neden 3 Kuruşa?" başlıqlı məqaləsində önəmli fikirlər səsləndirir. Bu fikirlərdə "Axın"ın dörd səhifəyə və 3 kuruşa düşməsi ilə mahiyyətini itirmədiyi göstərilirdi. Məqalədə artıq "Axın"ın nağıl, moda, uşaq, qadın kimi mövzulara yer verməyəcəyi bildirilirdi. Ancaq bununla da kifayətlənməyərək qəzetin yeni platformasını elan edir. O, üzünü vətəndaşlara tutaraq *"bugündən etibarən az və özlü bir sima ilə demokrat türk aləminin demokrat qəzetesi olaraq ortaya atılıyor"*,-deyə yeni bir platforma elan edirdi [76].

Bu saydan "Axın" qəzeti özünü müstəqil, xalqçı, demokrat bir mətbuat orqanı olaraq tanıtmaqla yanaşı, iqtidarı müdafiə edən qəzetləri kəskin tənqid etməyə başlayır. Maraqlıdır ki, məhz bu saydan başlayaraq "Axın" qəzeti Cümhuriyyət Xalq Partiyasının rəsmi qəzeti "Hakimiyyəti Milliyyə"ni tez-tez tənqid etməyə başlayır. O, "Hakimiyyəti Milliyyə"də dərc edilmiş məqalələrdən sitatlar gətirərək onların xalqa nəzəri iqtisad dərsi verməli olduqlarını yox, xalqı dinləyərək onun dərdlərini yazmamalarını kəskin tənqid edirdi. Lakin yeni platformada qəzet öz tənqidlərini davam etdirə bilmir. 119-cu say "Axın" qəzetinin son sayı olur. Görünür ki, başyazar bu sayı özünə son şans bilərək bu qədər kəskin tənqidlə çıxış etmiş, ya da məhz bu yazıların davam etməməsi üçün qəzet iqtidar tərəfindən qapadılmışdı. Hər halda Haqqı Uyarın qənaəti də bunu deməyə əsas verir: *"CHP-nin rəsmi yayın orqanı "Hakimiyyeti Milliyyəyə" yönəlik bu tənqidlər "Axın"ın qapanmasının-qapadılmasının səbəblərindən biri olsa gərəkdir. Əslində qəzetin çıxmasını təqib edən günlərdə bir başyazı nədəniylə savçılıq tərəfindən bir başyazar Əhməd Ağaoğlu, imtiyaz sahibi və məsul yazı işləri müdiri Yusif Ziya bəy haqqında istintaq açılması, qəzetin uzun müddət yaşamayacağına ipucları verməkdəydi "* [150, s.4].

Ə. Ağaoğlu "Axın"da həm də mövcud iqtisadi siyasəti, təkpartiyalı sistemi və hökuməti tənqid etməkdən belə çəkinmirdi. Bu, onun Sərbəst Firqə partiyasındakı fəaliyyəti ilə tamamilə üst-üstə düşür və bu yolda onun sona qədər getməkdə olduğunu və səmimiliyini göstərirdi. Buna görə də Haqqı Uyarın yazdığı kimi: *"Axın" 1930-cu illər Türkiyəsində Sərbəst Cümhuriyyət qəzeti ilə birlikdə öndər nitəlikdəki liberal qəzetlərdən biridir. Dönəmin otaritar ortamında səsi boğulub getsə də və qısa ömürlü olsa da, Türkiyə tarixindəki liberalizmin önəmli guşə daşlarından biridir"* [150, s.7].

Ə. Ağaoğlunun ömrünün sonları təlatümlü keçir; redaktoru olduğu "Axın" qəzeti bağlanır, professor işlədiyi İstanbul Universitetinin hüquq fakultəsindən çıxarılır. Ankarada tələbələri ilə vidalaşması çox həyəcanlı olur. Bir müddət heç nə yazmır, daha sonra isə gündəmi məşğul edən problemlər əvəzinə, ikinci, üçüncü dərəcəli məsələlərdən yazır. Bu isə bütün həyatı boyu siyasi-ictimai hadisələrin

mərkəzində olan və bunu əsərlərində ifadə edən bir fikir adamı üçün çox çətin və ağır idi. Lakin bu onun öz seçimi idi. Onun yeganə vəzifəsi yazmaq idi ki, indi onu da əlindən almışdılar. Ə. Ağaoğlu mövcud vəziyyətini belə anladırdı: *"Bu səfil dünyada təkbaşına qalmaq! Altmış yaşından sonra ticarətlə məşğul ola bilmərəm. Məni özümə yeni peşə tapmaq məcburiyyəti qarşısında qoydular. Artıq çox gecdir. Yazmaq və danışmaq-həyatımın mənası bu idi. İndi mənasız bir həyat yaşayıram"* [1, s.145]. Həyatında dördüncü dəfə İstanbulda ev tikir. Onu İstanbula köçməyə vadar edən əsas səbəb həyat yoldaşı Sitarə xanımın xəstəliyi olur. Bir müddət sonra Sitarə xanım vəfat edir. Onun vəfatı Ə. Ağaoğluna çox təsir edir. Daha sonra dostları Abdulla Cövdət, Samih Rifat, Yusif Akçuranı itirir. Yusif Akçura öldüyü zaman *"Dostlarım məni bir-bir atıb gedirlər. Hamısının arxasınca mərsiyə yazmaq vəzifəsi mənim üzərimə düşür. Mənim sıram nə zaman gələcək"*-deyirdi [1, s.145].

Beləliklə, Ə. Ağaoğlunun Azərbaycan və Türkiyə mühitindəki həyatının bəzi məqamlarına nəzər yetirdik. Onun həyatının, mühitinin hər iki kontekstdə araşdırılması onu göstərir ki, Ə. Ağaoğlunun həyatı və mühitində Azərbaycan, Türkiyə üçün böyük hadisələr baş vermişdir. Elə Birinci Dünya müharibəsi kontekstində baş verən hadisələr ictimai-siyasi proseslərin girdabına salmış, böyük bir fikir adamı olaraq formalaşdırmışdır. İstər Azərbaycan, istərsə də Türkiyə mühiti onun həm yaradıcılığı, həm də ictimai fəaliyyətində mühüm rol oynamış, son dərəcə qiymətli əsərlər yazmışdır.

## 1.2. "Sərbəst firqə xatirələri" sənədli-bədii publisistik əsər kimi

Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi Ə. Ağaoğlu Türkiyəyə siyasi məsələlərə görə mühacirət etmişdi. Məlumdur ki, zaman-zaman Azərbaycandan əvvəlcə Osmanlıya, daha sonra isə Türkiyəyə çoxlu adamlar mühacirət etmişdi. Bu mühacirət iqtisadi, siyasi, dini, müharibə və s. səbəblərdən baş

vermişdi. Rusiyanın Qafqazı işğal etməsindən sonra isə siyasi səbəblərdən Azərbaycanı tərk edənlərin sayı çoxalmış, yeni mühacirət dalğası əmələ gəlmişdir. Onu da qeyd etmək lazımdır ki, mühacirət ədəbiyyatı təkcə Azərbaycan hadisəsi olmayıb, bütün xalqların həyatında baş vermişdir. Ancaq hər bir xalqın həyatında mühacirət hadisəsinin özünəməxsusluğu da olmuşdur. Mühacirət ədəbiyyatının xarakterini araşdırarkən tədqiqatçı B. Əhmədov yazır: *"...Azərbaycan mühacirət ədəbiyyatının xarakterinə və nəzəri statusuna nəzər salarkən onun özünəməxsus xüsusiyyətlərə malik olduğunu görürük..."* [27]. Bu mənada Azərbaycan mühacirət ədəbiyyatı da özünəməxsus bir yol keçmişdir. XX əsrin əvvəllərində baş vermiş Azərbaycan mühacirətinin isə özünəməxsusluğu ondan ibarət idi ki, Azərbaycan və Türkiyə ədəbi, ictimai mühitləri arasında bir yaxınlıq və doğmalıq var idi. Ədəbi, ictimai-siyasi problemlər də müəyyən yaxınlıq təşkil edirdi. Azərbaycan şairləri, yazıçıları Türkiyədə, Türkiyə yazıçı və şairləri isə Azərbaycanda oxunur və dərc olunurdu. Bu proses bəzən o şəkildə baş verirdi ki, müştərək ədəbi prosesi xatırladırdı. Lakin bütün bunlara baxmayaraq, Ə. Ağaoğlu və Ə. Hüseynzadənin əsrin əvvəllərində Türkiyəyə getmələri və orada fəaliyyət göstərmələri yeni mühacirət dalğasından xəbər verirdi. Bu kontekstdən yanaşdıqda Ə. Ağaoğlunun mühacirət fəaliyyətini son dərəcə zəngin hesab etmək olar. Azərbaycandakı yaradıcılığı kimi, Türkiyə fəaliyyəti də zəngin, çoxtərəfli və olduqca məhsuldardır. Həm də onun Türkiyə yaradıcılığında siyasi fəaliyyəti ilə yanaşı, ədəbi, fəlsəfi, didaktik əsərləri də mühüm yer tutur. Əgər onun dostu Ə. Hüseynzadə Türkiyədə çox az yazıb-yaratmışsa, Ə. Ağaoğlu siyasi-ictimai mühitin mərkəzində əsas fiqurlardan biri olmuşdur. Əslində isə Ə. Ağaoğlunun Azərbaycan həyatı nə qədər gərgin, hərəkətli və məhsuldar olmuşdusa, Türkiyə həyatı da eyni dərəcədə hərəkətli şəkildə davam etmişdir. Hətta, belə demək mümkünsə, Ə. Ağaoğlu Türkiyə mühitinə düşməklə fəaliyyəti eninə və dərininə genişlənmişdir. Ona görə də, Ə. Ağaoğlunun Türkiyə ədəbi, ictimai mühitindəki fəaliyyətinə bir qədər geniş nəzər salmaq lazım gəlir. Türkiyə ictimai-siyasi mühitində Ə. Ağaoğlunun oynadığı rolu onun fəaliyyətində, əsərlərində və onu yaxından tanıyanların məqalə, xatirə və tədqiqatlarında öz əksini

tapmışdır. Ə. Ağaoğlunun ideya dostlarından biri Y. Akçura onun Türkiyədəki fəaliyyət dövrünü bu cür qiymətləndirirdi: *"Osmanlı inqilabı türklük üçün çalışmaq istəyənləri bütün türk aləmindən İstanbula çəkirdi; Ağaoğlu Əhməd bəyi də çəkdi, gətirdi. 1908-ci ildən sonra (Y. Akçura səhv edir, əslində 1909-cu ildən olmalıdır-M.K.) Ağaoğlunun İstanbulda çox zəngin və bərəkətli olan fəaliyyət dövrü başlayır"* [22, s.237].

Qeyd etmək lazımdır ki, "Üç tərzi siyasət" əsərinin müəllifi Yusif Akçura Türkiyə ictimai-siyasi və elmi mühitində önəmli şəxsiyyətlərdən biri kimi, bütün bu proseslərdə Ə. Ağaoğlu ilə birgə addımladığından belə bir doğru qənaətə gəlmişdir. Lakin bu "zəngin və bərəkətli" fəaliyyət dövrü nə ilə səciyyələnir? Ə. Ağaoğlunun yaradıcılığının bu mərhələsində türk dünyası və Azərbaycan üçün önəmli olan hansı proseslərdə baş rolda olmuşdur? Ə. Ağaoğlunun Türkiyə fəaliyyəti türk dünyasına hansı ictimai fikir axını gətirmişdir? Bütün bunlar haqqında, eləcə də Ə. Ağaoğlunun Türkiyədəki fəaliyyətinin ən kiçik məqamları ilə bağlı ziddiyyətlərə, faktlara aydınlıq gətirən Türkiyə ədəbiyyatşünası Ufuk Özcan onun haqqında kitabını "Ahmet Ağaoğlu və rol dəyişikliyi" adlandırır [138].

Məsələ burasındadır ki, Ə. Ağaoğlunun Türkiyə fəaliyyəti onun Türkiyə ədəbi-ictimai mühitinin mərkəzində olan barmaqla sayılacaq şəxslərdən biri olduğunu aydın şəkildə göstərdi. Ancaq daha dərininə getdikdə, yaradıcılığı, fəaliyyət istiqamətlərilə ətraflı tanış olduqda, onun XX əsrin əvvəllərində Türkiyə və türk dünyasının ən önəmli fikir adamlarından biri olduğu üzə çıxır. Yazdıqlarının məzmunu, məhsuldarlığı, müasirliyi və praktikliyinin mövcud ictimai-siyasi mühitə təsiri baxımından Ə. Ağaoğlunun fəaliyyətinin alternativi olmamışdır. Buna görə də bu görkəmli fikir adamının Türkiyədəki ədəbi, ictimai-siyasi fəaliyyətini mərhələ baxımından üç yerə bölmək olar:

Birinci mərhələ 1909-1919-cu illəri əhatə edir. Bu mərhələdə Ə. Ağaoğlu Azərbaycandan yenicə getdiyindən Türkiyə mühitini öyrənmək, ona inteqrasiya etmək dövrü kimi səciyyələndirmək olar. Məsələ burasındadır ki, bu dövr Türkiyə üçün çox hərəkətli və təşkilatlanma dövrü olduğundan Ə. Ağaoğlu da bu

təşkilatlanmalarda yaxından iştirak etmiş, baş rollardan birini oynamışdır. Bununla belə, təşkilatlanma ilə yanaşı, bir çox yazılar da yazmışdır ki, bu yazılar əsasən, gündəlik həyatla bağlı olur, Türkiyənin və müsəlman aləminin gələcəyi yönündə müəyyən problemlər qaldırırdı.

İkinci mərhələ, 1919-1931-ci illəri əhatə edir. Bu mərhələdə Ə. Ağaoğlu Türkiyə Cümhuriyyətinin qurulmasında yaxından iştirak etməklə yanaşı, özünün hüquqçuluğu ilə yeni hüquq cəmiyyətinin yaradılmasında önəmli rolu olur, Azərbaycandakı ictimai-siyasi hadisələri təqib edir, Maltada sürgündə olur. O, həm də Türkiyə və Azərbaycanda millət vəkili kimi fəaliyyət göstərirdi. Bu mərhələdə də ədibin fəaliyyəti ilə yaradıcılığı paralellik təşkil edir. Bu mərhələdə Ə. Ağaoğlunun fəaliyyətində siyasi və praktik tərəf daha güclü olur.

Üçüncü mərhələ, millət vəkilliyindən və universitet professorluğundan istefa etdikdən sonranı əhatə edir. Bu dövrü publisistin yaradıcılıq fəaliyyətinin yeni bir mərhələsi kimi də dəyərləndirmək olar. 30-cu illərin əvvəllərini və "Axın" qəzetinə redaktorluğunu istisna etsək, sakit bir həyat yaşamışdır. Bu mərhələdə Ə. Ağaoğlu gündəlik siyasətlə əlaqədar olmayan, əsasən elmi-nəzəri, ədəbi-publisistik yazılar yazmışdır. Bu mərhələ Ə. Ağaoğlunun yaradıcılığında son mərhələ olur. Ədibin yazıları daha çox elmi-nəzəri xarakter daşıyırdı.

Əlbəttə, bu bölgü şərtidir, daha çox onun yaradıcılığını zaman baxımından əhatə edir, əslində isə Ə. Ağaoğlunun yaradıcılığı mövzu, problematika, ideya, məzmun baxımından son dərəcə zəngin və çoxtərəflidir. Ancaq o da məlumdur ki, Ə. Ağaoğlu Türkiyədə fərqli bir siyasi, ictimai bir mühitə düşmüş, müxtəlif düşüncə hərəkatının episentrində yer almışdı. Maraqlıdır ki, Azərbaycandan Türkiyəyə gedərkən bir müddət yazıları Azərbaycanda da nəşr edilmişdir. Onun "Kaspi" qəzetinin 1909-cu il sentyabr sayında rusca dərc edilən "İslam və despotizm", "Türkiyədən məktublar" [19] məqalələri hələ Azərbaycan mühitindən tam olaraq ayrılmadığını göstərirdi. Türkiyə ictimai mühitinə inteqrasiya prosesində paralel olaraq davam etdirirdi. Daha sonra onun müxtəlif mövzulu məqalələrini Türkiyənin ayrı-ayrı nəşrlərində görmək mümkün olur. Onu başa düşmək olardı; Osmanlı

imperatorluğu bu zaman tarixinin ən çətin, ağır günlərini yaşayır, yeni siyasi arayışlar içində olduğundan çətin, ziddiyyətli və mürəkkəb bir mərhələdən keçirdi. Həm Avropanın içində, həm də Avropadan kənarda milliyyətçilik, milli kimlik uğrunda gərgin bir mübarizə gedirdi. Qərb cəmiyyətlərində milliyyətçilik Yaxın Şərq, Balkanlar və Şərqi Avropanın siyasi xəritəsini bəlirləməkdə idi. Avropadan kənarda olan cəmiyyətlərə də bu proses bu və ya digər şəkildə öz təsirini göstərmişdi. Xüsusilə Osmanlı dövlətində milli kimlik məsələsi özünün ən qızğın çağını yaşayırdı. I Dünya savaşında isə bu proseslər hərbi müstəviyə keçmişdir. İki böyük qüvvə olan Rusiya və İngiltərə Qərbin "Şərq problemi" məsələsində anlaşaraq Orta Asiyadakı rəqabətinə son qoymuş və Osmanlıya qarşı birgə hərəkət etmişdi. Bu uzlaşma Uzaq Şərqdən Balkanlara qədər ictimai-siyasi proseslərin dəyişməsinə, yeni bir mərhələnin başlanmasına nədən olmuşdur. Getdikcə bu güc birliyinə başqa ölkələrin də qoşulması Osmanlının yeni itkilərə hazır olmasını şərtləndirirdi. Bu hadisələr fonunda İttihad və Tərəqqi partiyasının 1908-ci ildən sonra ön səhnəyə çıxması Osmanlıda gedən daxili prosesləri bir qədər də sürətləndirmişdir. Bu cür geniş bir mühitə düşən Ə. Ağaoğlu xarakter etibarilə kosmopolit olduğundan bir tərəfdən onun yaradıcılığı, fəaliyyəti üçüngeniş imkanlar açılmış, bir tərəfdən isə Türkiyədə gedən siyasi proseslər yaradıcılığının yeni istiqamətlərini müəyyən etmişdir. Araşdırmaçı Ufuk Özcan Ə. Ağaoğlunun Türkiyədəki fəaliyyət istiqamətlərini və mərhələlərini dəyərləndirərək yazırdı: *"Ağaoğlu Qafqazdakı fəaliyyətindən fərqli olaraq Osmanlı imperatorluğu sərhədləri içərisində öncəliklə siyasi fəaliyyətə bağlı hərəkətlərilə göz doldurur. İmperatorluq Türkiyəsinə böyük ölçüdə tam olaraq formalaşmış, yetişgin bir şəxsiyyət, intellektual olaraq gəlişinə rəğmən, burada əldə edəcəyi mövzu və problematika dolayısıyla düşüncə həyatında yeni bir mərhələ açmışdır. Ağaoğlu yeni fəaliyyət sahəsini siyasi mərkəzə bağlılığı ölçüsündə qazanmışdır. Bu səbəblə Osmanlı dövlətinin içində yer aldığı siyasi tərəflərin dəyişməsi, onun mövqeyinin, əyləm və düşüncələrinin dəyişməsində doğrudan-doğruya təsirli olmuşdur"* [138, s.71].

Ə. Ağaoğlunun Türkiyə yaradıcılığını şərtləndirən əsas faktorlardan biri də bədiiliklə sənədliliyin qovuşuğudur. Əgər Azərbaycanda ən çox sırf publisist, qəzetçi kimi tanınırdısa, Türkiyədə daha çox ədəbi, bədii, fəlsəfi taraktatlar yazmaqla yaradıcılıq diapazonunu genişləndirmişdir. Onun ədəbi, bədii, fəlsəfi əsərlərindən yalnız "İslam, Axund və Hatifülqeyb" Azərbaycanda yazılmışdır. Yaradıcılığının əsasını təşkil edən "Mən kiməm?", "Tanrı dağında", "Könülsüz olmaz", "İran və inqilabı", "İran inqilabı", "Rus ədəbiyyatının ümumi səciyyələri, "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri" və s. hamısı yaradıcılığının Türkiyə dövründə yazılmışdır. Özü də bu əsərlərdə sənədliliklə yanaşı, bir bədiilik də vardır. Bu əsərlərin, demək olar ki, hamısında yazıçının özünün tərcümeyi-hal materialları da yer alır.

Belə əsərlərdən biri "Sərbəst firqə xatirələri"dir. Ə. Ağaoğlunun Türkiyə yaradıcılığında "Sərbəst firqə xatirələri" əsəri mühüm yer tutur. Bu əsər həm publisistin özünün obrazı, həm də yeni Türkiyə cəmiyyəti quruculuğundakı rolunu öyrənmək baxımından da zəngin material verir. Əsərdə müəllifin 30-cu illərin əvvəllərindəki fəaliyyəti əksini tapmışdır. Düzdür, əsərdə İ. İnönü, M. K. Atatürk, Fəthi bəy və başqalarının da obrazlarına rast gəlmək olur, ancaq burada mərkəzi obraz elə müəllifin özüdür. Əsər sanki bir hekayə kimi başlayır: *"1930-cu ilin avqust ayı idi. Tətil vaxtı İstanbula gəldim. Paris səfiri Fəthi bəyin də İstanbula gəldiyini və Boğaziçində Nəcməddin Molla bəyin evində qaldığını öyrəndim. Hələ İttihad ("İttihad və Tərəqqi") zamanından bəri tanıdığım və Maltadakı müştərək əsarət zamanı daha da yaxınlaşdığım Fəthi bəyi görməyə getdim. Lakin görə bilmədim"* [5, s.256]. ƏsərdəTürkiyədəki ictimai-siyasi proseslər kontekstində bir çox siyasətçilərin ictimai görüşləri və xarakteri açılır. Ə.Ağaoğlu əsərdə vaxtilə M.K.Atatürk və İ.İnönüyə yazdığı bir raportunda və ondan sonrakı məqalələrində zaman-zaman anlatmağa çalışırdı. Bu raportundan da görünürdü ki, Ə.Ağaoğlunun yolları Cümhuriyyət Xalq Partiyası ilə ayrılmağa doğru gedir. Sonralar Sərbəst Firqə ilə bağlı həmin raportu xatırlayaraq yazırdı: *"Başında dayandığı firqənin məmləkətdəki vəziyyətindən tam xəbərsiz idi. Aldanan, qafil vəziyyətdə qalan və istismar olunan*

*odur. Ətrafında ona ürəkdən bağlı neçə adam vardı? O, doğru-dürüst məlumat ala bilmir, zənn edirdi ki, məmləkətə bunca xidmət etmiş, məmləkəti əsarətdən qurtarmış, istiqlala çatdırmış firqə xalqın nəzərində keçmişdəki kimi əziz və qiymətlidir.*

*1926-cı ildə Qaziyə verdiyim yazılı məruzədə bu cür düşüncənin yanlışlığını, hətta Qazinin özününgetdikcə nüfuzunu itirdiyini, firqə başında dayananaların hərəkət və ədalarının isə bunun yeganə səbəbi olduğunu açıqca söyləmişdim"* [5, s.270].

Ə. Ağaoğlu siyasi görüşlərində 1926-cı ildən sonra Cümhuriyyət Xalq Partiyası ilə ayrılır və bu fikirlərinə münasibətlərini ifadə edənlərlə gərginlik içində olur. Bu narazılıq Ə. Ağaoğlunun ölkədə mövcud vəziyyətlə bağlı özünü tənqid ruhunda yazdığı bir məlumatın üst yönətimə-Mustafa Kamal Atatürk və İsmət İnönüyə təqdim olunmasından sonra başlayır. Ə. Ağaoğlu bu raportunda Cümhuriyyət Xalq Partiyası ilə xalq arasında böyük bir qopuqluq yaşandığını, partiyanı idarə edənlərin xalqa qarşı "mütəhəkkim və mütəkəbbir" bir vəziyyət aldığını, eyni zamanda, rüşvətə və israfçılığa yol verildiyini önə sürürdü. Lakin bu özünütənqid partiyanı idarə edənlər tərəfindən düzgün başa düşülməmişdi. Hüseyn Sadoğlunun yazdığına görə, bu raport xüsusilə İsmət İnönü tərəfindən öz şəxsinə qarşı qərəz olaraq dəyərləndirilmiş və partiya sıralarından çıxarılmışdır [140, s.27]. Ə. Ağaoğlunun İsmət Paşa ilə aralarının soyuq olduğu, zaman-zaman Atatürklə də toqquşması barədə müxtəlif məlumatlar görünməkdədir. Xüsusilə, İsmət Paşa ilə Ə. Ağaoğlu arasında mübahisələrin olması haqqında məlumatlar yetərincədir. Lakin Ə. Ağaoğlunun məhz bu səbəbdən partiyadan çıxarılması haqqında H. Sadoğlunun bu fikirləri yenidir. Fikrimizcə, 1926-cı ildən sonra Ə. Ağaoğlunun partiya ilə ilişgiləri azalsa da, Atatürkün fəaliyyətini ömrünün sonuna kimi təqdir etmişdir. Xatirələrdən və araşdırmalardan görünür ki, Atatürk də Ə. Ağaoğlunun xatirini çox istəyir, ona dəyər verirdi. Belə olmasaydı, 1930-cu ildə Sərbəst Firqənin yaranması zamanı onun həmin partiyaya keçməsini israr etməzdi. Ə. Ağaoğlunun bütün görəvlərdən alınması və partiya yönətimi ilə əlaqələrinin kəsilməsi isə 1930-cu illərin əvvəllərində, onun Sərbəst Firqə buraxıldıqdan sonra yenidən Cümhuriyyət Xalq Partiyasına qayıtmamasından sonra

olmuşdu. Maraqlıdır ki, Sərbəst Firqəni birgə qurduqları iki önəmli dostu Ali Fəthi Okyar və Nuri Conker 1930-cu il 17 noyabrda (kasım) firqə bağlandıqdan sonra Cümhuriyyət Xalq Partiyasına döndükləri halda, Ə. Ağaoğlu bundan sonra heç bir partiyanın üzvü olmamış və sərbəst fəaliyyət göstərməyi üstün tutmuşdur. Onun bu hərəkəti, görünür ki, sonrakı ictimai fəaliyyətinə də öz təsirini göstərmişdir.

Sərbəst Firqənin yaradılması və tez də qapadılması həm Türkiyənin həmin dövrdəki siyasətini, həm də Ə. Ağaoğlunun bu dönəmdəki fəaliyyətinin əhəmiyyətliliyini bir daha ortaya qoyur. Deməli ki, artıq 1930-cu ildə Atatürk ölkədə ikinci bir partiyanın yaradılmasına ehtiyac olduğunu ilk hiss edənlərdən olmuşdu. Ə. Ağaoğlu bunun çoxdan zəruri olduğunu bildirirdi, məqalələrində də bunu yazırdı. Lakin mövcud şərait hələ buna imkan vermirdi. Ona görə də ona bu təklifi edəndə bir qədər tərəddüd keçirir. Ancaq bu işin başında İttihad və Tərəqqi partiyasında və Maltada birgə olduğu Əli Fəthi Okyarın (1880-1943) olduğunu gördükdə razılaşmaqdan başqa çarəsi qalmır. Əli Fəthi Okyar ciddi siyasətçilərdən biri olmaqla Türkiyənin Sofiya, Paris, Londanda səfiri olmuş, TBMM başkanı, ədliyyə naziri vəzifələrində çalışmışdı. Partiyanın bu qədər ehtiyatla yaradılmasından əsas məqsəd gündən-günə çoxalan mühafizəkarların qarşısını almaq, *"məmləkətdə ehtiyatlı bir hürriyyət havası əsdirmək və yavaş-yavaş hüriyyətə alışdırmaq"* (Ə. Ağaoğlu) idi. Əslində isə bu partiyanı yaradarkən Cümhuriyyət Xalq Partiyasından çox da fərqlənməyəcək bir partiya düşünülmüşdü. Ə. Ağaoğlu "Sərbəst Firqə xatirələri" əsərində partiyanın başında duran Fəthi bəylə söhbətində bu barədə yazır: *"Əslində hər iki firqənin idarəsi və onlara nəzarət Qazinin* (M. K. Atatürk nəzərdə tutulur-M.K.) *öz əlində olacaq. Cümhuriyyət Xalq Firqəsindən (CXF-indiki CHP-M.K.) ayrılmamaq şərtilə mənim firqəmin də tərəfdarı olacaq, seçkilərdə hər iki firqənin namizədlərini təyin edəcəkdir. Belə çıxır ki, tək firqənin doğurduğu qarşılıqsızlıqdan bezib və həm məclisdə bir-birinə qarşı çıxacaq iki firqənin mövcudluğunu, həm də məmləkətdə bir az hürriyyət havasının əsməsini istəyir. Fəqət əvvəllərdəki kimi anarxiya və qarışıqlığa meydan verməmək üçün firqələr arasında əsasən fərq qoyulmasını və ikisinin də yuxarıdan idarə olunmasını təmin etməyi diləyir. Xülasə,*

*mənim firqəm CXF-nin bir qanadı olacaq. Sağmı, solmu-onu hadisələr göstərəcək"* [5, s.258].

Ə. Ağaoğlu Fəthi bəydən eşitdiyi bu fikirlərə təminat almaq istədikdə, təminatın məktublaşmalar şəklində dərc olunmasını istəyir. Təminat qənaətbəxş olduğundan Ə. Ağaoğlu razılaşmaya bilmir. Həm də ona görə razılaşır ki, təkpartiyalı bir sistemdənsə, nəzarət şəklində olsa belə, iki partiyalı sistemin siyasətə gəlməsində müəyyən fayda görürdü. Məlumdur ki, buna qədər Türkiyədə təkpartiyalı sistem idi. Buna görə də, əvvəllər səfir işləmiş, Türkiyədə baş nazir, Məclis başkanı kimi vəzifələr tutmuş Fəthi bəyə inanmaya bilmir. Nəzərdə tutulduğu kimi, məktublaşma belə olmalı idi ki, Fəthi bəy Atatürkə məktub yazaraq məmləkətə gəlib daxili işlərlə məşğul olmaq, cümhuriyyətçi, xalqçı bir partiya quraraq siyasi fəaliyyətini davam etdirmək istəyini bildirirdi. Atatürk isə cavab məktubunda onun fikrinin düzgünlüyünü, Cümhuriyyəti bir firqə ilə idarə etməyin düzgün olmadığını, bunun üçün inandığı dostu Fəthi bəyə əlindən gələn köməyi edəcəyini, CXF-ni saxlamaqla yanaşı, yeni firqəyə də yardımçı olacağını vəd edirdi. İlk vaxtlar hadisələr Ə. Ağaoğlunun istədiyi kimi gedir; səhəri günü bütün qəzetlər Fəthi bəylə Qazi arasındakı məktublaşmanı dərc edir. Mətbuat və məmləkət ölkədə baş verən bu yeniliyə böyük maraq göstərir, yeni partiyanı hörmət və sevgi ilə qarşılayırdılar. Partiyaya yazılmaq üçün insanlar böyük coşğunluqla onun yerləşdiyi binaya üz tuturdular.

Əsərdə Sərbəst Firqənin Atatürk tərəfindən yaradılması birbaşa və dolayı şəkildə ifadə olunur. Lakin Atatürkün belə bir partiyanın yaradılmasını uyğun görməsinə rəğmən, ona "Sərbəst" adını Rəcəb bəy vermiş və bu fikir Atatürkün də xoşuna gəlmişdir. Ancaq araşdırmalar göstərir ki, qərarı Atatürk versə də, partiyanın formalaşması və nizamnaməsinin yazılmasında baş rolda məhz Ə. Ağaoğlu özü olmuşdur. Məlum olur ki, partiyanın yaradılmasına qərar verilsə də, onun bəlli-başlı proqramı tutulmamış, nizamnaməsi işlənməmişdi. "Sərbəst Firqə xatirələri" əsərində bu məsələyə də münasibət bildirilir: *"İndi firqəyə öz nizamnaməsi lazımdır. Bunun*

*yazılmasını yoldaşlarım mənə həvalə etdilər. Böyük adada yaxt klubuna çəkildim, iki günə tamamlayaraq idarə heyətinə verdim"* [5, s.265].

Əsərdən aydın olur ki, yeni firqə təntənəli günlər keçirir, xalq tərəfindən sevilir, təqdir olunur, lakin sonrakı hadisələr fərqli ssenari üzrə davam edir. Qarşıdan gələn seçki marafonu ona münasibəti bir qədər də dəyişir. İsmət İnönü Samsundakı nitqində Sərbəst Firqəyə hücum edir. Bundan sonra firqəyə hücumlar çoxalır. Bu hücumlarda Sərbəst Firqə irticaçılıqda ittiham edilirdi. Millət vəkilləri və Atatürkə ən yaxın adamlar belə firqəyə qarşı hücumlarını davam etdirirlər. Yeni firqəyə keçən millət vəkillərindən bəziləri geri qayıdır və beləliklə, Cümhuriyyət Xalq Partiyasından Sərbəst Firqəyə keçən millət vəkillərinin sayı cəmi 13-ü keçmir. Halbuki danışıqlar fərqli olmuşdu. Mübarizə getdikcə iki partiya arasındakı münasibətləri daha da qızışdırır. Artıq CXF ölkədə təkbaşına vəziyyətə hakim deyildi, daha doğrusu, yeni firqə ilə bölüşürdü. Xüsusilə, yeni firqənin Atatürk tərəfindən dəstəkləndiyini başa düşən insanlar axın-axın Sərbəst Firqəyə daxil olurdular. Belə olduğu təqdirdə Ə. Ağaoğlu Sərbəst Firqənin seçkilərdə iştirak etməməsini uyğun görür. O, belə düşünürdü ki, yeni firqənin tərəfdarları getdikcə həddən artıq çoxalır və belə gedərsə, seçkidə qalib gələn partiya Sərbəst Firqə ola bilər, Atatürk də buna dözə bilməz. Ona görə də Məclisdə müxalifət qrupu yaratmaq və fəaliyyət göstərməyi məqbul hesab edirdi. Onun fikrincə, bir elan ilə Sərbəst Firqənin seçkilərə qarışmadığını, namizədlər göstərmədiyini, lakin xalq istərsə bu firqəyə mənsub olanları da seçə biləcəklərini bildirmələrini tövsiyə edir. O, fikirlərini Atatürkə bildirsə də, qəbul edilmir. Atatürk "təşkilat qurmayan, seçkilərdə iştirak etməyən firqə nəyə yarayar"-deyə seçkilərdə iştirakı məqbul hesab etmişdi. Lakin İzmirdə yeni firqəçiləri böyük coşğunluqla qarşılayırlar. Bu coşğunluq dövlət adamlarını narahat etdiyindən Fəthi bəyə xalq qarşısında nitq söyləməməsini xahiş edirlər. Fəthi bəy israrla nitq söyləyəcəyini bildirir, əks halda Atatürkə məlumat verəcəyi ilə bağlı onlara xəbərdarlıq edir. Ancaq Atatürkə teleqram vurmağa imkan vermirlər. Gecə yarısı Atatürkün Fəthi bəyin nitq söyləyəcəyi ilə bağlı teleqramı gəlir. Siyasi yarışmanın kəskinləşməsi, köhnə firqəyə qarşı xalq etirazları getdikcə

yeni firqənin bağlanmasına gətirib çıxarırdı. Seçkilərdə Cümhuriyyət Xalq Firqəsi qalib gəlsə də, yeni firqənin gücü də açıq-aydın hiss olunurdu. Bu uğuru görən Cümhuriyyətçilər onları xəyanətdə günahlandırırdı. Sərbəst Firqənin gələcək uğurlarından qorxan insanlar Atütürkü bu firqəyə qarşı qaldırmağı düşünürlər. Beləliklə, başda Sərbəst Firqənin başçısı Fəthi bəy, Ə. Ağaoğlu da daxil olmaqla idarə heyəti partiyanın buraxılmasına qərar verirlər. Fəthi bəy özünün təkbaşına müxalifətə keçdiyini və dostlarının qərar verməkdə sərbəst olduğunu bildirir. Onun dostları, eləcə də Ə. Ağaoğlu da müxalifətə keçdiklərini bəyan edirlər. Lakin firqənin dağılmasından bir gün sonra vəziyyət dəyişir: *"Qazidən müxtəlif maddi və mənəvi təsəllilər almaq şərəfinə nail oldular. Bunlardan bəziləri bankların idarə heyəti üzvlüyünə təyin edilir, "qızlarının toyları", "uşaqlarının xəstəlikləri" üzündən böyük yardımlar alır, qalanları isə, bir-ikisi istisna olmaqla, itaətkarlıq göstərərək canlarını qurtarır və yenə də millət vəkili seçilirlər"* [5, s.308]. Beləliklə, 1930-cu il avqustun 8-də təməli qoyulmuş Sərbəst Firqə həmin il noyabrın 17-də, yəni dörd ay yaşamadan tarixin arxivinə göndərilir.

"Sərbəst firqə xatirələri" əsərində bütün bu proseslər detalları ilə təsvir edilir. Əsərin əhəmiyyətli cəhətlərindən biri də budur ki, müəllif heç nəyi artırıb-əksiltmədən mövcud ictimai-siyasi hadisələri təsvir etməyə çalışır. Burada təsvir edilən hadisələrin gerçəkliyi başqa mənbələr tərəfindən də təsdiq olunur. Məsələn, Ə. Ağaoğlunun Dolmabaxçaya dəvət olunması, Atatürklə görüşməsi və s. onun yanında olan qızı Sürəyya Ağaoğlunun xatirələri ilə uyğunluq təşkil edir. Bu da onu göstərir ki, Ə. Ağaoğlu Türkiyədəki ictimai-siyasi proseslərlə bağlı çox narahat olmuş, siyasi təfəkkürün inkişafında daim mütərəqqi mövqe tutmağa çalışmışdır.

Ə. Ağaoğlunun "Sərbəst firqə xatirələri" əsərində müəllifin obrazı başlıca yer tutur. Bu əsər həm onun Türkiyənin siyasi həyatında aktiv iştirakını, həm də sarayda və cəmiyyətdə gedən prosesləri reallığı ilə izləməyə imkan verir. Bu proseslərdə İsmət İnönünün oynadığı rola da xüsusi toxunan müəllif, hiss olunur ki, Türkiyənin siyasi həyatında baş verən intriqalardan və avantüradan bezmişdir. Eyni zamanda, Türkiyə siyasi mühitinin də nə zamansa bu yolu keçəcəyini əminliyini ifadə edir.

Yeni cəmiyyət, Cümhuriyyət məsələsində son dərəcə modern yol tutan Ə. Ağaoğlu bir partiya ətrafında olan oyunlardan təngə gələrək bunun səbəbini Şərq riyakarlığında, "sözlərin arxasında gizlənərək" "xəyalı gerçək kimi göstərməyə" və ölkənin bütün fəlakətlərinin mənbəyini "ruh xəstəliyi"nə bağlayaraq belə bir qənaətə gəlir: *"İndi tamamilə aydın olur ki, bu komediya sırf firqə təşkili, müxalifət fikri daşımaq kimi cürətli hərəkətləri birdəfəlik kökündən kəsib atmaq üçün imiş. Bəli, bundan sonra uzun illər heç kim özündə müxalifət firqəsi yaratmaq cəsarəti tapa bilməz. Bununla bərabər xalqı oyatmaq yolunu da düşünmək lazımdır. Sərbəst Firqənin qısa ömrü xalqa hürriyyətin nəşə və zövqünü azacıq da olsa daddırmış, onun az-çox sərbəst nəfəs almasına imkan vermişdi"* [5, s.309]. Doğrudan da belə olur, Türkiyə siyasi həyatında iyirmi ilə qədər bir müddətdə müxalifət partiyası yaranmadığı kimi, hakimiyyətə də gələ bilmir. Yalnız 40-cı illərin sonlarında Demokrat partiyasının yaranması ilə siyasi həyatda yeni proseslər baş verir.

Ə. Ağaoğlu Sərbəst firqə ətrafında oynanılan oyunu heç cür qəbul edə bilmirdi. Xüsusilə, partiyanın seçkilərdəki uğurunun uğursuzluğa çevrilməsi onu son dərəcə məyus etmişdi. Çünki o, bu sistemin tətbiqi üçün çox çalışmışdı. Lakin bir fərmanla partiyanın ləğv olunmasını heç cür qəbul edə bilmir, başqaları kimi ləğv olunmuş partiyadan çıxaraq yenidən Cümhuriyyət Xalq Partiyasına daxil olmur. Son dərəcə prinsipial, obyektiv bir insan, nəzəriyyəçi olan Ə. Ağaoğlu digər dostları kimi partiyadan istefa verməsi ilə bağlı nə bəyanat verir, nə də bir sənəd imzalayır. Təəssüf ki, Türkiyə ədəbiyyatşünaslığında Ə. Ağaoğlunun bu hərəkətləri özünün obyektiv qiymətini almamışdır. Tədqiqatçı V. Quliyev Ə. Ağaoğlunun Sərbəst Firqənin qapanmasından sonrakı etirazını nəzərdə tutaraq yazır: *"Sərbəst firqənin fəaliyyətini dayandırması ərəfəsində Ə. Ağaoğlu özünün xilaskarı, ailəsinin rifah və xoşbəxtliyinin səbəbkarı saydığı Atatürkdən istəmədən cəlb olunduğu bu uğursuz oyundan ləyaqətlə çıxmasına imkan yaradılmasını istəmiş, Atatürkün "Nə edəcəksən?" - sualı qarşısında "Əmrinizlə girdiyim yeni partiyadan çıxmayacağam. Bunu izzəti-nəfsim üçün təhqir sayaram. Lakin siyasi həyatdan çəkilərəm, millət*

*vəkilliyimdən istefa edərəm, sırf müəllimliklə məşğul olaram", - cavabını vermişdi"* [47, s.25].

"Sərbəst firq xatirələri" əsərində Atatürkün, İ. İnönünün, Fəthi bəy və hadisələr zəminində Ə. Ağaoğlunun xarakteri bütün dərinliyi ilə açılır. Belə ki, toplumdakı mübahisəli məsələlərdə həmişə Ə. Ağaoğlunu qabağa verir, bununla da mübahisənin mərkəzinə atırdılar. Türkiyədəki siyasi həyatında onu daim ön sırada, mübahisə və müzakirələrin mərkəzində görmək olardı. Bunun əsas səbəblərindən biri onun cəsarətli olması və çəkinməməsi idisə, ikincisi mübahisə olunan cəmiyyət problemlərini dərindən bilməsi idi. Səməd Ağaoğlu atası ilə Yusif Akçuranın münasibətlərindən yazarkən bu məsələyə də toxunmuş, onun hər yerdə önə verilməsi, müzakirələrin mərkəzinə atılmasını belə izah etmişdir: *"Yusif bəy* (Yusif Akçura nəzərdə tutulur-M.K.) *atama "Əhməd, bunları yazsana?" Niyə gedib lazım olan yerlərdə bu barədə danışmırsan?", - deyirdi.*

*Atam onun demək olar ki, bütün söhbətlərin sonunda mütləq təkrarlanan bu təklifinə bərk əsəbiləşər, səsini ucaldaraq qışqırardı:*

*-Mən, həmişə mən, hər yerdə mən! Sən başqalarını döyüşdürüb bundan həzz alan adamsan. Niyə özün yazmırsan, niyə özün demirsən?*

*Akçuranın saqqalı tutrəyərdi:*

*- Sən məndən cəsur adamsan, Əhməd bəy!*

*- Sonra yavaş səslə əlavə edərdi:*

*- Həm də mənim qozbellərim var.*

*Özünə qozbel deyərkən çox sevdiyi uşaqları nəzərdə tuturdu"* [11, 136].

Bu faktı Ə. Ağaoğlunun yaradıcılığı da sübut edir; onun vaxtilə milli və dövlət məsələsində sinəsini qabağa verib məqalələr yazması məlum idi. Onlardan birini Ə. Ağoğlu "Sərbəst firqə xatirələri" əsərində xatırlayır. O zaman Hüseyn Cahit bəy Atatürkdən bir kənara çəkməsini və firqə mübarizəsinə qarışmamasını istəmişdi. Ə. Ağaoğlu isə ona cavab verərək inqilab etmiş *"bir rəhbərin öz firqəsindən əl çəkməsini münasib və yerinə düşən hərəkət olmayacağı"*- fikrini əsaslandırmışdı [5, s. 297]. Vaxtilə Hüseyn Cahit bəyə yazdığı məktubu Sərbəst firqə zamanı üzə çıxarıb

Atatürkə göstərərək onun əleyhinə çevirməyə çalışanlara cavab olaraq, yenə də öz mövqeyində qaldığını elə Atatürkün yanındaca əleyhdarlarına bildirir. Atatürk ona məqaləni yenidən dərc edəcəkləri halda nə olacağını dedikdə, Ə. Ağaoğlu cavab yazacağını, fikirlərini əsaslandıracağını qətiyyətlə bildirir. Bütün bunlar Ə. Ağaoğlunun həyatının nə qədər gərgin keçdiyini göstərdiyi kimi, həm də onun qorxmaz, barışmaz və cəsarətli olduğunun sübutudur. Bunun nəticəsidir ki, tədqiqatçı Çətin Yetkin Ə. Ağaoğlunu Sərbəst firqənin ideoloqu olaraq xarakterizə edir və onu *"liberal görüşləri müdafiə edən, tək partiya rejiminin denetimsizliyini və CHP yönətimini tənqid edən"* [123, s.24] bir adam olaraq tanıdır.

Ə. Ağaoğlunun xarakteri Sərbəst firqənin yaradılması prosesində də üzə çıxır. O, bu partiyanın yaranmasına yox, bu cür yaranmasına etiraz edirdi. Bu məsələdə onun fikirləri Atütürkün düşüncəsindən ayrılırdı. "Sərbəst firqə xatirələri"ndə Atatürklə dialoqunun əsasında da bu fikir ayrılığı dayanırdı: *"Azacıq sükutdan sonra Qazi üzünü mənə çevirərək "Professor bəy! Sən nə deyirsən?"-deyə soruşdu. Mən əvvəllər də heç olmazsa iki firqənin olmasını istəyirdim. Hətta 1926-cı ildə təqdim etdiyim raportda tək firqənin zərərlərindən, qarşı tərəfin olmamasının doğuracağı ağır vəziyyətdən bəhs etmişdim. Fəqət firqələrin bu cür danışıqlar nəticəsində razılaşdırılaraq yaranmasına nümunə görməmişdim. Onun üçün tərəddüd edirdim. Qaziyə qarşı münasibətdə daim namus və şərəf borcum, Vətən və türklüyün vəzifəsi kimi qəbul etdiyim doğruluq və açıqlıq prinsipindən bu dəfə də üz çevirmədim: -Bu ifrat sünidir, - dedim"* [5, s.260].

Ə. Ağaoğlu Türkiyədə ikinci partiyanın bu cür qurulmasına qarşı idi; çünki danışıqlara görə Sərbəst Firqə Cümhuriyyət Xalq Partiyasından çox da fərqlənməyəcək. Əslində hər iki firqənin idarəsi və ona nəzarət Atatürkün əlində olması düşünülmüşdü. Belə çıxırdı ki, hökumət tək partiyanın qarşılığı olmadığından bezib ona qarşılıq yeni bir partiya yaradır və bununla bir qədər demokratiya ruzgarı əsdirmək istəyir. Əslində Atatürk də bu cür düşünürdü. Ona görə də partiyanın qurulmasından öncə: *"Yeni qurduğumuz Cümhuriyyət bir şeyə bənzəmir. Mən fani insanam. Ölmədən əvvəl bu milləti həqiqi hürriyyətə qovuşmuş görmək istəyirəm.*

*Bunun üçün də müxalifətçi firqənin mövcudluğu lazımdır. Bu firqəni də əmin olduğum adamların əlinə tapşırıram. Ancaq təəssüf ki, tərəddüd edirlər - deyir"* [5, s.291].

Atatürk özü də bu cür düşünürdü və əmin əllər olaraq seçdiyi adamlardan birincisi olmasa da, ikincisi Ə. Ağaoğlu idi. Ancaq ehtiyat edərək "anarxiya və qarğaşalara" meydan verməmək üçün partiyaların ikisinin də yuxarıdan idarə olunmasını məqbul hesab edirdi. Ə. Ağaoğlu isə partiyanın adını deyil, özünün sərbəst olmasını, Məclisə sərbəst düşünmək və hərəkət etmək imkanı verilməsini arzu edirdi və tərəddüd etməsinin əsasında da bu dayanırdı. Ə. Ağaoğlunun bu cavabı Atatürkü razı salmır: *"Əhməd bəyi mən yaxşı tanıyıram. Onun bütün əndişəsi hər tərəfini əmniyyətə alınmış görməkdir. İndiyə qədər orada-burada, Məclis dəhlizlərində, qəzet sütunlarında özünü didib-tökür, işlərin yaxşı getmədiyindən şikayət edirdi. İndi ona açıq danışmaq, qüsurları görmək, xətaları doğrultmaq imkanı verilir. Niyə tərəddüd edir?"* [5, s.261].

Ə. Ağaoğlu bu cür yaranan partiyaların aqibətini əvvəlcədən gördüyü üçün tərəddüd edirdi. Onu da bilirdi ki, İsmət İnönü partiyanın təbii olaraq yaranmasına imkan vermir. Buna baxmayaraq, Ə. Ağaoğlu oynanacaq firqə "komediyasına" qoşulmağa qərar verir. Əsərin sonunda "Sərbəst firqə" komediyasının nə üçün oynandığına cavab axtaran Ə. Ağaoğlu məqsədin bununla "müxalifət fikri daşımaq kimi cürətli hərəkətləri birdəfəlik kökündən kəsib atmaq" olduğunu dərk edir. Ancaq bu hadisənin xalqa *"hüriyyətin nəşə və zövqünü azacıq da olsa daddırdığını", "onun az-çox nəfəs almasına imkan vermədiyini"* də unutmurdu.

Beləliklə, Ə. Ağaoğlunun "Sərbəst firqə xatirələri" əsərində Türkiyədə yaranan ikinci partiya ətrafında baş verən hadisələrin təsviri dövrün xarakterini, ictimai prosesləri reallıqla təsvir edilir. Əsərin hadisələrin baş verməsindən dərhal sonra yazılması, ancaq çox sonralar dərc edilməsi onu göstərir ki, buradakı bir çox həqiqətləri zamanında yazmaq mümkün olsa da, dərc etdirmək çox çətin idi. Bütövlükdə əsər həm dövrün hadisələri, həm də bu hadisələrin baş aktyorlarının həyatı, xarakteri və fəaliyyəti haqqında müəyyən qənaətlərə gəlməyə imkan verir.

Ə. Ağaoğlunun özünün obrazına gəldikdə, buradan da görünür ki, onun Türkiyə həyatı heç də hamar olmamış, son dərəcə ziqzaqlı keçmişdir. Fəaliyyətində obyektivliyini, prinsipiallığını və səmimiliyini axıradək qoruyub saxlamışdır. Türkiyə Cümhuriyyətinin qurulmasında, yeni cəmiyyətin formalaşmasında ən önəmli rollardan birinə sahib olmuşdur. Türkiyədə müxalifət institutu və mətbuatının yaradılmasında da böyük iş görmüşdür.

# II FƏSİL. ƏHMƏD BƏY AĞAOĞLU YARADICILIĞI ƏDƏBİ, ELMİ VƏ KULTUROLOJİ KONTEKSTDƏ

## 2.1. Ə. Ağaoğlunun ədəbi və elmi yaradıcılığı

Ə. Ağaoğlunun fəaliyyətində ədəbi, elmi yaradıcılığı mühüm yer tutur; belə ki, onun ictimai-siyasi mövzulu əsərlərilə yanaşı, tarixi, ədəbi oçerkləri də vardır. Bu da onu tənqidçi, ədəbiyyatşünas, mədəniyyətşünas kimi xarakterizə edir. Bir çox əsərləri, məqalələri, məktubları və xatirələrində, yeri gəldikcə, ədəbi, elmi mövzulara toxunması və müzakirə açması onu Türkiyə ədəbi mühitində bir tənqidçi, ədəbiyyatşünas, tarixçi, sosioloq kimi dəyərləndirməyə imkan verir. Məsələ burasındadır ki, Ə. Ağaoğlu tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətinə hələ Azərbaycanda olarkən başlamışdır. Bu yazıların mövzusunu Azərbaycan ədəbiyyatı və onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığı təşkil edirdi. Bu dövr tədqiqatçılıq yaradıcılığı ilə bağlı akademik K. Talıbzadə onun "Şekspirin "Otello"su və Şillerin "Qaçaqlar"ı tatar dilində" məqaləsini nəzərdə tutaraq yazırdı: *"Məqalə klassik dramaturgiyanın ən gözəl nümunələrinin Azərbaycan səhnəsində tamaşaya qoyulması münasibətilə yazılmışdır. Müəllif bu mühüm mədəniyyət hadisəsini "odlu-*

*alovlu xülyalarda" dolaşan "yeniliklərdən" biri kimi mənalandırır, belə tərcümə və tamaşaların Azərbaycan oxucu və dinləyicilərinə Avropa ədəbiyyatının nailiyyəti ilə tanış olmaq imkanı yaratmasının böyük idrak əhəmiyyətini qeyd edir"* [67, s.139].

Maraqlıdır ki, Ə. Ağaoğlu həmin məqaləsində yalnız "Otello" və "Qaçaqlar" tamaşalarını təhlil etməklə kifayətlənmir, həm də, yeri gəldikcə, Azərbaycan ədəbiyyatına da müraciətlər edir və paralellər aparırdı. Həmin məqalədə M. F. Axundzadənin "Hacı Qara", N. Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Ə. Haqverdiyevin "Dağılan tifaq" əsərləri haqqında da fikir və mülühizələrini yürütməsi də fikrimizi təsdiq etmiş olur. Rus ədəbiyyatı ilə bağlı məqalələrində yazıçının müəyyən bir ədəbi dünyagörüşə malik olduğu görünür. Bütün bu yazılarında Ə. Ağaoğlunun həm Şərq, həm də Qərb ədəbiyyatının bilicilərindən biri olduğu aydınlaşır.

Ə. Ağaoğlu tənqidçilik, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq fəaliyyətini Türkiyədə də davam etdirmişdir. Onun Türkiyədə yazdığı tədqiqat xarakterli əsərlərindən biri də "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəridir. Yazıçı bu əsərini 1917-ci ildə qələmə almışdır. Buna qədər də digər əsərlərində fikirlərini çatdırmaq üçün tez-tez Qərb və Şərq ədəbiyyatlarının ayrı-ayrı nümayəndələrinin yaradıcılığına müraciətlər edirdi. Türkiyəyə qədərki yaradıcılığında isə onun Azərbaycanda "Kafkaz", "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Proqres" kimi qəzetlərdə, xüsusilə rus ədəbiyyatına və ayrı-ayrı yazıçılara dair məqalələri dərc olunmuşdu. Türkiyəyə getdikdən sonra da yazıçı, publisist bu istiqamətdə araşdırmalarını davam etdirmişdir. Ümumiyyətlə, Ə. Ağaoğlu ictimai mühitə atıldığı dövrdən başlayaraq rus ədəbiyyatını və ictimai prosesini ardıcıl şəkildə izləmişdir. Türkiyəyə getdikdən sonra da onun bu istiqamətdə apardığı araşdırmalar, rus ədəbiyyatı klassiklərinə, rus ədəbiyyatı tarixində mühüm yer tutan yazıçı və şairlərə məqalələr həsr etməsi də fikrimizə sübut edir. Xüsusilə, İstanbul Darülfünunda rus dili və ədəbiyyatı professoru olaraq çalışması bu cür tədqiqat xarakterli əsərin yazılmasına səbəb olmuşdur. Görünür ki, publisist, tədqiqatçı bu əsəri məhz mühazirə şəklində qurmağı nəzərdə tutmuş, yalnız 1932-ci ildə tədqiqatı təkmilləşdirərək silsilə məqalələr (beş

məqalə) şəklində "Cümhuriyyət" qəzetində dərc etdirmişdir. Ə. Ağaoğlunun "Seçilmiş əsərləri"ni nəşrə hazırlayan tədqiqatçı V. Quliyev bu fikirdədir ki: *"Şübhəsiz, onların* ("Cümhuriyyət" qəzetində dərc edilmiş beş məqalə nəzərdə tutulub.-M.K.) *əsasında Əhməd bəy Ağaoğlunun İstanbul Universitetində oxuduğu "Rus ədəbiyyatı tarixi" kursunun materialları dayanmışdır"* [5 ,s.370-371]. Ədəbiyyatşünas V. Quliyevin bu fikrini bir qədər də dəqiqləşdirsək, demək olar ki, bu tədqiqatın əsasını həm də Azərbaycanda yazdığı məqalələr təşkil edir. Bununla belə, aradan keçən illər, eləcə də Ə. Ağaoğlunun Türkiyədə bu fənndən dərs deməsi, rus ədəbiyyatşünaslığının sonrakı inkişafı tədqiqatçının təhlillərinə bir elmilik gətirmişdir. Onun bəzən rus ədəbiyyatı ilə türk ədəbi bədii düşüncəsi arasında paralellər aparması da tədqiqatçının mövcud ədəbiyyatlar haqqında fikirlər məcmusunu dolğunlaşdırır.

"Rus ədəbiyyatının səciyyələri" əsərini ilk dəfə Azərbaycan ədəbiyyatşünaslığında qiymətləndirən akademik Kamal Talıbzadə yazır: *"Rus ədəbiyyatına böyük ehtiram duyğusu ilə yazılmış bu tədqiqatda rəsmi rus ədəbiyyatşünaslığı və tənqidinə məxsus mülahizələrlə yanaşı, orijinal, subyektiv görüşlər də özünə yer tapmışdır ki, bunların xüsusi peşəkar təhlilə ehtiyacı vardır"* [68, s.145]. Akademik K. Talıbzadə bu məqaləni 80-ci illərin sonlarında yazmışdır, lakin o vaxtdan keçən otuz ilə yaxın bir dövrdə Ə. Ağaoğlunun Türkiyə yaradıcılığı vətənində fundamental tədqiqata cəlb edilməmişdir.

Əlbəttə, Ə. Ağaoğlu bu tədqiqatını yazarkən rus ədəbiyyatşünaslarının əsərlərinə istinadlar etmişdir, ancaq müəllifin özünün rus ədəbiyyatının dərindən bilməsi, ayrı-ayrı bədii əsərlərə müraciət etməsi onu göstərir ki, tədqiqatçı rus ədəbiyyatını dərindən bildiyi kimi, həm də düzgün, obyektiv qiymətləndirməyi bacarır. Bu cəhətdən "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəri yalnız nəzəri baxımdan deyil, tədqiqat etibarilə də zəngin bir mənbə olaraq diqqəti cəlb edir. Nəzərə alsaq ki, əsərin yazıldığı dövrdə rus ədəbiyyatı Türkiyədə hələ kifayət qədər tanınmırdı, onda tədqiqatın elmi əhəmiyyəti bir qədər də artmış olar. Bu əsər həm də

onu göstərir ki, Ə. Ağaoğlu Türkiyədə rus ədəbiyyatının ilk tədqiqatçılarından və təbliğatçılarından biri olmuşdur.

Ə. Ağaoğlunun "Rus ədəbiyyatının ümumi səciyyələri" [6] əsəri yığcam şəkildə, icmal xarakterlidir. Lakin bu yığcamlığa baxmayaraq tədqiqatçı rus ədəbiyyatının inkişaf meyillərini düzgün müəyyənləşdirmiş, mərhələlərini, hadisə və şəxsiyyətlərinin yaradıcılığına, əsərlərinə, eləcə də ədəbi prosesə obyektiv qiymət vermişdir. Müəllif rus ədəbiyyatının əsas xarakteri kimi onun həyatiliyini göstərərək yazır*: "Heç bir millətdə ədəbiyyat ruslarda olduğu qədər həyatla müvazi surətdə yürüməmişdir. Ədəbiyyatın bu istiqaməti rus zehniyyətinə o qədər uyğun gəlmişdir ki, rus ədəbiyyatı nəzəriyyəçiləri ədəbiyyatı tərif edərkən, ümumiyyətlə, onu həyatın və mühitin aynası deyə səciyyələndirmişlər. Və həqiqətdə rus ədəbiyyatının tarixi rus mədəniyyətinin tarixidir. Zamanın bütün cərəyanları, mühitin bütün lövhələri ədəbiyyatda əks eyləmişdir: siyasi, ictimai, fəlsəfi, bədii, fikri və hissi cərəyanları ədəbi əsərlərdə təqib etmək qabildir"* [5, s.153].

Ə. Ağaoğlunun əsərində həm rus ədəbiyyatı haqqında ensiklopedik məlumatlar verilir, mərhələləri və şəxsiyyətlərinin yaradıcılıq özünəməxsusluğu qiymətləndirilir, həm də ədəbiyyatın ümumi inkişaf meyilləri araşdırılır. Rus ədəbiyyatının görkəmli nümayəndələri Dosteyevski, Tolstoy və Qorki kimi yazıçıları məktəb yaradan tədqiqatçı bu ədəbiyyatın dünya səviyyəli bir ədəbiyyat olmasının səbəblərini axtarır. Əsər boyu tədqiqatçı rus ədəbiyyatının bu məziyyətini formalaşdıran amillər üzərində dayanmağı üstün tutur. Bu amillər içərisində rus milli vicdanının da payı olduğunu qeyd edir və belə bir nəticəyə gəlir ki, rus ədəbiyyatı *"...rus milli vicdanının tədricən təşkilini həqiqətən görmək imkanı hasil olur"* [5, s.153].

Ə. Ağaoğlu rus ədəbiyyatının xarakterini araşdırarkən onun təbiət etibarilə realist və naturalist təsvirlərə malik olduğuna diqqət çəkir və bu yaradıcılıq metodunu daha səciyyəvi hesab edir. Çünki realizmin gücü məhz rus ədəbiyyatı üçün daha səciyyəvi hesab edilirdi. Realizmin gücü *"...Rusiyanı olduğu kimi", "bütün təzahürləri ilə", "ən çirkin və ən müzlim" cəhətləri ilə, ancaq "heybətbəxş bir müvazinəti" saxlayaraq təsvir etməsindədir. Xalqa tükənməz məhəbbət xalq həyatının*

*mənfiliklərinə yönələn "bir nifrəti", "hiddəti doğurur".* Bu hiddət və nifrət məhəbbətdən doğur [5, s.154].

Tədqiqatçı burada rus ədəbiyyatının məfkurəçilik istiqaməti üzərində də dayanır; "məfkurəçiliyi, nikbinliyi həyatın ən qəmli cəhətləri" ilə birləşdirir, "cılız bir mövzuya" məfkurəvi mahiyyət verir. Onun fikrincə, Rus ədəbiyyatının bu cəhəti ona bir növ mistisizm rəngini qazandırır. Məhz bunun nəticəsidir ki, rus ədibləri *"ən aşağı düşmüş insanda belə* (bizim və rus ədəbiyyatşünaslığında buna kiçik insan deyilir-M.K.) *ilahi bir şölənin parlamaqda olduğunu görürlər və bu hissi oxucularına təlqin edirlər. Bu cəhət Puşkin və Tolstoyun əsilzadə və kübar ailələrini təsvir edən əsərlərindən başlayaraq, Qorkinin artıq süqutun bütün dərəcələrini keçmiş sərsərilər həyatını təsvir edən "Sabiq adamlar" ("Ex hommes") və "Dib" ("Le bosfond") adlı əsərlərinə qədər hakimdir"* [5, s.155].

Ə. Ağaoğlu rus ədəbiyyatını araşdırarkən onun mahiyyəti və xarakteri ilə yanaşı, mərhələ və problemlərinə də diqqət yetirir. Bu da onu göstərir ki, tədqiqatçının rus ədəbiyyatının bu problemləri ilə bağlı bəlli bir təsəvvürü olmuşdur. Tədqiqatçı rus ədəbiyyatşünaslarının bölgülərinə laqeydlik göstərmədiyi kimi, həm də bu bölgüyə özünün də əlavələrini etməklə ədəbi inkişafın bütövlüyünü təmin etmiş olur. Məlumdur ki, XX əsrin əvvəllərində rus ədəbiyyatşünasları onu üç dövrə ayırırdılar: birinci dövr X əsrə qədər-rusların xristianlığı və xristianlıqla bərabər ilk yazını qəbul etdikləri dövrə qədər; ikinci dövr-X əsrdən Puşkinə qədərki dövr; üçüncü dövr-Puşkindən sonrakı dövr. Ə. Ağaoğluda isə dövrlər daha da sadələşdirilmiş şəkildə verilir. Tədqiqatının bu istiqamətini "Rus ədəbiyyatının ilk dövrləri" adlandırır. Bu dövrdə rus şifahi xalq ədəbiyyatı nümunələrindən (bılina, dastanlar ("İqor polku haqqında dastan"), kilsə ədəbiyyatından, səyahətnamələrdən və s. danışılır. Maraqlıdır ki, müəllif bılinalardan söhbət açarkən rus ədəbiyyatına tatar əfsanələrinin təsirini məsələlərinə də toxunur, rus dastanındakı qəhrəmanlara boqatır-bahadır adının verilməsini fikrini təsdiq edir. Burada tədqiqatçı V. P. Stasov, Q. N. Potanin və V. F. Miller kimi alimlərin bütün rus dastanlarının tatarlardan iqtibas olduğu fikrinə də münasibət bildirir. Müəllif bunun əksini düşünən

tədqiqatçılar içərisində Pıpinin adını çəkir. Belə ki, A. N. Pıpin tatar təsirini qəbul etməklə, bu dastanların müstəqil olduğunu da isbata çalışırdı. Ə. Ağaoğlu bu dastanlar içərisində "İqor polku haqqında dastan"ının rus məktəblərində geniş şəkildə təmsil olunduğunu xüsusi qeyd edir və belə bir fikir ifadə edir ki: *"Bu mənzum dastan haqqında böyük bir kitabxana təşkil edəcək qədər elmi əsərlər yazılmışdır. Sırf xalq dühasından doğmuş bu əsər hələ o zaman rus ədəbiyyatının sonralar kəsb eləyəcəyi bütün sifətləri ibtidai bir halda daşıyır"* [5, s.159].

Ə. Ağaoğlu rus ədəbiyyatının ikinci dövrü kimi X əsrdən XIX əsrə qədər davam edən bir dövrü götürür və rus müəlliflərinə istinadən bunun özünü də üç mərhələyə ayırır; 1. Kiyev fəsli-tatar istilasına, yəni XII əsrə qədər; 2. Moskva mərhələsi-tatarların süqutuna qədər davam edir; 3. Yeniləşmə və intibah mərhələsi-XVII əsrdən Puşkin zamanına qədər. Bu mərhələlərin hər biri araşdırmada öz qiymətini alır. Dövrə aid çoxlu səyahətnamələrə, faktlara istinad edən tədqiqatçı sonralar ədəbiyyat tarixlərində öz əksini tapmayan bir çox təfərrüatlara da yer verir. Moskva mərhələsi ilə bağlı rus dövlət xadimi, tərcüməçi, "Böyük Moskva knyazı haqqında tarix" əsərinin müəllifi A. M. Kurbski ilə İvan Qroznının məktublaşmalarına diqqət çəkir: *"İvan məktublarında deyir ki, "Moskva-üçüncü Romadır. Birinci Roma əsil və həqiqi dinə xəyanət etdi. Ona görə də o, Allah tərəfindən lənətlənmişdir. İkinci Roma da İstanbuldur, orada həqiqi din yenidən doğdu. Fəqət İstanbul din düşmənlərinin əlinə keçmişdir. İstanbulun varisi və bütün Rusiya ilə xristianlığın müqəddəs hökmdarı olan çarın paytaxtı Moskva-üçüncü Romadır. Dördüncü Roma olmayacaqdır. Zira, əvvələn iradeyi-əzəliyyə ilə Moskva çarı əbədiyyən bütün cahanın hökmdarı və bütün xristianlığın hakimi təyin edildiyindən bu gün o, ortodoks kəlisasının yeganə hakimidir"* [5, s.162]. Bu kimi mənbələrin rus və sovet ədəbiyyatşünaslığında verilmədiyini nəzərə almış olsaq, tədqiqatçının bu baxış bucağını elmi dövriyyəyə gətirməsi xeyli maraq doğurur.

"Karamzinə qədər rus ədəbiyyatı" mərhələsində tədqiqatçı Kiyev şəhəri və Avropa ilə ədəbi-mədəni əlaqələrinin daha faydalı şəkil almasına, dini mübarizələrə, Tövrat və İncilin tərcüməsi məsələlərinə geniş yer ayırır, Lomonosov, Sumarokov,

Derjavin, Fonvizin, Radişşev kimi şəxsiyyətlərin yaradıcılığına nəzər salınır. Tədqiqatçıya görə, bu dövrün əhəmiyyəti rus ədəbiyyatını təqlidçilikdən qurtarması və *"sonralar isə rus ədəbiyyatının əsasını təşkil edən məfkurəçiliklə müxalifət mahiyyətinin verilməsindən ibarətdir"* [7, s.166]. O da diqqəti cəlb edir ki, tədqiqatçı bu zamana qədər mövzularının əksəriyyətini qədim dövrdən alaraq, xüsusilə məddahlıqla, qəsidənəvisliklə şöhrət arayan rus ədiblərinin məhz bu dövrdən başlayaraq həyatda baş verən hadisələri bir-bir təhlil, tədqiq və təsvir etməyə başladıqlarına diqqət çəkir. Rus ədəbiyyatının bu istiqamətdə dəyişməsində tədqiqatçı ensiklopedistlərin - fransız maarifçilərinin və fransız inqilabının rolunu əsas götürürdü. Eyni zamanda, bu mərhələ üçün ədəbiyyatın "dinin nüfuzundan tamamilə qurtarması", "müstəqil və layiq bir istiqamət alması", nəsrdə "yazı dili ilə canlı dil arasındakı fərqin" qismən aradan qalxması kimi xüsusiyyətlər də göstərilir.

Ədəbi inkişafı tarixi bir proses kimi araşdıran tədqiqatçı "Karamzin dövrü"nün zəruriliyi, vacibliyi üzərində dayanır və Puşkinə qədərki dövrün əsas nailiyyəti kimi Karamzinin ədəbi fəaliyyətini qiymətləndirir və bu dövrü sonrakı inkişafın keçid mərhələsi kimi qələmə verir. Bununla yanaşı, tədqiqatçı Karamzin yaradıcılığında olan məhdud, ziddiyyətli cəhətləri də qeyd etməyi unutmur, xüsusilə, onun Fransa inqilabına mənfi münasibəti və "panslavizm mübəşşiri" kimi fəaliyyət göstərməsi tənqid hədəfi edilirdi.

Tədqiqatçı "Puşkin dövrünün müqəddiməsi və Puşkin dövrü" adlandırdığı dördüncü və beşinci mərhələdə də özünəməxsus araşdırmalar aparır. Dövrün ədəbi inkişaf yolunu izləyərkən rus ədəbiyyatının dünyaya çıxmasının səbəbləri və xüsusiyyətləri təhlil edilir. Ədəbi inkişafın dialektik bir proses olduğuna diqqət çəkən tədqiqatçı rus həyatı ilə ədəbiyyatının paralel olaraq inkişaf etdiyini və müasirləşmə getdiyini bildirir. Puşkinə qədərki mərhələni də "müasirləşmək qələbəsinin müfid təzahüratı" hesab edirdi [7, s.173]. Puşkini yetirən mühiti xarakterizə edərkən belə bir fikir yürüdür: *"Bundan sonra ruslar yavaş-yavaş avropalı qafası ilə rus kimi düşünüb hiss etməyə başlayacaqlardır. Rus Avropa mədəniyyət zümrəsinə girmiş olacaqdır. Fəqət rusluqlarını mühafizə etmiş olacaqlardır"* [7, s.175]. Krılov və Qriboyedov

yaradıcılıqlarının bu istiqamətdə təhlil olunması və rus ədəbi ictimai fikrindəki mövqeləri inandırıcı faktlarla təhlil edilir. Eyni zamanda, hər iki ədibin rus ədəbiyyatında milli istiqaməti inkişaf etdirdiyi qənaətində olan rus ədəbiyyatşünaslarının fikirlərinə də şərik olur. Krılov yaradıcılığının fərqləndirici xüsusiyyətlərini təhlil edən Ə. Ağaoğlu yazır: *"Krılov tamamilə bir rus kimi görür, hiss edir. Krılovu Rusiyada hər sinif əhali anlayır, ondan zövq alır, çünki o, rus kimi duyur, rus kimi düşünür. Dili də, dilinin şivəsi də tamamilə rus dili, rus şivəsidir. Krılov qədər heç bir mühərrir xalq dilinə müraciət edərək ondan Krılov qədər istifadə etməmişdir"* [5, s.177]. Müəllif bu dövrdəki təhlilləri ilə Puşkini Krılovsuz, Qriboyedovsuz yetişdirməyin mümkünsüzlüyünü təsdiqləməyə çalışır və fikirləri ilə kifayət qədər əsaslandırır. Çox zaman Ə. Ağaoğlu bu təhlillərini türk ədəbiyyatının bu günü ilə müqayisəli şəkildə aparmağa çalışır, yeri gəldikcə müəyyən paralellər də aparır.

Şübhəsiz, "Rus ədəbiyyatının ümumi səciyyələri" əsərinin ən yaxşı fəsillərindən biri "Puşkin dövrü"dür. Rus ədəbiyyatı tarixçilərinin milli ədəbiyyat tarixini Puşkindən başlamalarını təbii hesab edən Ə. Ağaoğlu kiçik bir tədqiqatda Puşkinin həyatını, dövrünü, mühitini və yaradıcılığını türk ədəbi, elmi mühitinə anlatmağa çalışır. Tədqiqatçı Puşkinin yaradıcılığının ilk mərhələsində yazdığı əsərlərə italyan şairi Aristonun, ingilis şairi Bayronun, bəzən isə Şatabrionun təsiri olduğu qənaətinə gəlir və dil baxımından yeni bir mərhələ təşkil etdiyinə diqqət çəkir. Bayronun şairə təsirini qeyd edərkən bayronizmin xüsusiyyətləri üzərində dayanır və ayrı-ayrı nümunələr əsasında Puşkin və Bayron yaradıcılığını təhlilə cəlb edir. Romantizmin Puşkin yaradıcılığında yeni bir mahiyyət daşıdığına önəm verən tədqiqatçı yazırdı: *"Puşkindən hasil olan bu intibah bayronizm xəstəliyinin xudpəsəndlikdən doğmuş olduğu qənaətini verir. Bayronun qəhrəmanları mədəniyyətdən qaçarkən ümumun mənafeyini düşünməkdən ziyadə şəxsi arzularının, ehtiraslarının əsiri olmuşlardır. Onlar şəxsiyyətlərini hər şeyin fövqünə çıxarmaq, mühitə hakim olmaq istəmişlər. Puşkin nəhayət Bayronu "qürur şairi", - deyə tərif edir. İştə bu intibahdan sonra romantizm Puşkinin əsərlərində başqa bir şəkil və*

*mahiyyət aldı: şair rus həyatına, rus tarixinə sarıldı, mövzularını oradan aldığı kimi, ilhamlarını da orada aradı və tapdı* [5, s.185].

Beləliklə, "Rus ədəbiyyatının ümumi səciyyələri" əsərində Ə. Ağaoğlu rus ədəbiyyatının tarixi inkişaf yoluna nəzər salmaqla yanaşı, bu inkişaf yolunun ümumi mərhələləri, dövrləri, xarakteri və ayrı-ayrı şəxsiyyətləri haqqında geniş məlumatlar verir. Lakin bu tədqiqat əsərini yalnız informativ yüklü əsər hesab etmək olmaz, çünki burada geniş araşdırma aparılmış, rus ədəbiyyatşünaslarına müəyyən istinadlar edilmiş və ədəbi tənqid, ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən müəyyən qənaətlərə gəlinmişdir. Əgər nəzərə alsaq ki, bu əsər Türkiyə ədəbi mühitində yazılmış, özü də müəllifin İstanbul Dürülfünunda dərs dediyi dövrün məhsuludur, onda tədqiqatın xarakteri və mahiyyəti də aydınlaşmış olar. Bununla belə, Azərbaycan ədəbiyyat tarixçiliyi nöqteyi-nəzərindən baxsaq, tədqiqatda xeyli yeniliklərin olduğunu görmək mümkündür. Belə ki, bu əsər yazılarkən Azərbaycan ədəbiyyatşünaslığında yalnız F. Köçərlinin bəzi ədəbi, tənqidi məqalələri mövcud idi. Lakin F. Köçərlinin bu məqalələrində Ə. Ağaoğlu yaradıcılığına məxsus geniş təhlillər o qədər də nəzərə çarpmır. Düşünmək olar ki, Ə. Ağaoğlunun tədqiqat obyektinin rus ədəbiyyatı olması və bu istiqamətdə ona qədər bəzi araşdırmaların aparılması müəllifə fikrini elmi-nəzəri cəhətdən mükəmməl ifadə etməsinə imkan vermişdir. Məhz bu amilləri nəzərdə tutan akademik K. Talıbzadə daha çox Abdulla Surun ədəbiyyat tarixi arasında səsləşmələr olduğunu nəzərdə tutaraq yazırdı: "*Rus ədəbiyyatının ümumi səciyyələri" bir ədəbiyyat tarixi kimi özünə qədərkilərdən xeyli seçilir. F. Köçərlinin ədəbiyyat tarixlərindən fərqli olaraq burada ədəbi-tarixi proses dövrlər və mərhələlərlə təhlil edilir. Ədəbi hərəkata ümumiləşdirici bir nəzər salınır, ədəbi hadisələr ictimai-siyasi həyatla sıx əlaqədə işıqlandırılır. Doğrudur, bu cəhətdən Abdulla Surun əldə bəzi qaralamaları qalan "Türk ədəbiyyatına bir nəzər" əsəri ilə "Rus ədəbiyyatının ümumi səciyyələri" arasında həm quruluş, həm də təhlil üsulu arasında bir yaxınlıq və səsləşmə vardır. Ancaq Ə. Ağaoğlu qarşısına ayrı məqsəd qoyduğu üçün portret oçerklərə müraciət etməmiş, şəxsiyyətlərin mövqeyini ədəbi prosesin içərisində müəyyənləşdirməyə çalışmışdır"* [67, s.145].

Əlbəttə, Ə. Ağaoğlunun tədqiqatında ədəbiyyat tarixçiliyinin həm müasir, həm də ən çətin yolu seçilmişdir. Ədəbiyyatın bu cür təhlil üsulu həmin dövrdə Azərbaycan ədəbiyyatşünaslığında hələ tam olaraq formalaşmamışdı. Bu təhlildə ədəbi hərəkat bütöv inkişafda göstərilir, rus ədəbiyyatının ümumi xüsusiyyətləri üzə çıxarılır. Bu, hər şeydən əvvəl, ondan irəli gəlirdi ki, Ə. Ağaoğlu yeni nəsil tənqidçi və tədqiqatçılardan olduğundan ədəbi inkişafı nəzəri cəhətdən təhlil etməyə, ümumiləşdirmələr, müqayisələr yolu ilə fikirlərini çatdırmağa nail olurdu. İkinci tərəfdən, araşdırma rus ədəbiyyatı ilə bağlı olduğu üçün müəllifin əlinin altında bəzi mənbələrin olması ehtimalı da vardır. F. Köçərlinin ədəbiyyat tarixi isə ilk olduğundan, olsun ki, bu cür ümumiləşdirici, müqayisəli təhlillər az idi, daha çox şəxsi arxivlərdən, əlyazmalardan istifadə etmişdir.

Akademik K. Talıbzadənin "Rus ədəbiyyatının ümumi səciyyələri" əsərinə verdiyi qiymət yüksək olsa da, tədqiqatçı onun şəxsiyyətinə və dünyagörüşünə ehtiyatlı yanaşırdı. 80-ci illərin sonunda-Sovetlərin dağılması ərəfəsində yazılan bu məqalədə müəllifin hələ də onun yaradıcılığına ideoloji nöqteyi-nəzərdən yanaşmasını yalnız vaxtilə Sovet hökumətini bürümüş inzibati xofun mövcudluğu ilə izah etmək olar. Buna görə də Ə. Ağaoğlunun XX əsrin əvvəllərində Qərb ədəbiyyatı ilə bağlı yazdığı məqalələrə qiymət verərkən onun "burjua nihilizmi"ni də qeyd etməyi unutmur: *"Bununla belə, məqalənin ümumi ruhundan görsənir ki, müəllifin məqsədi dünya ədəbiyyatı incilərinin tətbiqi ilə məhdudlaşmır. O, fürsətdən istifadə edərək müasir ədəbiyyat haqqında öz nəzəri fikirlərini söyləyir. Obyektiv tarixilik prinsipini unudan tənqidçi Avropa ədəbiyyatını milli ədəbiyyata qarşı qoyur. Azərbaycan ədəbiyyatının yeni, müsbət keyfiyyətlərini qiymətləndirə bilmir. Beləliklə, burjua nihizlimi səviyyəsinə enən Ə.Ağaoğlu yeni bir inkişaf yoluna düşmüş müasir milli ədəbiyyata klassik Qərb şedevrlərinin meyarı ilə yanaşır və bircə əsər belə tapa bilmir ki, öz bədii dəyəri etibarilə onu qane etsin"* [67, s.139]. Əslində isə bu məqalələrdə Ə.Ağaoğlunun əsas məqsədi Qərb və Azərbaycan ədəbiyyatları arasında müqayisə aparmaq olmamışdır, yeri gəldikcə, mövzuya uyğun olaraq milli ədəbiyyatımıza da müraciət etmişdir.

Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsərində bir çox problemlər, daha doğrusu, mədəniyyət, dövlət, din, əxlaq, cəmiyyət, fərd, ailə və cəmiyyət anlayışları təhlil edilir və yeni konsepsiyalar irəli sürülür, "mədəniyyət nədir?" sualına cavab axtarılır, "İslam mədəniyyəti", "Qərb mədəniyyəti" arasında ortaq xüsuslar, "qalib və məğlub" mədəniyyətlər müəyyənləşdirilirdi. Lakin əsərdə mədəniyyət konteksti fonunda ədəbiyyat məsələlərindən də söhbət açılır. Yazıçı mədəniyyətlərdəki əxlaq problemindən söhbət açarkən ədəbiyyat məsələlərinə də toxunur. Onun fikrincə məşrutiyyətin elanına qədər yalnız mədrəsələrimizdə deyil, digər məktəblərimizdə də əxlaq adına bir dərs yoxdu. Məktəblərdə olmadığı kimi, ədəbiyyat və mətbuat sahəsində də bu mövzuya aid bir şey tapmaq çətindir [10, s.86]. Ə. Ağaoğlu bunu ədəbiyyatımızda qüvvətli bir fikir cərəyanının olmamasına bağlayır. Onun fikrincə, biz bu sahədə Fransada Paskalın, Almaniyada Leybnitsin zamanlarından geridə qalmışıq. Mövcud olan hindcədən farsca və ərəbcəyə çevrilmiş "Kəlilə və Dimnə", Sədi Şirazinin "Gülüstan" və "Bustan"ının mənəvi təsirlərinin daha dövrümüzü mahiyyət baxımından təmin etmədiyi fikrini irəli sürür.

Ə. Ağaoğlu Şərq ədəbiyyatı, xüsusilə Şeyx Sədinin üzərində geniş dayanır və bu bədii mətnlərin yeni nəsli təmin etmədiyi qənaətinə gəlirdi: *"Biz Şeyxi mükəmməl bir örnək olmaq üzrə seçdik. Əski ədəbiyyatımızda bu kimi əxlaq və tərbiyə əsərləri yazanların hamısı onu örnək olaraq almışlar, onu təqlidə çalışmışlar. Eyni prinsipləri başqa kəlmələrlə və az-çox ona bənzəyən şəkillərdə təkrar etmişlər"* [10, s.87]. Müəllif Şərq mədəniyyətində xüsusi yer tutan ədəbiyyat haqqında yalnız nəzəri fikirlər demir, həm də bu ədəbiyyatı Roma və Qərb ədəbiyyatı ilə müqayisələr edir, müəyyən nəticələrə gəlir. Ədəbiyyatın cəmiyyət hadisələrinə təsiri üzərində geniş dayanaraq Qərb filosoflarının cəmiyyət üzərindəki fikirlərini təqdir edir, yazıçıların yetişməsində bu fəlsəfi təmayülləri xatırlayırdı. Rusiyada "Tolstoyizm"in geniş yayılmasında da bu fikir cərəyanlarının rolu olduğunu göstərirdi. Bütün bunların formalaşmasında məktəblərin, universitetlərin önəmli rolunu qeyd edir və Birinci Pyotrun gördüyü işlərin sonralar öz nəticəsini verdiyini bildirirdi: *"O* (Pyotr-M.K.) *bilirdi ki, bir müddət sonra eyni akademiyada, eyni universitetdə rus dili hakim*

*olacaq və həm də hər gün irəliləyərək, yüksələrək bir gün Avropanın ən önəmli dillərindən biri halını alacaqdır. Gerçəkdən, daha bir nəsil keçmədən Lomonosov kimi rus alim və ədibləri yetişdi. İki nəsil sonra isə Puşkinlərlə Lermantovlar rus dilinə dünyanın ən mükəmməl dilləri qədər parlaqlıq, nəşə və axıcılıq verdilər"* [10, s.124].

Ə. Ağaoğlu Şərq ədəbiyyatında mövcud olan mövzu probleminə də toxunur. Şərq ədəbiyyatında müxtəlif dövrlərə mənsub şairlərin eyni mövzuda əsər yazmalarını, eləcə də həyatı deyil, "əsilsiz", "xəyali" insanları təsvir etmələrini kəskin tənqid edir, Nizaminin "Leyli və Məcnun"u ilə Füzulinin "Leyli və Məcnun"u arasındakı fərqin nədən ibarət olması haqqında sual verirdi. Bütün bunların müsəlman cəmiyyətinə də təsiri olmuş, ədəbiyyat həyatdan uzaqlaşmışdır. Fransa inqilablarını XVIII əsr fransız ədəbiyyatının yaratması ilə bağlı mütəxəssislərin fikrinə istinad edərək "rus fırtınası"nın Tolstoylar, Qorkilərin hazırlaması fikri onun ədəbiyyatdan istəyini aydın göstərirdi. Bununla belə, Tənzimat dövründən sonra türk ədəbiyyatında da müəyyən canlanmanın olduğuna diqqət çəkir və Namiq Kamal yaradıcılığını nümunə göstərir. Onun fikrincə, Namiq Kamal ədəbiyyatı həyata yaxınlaşdırdı, onu mövzu və təmayüllər baxımından canlandırdı, ədəbiyyatın oyuncaq, əyləncə olmadığını, əksinə ciddi ruhi bir ictimai amil olduğunu müdafiə edir. Professor V. Sultanlı "Üç mədəniyyət" əsərində ədəbiyyat məsələlərinin xüsusi bir yer tutduğuna diqqət çəkərək yazır: *"Üç mədəniyyət" traktatında Ağaoğlu ədəbiyyatı bədii-estetik tutumu ilə ictimai-siyasi məfkurənin qovuşuğunda qiymətləndirdiyindən ədəbi prosesə də bu prizmadan yanaşaraq türk ədibi Namiq Kamalın yaradıcılığını təqdir edir"* [63, s.13-14].

Ə. Ağaoğlunun Türkiyə yaradıcılığında "İran və inqilabı" əsəri də xüsusi yer tutur. Belə ki, bu əsər ilk dəfə 1934-cü ildə Ankarada "1500 ilə 1900 arasında İran" adı altında dərc olunub. İkinci dəfə isə əsər 1941-ci ildə "Ağaoğlu külliyyatı"nın üçüncü cildinə daxil edilmişdir. Kitabı nəşrə hazırlayan Səməd Ağaoğlu əsərə belə bir epiqraf vermişdir: *"Atam sağ olsaydı, bu əsərini Ömər Naci başda olmaqla İran*

*inqilabı uğrunda çalışmış və can vermiş türklərə ithaf edərdi",* - deyə düşündüm və buna onun adından mən cəsarət etdim. Səməd Ağaoğlu" [5, s. 363-364].

"İran və inqilabı" əsərində Ə. Ağaoğlu dini tarixi dünyagörüşünü ifadə etmişdir. Müəllif bu əsərində 1500-1900-cü illər arasında İranda türk dövlətlərinin tarixini araşdırır. Əsərdə Səfəvilər dövləti, Şiəlik, idari təşkilat, Şah İsmayıl Xətai, Şah Təhmasib, Məhəmməd Xudabəndə, I Abbas, Şeyx Səfi, II Abbas, Şah Süleyman, Əfqan istilası, Nadir və Əfşarlar, Qacarlar və onların kökləri, Fətəli şah, Babilik, İranda rus-ingilis rəqabəti və İranın bölüşdürülməsi kimi məsələlər yer almışdır. Bununla belə, İran inqilablarına daha çox yer ayrılmışdır. İkinci hissə, demək olar ki, İran inqilabına həsr olunmuşdur. Yazıçı burada inqilabın baş vermə səbəbləri üzərində geniş dayanmaqla yaşadığı yüzillikdə inqilabın gətirdiyi dəyişikliklərin və siyasi hadisələrin cəmiyyətdəki rolunu qabartmaq istəmişdir. Əsərin sonunda müəllifin fars, ingilis, fransız və rus dillərində geniş ədəbiyyat siyahısı verməsi onun zəngin mənbələrdən istifadə etdiyini göstərir.

"İran və inqilabı" əsərində müəllifin üzərində ən çox dayandığı dövr son illərin hadisələridir. Yazıçı bu hissədə ən çox 1890-cı illərdən sonrakı hadisələrə toxunur. İnqilabdan əvvəlki İranın idari və maliyyə vəziyyətləri haqqında məlumat verərkən İran haqqında yazılmış ingiliscə iki əsəri oxumağı tövsiyə edir; bunlardan biri İngiltərənin İran səfarətində olmuş Ser Moryer, digəri isə Lord Kerzonun əsərləridir. Hər iki əsərin həcmi 700-800 səhifədən ibarətdir. Yazıçının bildirdiyinə görə Moryerin əsərini Şükrü Qaya bəy tərcümə etməkdədir. İkinci əsərin müəllifi Lord Kerzon isə "Tayms" qəzetinin əməkdaşı idi. O, özündən əvvəl İran haqqında yazılmış bütün səyahətnamələri gözdən keçirdikdən sonra özü də İrana səyahət etmiş, buranı gəzir, İrana aid heç bir yerdə əldə edilməyəcək statistik məlumatlar, tarixi, coğrafi təfsilatlar, xəritə və cədvəllər vücuda gətirmişdir. Kitabda şahın vergi sistemi, mədaxil və məxaric məsələləri kəskin tənqid edilirdi. Xüsusilə, padşaha gələn mədaxillərin açılması ilə onun təbəələrini necə "xərc"ə salması aydın görünürdü. Müəllif Kerzon şahın tətbiq etdiyi cərimələr haqqında da yazır. Bu cərimələrin necə alınmasına dair Kerzon müəyyən örnəklər də gətirir. Bu örnəklərdən birində şaha

şikayət ərizəsi vermək üçün onun karetinin qabağını kəsən bir əsgər haqqında "Babi, sui-qəsdi!" adı ilə damğalanmasından sonra şahın onu sui-qəsdçi kimi qətlinə fərman verməsindən bəhs edilir. Yalnız sonradan məlum olur ki, əsgərin günahı yox imiş. Səhvi düzəltmək üçün şah qətl edilənlərin ailəsinə "bəşər" verilməsini əmr edir, ona yanlış məlumat verən yavər isə şaha verilmək üzrə səkkiz yüz min tümən cərimə edilir. Ancaq müəllifə aydın olmur ki, cərimə edilən yavərin cəriməsi nə üçün zərərçəkənə deyil, şaha çatmalıdır. Lord Kerzon əsərində ədliyyə sistemi və orduda olan vəziyyəti də bütün reallığı ilə təsvir edir. Ədliyyə sistemi haqqında yazır: *"İki növ hakim və məhkəmə vardır: şəri məhkəmələri, ürfi və mülki məhkəmələr. Şəri qanunları müctəhidlər və mollalar icra edirdilər və ümumiyyətlə, cinayətlər zamanı tətbiq olunurdu. Cəzada "gözə göz, buruna burun" üsulu işlənirdi. Hər böyük şəhərə bir şeyxülislam təyin olunurdu. Mollanın verdiyi hökmləri şeyxülislam möhürlər və valilər icra etdirərlərdi"* [5, s.131].

Ə. Ağaoğlu Nəsrəddin şah zamanındakı islahat və ümumi əfvdən danışarkən onun Avropaya səyahətini önə çəkir və üç dəfə Avropada olduğunu bildirir. Ancaq bu səyahətlərdən İranın islahı üçün mühüm bir şey hasil olmadığı da qeyd olunur. 1889-cu ildə Parisdə inqilabın yüzilliyi zamanı özünün də orada olduğunu xatırladan müəllif onun qürur, təkəbbür, eqoizm və özbaşınalıq kimi bariz xasiyyətlərini şəxsən müşahidə edir: *"Şah Parisi ziyarət edərkən orada tələbə idim. Sərgi münasibətilə Parisdə bir hava balonu vardı. Şah bu balona minib şəhəri yuxarıdan seyr etdi. Yerə enərkən oradakılar arasında sosialist deputatlardan şair Hüqo Lerua (Leroux) da vardı. Şair özünü saxlaya bilməyib şaha xitabən dedi: "Əlahəzrət, mədəniyyətin nemətlərini, əsərlərini gördünüz. Ümid edirik ki, İrana qayıdandan sonra bizim irqimizdən olan ari iranlıları bu nemətlərdən istifadə etdirməyə hümmət göstərəcəksiniz".*

*Şah istehza ilə: "Dedilər ki, şairsiniz. Mən də şairəm. Ümid şairlər üçün bir qidadır. Ümid edin!"* - dedi. İkinci gün bütün Paris qəzetləri zavallı fransız şairinə istehza etdilər" [5, s.134].

Ə. Ağaoğlu İran inqilabının mənəvi amilləri üzərində də dayanır; bu sırada Avropa ilə çoxalmış olan ticarət dövriyyəsi, varlıların uşaqlarının təhsil üçün Qərbə göndərilməsi, Tehran, Təbriz, İsfahan, Şiraz kimi şəhərlərdə yeni yaradılan məktəblər və s. mühüm yer tutduğunu irəli sürür. Eyni zamanda, inqilabın qaynaqları içərisində vaxtilə Hindistana mühacirət etmiş iranlıları-İran zərdüştilərini göstərir. Hindistanın ən zəngin və ziyalı qisminə çevrilən bu iranlılar ana vətənlərilə əlaqələrini kəsməmiş, əski məbədləri ziyarətə gəlirdilər. Onların Hindistanda yaratdığı "Həblülmətin" qəzeti islahatçı və inqilabçı mövqe tutduğundan İranda çox oxunurdu. Bunu nəzərə alan İran rəsmiləri qəzeti qadağan etsələr də, qeyri-rəsmi İrana daxil olur və oxunurdu.

İran inqilabını formalaşdıran amillər içərisində Ə. Ağaoğlu Qafqaz və Qafqaz Azərbaycanını da önə çəkir. İki Azərbaycan arasındakı bu əlaqə və münasibətin daha yaxşı yaşayan, şüurca daha yetkin olan Qafqaz azərilərinin İran üzərinə müəyyən təsirlər göstərməsinə diqqət çəkir. XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanda gedən ictimai-siyasi proseslər, burada yaranan "Əkinçi", "Həyat", "Füyuzat", "İrşad" kimi mətbuat orqanlarının İrana təsirini də istisna etmir. Bununla yanaşı, Osmanlı türk inqilabçılarının İran Azərbaycanındakı fəaliyyətinə də nəzər salır. Professor Brauna istinadən inqilaba zəmin hazırlayan amillər içərisində əcnəbilərə verilən imtiyazları da qeyd edir. Onun əsas amillərdən olduğunu yazan müəllif Nəsrəddin şah zamanında ingilis təbəəsindən Talbot adında birisinə verilən "tənbəki inhisarı" imtiyazı ölkədə böyük səs-küyə səbəb olduğuna diqqət çəkir. Ona verilən imtiyaz əslində kasıb olan əhalinin dolanacaq qaynağından məhrum etməyə xidmət edirdi.

"İran və inqilabı" əsərində inqilabın tarixinə də geniş yer ayrılır; İran şahının bu prosesdə ingilislərə və ruslara güvənməsi, onların siyasi və hərbi gücündən istifadə etməsi, xüsusilə rusların bir çox proseslərdə ordunun gücü ilə inqilaba müdaxilələr etməsi və s. kimi məsələlər detalları ilə verilir. Əsərin bu yeri ona görə əhəmiyyətlidir ki, inqilabın məğlub olma səbəbləri bütün mahiyyəti ilə buradan aydın olur. Müzəffərəddin şahın, Məhəmmədəli şahın və Əhməd şahın hansı yollarla xalqın

qiyamını yatırdığı, azadlıq və istiqlaliyyət duyğularını cilovladığı, yeni idarəetmə sisteminə əngəl olduqları faktlarla göstərilir.

Ə. Ağaoğlunun həm ədəbiyyatşünaslıq, həm də İran inqilabının tarixinə dair əsərləri, irəli sürdüyü fikirlər və gəldiyi qənaətlər onun bir tədqiqatçı, ədəbiyyatşünas və tarixçi olduğunu bir daha göstərir. Onun əsərlərinin üslubu elmi olduğu kimi, təhlilləri, gəldiyi nəticələr də dövrünün elmi yeniliklərini özündə ehtiva edirdi. Bu əsərləri və görüşləri ilə o, Türkiyə ədəbi, elmi mühitinə bir yenilik gətirmiş olur.

## 2.2."Üç mədəniyyət" əsərində kulturoloji görüşləri

XX əsrin əvvəlləri Azərbaycan ədəbi, ictimai fikri siyasi arayışlar içində olmaqla yanaşı, həm də mədəni, kulturoloji problemlər baxımından müəyyən inkişaf yolu keçmişdir. Ayrı-ayrı publisistlər mədəniyyət konsepsiyası kontekstində fikirlərini bildirmiş, dünya mədəniyyəti inteqrasiyası yönündə mülahizələr söyləmiş, məqalələr yazmışlar. Mətbuatda gedən müzakirələrdə H. Zərdabi, Ə. Topçubaşov, Ə. Hüseynzadə, Ə. Ağaoğlu, M. Ə. Rəsulzadə və başqalarının yaradıcılığında kulturoloji görüşlər başlıca yer tuturdu. Bu məqalə və fikirlərdə çağdaş Azərbaycanın, eləcə də türk dünyasının, islam coğrafiyasının yeni mərhələdə mədəniyyət və kulturoloji konsepsiyası müəyyənləşdirilməyə çalışılır, keçmiş mədəniyyətə baxışda yenilikçilik mövqeyində dururdu. Yeni mədəniyyət konsepsiyası axtarışlarının ilk mərhələsində daha çox müqayisələrə üstünlük verilirdi. Bu yöndə əsasən Avropa mədəniyyəti ilə Şərq mədəniyyəti qarşılaşdırılır və müqayisə edilir, xalqın milli şüurunun hansı istiqamətdə formalaşması məsələlərində müxtəlif və bir-birinə zidd fikirlər irəli sürülürdü. Məhz bunun nəticəsi idi ki, Ə. Hüseynzadə baş mühərriri olduğu "Həyat" qəzetinin 1-ci sayında yazırdı: *"Avropa ülumuna, maarifinə, ədəbiyyatına, sənət və sənayesinə kəsbi-vüquf etməgə və millətimiz beynində nəşrə çalışmalıyız. Biz belə yapmağa qeyrət edəcəgiz. Məsləkimiz bunu iqtiza etdirir".* Ə. Hüseynzadənin sonralar "Füyuzat" jurnalında bir az

təkmilləşdirdiyi ideya sonrakı kulturoloji proseslər üçün bir mənbə olur: *“Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, Amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai! Çünki bu dövr kütahdamənlər, tizrəftarlar dövrüdür”* [38, s.9].

Lakin getdikcə yeni mədəniyyət konsepsiyası arayışları bütün türk dünyasını əhatə edir. Ötən əsrin ikinci onilliyində Ziya Göyalp "Türk yurdu" dərgisində bu istiqamətdə yazdığı məqalələrdə yeni fikirlər irəli sürərək "türk millətindənəm, islam ümmətindənəm, Batı (Qərb, Avropa) mədəniyyətindənəm" şəklində formulə etmişdir. Böyük fikir adamının bu istiqamətdə araşdırmaları əvvəlcə "Türkləşmək, islamlaşmaq, müasirləşmək" [1918], daha sonra isə "Türkçülüyün əsasları" (1923) kitablarının nəşri ilə nəticələnir [127; 34]. Bu əsərlərində Z. Göyalp milli kültür və mədəniyyət anlayışlarına aydınlıq gətirərək yazırdı: *"Türkçülər tamamilə türk və müsəlman qalmaq şərtilə qərb mədəniyyətinə tam və qəti bir surətdə girmək istəyənlərdir. Ancaq qərb mədəniyyətinə girməkdən öncə, milli kültürümüzü arayıb taparaq meydana çıxarmağımız tələb olunur"* [34, s.50].

Ə. Ağaoğlu Türkiyəyə getdikdən sonra isə bu problemləri davamlı şəkildə əsərlərində qaldırmağa və həll etməyə çalışırdı. İstər ayrı-ayrı məqalələrində, istərsə də "Üç mədəniyyət", "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri", "Könülsüz olmaz", "Mən nəyəm?" və s. onlarla bədii-publisistik əsərlərində yeni cəmiyyət quruculuğuna uyğun problemlər qaldırırdı. Bu problemlərdən biri də ailə, fərd, əxlaq kimi məsələlər idi ki, cəmiyyətin diqqəti daim bu problemlərdə olurdu. Əsas məsələ isə bu problemlərə yeni prinsiplə yanaşmaq, cəmiyyəti irəli aparacaq fikir və ideyalar ortaya qoymaq idi. Demək lazımdır ki, bu istiqamətdə Türkiyə siyasi, ictimai həyatında daim müzakirələr gedirdi. Ona görə ki, cəmiyyət hər gün dəyişib, siyasi hadisələr sürətlə bir-birini əvəz etsə də, onun problemlərinin həll edilməsi zamanı ənənəvi mühafizəkarlıq hələ də qalmaqda və bu məsələlərin həllinə əngəl törətməkdə idi. Türkiyədə bu məsələlərdə ən yenilikçi mövqedən çıxış edənlərdən biri Ə. Ağaoğlu olmuşdur. Məhz buna görə də müasirləri və eləcə də

Türkiyə ədəbiyyatşünasları onu Qərb mövqeli (bəzən isə "almanyanlı") bir tənqidçi, siyasətçi kimi qələmə vermişlər. Ö. Ufuk bu fikirlərə münasibət bildirərkən onun ittihadçılar dövründə alman yanlısı fəaliyyətinə diqqət çəkir [138, s.124-127]. Əslində isə o yenilikçi bir ziyalı, fikir adamı idi və onun fikirləri dünyada gedən prosesləri özündə ehtiva etdiyi üçün onu daha çox qərbçi adlandırırdılar. Tədqiqatçı Ufuk Özcan ona həsr etdiyi monoqrafiyasını "Yüzyıl dönümündə batıcı bir aydın Əhməd Ağaoğlu və rol dəyişikliyi" [138] adlandırmışdır. S. Şimşir [145], B. Şimşir [144], Ç. Yetkin [123], E. Kayabaş [132], F. Sakal [141], F. Georgeon [126] və b. onlarla tədqiqatçıların da publisisti qərbyönlü kimi təqdim etmələri tamamilə onun yaradıcılığının məzmunundan doğurdu. Bununla yanaşı, Ə. Ağaoğlunun Türkiyə ictimai-siyasi həyatında bir qərbçi kimi tanınması həm də onun yenilikçi olması və cəmiyyət hadisələrini yenilkçilik mövqeyindən obyektiv şəkildə təhlil etməsindən irəli gəlirdi. Maltada əsirlikdə olduğu vaxt yazdığı “Üç mədəniyyət” əsərində bir çox problemlərlə yanaşı, əxlaq, fərd, ailə və dövlət məsələlərinə də özünün həm nəzəri, həm də praktik münasibətini bildirmişdir. Əlbəttə, əsərdə cəmiyyət, hüquq problemlərinə geniş yer vermiş və sonralar bu əsərini silsilə olaraq “Türk yurdu” qəzetində dərc etdirərək yeni cəmiyyət quruculuğunda yaxından iştirak etmişdir.

Ə. Ağaoğlunun Türkiyə yaradıcılığında bu problemlər davamlı və sistemli xarakter daşımış və konsepsiya halını almışdır. Z. Göyalpdan sonra bu istiqamətdə türk dünyasında özünün konsepsiyasına malik ikinci bir fikir adamı Ə. Ağaoğlunun olduğunu cəsarətlə bildirmək olar. Ailə, fərd, əxlaq məsələsinə də o, mədəniyyət konsepsiyası kontekstində nəzər salmışdır. Mədəniyyət anlayışı və yeni mədəniyyət konsepsiyası yaradıcılığında epizodik xarakter daşımamış, əksinə getdikcə daha da dərinləşmiş və Türkiyə yaradıcılığında genişlənərək mühüm bir yer tutmuşdur. Onun mədəniyyət düşüncələri ayrı-ayrı məqalələrində, ən əsası isə 1919-1920-ci illərdə Malta sürgünündə yazdığı "Üç mədəniyyət" əsərində konsepsiya şəklində ifadə olunmuşdur. Məsələ burasındadır ki, uzun müddət Ə. Ağaoğlu yaradıcılığı öz vətənində tədqiqata cəlb olunmadığından bu əsər həm dərc edilməmiş, həm də tədqiqatdan kənarda qalmışdır. Əslində isə bu əsərdə Ə. Ağaoğlu dünya

sivilizasiyasının beşiyi olan Şərq mədəniyyətinin tənəzzülünün səbəblərini göstərməklə yanaşı, Qərb mədəniyyətini mənimsəmə yollarını və formalarını da axtarmışdır. Ə. Ağaoğlu əsərinin ilk 1927-ci il nəşrinə yazdığı və sonrakı nəşrlərdə də yer alan "Ön söz"də bu barədə yazırdı: *"Əsərin mövzusu dünya üzərində yan-yana yaşayan üç mədəniyyətdən birisinin, yəni Qərb mədəniyyətinin digərlərinə qalib gəldiyini və dolayısıyla qurtuluşumuz üçün bu mədəniyyəti olduğu kimi mənimsəməkdən başqa çarə olmadığını göstərməkdi"* [10, s.19].

"Üç mədəniyyət" əsərinin yazıldığı dövrdə Türkiyənin, eləcə də Azərbaycanın bu mədəniyyətlər arasında qalması bu ölkələrin hər birinin gələcək inkişaf yolunu müəyyənləşdirməyə əsas verirdi. Aydındır ki, islam dünyasının Qərb mədəniyyəti qarşısında geri qalması fikri XIX yüzilin ortalarından başlayaraq "Gənc türklər"in yaradıcılığında, XX əsrin əvvəllərindən isə Azərbaycan ədəbi, ictimai fikrində bu və ya digər şəkildə ifadə olunmuş və bu proses 20-ci ilə qədər davam etmişdir. Türkiyədə Cümhuriyyətin qurulması ilə bağlı aparılan araşdırmalarda da bu axtarışlar davam etmişdir. Bir çox fikir adamları Türkiyə Cümhuriyyətinin ilk illərində qurtuluş resepti olaraq gah İslam birliyini, gah türk-islam birliyini, gah da türk birliyini əsas götürürdü. Ə. Ağaoğlu isə tamamilə fərqli bir yolla gedirdi; bu yol, sonralar Türkiyə Cümhuriyyətinin tutduğu Qərb mədəniyyəti yoludur ki, bu da Ə. Ağaoğlunun siyasi prosesləri vaxtında görüb dəyərləndirdiyini bir daha təsdiq etmiş olur.

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində əvvəlcə "mədəniyyət" anlayışının mücərrəd məna daşımasını önə çəkir və bunun üçün bu anlayışın özünün mahiyyətini açmağa çalışır. O, "mədəniyyət" anlayışını "sivilizasion" anlayışı ilə bərabər tutaraq ona verilən tərifləri ümumiləşdirərək belə qənaətə gəlir ki: *"Biz bu deyimi, zənnimizcə, bütün tərifləri əhatə edən və bu kəlməyə ən geniş mənanı verən "Həyat tərzi" olaraq qəbul edirik. Belə ki, mədəniyyət demək "həyat tərzi" deməkdir. Yalnız həyat qavarmını ən geniş və əhatəli bir mənada anlamaqdır. Həyatın bütün təcəllilərini, maddi və mənəvi bütün olaylarını o qavram əhatə etməlidir"* [10, s.24]. Lakin publisistin bu mədəniyyətlər arasında heç də "Çin səddi" çəkmək fikri yoxdur, çünki bu mədəniyyətlər arasında "bir çox sızmalar", "qarşılıqlı əlaqələr", "sıx

təmaslar" vardır. Bu mədəniyyətlər içərisində səkkiz milyoluq Budda-Brahma, Qərb və ya Avropa mədəniyyəti və İslam mədəniyyətlərinə toxunaraq onların yayılma coğrafiyasını da göz önünə gətirir. Bu müxtəlif mədəniyyət zümrələrinin yayılma sahəsinə nəzər yetirən Ə. Ağaoğlu qan, cins, rəng və dil dəyişikliklərinə rəğmən, onların bəzi ortaq və ümumi tərəflərini üzə çıxarır. Ümumi tərəflər insanların yalnız görünüşlərinə deyil, eləcə də iç tərəflərinə-onların ruhi hallarına, görüş tərzlərinə və zehniyyətinə qədər gedib çıxır. Bu bənzəyiş hər üç mədəniyyətə sahib olan insanlar arasında vardır. Yəni sıradan bir istanbullu sıradan bir mərakeşlini, bir kabillini, bir kəlküttəlini özü kimi düşünürsə, sıradan bir romalı da Parisdə, Vyanada, Londonda, Vaşinqtonda özünü öz mühitindəki kimi hiss edir, eyni zamanda, bir yapon da Koreyada, Pekində, Tibetdə özünü heç cür yad hiss etmir. Bütün bunlar bir mədəniyyət zümrəsinə mənsub qövmlər arasındakı ümumi və ortaq tərəflərin olduğunu bir daha aydın göstərir.

Ə. Ağaoğlu daha sonra üç mədəniyyət arasında oxşar və fərqli cəhətləri əhatə edən məsələləri iki qismə bölür: maddi və mənəvi. Maddi qisim dedikdə, geyimlərin şəkli, binaların forması, ibadət və ayinlərin icra tərzini, mənəvi qism dedikdə isə, düşüncə və duyğunu nəzərdə tuturdu [10, s.26]. O, ikinci qismin yayılma arealını daha geniş və əhatəli hesab edərək bu mədəniyyətlərin tarixinə ekskurs edir. İslam aləminin hər tərəfindən gəlmiş alimlər, ədiblər ərəb və fars dillərini mükəmməl bilməklə bir yerə toplanıb akademiya qurduqları kimi, qərb alim və yazıçıları da fransızcanı, ingiliscəni, almancanı, üstəlik əski latıncanı da öyrənirdilər. Onun fikrincə, XIX əsrdə mətbəəçilik və əlaqələrin inkişafı Qərb mədəniyyətini önə çıxarmışdır. Ə. Ağaoğlu onları qarşılaşdırarkən Qərb mədəniyyətinin üstün durumda olduğunu söyləyir. Yəni Qərb mədəniyyətini qalib, Budda-Brahma və İslam mədəniyyətinin isə məğlub durumda olduğunu iddia edir. Əlbəttə, bu cür fikirləri o dövrdə səsləndirmək böyük cəsarət tələb edirdi; ona görə ki, hələ də sivilizasiya, idarəetmə baxımından islam aləminə heyranlar və onu kor-koranə müdafiə edənlər çox idi. Ə. Ağaoğlu onları *"gerçəyi görməməkdən xoşlanan korlar"* adlandırırdı [10, s.28].

Ə. Ağaoğlu yenilməni də iki yerə bölür: maddi və mənəvi. Maddi yenilmənin çox açıq olduğunu və üç yüz ildən bəri başlandığını və islam cəmiyyətlərinin bir-birinin ardınca tənəzzül yaşamasını, sonuncu qala Osmanlının da yıxıldığına diqqət çəkir və bu nəticəni Qərb mədəniyyəti ilə mücadiləsinin nəticəsi hesab edirdi. Mənəvi yenilmə isə maddi yenilmə qədər acı olmasa da, bir fikir adamı üçün mütləq olduğunu söyləyir. Yenilmə dedikdə isə, başqasının şəxsiyyətini qəbul və iradəsinə tabe olmağı nəzərdə tuturdu. Bu baxımdan Şərqi ictimai, siyasi, texniki müəssisələrdə təlim və təhsildə Avropanın bütün-bütünə öyrəncisi hesab edirdi. Bununla belə, bu təqlid bəzən istəyə bağlı olursa, bəzən də sırf zorla həyata keçirilirdi. Hər iki halda Şərq mədəniyyətinin yenildiyinə diqqət çəkən publisist yazırdı: *"Bu baxımdan istər islam və istərsə də Budda-Brəhmən mədəniyyəti yenilmişdir, Qərb mədəniyyətinin şəxsiyyət və özəlliklərini qəbul və onun iradəsinə tabe olmaq məcburiyyətindədirlər. İstər müsəlmanlar və istərsə sarı irq çevrəsi əlbisələrindən və evlərinin döşəməsi kimi həyatın maddi təcəllilərindən başlayaraq ədəbiyyat və musiqi kimi mənəvi tərəflərin ən munis köşələrinə qədər Avropa modellərini təqlid etməkdədirlər "* [10, s.29].

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində bir fikir adamı kimi, özünü tamamilə bu təmayüllərdən kənara çəkir, sanki bu mədəniyyətlərin müqayisəsində hissə qapılmır, əksinə faktlarla ehtimallarını, nəzəri və praktik düşüncələrini sübuta yetirməyə çalışır. Doğrudan da, onun yaşadığı dönəmdə cəmiyyətdəki cərəyanlar, baş verən tarixi, ictimai-siyasi hadisələr problemin nə qədər ciddi olduğunu göstərirdi. Bu zaman istər Asiya, istərsə də islam cəmiyyətlərində bir-biriylə mücadilə aparan iki axını aydın görmək olurdu; məhəlli, əski ənənələrə dayanan mədəniyyətlə, Qərb mədəniyyəti tərəfdarlarının mübarizəsi davam edirdi. Bir tərəf keçmişi və yüzillərdi sahib olduğu ənənəni qorumağa çalışır,o biri tərəf isə mühafizəkarlığa meydan oxuyaraq qərb mədəniyyətini təbliğ edirdilər. Ə. Ağaoğlu da həyatın o zamankı tələblərindən çıxış edərək *"Avropa mədəniyyətindən sakınmaq istəyən bütün cəmiyyətlərin və özəlliklə islam mədəniyyətinə mənsub olanların hər gün tükənib getməkdə olduqlarını görürük"* [10, s.30] fikri ilə ikinci cərəyana haqq verirdi.

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərini 1919-cu ildə Maltada əsarətdə olduğu zaman yazsa da, əsər yalnız 1927-ci ildə işıq üzü görmüşdür. O zamandan bu əsər bir neçə dəfə nəşr edilmiş, Azərbaycan elmi mühitində olmasa da, Türkiyədə əsərə az da olsa münasibət bildirilmişdir. Lakin əsərə münasibətdə müxtəlif fikirlilik özünü göstərməkdədir. Bu müxtəliffikirlilik, özünü əsasən, Türkiyə ədəbiyyatşünaslığında biruzə verir. Bu da təbiidir, 80 ildən çoxdur ki, Türkiyədə bu əsər təhlil edilir, buradakı fikirlərə münasibət bildirilir. Onu da nəzərə almaq lazımdır ki, əsərin yazıldığı dövr və şərait, həyat şərtləri tamamilə başqa idi; müsəlman cəmiyyətləri çökməkdə, yeni siyasi, mədəni inkişaf yolları axtarışında idi. Ona görə də, olsun ki, buradakı fikirlərdə dövrün və siyasi şəraitin xarakterindən irəli gələn fikirlər də səslənmiş olsun. Həqiqətən də, əsərdə bu cür fikirlərə rast gəlmək olur. Lakin bu fikirlərə mövcud kontekstdən yanaşmaq lazım gəlir. Yalnız bu zaman əsərə obyektiv qiymət vermək mümkündür. Bir şey aydındır ki, Ə. Ağaoğlunun bu əsərindəki bir çox fikirlər, ideyalar istər zamanında, istərsə də bugünkü şərtlər baxımından aktuallığını qoruyub saxlayır. Bunu Türkiyə araşdırıcısı Şaban Öz təsdiq etsə də, müəllifin bəzi fikirləri ilə razılaşmır: *"1919-cu ildə yazılmasına rəğmən, yazarın bir çox mövzudakı görüşləri hazırda bəlli bir kəsim tərəfindən müdafiə edilməsi, mövcud fikirlərin mənşəyinə çatması baxımından böyük önəmi vardır. Ancaq yazarın ideoloji baxışla mövzulara münasibəti, ya da islamiyyət haqqındakı məlumatlarının yetərsizliyi, ziddiyyətli, əsası olmayan tezislər atmasına nədən olmuşdur* [137, s.181].

Göründüyü kimi, tədqiqatçı Ə. Ağaoğlunun dünyagörüşündə "islamiyyət haqqındakı məlumatlarda yetərsizlik" olduğunu iddia edir. Bu məsələ ətrafında bir qədər geniş dayanmağı lazım bilirik. Hər şeydən əvvəl, Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsərinin janrına diqqət yetirək. Onun bu əsərini Azərbaycan ədəbiyyatında M. F. Axundzadənin "Kəmalüddövlə məktubları", Ə. Hüseynzadənin "Siyasəti fürusət", M. Ə. Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərlərilə müqayisə etmək olar. Əsəri janr etibarilə fəlsəfi traktat da adlandırmaq mümkündür. Ona görə də əsərə və oradakı fikirlərə qiymət verərkən dövrün prizmasından yanaşmaq, fikrimizcə, daha doğru olardı. Şaban Özün Ə. Ağaoğluda razılaşmadığı ideoloji

baxışları və guya mövzu ilə bağlı məlumatsızlığıdır. Doğrudanmı, Ə. Ağaoğlunun islam mədəniyyəti ilə bağlı bilgiləri bu qədər yetərsiz olmuşdur? Burada həm də araşdırıcını narazı salan cəhət xristianlıqla islamiyyətin müqayisəsidir: *"Tarixi prosesdə siyasi praktik sahə olaraq xristiyanlıqla islamiyyətin qiyaslanması da ayrı bir sorundur. Bunu ifadə edim ki, islam dünyası xristiyan dünyanın tam əksinə, dinin siyasi erklər üzərindəki hegamoniyasını deyil, siyasi iqtidarın din üzərinə basqılarına şahid olmuşdur"* [137, s.1801].

Əlbəttə, tarixi şərait daim dəyişir və yeniləşir; ictimai fikir fasiləsiz olaraq inkişafdadır. Bu mənada Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsərində olsun ki, M. F. Axundzadənin "Kəmalüddövlə məktubları"nda olduğu kimi, bəzi yerinə düşməyən fikirlər də vardır. Ancaq, bütövlükdə götürdükdə, bu əsərin əhəmiyyəti olduqca böyükdür. O ki qaldı, Ə. Ağaoğlunun islam aləmi ilə bağlı bilgi yetərsizliyinə, Şaban Öz, olsun ki, onun həyat və yaradıcılığını yetərincə öyrənməmişdir. Belə ki, Ə. Ağaoğlu hələ gəncliyində islam dini və islam aləmi ilə bağlı yazılarla tez-tez çıxış edirdi. İslam aləminin mütəfəkkiri Şeyx Cəmaləddin Əfqani ilə Parisdə bir yerdə qalmış, onun fikirlərini dərindən mənimsəmişdi. 1892-ci ildə dünya şərqşünaslarının Böyük Britaniyada keçirilən IX Beynəlxalq konqresində "Şiəlikdə məzdəki inancları" adlı məruzə ilə çıxış etmiş və bu məruzə şərqşünasların maraq və diqqətini çəkməklə yanaşı, İran şahının da hədiyyəsinə layiq görülmüşdü. 1890-cı ildən başlayaraq Parisin "La Nouvelle Revue", "La Revue bleue politigue et litteraire", "Journal des debats" kimi xarici nəşrlərdə İslam aləmində yaşayan xalqlarınhəyatı, məişəti, dini inancı ilə bağlı məqalələrlə çıxış etmişdi. Başqa sözlə, Ə.Ağaoğlu islam və türk tarixini və onun problemlərini yaxşı bilirdi.

Ə.Ağaoğlunu yaxşı tanıyan və onun dava dostlarından biri olan Yusif Akçura "Türkçülüyün tarixi" əsərində onun islam aləminə bələdliyini önə çəkərək yazırdı: "Əhməd bəy türkcə qəzetçiliyə başlamadan öncə "İslama görə və islamda qadın" adlı rusca bir kitabça yazıb nəşr etdirmişdir (əsər 1901-ci ildə Tiflisdə çap olunmuşdur-M.K.). Bu kitabça da basılmamış türkcə "Dialoq" kimi (Ə.Ağaoğlunun "İslam və Axund" əsəri nəzərdə tutulur, nəşr edilməmiş xalq arasında səs-küyə səbəb olmuş və

müəllifinə qarşı yönəlmişdir - M.K.) islamı görüşlərində irəlici olduğunu, abbasilərin orta dövrünə qədər bu mütərəqqi hərəkat davam etdiyi halda, daha sonra alimlərin və şeyxlərin mənfəətcikləri üzündən islamın gerilədiyini və çökdüyünü iddia etməkdədir" [22, s.229].

Göründüyü kimi, Ə.Ağaoğlunun yaradıcılığında islam və onun mədəniyyəti kifayət qədər geniş yer tuturdu. Hətta, belə demək mümkünsə, islam Ə. Ağaoğlu yaradıcılığının əsas sütununu təşkil edir. Əsərin yazıldığı dövrdə Qərblə Şərqi, islamla xristianlığı eyni dərəcədə bilən görkəmli fikir adamı idi. Bu ayrı məsələdir ki, onun islamla bağlı fikirləri müxtəlif dövrlərdə müəyyən etirazlarla qarşılanmışdır. Halbuki Ə.Ağaoğlunun islamla bağlı fikirləri elmə əsaslanır və mövcud reallığı əks etdirirdi. Ona görə də, Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsərini qiymətləndirərkən bu amilləri nəzərə almaq lazımdır. Fikrimizcə, əsəri ilk dəfə Azərbaycanda nəşrə hazırlayan və ön söz yazan professor Vaqif Sultanlı daha doğru mövqedən yanaşmışdır: *"Əsər ədibin dünyagörüşünün konseptual tərəflərini öyrənmək baxımından onun bütün digər tədqiqatlarından daha çox material verir"* [10, s.12]. Bütün bunlar onu deməyə əsas verir ki, Ə.Ağaoğlunun "Üç mədəniyyət" əsəri ədəbiyyatşünaslar, sosioloqlar, tarixçilər tərəfindən hələ yetərincə öyrənilməmişdir. Onun din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət və s. komponentlərlə bağlı fikirləri bu gün də aktuallığını qoruyub saxlayır.

Ə.Ağaoğlunun Türkiyə yaradıcılığında din və islamçılıq məsələləri də başlıca yer tuturdu. Özü də bu problemlə o, həm Fransada tələbə olarkən, həm Azərbaycanda, həm də Türkiyədə sistemli şəkildə məşğul olmuşdur. Nəzərə alsaq ki, "Üç mədəniyyət" əsərini Maltada sürgündə olarkən yazmış və bu əsərin böyük bir bölümünü dini məsələlər təşkil edir, o zaman onun islamçılıq və din probleminə yaradıcılığının bütün mərhələlərində (sürgün də daxil olmaqla!) önəm verdiyini aydın görmək olar. Belə demək mümkünsə, islamçılıq və din problemləri Ə. Ağaoğlu yaradıcılığının əvvəlindən sonuna qədər, bu və ya digər şəkildə prioritet istiqamətini təşkil etmişdir. Hətta onun din, islamçılıq problemləri ilə müntəzəm olaraq məşğul olması, bu barədə çoxlu məqalələr və əsərlər yazması bir müddət Azərbaycan və

Türkiyə ictimai mühitində islamçı kimi tanınmasına nədən olmuşdur. Nə qədər ki, "Kaspi" qəzetində işləyirdi, rus auditoriyasına müsəlman, islam problemlərini çatdırırdı. Fransada etdiyi məruzənin davamı olaraq islam və din problemi ilə bağlı fikirlərini ayrı-ayrı məqalələrində ifadə edirdi. "Kaspi" mətbəəsində 1904-cü ildə çap olunan "İslam və axund" kitabçası isə özünün sərt polemik ruhu və məsələlərə yanaşma orijinallığı baxımından seçilirdi. Təsadüfi deyil ki, onun "Kaspi"dəki fəaliyyəti Qafqaz Senzura Komitəsi tərəfindən panislamist və pantürkist kimi tanıdılmışdı. V.Quliyevin yazdığı kimi: *"Kişmişev və Qaraxanovun Qafqaz Senzura Komitəsinin sədri M P.Qakkelə sonuncunun isə Qafqaz canişininə ünvanladığı "məxfi məlumatlarda" mətbuat vasitəsilə ictimai fikirdə "panislamizm" və "türkçülük" ideyaları yayan Azərbaycan yazıçı və jurnalistləri arasında "birincilik çələngi" istisnasız şəkildə Ə.Ağaoğluna verilirdi. Bu yolla onu susdurmaq istəyirdilər" [*51, 9-10].

"Həyat" qəzetində işləməsi ilə yazılarının mövzu və problematikası yox, auditoriyası dəyişməli oldu, yəni rus auditoriyasından milli arenaya keçdi. Bu zaman publisist yalnız din məsələləri ilə bağlı yazılar yazmırdı, həm də ümum müsəlman aləminin ictimai-siyasi problemlərini qaldırırdı. Türkiyəyə ilk getdiyi günlərdə də məqalələrinin əsas problematikasını müsəlman, islam aləmi və din kimi mövzular təşkil edir, bununla bağlı problematik yazılar yazırdı. Bu o zaman idi ki, Qərb dünyasının inkişafına baxmayaraq islam aləmi sürətlə geriləməkdə idi. Bunun səbəbini axtaran ziyalılar baxış etibarilə iki yerə bölünürdülər; Türkiyədə (eləcə də Azərbaycanda) birinci qisim ziyalılar, şair və yazıçılar müsəlman dünyasının geridə qalmasını islamda, dində görürdülər. İkinci qisim isə, əksinə, islam aləminin geridə qalmasını islamdan uzaqlaşmaqda axtarırdılar. Ancaq hər iki cəbhə islam aləminin geridə qaldığını qəbul edir və buna qarşılıq yollar axtarırdılar. Bu qüvvələr arasında məşrutiyyət dönəmindən başlayaraq gedən kəskin mübahisələrdə gələcək cəmiyyətin ilk konturları da cızılırdı. Belə mübahisələrdən biri Ə.Ağaoğlu ilə Ahmet Naim əfəndi arasında getmişdir. A.Naim hələ yenicə formalaşmaqda olan türkçülüyü qəbul etməyərək onu qərblilərin ortaya atdığını və Rusiyalı tatar türkçülərin (burada eyni

zamanda Y.Akçura, Ə.Hüseynzadə, Ə.Ağaoğlu da nəzərdə tutulurdu - M.K.) Türkiyəyə idxal etdiklərini və onun zərərli bir ideoloji olduğunu bildirir və türkçülük ideologiyasının yayılması sayəsində islamın bütünlüyünə zərər gələcəyi fikrini müdafiə edirdi [110].

Ə.Ağaoğlunun islamçılığı isə daha çox modernist islamçılıq idi. Orta bir yol modernist islamçılarla ənənəçi islamçıları birləşdirməkdən keçirdi. Ə. Ağaoğlu da məhz bu yolu tutmuşdu; türkçülüklə islamçılığın sintezini ən doğru yol olaraq görürdü. Türkiyəyə getdiyi ilk illərdə "Türk yurdu" dərgisində nəşr edilən məqalələrdə bu sintezi aydın görmək olar. Doğrudan da, türkçülüklə islamçılıq arasında gedən ideoloji mübarizədə bu tendensiya yeni olmaqla, həm də heç cür uzlaşa bilməyən tərəf kimi qəbul edilirdi. Ə.Ağaoğlunun bu türkçülüyü bir müddət fars və ərəb kimliyinə qarşı qoymaq kimi başa düşülürdü. Ə.Ağaoğlu isə yazdığı silsilə məqalələrində bu tendensiyanı müdafiə edərək islamçı siyasəti və islamçıların türkçülük üzərinə tənqidlərini yumşaltmaq yolunu tutdu və bu iki tendensiyanın sintezini yarada bildi. Ona görə də Ə.Ağaoğlunu bir türkçü-islamçı fiqur olaraq qəbul etmək daha doğru olardı. Bunu onun yaradıcılığı və ictimai fəaliyyəti də sübut edir. Onun islamçı dünyagörüşü ilə bağlı Ö.Ufuk doğru yazır ki: *"Ağaoğlu kimi ziyalılar "din və əxlaq" düşkünlüyü" kimi zəif və elmdən kənar bir gərəkçəyə bel bağlaya bilməzdi. Ağaoğlu islam toplumlarının Batı uyğarlığı qarşısında son iki yüz ildi üstünlüyünü sürdürməsinin əsasında olan faktorlar içində mənəvi dəyərlərin itirilməsi deyil, islamın yeni koşullara uyum saxlaya bilməməsi qarşısında Qərbin maddi və mənəvi baxımdan üstünlüyü ələ keçirməsini göstərirdi"* [138, s.115].

Bu mənada Ə.Ağaoğlu ənənəvi islamçılardan ayrılırdı və aralarındakı fərq getdikcə böyüyürdü. O, milliyətindən və dilindən asılı olmayaraq islam aləminin cəmiyyət xəstəliklərini üzə çıxarmaq və onu sağaltmaq üçün çalışırdı. Lakin Renan və bəzi şərqşünasların düşündüyü kimi, islamı elm və inkişafa izn və imkan verməyən bir din olaraq qəbul etmirdi, problemin daha çox tarixi aspektdə olduğu qənaətində idi. Ona görə islamın inkişafa mane olmasını müdafiə etmək mənasız olduğu kimi, onu sübut etmək də mümkün deyildir. Bu nədənlə islam dünyasının

geriləməsinin və çökməsinin səbəblərini daha dərin qatlarda axtarırdı. Onun fikrincə, islam dünyasının geridə qalmasının səbəbi cəmiyyətdəki üç problemlə bağlıdır. Bunlar "üləma, ümera və ərbabi-kalem"dir" [111]. Ə.Ağaoğluna görə, hər bir cəmiyyətdəki toplumları irəli aparan, onun inkişafını təmin edən zümrələr vardır. Yəni hər bir cəmiyyətin irəliləməsində, yaxud geriləməsində bu siniflər əsas rol oynayır. İslam cəmiyyətində isə "üləma, ümera və ərbabi-kalem" sinifləri bu cəmiyyətin irəliləməsini təmin edə bilməmişlər [111].

Ə.Ağaoğlu Türkiyə yaradıcılığının birinci onilliyində dinlə bağlı xeyli məqalələr yazmış, mübahisələr aparmışdır. Lakin siyasi, tarixi hadisələrin bir-birini əvəz etməsi fonunda dinin cəmiyyətdəki rolu da sürətlə dəyişirdi. Yəni din cəmiyyətdə əvvəllər mövcud olmuş funksionallığını yavaş-yavaş itirməyə doğru gedirdi. Ona görə də dinin indiki halda cəmiyyətdəki rolu Ə.Ağaoğlunu çox düşündürürdü. Bu mənada "Üç mədəniyyət" əsərində dinlə bağlı fikirlərində əhəmiyyətli yeniliklər var idi. Bu fikirlərin bir çoxu tarixi, bir hissəsi nəzəri, bir hissəsi isə praktik mahiyyət daşıyırdı. O, türk toplumunun dini "bir vicdan əmri və yaradanla qul arasındakı mənəvi bağı nizamlayan bir amildən" daha çox, *"həyatımızın maddi və mənəvi qisminin hakim prinsiplər bütünü"* kimi qəbul etdiyini yazırdı. Onun fikrincə, "*dini zehniyyət və anlayışa görə, biz hələ orta çağ dövrünü keçməmişik"* [6, s.37].

Ə.Ağaoğlu dinin beşikdən məzara qədər insan həyatını təqib etdiyini və ruhi ehtiyacları ödədiyini, maddi və mənəvi hər şeyə hakim olduğunu söyləyir. Onun çağdaş türk cəmiyyətini digər cəmiyyətlərlə müqayisəsi də maraq doğurur. Belə ki, hazırda cəmiyyətin keçdiyi bu mərhələni digər cəmiyyətlər də keçirmişlər. Lakin *"Bugünkü çağdaş cəmiyyətlər din haqqındakı anlayış tərzinin bu mərhələsini dörd yüz il öncə keçirmişlər"* [10, s. 37]. Buradan belə çıxır ki, bütün millətlər bu dövrü bu və ya digər şəkildə keçirirlər. Müəllif örnək olaraq xristianlığa müraciət edir. Məlumdur ki, İncil başdan ayağa qədər Həzrəti İsanın həyatına aid bəzi hadisələrin hekayəsindən, dua və niyazlardan ibarətdir və insan həyatının maddi tərəflərinə toxunulmamışdır. Hətta Kayzerə aid vergilər haqqında ondan soruldüğu zaman

Həzrəti İsa "*Allaha allahınkını, Kayzerə də kayzerinkini verin*", [10, s.37-38] - deyərək maddi işlərlə mənəvi illəri qarışdırmamış, cism ilə ruh arasında açıq bir ayırıcı xətt cızmışdır. Bununla belə, xristian keşişliyi heç bir zaman maddi həyatı nizamlamaq, cismani bir hökumətə də sahib olmaq iddiasından əl çəkməmişdir.

Ə. Ağaoğlu bu fikri deyərkən və xristian və müsəlman aləmini müqayisə edərkən müsəlman aləmindəki bir yanlışlığı da üzə çıxarır. Bu da ondan ibarətdir ki, bugünkü müsəlman zehniyyəti müasir xristianlıqla islamı müqayisə edərkən, bir çoxları *"islam dininin dünya işlərinə qarışmasına və xristianlığın isə belə bir qarışmadan çəkinmiş olmasına bağlayırlar. Belə bir qiymətləndirmə tərzi bizcə çox yanlışdır"* [10, s.38]. O, İncil ilə Quranın yaradılmasının və keçdiyi tarixi yolun müqayisəsində oxşarlıqlar çoxluğuna diqqət çəkir və hər iki kitabın bir çox ənənələrin, rəvayət və hədislərin, imamların və din böyüklərinin davranış, görüş, fikir və yozumlarının məcmusundan meydana gəldiyinə inanırdı. Dinin cəmiyyəti idarə etməsinə gəldikdə isə, xristianlığın da belə bir mərhələni keçdiyini göstərir və kilsədən qovulma, afaroz, ümumi nifrət kimi cəzaların kəsilməsini xristianlığın ayağına yazır. Roma imperiyasının süqutundan sonra Avropada meydana gələn qarışıqlıqlarda katolik kilsəsinin nizamlı bir qüvvətlə ortada olduğunu, qol qüvvətinin hakim olduğu dönəmlərdə təcavüzə və zülmə qarşı durduğu fikrinə gəlir: *"Bu qədər silahla təchiz olunmuş və özünü yer üzündə Allahın gerçəkdən vəkili və varisi sayan kilsə, həyatın hər tərəfini və xüsusilə qanunun icrası ixtiyarını özündə gördü. Bununla bərabər tarix yürüyürdü. Siyasi və sosial inkişaf dayanmırdı. Anarxiya və qarışıqlıq içində yavaş-yavaş müxalif varlıqlar meydana çıxmağa başladı"* [10, s.41].

Xristianlığın keçdiyi yolu bütün reallıqları ilə təsvir edən Ə. Ağaoğlu bütün bunlara rəğmən, cəmiyyətin durmadan inkişaf etdiyinə aydınlıq gətirir. Eyni zamanda, bu inkişafda kilsə ilə ruhani zümrənin səlahiyyət və vəzifələri də müəyyənləşir. Maraqlıdır ki, buna yaxın fikirləri Ə. Ağaoğlu "Könülsüz olmaz" əsərində də söyləyir. İnqilabi proseslərdə yaxından iştirak edən, Fransada təhsil alan Turqut sonra ictimai-siyasi mübarizə meydanından çəkilərək əyalətə gedir və burada sakit həyat sürməklə yaşayır. O, dostuna əyalətin geridə qalmışlığının bir səbəblərini

də dində gördüyünü və xalqın tərbiyə amili olaraq dinə yüksək qiymət verdiyini xatırladır. Bu vəziyyəti başqa xalqlarla müqayisə edən Turqut mədəni millətlərin tarixi dövrlərində bu vəziyyətin baş verdiyini, lakin islahat dövründən sonra bunun altından çıxdıqlarını söyləyir. Buna səbəb kimi keşişləri göstərir, onların xalqın qəlb yolunu açdığını söyləyir. Onun fikrincə, din dövrünün ardınca gələn fəlsəfə və bədiiyyat dövrü isə ilhamlarını başqa mənbələrdən almaqla bərabər, eyni qəlb yolunu təqib etdi. Bunların da başlıca mövzuları insandı, insan qəlbidi. Eqoizm və mənfəətpərəstliklə mübarizə edərək insan qəlbini yüksələn və təmizləyən hisslər təlqin etdilər [10, s.108].

"Üç mədəniyyət" əsərinin din bölümünün müəyyən bir hissəsi müəllifin yaşadığı yüzilin ictimai, əxlaqi prosesləri ilə bağlıdır. Tarixi ekskursdan sonra çağdaş dövrə keçən fikir adamı, indi vəziyyətin dəyişdiyini, cəmiyyətdə yeni bir mərhələnin yaşandığını göstərir. Onun fikrincə, dinin dünya işlərinə qarışması bütün dinlərdə olmuş və cəmiyyət bu prosesi keçmişdir. Ancaq indi tarixin elə bir dövrüdür ki, artıq xristianlıqda o mərhələ geridə qalmışdır. İslamdan kənardakı cəmiyyətlərdə nə qədər ki, din dünya işlərinə qarışırdı, müəyyən bir tarazlıq var idi və islam da başqalarından kənarda qalmırdı. Lakin bu cəmiyyətlər dünyəvi və maddi işlərini tamamlamaq xüsusunda tam bir sərbəstlik, azadlıq əldə etdikdən sonra vəziyyət dəyişməyə doğru gedib. Bir tərəfdə "sərbəstlik və azadlıq", digər tərəfdə isə "durğunluq və keçmişə bağlılıq" hökm sürürdü. Ə. Ağaoğlu yeni əsrin xüsusiyyəti olaraq, ictimai fikirdə dolaşan *"sərbəst fikir və sərbəst hərəkət", "yaşa və başqalarının yaşamasına mane olma", "şəxsiyyətini inkişaf etdir və başqa şəxsiyyətlərin inkişafına mane olma"* kimi istinad nöqtələrinə əsaslanırdı. Bu məsələlər artıq Qərbdə öz həllini tapmış, kilsə və ruhanilər öz təlimlərini məktəblər, qəzet və məcmuələr vasitəsilə təbliğ edirdilər.

Göründüyü kimi, Avropada və Şərqdə vəziyyət eyni olduğu dövrdə, fərq də nəzərə çarpmırdı. Lakin sonrakı mərhələdə iki aləm arasında tarazlıq pozulmuşdur. Halbuki islamiyyətin irəliləməyə və yüksəlməyə xristianlıqdan daha müsaid olduğunu önə sürən Ə.Ağaoğlu yazır: *"Fəqət yazıq ki, durum bu deyildir. Avropada işlər dəyişdi. Orada iş bölümü və vəzifə ayırımı qanunu hakim olaraq dini zümrələr*

*özlərinə xas olan özəl sahəyə döndərdilər. Amma veləyətindən və hüququndan məhrum edildilər. İxtisasları dışına çıxmağa, başqa sahələrə qarışmağa maneələr qoyuldu"* [10, s.48-49].

Yaşadığı dövrün Avropanın dörd-beş yüzil əvvəlki zehniyyətini daşıdığı fikrinə əmin olan müəllif məşrutiyyət üsulunu Avropadan almaq məcburiyyəti qarşısında qaldığına diqqət çəkir. Lakin Avropadakı məşrutiyyət ilə buradakı məşrutiyyət arasındakı fərqi də qeyd etməyə bilmir. Avropadakı məşrutiyyət milli hakimiyyət demək olduğu halda, buradakı məşrutiyyəti ona tay tutmaq olmaz. Nədən ki, milli hakimiyyət milli iradənin hər şeyə hakim olması deməkdir. Müəllif *"Bizdə də belədirmi? Bizdə gerçəkdən milli hakimiyyət varmı? Bizim millət məclisləri hərəkətlərində gerçəkdən sərbəstmi?"*, - suallarına cavab axtararaq yazır: *"Bir çox vazkeçilməz ehtiyaclar vardır ki, bu məclislər qorxudan yanaşa bilmirlər belə* (Bu əsərin 1919-cu ildə yazıldığını təkrar xatırladırıq-tərc.). *Çünki bilirlər ki, bir dinsizlik tufanı həmən qopar. Neçə kərə bu zavallı millət və məmləkət bu müdhiş tufanların dalğaları altında əzildi"* [10, s.49].

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində dinin mövzusunu inanışlar və ibadətlərdən ibarət xüsusların təşkil etməli olduğu, bundan başqa hər nə varsa, demək dinə təsadüf olaraq girdiyi fikrindədir. İslam dinini başqa dinlərdən ayıran məsələlər üzərində də ətraflı dayanır. Onun fikrincə, bu dinlər bəzən bir-birinə uyğun, bəzən də fərqli qaydalar qoymuşdur. Lakin bu dinləri fərqləndirən əsas məsələ inanclardır. Çünki bu inanclar əbədi və dəyişməz olaraq qalır. İkinci dərəcədə olan isə dünya işlərinə aid qismlərdir: *"İslamiyyətin seçkin özəlliyi, tanrı birliyi ilə yaradanla qul arasını düzənləyən ibadətlərdən ibarətdir. Burada islamiyyət bütün dinlərdən, bütün digər ümmətlərdən ayrılmış və bütün islam məzhəbləri bu nöqtələr üzərində birləşmişlər... İslamiyyətin başlanğıcından bu günə qədər, tanrı birliyinə aid ayətlər əleyhinə heç bir dəyişiklik olmamışdır. Halbuki dünya işlərinə aid nə qədər hökmsüz buraxılmış ayətlər vardır"* [10, s.53].

Ə. Ağaoğlu islam aləmindən danışarkən tələbə ikən Parisdə təsadüf etdiyi "iri gözlü", "gözəl qarayanız simalı", "zadəganlara xas görünüşlü" Seyid Cəmaləddin

Əfqani və onun islam dünyasındakı roluna xüsusi qiymət verir. Onun "kəskin zəkası"nı, "dərin bilik"lərini, "ötkün qələmi və sözü"nün yalnız İran deyil, bütün islam aləmi üzərində təsirsiz qalmadığını deməklə fəaliyyət dairəsinin genişliyini göstərir. Fars, ərəb, türk dillərini mükəmməl bilməklə yanaşı, ingilis və fransız dillərini oxuyub anlayacaq qədər öyrəndiyinə diqqət çəkir. S. C. Əfqaninin islam dünyasındakı rolu ilə bağlı yazır: *"İslam və Qərb mədəniyyətlərini ruhuna hülul etmiş və qayəsi mədəniyyətləri barışdırmaq və bir-biri ilə əlaqələndirmək, İslam dünyasında bir islahat dövrü açmaqdı. Lakin tənqidləri xüsusilə İran üsuli-idarəsinə qarşı çevrilmişdi və bu mövzuya aid yazdığı yazılar həqiqətən məhvedici idi"* [5, s.139].

Beləliklə, Ə. Ağaoğlunun yaradıcılığında kulturoloji görüşlərin başlıca yer tutduğunu aydın görmək olar. Ədibin onlarla məqalələrində və fundamental əsərlərində din, islamçılıq, cəmiyyət və insan, fərd problemləri geniş qapsamda təhlil edilir, yeni fikirlər və ideyalar irəli sürülürdü. Demək lazımdır ki, yazıçı bu fikirlərində son dərəcə yenilikçi mövqedən çıxış edir, Türkiyə və müsəlman cəmiyyətlərini inkişaf etdirməyə çalışırdı. Hələ Azərbaycanda olarkən onun məqalələrində yeni dünya düzəninə uyğun problemlər qaldırılır, yerli mühit üçün son dərəcə aktual olan kulturoloji məsələlərə münasibət bildirildiyi kimi, Türkiyə yaradıcılığında da bu xətt axıradək davam etdirilmişdir. Yazıçının kulturoloji görüşlərində Qərb dəyərlərinə də xüsusi önəm verdiyini görmək mümkündür.

# III FƏSİL. ƏHMƏD BƏY AĞAOĞLU YARADICILIĞINDA YENİ CƏMİYYƏT AXTARIŞLARI

## 3.1. Əhməd bəy Ağaoğlunun bədii-fəlsəfi traktatlarında yeni həyat prinsipləri

Azərbaycandakı yaradıcılığında islam, din problemlərinə müəyyən yer verən Ə.Ağaoğlu Türkiyəyə getdikdən sonra hadisələrin sonrakı inkişafının təsiri ilə cəmiyyət problemlərinə daha geniş yer vermişdir. Onun yaşadığı Türkiyə yeni bir siyasi sistemə və cəmiyyət quruculuğuna keçirdi. Buna görə də ictimai-siyasi hadisələrin dəyişməsi nəticəsində onun yaradıcılığında dövlət quruculuğu problemi önə keçmişdi. Həmin dövrdə islamçılıq cərəyanını dövlətə bir model kimi gətirmək istəyənlər cəmiyyətdə çoxluq təşkil edirdi. Bu zaman Ə.Ağaoğlu dünyəvi dövlət quruluşunu əsas götürmüş, dinin dövlətdən ayrı olmasının tərəfdarlarından biri kimi çıxış etmişdi. Eyni zamanda ailə və qadın məsələsində müasirlik mövqeyində durmuş və o zamankı cəmiyyətdə hər cür hüquqları əlindən alınmış qadınların layiq olduğu yerə gəlməsini müdafiə etmişdir. Türkiyənin ilk qadın vəkillərindən olan Süreyya Ağaoğlunun bu ailədə tərbiyə alması cəmiyyətdə qadın, ailə, hüquq məsələlərinin praktik həlli kimi diqqəti çəkir. Ə.Ağaoğlunun bu dövrdəki dünyəvi dövlət anlayışını təhlil edən türk tədqiqatçı Gülsərən Akalın *"Ə.Ağaoğlu dövlət quruluşuna İslami model gətirmə, İslam şəriətini toplama və hüquq qaydalarına tətbiq etmək düşüncəsində olmadığına görə Türkiyədəki islamçı qrupa daxil olmamışdır"* [21, s.57] -kimi doğru qənaətə gəlirdi.

Məlumdur ki, Osmanlı imperiyası dağıldıqdan sonra Türkiyə Cümhuriyyətinin qurulması ilə yeni dönəm başlamışdır. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün dövlətə dünyəvilik quruluşunu gətirməsi, demək olar ki, Ə.Ağaoğlunun bu istiqamətdəki nəzəri fikirlərinin təsdiqi idi. Elə Türkiyədən əvvəl

də Azərbaycanın müstəqilliyi ilə bağlı baş verən proseslər Ə.Ağaoğlunun fəaliyyətini dövlət və cəmiyyət proseslərinə təbii şəkildə yönəltmişdir. Malta sürgünündən qayıtdıqdan sonra onun qəzetlərdəki məqalələrinin məzmununda da cəmiyyət, fərd, dövlət məsələləri başlıca yer tuturdu. Ayrı-ayrı məqalələrində və "Dövlət və fərd" əsərində problemə kompleks elmi, hüquqi yanaşma sərgiləyən müəllif Türkiyədə qurulan dünyəvi dövlətin cizgilərini bəlirləyən əsərlər yazmış, fikirlər söyləmişdir. Əgər 20-ci illərdə fikirlərini ayrı-ayrı məqalələri ilə bildirirdisə, bir qədər sonra bədii-publisitik əsərlərində yeni cəmiyyətin xarakterini müəyyənləşdirməyə çalışırdı. Onun "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri", "Üç mədəniyyət" kimi əsərlərində də bu və ya digər şəkildə cəmiyyət və dövlət anlayışlarına baxışlarını formalaşdırırdı. Bu əsərlərin süjet xəttinə qoyulan ədalət, azadlıq, fəzilət problemləri yeni cəmiyyət quruculuğunu məşğul edən ən əsas məsələlərdən idi. Bunu yazıçı bəzi əsərlərində ümumiləşdirmələr, mücərrəd və fəlsəfi kontekstdə ifadə etməyə çalışmışdır.

Məsələ burasındadır ki, Ə.Ağaoğlunun birdən-birə fəlsəfi traktat, yaxud bədii publisitik əsərlərində yeni cəmiyyətin xarakterini açması, ayrı-ayrı şəxsiyyət obrazlarının yaratmasının müəyyən əsasları vardı. Ə.Ağaoğlu Maltadan qayıtdıqdan sonra Cümhuriyyətin ilk illərində Ö.Ufukun "rejimin hərarətli müdafiəçilər"i [138, s.54] sırasında yer alırdı. Bu da başadüşüləndir; ona görə ki, Osmanlı imperiyası dağıldığında onun yerində Cümhuriyyətin qurulması, əslində Ə. Ağaoğlunun qərbyönlü idarəetmə düşüncəsinə uyğun gəlirdi. Şərqdə idarəetmənin köhnə üsuli-idarəsi artıq xalqı təmin etmirdi; ona görə də Cümhuriyyət quruculuğunda həm paraktik, həm də nəzəri cəhətdən iştirak etməyi üstün tutur. Bu o zaman idi ki, hələ yeni Cümhuriyyətin dövlətçilik forması da konkret olaraq müəyyənləşməmişdi. 20-ci illər boyu bu proses davam etmiş, yeni Türkiyənin cəmiyyət və dövlətçiliklə bağlı fərqli görüşlər, fikirlər olmuşdur. Ə. Ağaoğlu "Dövlət və fərd" kitabında Türkiyənin dövlətçiliklə bağlı düşüncələrini yazmışdır. Məhz bu əsərində o, yeni quruluşu dövlət sosializmi kimi deyil, "himayəçi-kapitalist" olmasının lazımlılığı haqqında fikir yürüdürdü.

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində də cəmiyyət və dövlət problemi üzərində elmi-nəzəri araşdırmalar apararaq bu istiqamətdə fikirlərini bir qədər də dolğunlaşdırır. Cəmiyyətin, hər şeydən əvvəl, "ortaq duyğu və düşüncə" daşıyıcısı, "ortaq ideal sahibi" və "şüurlu zümrə" olduğunu önə sürən publisist Türkiyədə bu cür zümrə olmamasından narahatlığını ifadə edirdi. Onun fikrincə *"cəmiyyət həyatının qüvvətlənməsinə səbəb olan amillər arasında bir də fəlsəfə ilə ədəbiyyat önəmli yer tutur"* [10, s.104]. Fəlsəfə meydana gətirdiyi fikir, ədəbiyyat isə hiss axımlarıyla fərdləri birləşdirmək istiqamətində müəyyən işlər görür. Avropanın çağdaş cəmiyyətləri içində fikir cərəyanları cəmiyyət həyatı üzərinə müəyyən təsir qüvvəsinə malik olsa da, yeni Türkiyədə bu birdən-birə formalaşmamışdır. Hətta bu sahədə vəziyyətin "iflas" halında olması ilə bağlı fikirlər də yer alır. Bunun səbəbini isə Türkiyədə fəlsəfə ilə məşğul olmaq zamanının bu yaxınlara, Tənzimat dövrünə düşməsi ilə əlaqələndirir. Zamanında Türkiyədə elmi müəssisələrin yoxluğu üzündən elm, texnika və dolayısı ilə fikir və cərəyanların və bu cərəyanların doğurduqları fikir həyəcanlarının olmaması da indiki cəmiyyətə təsirsiz qalmır. Cəmiyyətin formalaşmasında əsas amillərdən biri olan ədəbiyyatımızın da cəmiyyətdə duyğular sistemi yarada bilməməsi yeni cəmiyyətin gec formalaşmasına səbəb olur. Müəllif ədəbiyyatın cəmiyyəti formlaşdırmasına ən yaxşı nümunə olaraq Rus ədəbiyyatını görür. A.Puşkin, L.Tolstoy, Y.Turgenyev, A.Tolstoy, M.Qorki əsərlərinin ruhundakı ictimai gerçəklik və inqilab təmayülünün indiki rus cəmiyyətinə müsbət təsirini nümunə gətirərək, Türkiyədə hazırkı türkçü ədəbiyyatın (Namiq Kamal) belə bir yol keçməsini arzu edir. Bu ədəbiyyatın türklük, vətən mövzularını birləşdirici faktorlardan hesab edən Ə. Ağaoğlu yazırdı: *"Buradan Bakıya və Bakıdan Türküstanın ortalarına qədər bütün türk ürəklərini birləşdirən, eyni həyəcanla çarpdıran, türkün dərdlərini, sevinclərini, əksikliklərini və ehtiyaclarını, mütəvazi həyatını dilə gətirərək, bir-birinə qarşı bir bağlılıq quran dörd yazar görürəm: Namiq Kamal, Mehmet Emin, Mehmet Akif və Rəşad Nuri bəylər"* [10, s.112].

Cəmiyyət həyatına təsir göstərən amillər içərisində musiqi və teatrın da müəyyən təsirini xüsusi qeyd edən Ə. Ağaoğlu sinfindən, zümrəsindən asılı

olmayaraq fərdlər arasında duyğu ortaqlığını təmin etdiyi qənaətinə gəlir. Xüsusilə, teatr ictimai amillərin ən əsası olan dilin, əxlaqın, ortaq duyğuların gəlişməsinə, yüksəlmə və birləşməsinə xidmət etdiyini, fikir və hisslərin birləşməsini saxlayır. Teatrda çox zaman ictimai və tarixi hadisələr mövzu seçildiyindən millət şüurunun doğmasında önəmli rol oynayır. Hətta onun fikrincə: *"Parisdə 1871-ci il inqilabı Viktor Hüqonun "Hernani" adlı əsərinin təsiri ilə bir teatrda başlamışdır. Fəqət yazıq ki, bizim zavallı çevrəmiz bu amillərdən məhrumdur. Bizdə insanın ruhi və mənəvi ehtiyacları inkar edilmişdir. Bütün Şərqdə olduğu kimi, bizdə də həyat ya yeyib içmək, və ya bir köşəyə çəkilib davamlı ibadət etmək şəkillərində qəbul edilmişdir"* [10, s.114].

Ə. Ağaoğlu cəmiyyəti formalaşdıran amilləri nəzəri cəhətdən araşdırır və Türkiyə cəmiyyətində bunların bəzilərinin tamamilə yox olduğunu, bəzilərinin isə mahiyyəti pozularaq cəmiyyət dışı bir şəkil aldığını önə çəkir. Beləliklə, cəmiyyəti formalaşdıran amillər üzərində dayanan Ə. Ağaoğlu burada da Qərb nümunəsini əsas götürür və belə qənaətə gəlir ki, cəmiyyətdə istibdadın maddi nümunəsi atılmışsa da, hələ də mənəvi tərəfi qalmaqdadır, bizdə cəmiyyət yoxdur, mexaniki olaraq və təsadüflə bir yerə toplanmış adamlar vardır [10, s.115].

Ə. Ağaoğlu cəmiyyət probleminə bir neçə əsərində və məqalələrində də bu və ya digər dərəcədə toxunmuşdur. Buna görə də cəmiyyət problemi Ə. Ağaoğlu yaradıcılığında bütün detalları ilə təhlil edilmişdir. Bu cəhətdən "Sərbəst insanlar ölkəsində" [8] əsəri istisna deyil. Əsərdə yazıçı cəmiyyət, fərd, dövlət, demokratiya, azadlıq və s. problemləri yeni siyasi düşüncə baxımından təhlil edir. Yazıçı burada cəmiyyət üçün "qarşılıqlı yardım" ifadəsini işlədir. Bununla o, vətəndaşların bir-birini düşünməsi və bir-birinə yardım göstərməsini nəzərdə tutur və bu qaydanı cəmiyyət həyatının özülü, təməl daşı hesab edirdi. Əsərdə yazıçı fərd üçün, cəmiyyət üzvü üçün cəmiyyətin cavabdehliyini belə izah edir: *"- Öncə bilməlisən ki, cəmiyyət fərdlərdən və fərdlərin birliyindən yaranır. Bu səbəbdən, hər bir cəmiyyət öz üzvlərinin hal və vəziyyəti ilə istər-istəməz bağlıdır. Sonra azad və sərbəst ölkədə hər*

*bir vətəndaş ölkənin ortaq taleyinə qatılır və seçki hüququndan faydalanaraq millət vəkillərini seçir, həmin vəkillər vasitəsi ilə qanunlar hazırlayır* [8, s.72].

Cəmiyyət probleminə yazıçı "Mən kiməm?" əsərində də müraciət edir; onun İçi ilə Çölü arasındakı daxili mübarizənin əsasını, demək olar ki, cəmiyyət problemləri təşkil edir. Yazıçının İçi həmişə cəmiyyət qanunlarına əməl etməyə, cəmiyyəti inkişaf etdirməyə çalışırsa, Çölü cəmiyyəti qurd kimi içindən yeməyə üstünlük verir. Çölün riyakarlığı, eqoizmi, fikir dəyişimi, gözügötürməzlik, qısqanclıq, "mənə nə?" fəlsəfəsi cəmiyyəti daim geriyə çəkir. Buna görə də Çölünün cəmiyyətə çox böyük ziyan vurduğunu nəzərdə tutan İç Çölü ilə cəmiyyət arasındakı təzadı aradan götürməyi, cəmiyyətin yaşaması üçün buna çarə tapılması haqqında düşünür: *"Zahirinin cəmiyyəti yıxan xüsusiyyətlərinə qarşı qəti bir mücadilə açılmalıdır və necə ki, canlı və mövcud, şərəf hissini gözləyən mühitlərdə yarınanlara, yalançılara, riyakarlara və s. cəmiyyət içində çox yer verilməz, hörmət edilməz, qovular, uzaqlaşdırılar-bizdə də eyni yolla getmək zamanı gəlib çatmışdır"* [5, s.77].

Ə. Ağaoğlu dövlət və hökumət anlayışları üzərində də istər praktik, istərsə də nəzəri şəkildə öz münasibətini bildirir. Aydındır ki, Şərqdə bütün dövrlərdə hökumətlə dövlət anlayışları qarışdırılmış, hər ikisinin eyni mənanı daşıdığı anlamı qəbul olunmuşdur. Şərqdə dövlətin adının daim sülalə adını daşıması da buradan irəli gəlirdi. Halbuki sülalə dövləti idarə edən olsa da, dövlət xalqa məxsusdur. Qərbdə isə vaxtilə dövləti müxtəlif sülalələr idarə etsələr də, bu dövlətlər heç zaman sülalənin adı ilə adlandırılmamışdır. Cümhuriyyətin ilk illərində dövləti hökumətlə qarışdırmaq əlamətləri hələ də qalmaqda idi. Ə. Ağaoğlu da "Üç mədəniyyət" əsərinin "Dövlət", "Hökumət" bölümlərində məhz bu məsələni araşdırmağa çalışmış, cəmiyyətin bu anlayışlarla bağlı təsəvvürlərinin formalaşması istiqamətində müəyyən işlər görmüşdür. "Dövlət" bölümünün girişində yazıçı məsələnin tarixinə baş vurur və Şərqdə dövlət məfhumunun çox qəribə izah edilməsinin, "dövlətlə hakimiyyətin" qarışdırıldığı fikrinə toxunmuşdur. Türklər isə bu sahədə bir qədər də irəli gedərək yalnız dövləti hakimiyyətlə qarışdırmamışlar, həm də təsis etdikləri hökumətləri və dövlətləri ayrı-ayrı şəxslərin adı ilə adlandırdıqlarına diqqət çəkir və misal olaraq

Qəznəvilər, Səlcuqlar, Osmanlılar və s. göstərir. Bunun yanlış olduğu qənaətinə gələn müəllif İngiltərənin hakim sülaləsini dörd dəfə dəyişdirməsinə rəğmən, heç bir sülalənin adı ilə adlanmaması, Napoleonun bütün Avropanı istila etməsinə baxmayaraq, Fransanın nə Napoleon adını aldığı, nə də fransız dövlətinə onun adının verilmədiyinin doğru olduğunu bildirir. Onun fikrincə, dövlətdə tək yaşayan və əsaslı ünsür dövləti doğuran millətdir. Ona görə də dövlətin də adı millətin adı ilə adlanması gərəkdir. O, yazır: *"Gerçəkdə dövlət, bağımsız bir millətin işğal etdiyi sahə ilə o millətin siyasi, ictimai, iqtisadi təşkilatının hamısına deyildiyi halda, hökumət yalnız o təşkilatın bir qismini və sülalə isə pək sınırlı bir parçasını ifadə edir. Bir dövlət bağımsızlığını qeyb etmədikcə vardır. Halbuki dövlət sülaləsiz yaşaya bilir. Necə ki, bu gün dünyanın böyük bir qismi cümhuriyyət üsulu ilə yaşayır. Hökumətə gəlincə, o zatən mahiyyəti etibarilə dəyişik bir şeydir və hər zaman başqa şəkil ala bilir"* [10, s.118].

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində dövlət və hökumət anlayışlarına həm də nəzəri və praktik cəhətdən yanaşır. Osmanlı dövlətinin süqutunun səbəblərindən biri kimi dövlətə münasibət də əsas faktorlardan biridir. Dövləti hökmdarlardan ibarət hesab edən çevrənin cəmiyyətdəki mövcudluğu hələ çoxluq təşkil edirdi. Yaşamaqda olduğu zamanın dövlət və hökumət anlayışlarına da nəzər yetirən Ə. Ağaoğlu XIV Luisin "dövlət mənəm" dediyi zamanların çoxdan keçdiyini və bu prinsipin Avropada artıq işə yaramadığını və özünün yaşadığı cəmiyyətin də buna uymalı olduğu ilə bağlı fikirlərində çağdaş dövlət anlayışının konturlarını görmək mümkündür. Maraqlıdır ki, yazıçı çağdaş dövlət prinsiplərindən danışarkən bolşeviklərin Azərbaycan, Ukrayna, Gürcüstan, Ermənistan, Türküstan, eləcə də bütün rus olmayan yerlərdə rus ruhunu, idarə tərzini uyğuladıqlarını və hər yerdə idarə başında bir rus çoxluğunu yaratmağa çalışdıqlarını bildirir.

Əlbəttə, "Üç mədəniyyət" əsərinin yazıldığı zaman hələ Türkiyə Cümhuriyyəti yaranmamışdı. Ona görə də, onun fikirlərində dövlət və hökumət anlayışlarının tam olaraq müasir bir formaya düşdüyünü söyləmək çətindir. Ə. Ağaoğlu "Sərbəst insanlar ölkəsində" əsərində bir qədər də irəli gedərək istibdadın idarə etdiyi bütün

ölkələrin sonunun yaxşı olmadığı qənaətini bölüşür. Ancaq xalqın idarə etdiyi dövlət səriştəsizlərin əlində təcrübə taxtası ola bilmir: *"Elə xalq idarəsi ilə istibdad arasındakı əsas fərqlərdən biri də budur ki, istibdadda dövlət adamlarının və məmurların arxalandıqları güc hökmdarın yaxşılıq və qayğısıdır. Halbuki xalqın yönəltdiyi dövlətdə həmin adamlar yalnız xalqın inamına söykənə bilərlər. Bu inam tükənən kimi hökumət və idarəçilik lap təməlindən yıxılmış sayılır"* [10, s.32].

Ə. Ağaoğlunun fəaliyyətində əsas yerlərdən birini, azadlıq və demokratiya uğrunda mübarizəsi və onun elmi-nəzəri əsaslarını yenilikçi mövqedən işləmək tutur. Bu mənada yeni Türkiyə Cümhuriyyətinin demokratik əsaslarla qurulmasında onun da rolu böyükdür. Onun demokratiya anlayışında həmişə fərd öndə olmuşdur, lakin cəmiyyət o zaman hələ bu barədə yetərli bilgilərə sahib deyildi. Bu qüsurları aradan qaldırmaq üçün isə zamana ehtiyac olduğu kimi, cəmiyyətdəki mövcud xəstəlikləri, qüsurları da yox etmək lazım gəlirdi. Buna görə də Ə. Ağaoğlunun demokratiya anlayışı həm fəaliyyətində, həm də əsərlərində paralellik təşkil etmişdir. O, görürdü ki, Türkiyə kimi siyasi təfəkkür baxımından inkişaf etməmiş ölkələrdə xalqın siyasi təfəkkürünün aşağı olması səbəbindən azadlıq, torpaqların işğaldan azad edilməsi üstünlüyü ilə xalqın demokratiyaya keçidində hələ də çətinliklər mövcuddur. Daha doğrusu, torpaqların işğaldan azad olunması, yeni Türkiyə Cümhuriyyətinin qurulması eyforiyası cəmiyyətdəki bəzi problemləri arxa plana keçirirdi ki, burada da cəmiyyət geridə qalmış olurdu. Onu da yaxşı görürdü ki, azadlıq adına cəmiyyətdəki susqunluq uzun müddət bu cür davam edə bilməz, cəmiyyət bu mərhələni nə qədər tez keçsə, o qədər də yaxşı olar və inkişaf edər. Lakin bu cür qüsurlara qarşı çıxmaq mövcud iqtidara müxalifət demək idi ki, indiki cəmiyyətdə də müxalifətçilik institutu formalaşmadığından bunu etmək çox çətin və ağır idi. Həm də azadlıq ilə demokratiya bir-birini inkar etməməli, əksinə bir-birini tamamlamalıdır. Bütün bu məsələlərə Ə. Ağaoğlu açıq şəkildə qarşı çıxa bilmədiyindən müxtəlif yollarla etməyə çalışır, həm cəmiyyəti bu istiqamətdə maarifləndirməyə, həm də hökuməti buna dəvət etməyə səy göstərirdi. Onun 1926-cı ildə Qazi Mustafa Kamal Atatürkə göndərdiyi raportun da əsas məqsədlərindən biri məhz bu idi. Doğrudur, bu raportdan sonra bir

müddət ona olan münasibət dəyişmiş, onun da Cümhuriyyət Xalq Partiyası ilə əlaqələri bir qədər zəifləmişdir. Ancaq Ə. Ağaoğlu üçün önəmli olan cəmiyyətdə gedən prosesləri ölkə və inqilab rəhbərinə olduğu kimi çatdırmaq idi. Ona görə də yazdığı raportu çox ehtiyatla başlamış, Atütürkün onun şəxsinə və türk xalqına olan xidmətlərini qeyd etmiş, onun tutduğu yeri, mövqeyi düzgün qiymətləndirdikdən sonra demokratiya və cəmiyyətdəki digər problemlərlə bağlı iradlarını söyləmişdir. O yazırdı: *"Böyük dahi!*

*Aşağıdakı məruzənin dərin bir səmimiyyətin və sarsılmaz və əbədi bir bağlılıq hissinin məhsulu olduğuna inanmanızı rica və istirham edirəm. Bundan altı il əvvəl acizləri düşmən əlində əsir, istiqbaldan ümidsiz, ailə və uşaqları pərişan və hər gün özü üçün ölüm diləyən vətənsiz bir fəlakətzadə idim. Bu gün isə şanlı bir millətin fərdi, şərəf haləsi ilə sarılı bir dövlət və vətənin olduqca təsirli və nüfuz sahibi bir həşəhrisi və içində ailə və uşaqları üçün rifah və səadətlə yaşamaq imkanı hasil olan vətən sahibi bir adamam. Bütün bu nemətləri Paşa Həzrətləri, bəndələri Milli Mücadiləyə və xüsusilə bu mücadiləni idarə edən sizin dühanıza borcluyam"* [17, s.114].

Ə. Ağaoğlu bu proseslərin bu gün də davam etdiyini bildirir və bu vəziyyətin dəyişməsinin "vətənin fəlakətinə" səbəb olacağı kimi onun "məhv" və pərişanlığına gətirib çıxaracağı ehtimalını da irəli sürür və raportunun düzgün anlaşılmasını xahiş edir. Lakin görülən bütün bu işlərin müqabilində bəzi zərərli proseslərin də getdiyini diqqətə çatdırır. O, raportunda çağdaş bir dövlətin canlanması, yeni cəmiyyət qurucuğu ilə bağlı düşüncələrini obyektiv şəkildə ifadə edirdi. Onun fikrincə, ölkədə qüvvətli hökumətlə yanaşı, yeganə olan partiyada da bəzi işlər həyata keçirmək zəruridir: *"Firqə divanı rəislərin qeydsiz-şərtsiz etimad etdikləri kimsələrdən qurulmalıdır. Bu surətlə təşəkkül etdikdən sonra artıq bu divan hökumətə və firqəyə aid bütün məsələləri tam bir hürriyyət və sərbəstlik içində müzakirə etmək, duyduğu və gördüyü xataları, idarəsizlikləri, rüşvətləri qorxmadan, çəkinmədən deyən ictimailarında tədqiq eyləmək və bunlar haqqında qərar vermək səlahiyyətləri verilməlidir"* [17, s.120].

Ə. Ağaoğlunun raportunda bir çox məsələlərə toxunulur, lakin bunların hamısı bir mərkəzdə birləşirdi; idarəetmədə və cəmiyyətdə demokratiyanı gücləndirmək, özünənəzarəti artırmaq və s. Aydın məsələdir ki, bu raport nə qədər yaxşı niyyətlə yazılmış olsa belə, düzgün başa düşülməmişdir. Xüsusilə, 1926-cı ildə Atatürkə qarşı sui-qəsd planının üstünün açılmasından sonra (Əli bəy Hüseynzadə də bununla bağlı istintaqa cəlb olunmuş və bir müddət həbsdə qalmışdır - M.K.) bu raportun üzə çıxması onun müəllifi düzgün başa düşülməyə bilərdi. Elə Ə. Ağaoğlu da məktubunda məhz həmin sui-qəsdi xatırladaraq "bu sui-qəsdin bizim düşünməyimizə bir işarə olduğu" fikrini söyləyir. Buna baxmayaraq, raportda Ə. Ağaoğlunun hələ demokratiya ilə bağlı sistemli fikirləri o qədər də yer almamışdır. Görünür, buna həm şərait olmamış, həm də cəmiyyətin özü buna hələ hazır deyildi. Bütün bu məsələlər Ə. Ağaoğlunu dərindən düşündürdüyündəndir ki, cəmi bir neçə il sonra "Sərbəst insanlar ölkəsində" əsərini yazmağa başlamış və 1930-cu ildə tamamlamışdır. Əsəri tamamladıqdan dərhal sonra da dərc etdirməyi düşünmüş və mətbəəyə vermişdir. Lakin əsərin çapı bir qədər gecikmişdi. Bu da onu çox narahat edirdi. Bu münasibətlə dostu Əli bəy Hüseynzadəyə 15 Ocak (yanvar) 1931-ci il tarixli məktubunda yazırdı: *"Keçmiş "Tənin" mətbəəsinin yerləşdiyi evdə "Sanayi-yi nəfisə" adlı bir mətbəə vardır. Sahibinin adı Davər bəydir. Mənim son əsərim "Sərbəst insanlar ölkəsində" bu mətbəədə çap olunurdu. Əvvəlcə nümunələr müntəzəm olaraq gəlmədə idi. Ancaq üç həftədən bəri arası kəsildi. Bunun səbəbi nədir? Özünə yazdım, soruşdum. Cavabında xəstə olduğunu yazdı. Fəqət o vaxtdan xeyli zaman keçməsinə rəğmən, hələ də nümunələr gəlməməkdədir. Xahiş edirəm, bunun səbəbini yaxşıca anlayıb mənə məlumat verəsən"* [53].

Nəhayət, elə həmin il "Sərbəst insanlar ölkəsində" əsəri dərc edilmişdir. Əsər janrına və ideyasına görə Türkiyə mühiti üçün tamamilə yeni bir modeldir. Belə ki, burada yazıçı-publisistin dövlət, fərd, cəmiyyət, azadlıq və s. bağlı fikirləri yeni formada təqdim edilir. Mövcud cəmiyyətdə olmuşlardan yazmağın çətinliyini dərk edən müəllif burada tamamilə başqa bir yol seçmişdir; təsvir olunan hadisələrin mövcud Türkiyə cəmiyyəti ilə zahirən əlaqəsi az olduğundan (əslində isə daxili bir

bağlılıq vardır), əsasən nəzəri xarakter daşıyır, ümumiyyətlə cəmiyyət, demokratiya, azadlıq, sərbəstlik kimi məsələlərdən bəhs edirdi. Bu cəhətdən "Sərbəst insanlar ölkəsində" əsərində Avropa utopik ədəbiyyatının, eləcə də Tomas Mor və Tomazo Kompanellanın utopist romanlarının da müəyyən təsiri duyulur. Azərbaycan ədəbiyyatına gəldikdə isə bu əsər M. F. Axundzadənin "Kəmalüddövlə məktubları", Əli bəy Hüseynzadənin "Siyasəti-fürusət" və Məmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərləri ilə səsləşdiyini qeyd edə bilərik. Ancaq bu səsləşmələr adları qeyd olunan əsərlərlə müxtəlif yöndən və problemlər baxımından səsləşir. Məsələn, M. F. Axundzadənin "Kəmalüddövlə məktubları" əsərindəki idarəetmə məsələləri, Ə. Hüseynzadənin "Siyasəti-fürusəti" ilə siyasi proseslərin alleqorik şəkildə təsviri, "Əsrimizin Səyavuşu" əsəri ilə siyasi hadisələrin yaşadığı ölkənin ictimai proseslərinə tətbiqi baxımından uyğun gəlir. Lakin Ə. Ağaoğlunun əsərində avtobioqrafik ştrixlər də vardır, bununla yazıçı əsərdə bəhs edilən hadisələrin yaşadığı cəmiyyətlə bağlı olduğunu da göstərmək istəmişdir. Epizodik şəkildə bu əsərdə qoyulan məsələlər Ə. Ağaoğlunun ayrı-ayrı məktublarında, məqalələrində bu və ya digər şəkildə əks olunmuşdur. Yazıçı-publisistin onlarla məqalə və məktublarında yeni cəmiyyət prinsipləri müəyyənləşdirilir və bu prinsiplər içərisində demokratiya, azadlıq və liberalizm dəyərləri başlıca yer tutur. Janr etibarilə "Sərbəst insanlar ölkəsində" əsərini ədəbiyyatşünaslar müxtəlif cür qiymətləndirirlər. Ədəbiyyatşünas Ə. Mirəhmədov əsəri "traktat" adlandıraraq yazır*: "Ə. Ağaoğlunun ömrünün yetkin vaxtında, 1930-cu ildə çap etdirdiyi "Sərbəst insanlar ölkəsində" traktatında tapmışdır [54, s.178]. Cəmi bir səhifə sonra isə, görkəmli tədqiqatçı əsəri "janrına görə bədii-fəlsəfi traktatlar silsiləsinə daxil edilə bilər" qənaətinə gəlir* [54, s.179]. V. Sultanlı isə "siyasi-fəlsəfi esse" hesab edir [62, s.37]. Başqa bir tədqiqatçı N. Cabbarlı isə "bədii-fəlsəfi traktat" [26, s.101] adlandırır. Əlbəttə, bu dəyərləndirmələr, demək olar ki, bir-birinə yaxındır. Lakin əsərdə alleqorik rəmzlərdən istifadə olunması bizə bunu deməyə əsas verir ki, əsər janr etibarilə alleqorik, siyasi pamflet janrına da uyğun gəlir. Əsərdə zəncirlərini qıraraq qaçan bir türkün (burada da avtobioqrafik ştrixlər vardır, belə ki, türk deyəndə məhz özünü

nəzərdə tuturdu. Çünki Atatürkə yazdığı məktubda bununla səsləşən məqamlar vardır) başqa bir demokratik ölkəyə gəlməsi və bu demokratik ölkənin anayasa və prinsiplərini bəlirləməsi dövlətçilik və idarəetmədə yeni modelin əsası təsbit olunur. Təəssüf ki, Ə. Ağaoğlunun bu əsəri Azərbaycan dilində yalnız bu yaxınlarda dərc edilmişdir.

"Sərbəst insanlar ölkəsində" əsəri Azərbaycan dilində ilk dəfə yalnız 2001-ci ildə ayrıca kitab şəklində çıxmışdır [5]. Əsəri Sevda İsmayılova və Zeynal Məmmədli tərcümə etmiş, fəlsəfə elmləri doktoru Rəhman Bədəlov ön söz yazmışdır. Əsər Azərbaycanda ikinci dəfə Ə. Ağaoğlunun "Seçilmiş əsərləri"nə daxil edilmişdir [8]. Əsərin Azərbaycanda ilk nəşrinə ön söz müəllifi R. Bədəlov onun əhəmiyyəti haqqında yazır: *"Əhməd bəy bu kitabı 1930-cu ildə yazıb. Elə bil anlayıb ki, 50, 60, 70 il keçəndən sonra da bu kitab Azərbaycanda əhəmiyyətini itirməyəcək. Axı, bir qismimiz, Əhməd bəy demişkən, hələ "iç zəncirlər"imizlə yaşayırıq, nə sərbəst olmaq haqqında düşünürük, nə də köləliyimizi lənətləyirik. O biri qismimiz azad olmağa can atsa da, ya qorxur, ya qətiyyətsizlik göstərir, ya da sadəcə olaraq, sərbəstlik haqqında, "sərbəst ölkə" haqqında məlumata ehtiyac duyur. Bax, əsasən bunlara, köləlikdən yaxa qurtarmaq istəyənlərə, heç kəsdən qorxmaq istəməyənlərə, beli dik yaşamaq istəyənlərə müraciət edir, sözünü deyir Əhməd bəy"* [8, s.6].

"Sərbəst insanlar ölkəsində" əsəri, hər şeydən əvvəl, nəzəri, fəlsəfi xarakter daşıyır, özgürlüyün siyasi və hüquqi bazası yarandıqdan sonra əsas vəzifənin xalqa özgürlük qazandırmaq və xalqa bunu aşılamaq, xalqı buna alışdırmaq ideyalarını təbliğ edir. Lakin əsər nə qədər fəlsəfi, nəzəri xarakter daşısa belə, təsvir olunan cəmiyyətin Türkiyə cəmiyyəti olmasa belə, türk cəmiyyətinə yönəlik yazıldığı aşkardır. Əsərin bir neçə yerində buna müəyyən işarələr də vardır. Əsərin lap əvvəlində yazıçı-filosof yaşadığı cəmiyyət və onun dahi rəhbəri Mustafa Kamal Atatürkə işarə edərək yazır: *"Türk milləti dahi rəhbərinin aparıcılığı ilə (Mustafa Kamal Atatürk nəzərdə tutulur-tərc.) Respublika kimi ən mükəmməl bir idarə biçiminin doğru olduğunu ortaya çıxarıb; ancaq bu çox incə, çox zərif və buna görə*

*də çox mürəkkəb olan dövlət idarə biçiminin inkişaf və sağlamlığı üçün Respublika bizdən, yəni türk millətinin fərdlərindən bəzi mənəvi özəlliklər tələb edir"* [8, s.15].

Bununla yazıçı əsərdə olan bəzi tənqidlərin ölkəsinə aid ediləcəyini və şəxsinə yönələcəyini nəzərə alaraq, həm özünü sığortalayır, həm də əsərdəki bütün bu mətləblərin bu və ya digər şəkildə Türkiyə cəmiyyətinə aid olduğunu da göstərmək istəyir. Əsərin "Ön söz"ündə müəllif filosof Ş. Monteskyönün "Qanunların ruhu" əsərində hakimiyyət formasından bəhs edən fikirlə başlaması isə demokratiya, özgürlük kimi məsələlərin artıq dünyada müəyyən bir təcrübə topladığına bir işarət edir. Yazıçının üç hökumət şəkli-istibdad, məşrutiyyət və respublika haqqında qısa məlumat verməsindən görünür ki, əsərin yazılmasında məhz dünya təcrübəsindən yararlanmağa çalışmış, mövcud təcrübəni Türkiyənin indiki və gələcək cəmiyyətinə tətbiq etmək niyyətində olmuşdur. Əsərə yazdığı "Ön söz"də Şarl Monteskyönün (1689-1755) *"İstibdad-yəni şəxsi hakimiyyət-məşrutiyyət şərəfə, respublika da ləyaqətə dayanır"* [8, s.15] fikrinə istinad edən Ə. Ağaoğlu bu bölgünün hələ də əhəmiyyətini itirmədiyini, şəxsi hakimiyyət zamanı xalqın tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan milyonlarca insanın bu şıltaqlıq və həvəsə itaət etməsi üçün yeganə çarə xalqı qorxutmaq və xof içində saxlamaq olduğu fikrini tənqid edir [8,s.15]. Konstitusiyalı monarxiya zamanı isə hakimiyyət hökmdarlarla imtiyazlı sinfin əlində olur və bu ortaq hakimiyyətin yaşaması üçün hər iki tərəf bir-birinə sədaqət göstərmək məcburiyyətində qalır. Burada bir faktı qeyd etmək yerinə düşər ki, Ə. Ağaoğlu hələ Sarbonnada tələbə ikən fransız filosofu Ş. Monteskyönün "Romalıların böyüklüyü və süqutunun səbəbləri", "Qanunların ruhu", "İran məktubları" kimi məşhur əsərlərini mütaliə etmişdi. Ədəbiyyatşünas Ə. Mirəhmədovun yazdığına görə, hələ Bakıda "Kavkaz" və "Kaspi" qəzetlərində dərc etdirdiyi məqalələrində Ş. Monteskyönün sosioloji görüşləri üzə çıxmağa başlasa da *"...bu təsir ən qabarıq, mükəmməl ifadəsini Ə. Ağaoğlunun ömrünün yetkin vaxtında, 1930-cu ildə çap etdirdiyi "Sərbəst insanlar ölkəsində" traktatında tapmışdır"* [54, s.178].

Ə. Ağaoğlu "Ön söz"ündə əsərin yazılması səbəbini də açmağa çalışır, özünü millətin bir fərdi olaraq Respublikanın fərdlərdən tələb etdiyi özəllikləri açıb göstərməyi məqsədəuyğun hesab edir. O, yazdığı bu əsəri təvazökarlıq edərək "əhəmiyyətsiz" adlandırır və Respublikanın mənəvi cəhətdən ideologiyasını özünə görə qurmaq cəsarəti göstərdiyini bildirir. Əsəri hansı formada, janrda yazması ilə bağlı xeyli tərəddüd keçirdiyini və nəhayət onu bir hekayət şəklində yazmağa qərar verdiyini xüsusi qeyd edir. Müəllif əsarətdən qurtulmuş Türk fərdini azad və sərbəst bir ölkəyə aparır; belə ki, burada azadlıq, hüquq, bərabərlilik, ədalət, "fikir təmizliyi, hərəkət təmizliyi", eləcə də ümumun rifahı naminə "əmək fədakarlığı", "sadə yaşayış", vətəndaş fəziləti" kimi cəmiyyət üçün siyasi və mənəvi əsaslara söykənən quruluş hökm sürür. Bu ölkənin rəhbərləri Türk Cümhuriyyətini quran dahinin əməl və arzularının gerçəkləşməsi üçün çalışmaqdadır. Türk fərdi müəllifin "Pir" dediyi rəhbərlərlə görüşür, onların bir Respublikada azad və sərbəst vətəndaşların necə olmaları haqqında fikirlərini öyrənir. Müəllif burada əsərin yazılması məqsədini də izah edir: *"...eyni zamanda sərbəst ölkədə gördüyü elm və mədəniyyət ocaqlarını təsvir etməklə məmləkətimizin Azadlıq və Ləyaqət sayəsində necə inkişaf edərək gələcəkdə nur və mədəniyyət mənbəyi olacağını da göstərir.*

*Bax, bu umacaqsız əsərimin biçimi, hədəfi, amacı budur* [8, s.16]

Janrına görə bədii-fəlsəfi traktatlar silsiləsinə daxil edilən "Sərbəst insanlar ölkəsində" əsəri zamanında birbaşa kitab şəklində dərc olunmamışdır; əvvəlcə hissə-hissə "Cümhuriyyət" qəzetində nəşr edilmişdir. Oxucuların göstərdiyi maraq və rəğbət, aldığı çağırış məktubları müəllifə bu əsəri bir kitab şəklində buraxmağı sövq etmişdir. Əsərin strukturuna gəldikdə, demək lazımdır ki, XVII əsrdən bu yana bu cür səyahətlər, əxlaqi, bədii traktatlar yazılırdı. Müəllifin fikirlərini fəlsəfi, əxlaqi, siyasi cəhətdən izah etməsi mövcud durumda Türkiyədəki ictimai-siyasi motivlərlə bağlı olmuşdur. Çünki Türkiyə Cümhuriyyəti özünün elə bir dövrünü yaşayırdı ki, siyasi maarifçilik, dövlətçilik, cəmiyyət problemləri məhz bu yolla, üsul və dillə təsvir oluna bilərdi. Ona görə də müəllif əsərini süjetlilik üzərində qurmuşdur; konkret həyat hadisələri və lövhələri, detallarla və insan obrazları ilə daha çox didaktik və

maarifçilik baxımından izah etməyə çalışır. Ancaq eyni zamanda bədii təxəyyülün də burada geniş rol oynadığını, müəllifin bir çox məsələlərdə konkret həyat təcrübəsindən deyil, gələcəkdə cəmiyyəti məhz bu cür göstərmək istəyindən qaynaqlanan bədii təxəyyülün məhsuluna da rast gəlmək olar. Əsərin bölümlərinin son dərəcə yığcam olması və içəriyini ifadə edən sərlövhələrlə adlanması onun oxunaqlılığını da təmin etmiş olur. "Mən bir əsir idim, azad oldum". "Sərbəst insanların əsas qanunu", "Azadlıq bir güldür", "Yalan, riya və yaltaqlıq", "Azadlıqla casusluq", "Bir mitinq: natiqlərin sözləri", "Sərbəst ölkənin ilk hürriyyət qəhrəmanı", "Xalq idarəsində dövlət", "Sərbəst məmləkətdə nəzarət işi", "Xüsusi bir evdə verilən konsert", "İnsanlar qorxaq doğulmurlar", "Kinoda görüb eşitdiklərim", "Azadlıq və xarakter", "Sərbəst insanlığın şərtləri", "Həqiqətə hörmət", "Heysiyyət sahibisənmi?", "Sərbəst ölkənin akademiyasında" və s. onlarla başlıqlarında sadə, oxunaqlı detallar və nümunələrlə fikirlərini çatdırır.

Ə. Ağaoğlu əsərinə "Ön söz"dən sonra "Mən bir əsir idim, azad olmaq istədim" epiloqunu verir və dərhal da əsas mətləbə keçir. "Zəncirlərini qıraraq" qala divarlarını deşib azadlığa çıxan bir fərdin hara gedəcəyini, necə hərəkət edəcəyini bilmədiyi bir vaxtda qarşısına yol ayrıcı çıxır. Bu epizod Azərbaycan nağıl qəhrəmanlarının tez-tez qarşılaşdığı situasiyanı xatırladır. Qəhrəman iki yoldan birini seçməlidir. Bu yollardan *"Sol tərəfə gedən yol azadlıq yoludur", Sağ tərəfə gedən yol köləlik yoludur".* Əsərin qəhrəmanı sol tərəfi tutur və bir qədər yol getdikdən sonra Qala qapısı üzərində (yenə də nağıllarda olduğu kimi!) qızıl xətlə yazılmış "Sərbəst insanlar ölkəsi" yazılı lövhəsini oxuyur. Lakin burada onun qarşısını keşikçilər kəsir və kimliyini soruşurlar. O, əsirlikdən qurtulduğunu, zəncirini qırıb bura gəldiyini və azad olmaq istədiyini söyləyir, lakin məlum olur ki, azad olmaq üçün bütün bunlar azdır; əsarətin "görünən bağlarını qırmaqdan" əlavə "iç zəncirlərini" də söküb atmalıdır. Keşikçilərin "iç zəncirini qırıb atmısanmı?" sualını anlamadığını gördükdə "Tamahına yiyə durursanmı?", "Doğrunu sevirsənmi?", "Həqiqətə dözümün varmı?", "Ləyaqət sahibisənmi?" suallarını verirlər və yalnız bu suallara "hə" cavabını verdikdən sonra onu içəri buraxır və vətəndaşlığa qəbul edirlər.

Bu kiçik imtahanda müəllif əsarətdən qurtulmanın, zəncir qırmaqla işin bitmədiyini göstərmək istəmişdir. "İç zəncirlərini atmaq" üçün tamahına yiyə durmalı, doğrunu sevməli, həqiqətə dözümlü və ləyaqət sahibi olmalısan. Bundan sonra isə ölkənin pirləri (yaşlı müəllimlər mənasında) gəlir və onun kim olduğunu, hardan gəldiyini soruşurlar. Müəllifin qəhrəmanı əvvəllər yurdlarının Orta Asiyanın (Türkiyə tarixçiliyində türklərin əsillərinin Orta Asiyadan gəlməsi ilə bağlı tendensiya indi də mövcuddur -M.K.) yüksək yaylaları olduğunu, sonra isə Şərqə, Qərbə, Şimala və Cənuba doğru yayıldığını, məmləkətlər basdığını, dövlətlər qurduqlarını, mədəniyyətlər yaratdıqlarını, zorakılığa qarşı dayandıqlarını, lakin sonradan qanlarının qarışdığı, kölə ellərin adətlərinə, mərasimlərinə qapılaraq qurultaydan qaçdıqlarını və günün birində törə qanunlarının pozulması ilə "bəy millətinin qul" olduğunu söyləyir. Yeni vətəndaşın bu söyləmlərindən vətənini, yurdunu, millətini çox sevdiyi görünür. Onun təsvir etdiyi millət isə türk milləti və onun son durumu idi. "Bəy millətinin" qul olmasına dözə bilməməsi və azadlığa çıxmasını müəllif belə təsvir edir: *"Artıq buna dayana bilmədik, aramızdan sarı saçlı, mərd üzlü, aslan baxışlı biri çıxdı: -"Yəni elindən əl çəkən, yurdunu əsirgəyən Tanrının elçisi sayılar?". Sözlər söylədi ki, donmuş qəlblərə istilik, ölmüş damarlara can verdi. İşlər gördü ki, bütün dünyanı heyrət bürüdü. Yadelliləri yurddan qovdu, xaqanı başıaşağı etdi. İndi o, millətini azadlığın işığına toplayır. Mən həmin vaxtlar zindanda xaqanın əsiri idim. Ümidsizlik içində qıvrılırkən Tanrı elçisinin səsini mən də eşitdim, birdən-birə canlandım, zəncirlərimi qırdım, divarı dəldim və azadlığımı araya-araya bu diyara gəldim"* [8, s.18].

"Sərbəst insanlar ölkəsində" əsərinin bir çox yerləri daha çox avtobioqrafik, yaxud sənədlilik səciyyəsi daşıyır. "Sarı saçlı, mərd üzlü, aslan baxışlı" dedikdə Mustafa Kamal Atatürkü, "zindanda xaqanın əsiri idim" dedikdə isə özünün Malta sürgününü nəzərdə tuturdu. O, həm də Atatürkü "Tanrı elçisi" adlandırır. Özünün sürgündən azad olması haqqında müəllif başqa yazılarında da (1926-cı ildə yazdığı raport və s.) bir neçə yerdə Atatürkə borclu olduğunu dönə-dönə etiraf etmişdir. Bu sözləri deyən adam azad yaşamağa qərar vermiş, ətraflı düşünmüşdür. Onun qərarının

qəti olduğunu bildikdə isə bəzi şərtlərə əməl etməsi gərəkdiyi diqqətinə çatdırılır. Həmin şərtlər isə pirlərin yeni vətəndaşa verdikləri risalədə öz əksini tapır. Risalə vətəndaşı olacağı ölkənin Anayasası, yəni əsas qaydaları idi. Anayasanın ümumi qaydaları bundan ibarət idi ki, dəyərli bir vergi olan azadlıqda əsas olan fikir təmizliyi, söz və əməl təmizliyi, tamahlarına yiyə durmaları, söz sadəliyi və yaşayış sadəliyinin gözlənilməsidir.

Sərbəst insanlar ölkəsinin Anayasasında qeyd olunan maddələr də ölkədə demokratiyanın, azadlığın, sərbəstliyin bərqərar olmasına imkan verirdi. Bu qaydalar içərisində azadlığın doğruya və cəsarətə söykənməsi, yalanın yasaq olması, ikiüzlülük və yaltaqlığın ağır günah hesab edilməsi, çuğulluq edənlərin vətəndaşlıqdan çıxarılması, haqqı qorumağın və çalışmağın, dözüm və yardım göstərməyin vəzifə olması, hər bir vətəndaşın ölkə məmurlarının fəaliyyətini yoxlamaq haqqına sahib olması və s. kimi maddələr başlıca yer tuturdu. On dörd maddədən ibarət qanunu əzbərləmək və onlara əməl etmək hamının vətəndaşlıq borcu hesab olunurdu.

Zəncirlərini qırmış adam iki gün ərzində bu Anayasanı oxuyub dərindən mənimsəmiş və əzbərləmişdi. Pirlər gəldikdə onlardan başa düşmədiyi bir neçə maddələri açıqlamalarını xahiş edir. Bu maddələrdən birini "Azadlıq şüurun cövhəridir, şüur da insandır" prinsipini pirlər bu cür izah edirlər: *"...bu cövhəri cilalayarkən, insandan göz-qulaq olmalısan. İnsana baxmasan cövhər tutmaz. Uzun-uzun zamanlar istibdada alışmış insana azadlıq aşılamaq heç də asan bir şey deyil. Axı istibdadın hökm sürdüyü yer insanın ruhu və qəlbidir. İstibdad burada yerləşir, burada taxtını qurur, burada tacını başına taxır. Bəzən sizə elə gələ bilər ki, istibdad yıxılıb. Və doğrudan da istibdadın gözə görünən əlamətləri yox ola bilər. Ancaq həqiqətə qalanda, onun hər tərəfdə və hər kəsdə hələ də yaşadığını görəcəksiniz. Tutalım görəcəksiniz ki, ağzı köpüklənə-köpüklənə "azadlıq" bağıranlar qonşusunun azadlığına dözmürlər. Özləri başqalarının azadlığı ilə toqquşan kimi qəzəblənib qarşısındakı adamı məhv etmək istəyirlər! Axı hələ istibdadın taxtı doğrudan da sınmayıb, ruhlardan, könüllərdən sökülüb çıxarılmayıb"* [8, s. 22-23]. Yazıçı bəzi maddələr üzərində dayanmaqla burdakı prinsiplərin cəmiyyət üçün önəmini ifadə

etmiş olur. Bununla o, həm də cəmiyyətin ədalət, bərabərlik əsasında qurulmasını göstərmək istəmiş və bu yolun təkamül yolu ilə ola biləcəyini bildirmişdir.

Ə.Ağaoğlu azadlığa mane olan kateqoriyalara da xüsusi önəm verir və azadlığa gedən yolda bu maneələrin aradan qaldırılmasını vacib hesab edir. Bu xüsusiyyətlər "yalan", "ikiüzlülük" və "yaltaqlıq"dır. Qanunun ikinci maddəsində yalanın yasaq olduğu göstərilir. Çünki yalan "zəiflərin", "qorxaqların", "zəlillərin" işidir və həqiqəti gizlətmək, üzə çıxarmamağa qoymamaq üçün bir vasitədir. Həqiqət gizlədilən yerdə isə yalançı inanclar hakim olur, bu yerdə isə "xeyir-bərəkət" qalmır. Müəllif sərbəst insanlar ölkəsində yalan söyləmək suçuna da münasibət bildirir. Onun fikrincə, bu bir tərbiyə məsələsidir ki, ailədən və məktəbdən başlayıb, əhaliyə aşılanmalıdır. Bununla ailə və məktəbdə uşaqların ilk ruhu təməlləri yaranır. Çünki uşaq ata-anasını və müəllimini yamsılayan bir varlıqdır. Yalançı ata-ananın və yalançı müəllimin yetişdirdiyi uşaqlar da mütləq yalançı olurlar. Buna görə də ata-ana və müəllimlərin borcu uşaqlarına yalan aşılamamağa diqqət yetirmək olmalıdır. Bunun üçün də ən təsirli vasitə özlərinin yalan danışmamalarıdır.

Sərbəst insanlar ölkəsində də belədir; burada yalana qarşı əngəllər qoyulur, yalançını içindən dərhal atırlar. Ancaq bunun əksi baş verərsə, tam tərsi baş verər; yalan danışmaq ağıl nümunəsi sayılar, cəmiyyət yalançılıq azarının bütün acılarına və nəticələrinə boyun əymiş olar. Bu cür cəmiyyətdə heç kəs heç kimə inanmadığı kimi, özünə arxa da hesab etməz. Ə.Ağaoğlu yalançı cəmiyyətdən danışarkən nümunə olaraq yenə də Şərq cəmiyyətini göstərir: *"İndiyədək Şərq cəmiyyətlərini içindən yeyib gəmirən xəstəliklər arasında bu öygü və yaltaqlıq ən qorxunc və pozucusudur. İlan zəhəri kimi beynin və qəlbin lap dərinliyinəcən işləyir, bədəni çürüdüb iflic edir. Şərq qəsidəxanaları-öygü şairləri bilməyib fərqinə varmamaqdan millətlərinə ən çox pislik etmiş insanlardır. Yazdıqları parlaq olsa da, o biri yandan mənəvi pozuntulara yol açıblar. Onlar həm də cazibəli olduqlarından, təqlidçilər və ardıcıllar doğurublar"* [8, s.24-25].

Əvvəldə qeyd etdiyimiz kimi, "Sərbəst insanlar ölkəsində" əsərində həm müəllifin yaşadığı Türkiyə cəmiyyəti ilə onun görmək istədiyi Türkiyə cəmiyyəti

qarşılaşdırılır. Lakin bu müqayisə o qədər gizli, bədii, obrazlı şəkildə edilir ki, bunları açıq müstəvidə müqayisə etmək çətin olur. Bu cəhətdən əsərin "Azadlıq və çuğulçuluq" başlığında müəllifin yaşadığı cəmiyyətə müəyyən işarələr də vardır. Aydındır ki, Sərbəst insanlar ölkəsində azadlıqla çuğulçuluq bir araya sığımır. Lakin burada incə bir məqama toxunur; "ustad, böyük adamlara" sayğı göstərməyin onların haqq və hüququ olduğunu da yaddan çıxarmır və burada sayğı göstərməklə ona yaltaqlanmağı, yarınmağı fərqləndirir. Əsərin yazıldığı zaman məhz Ə.Ağaoğlunun ən çox əziyyət çəkdiyi məqam bundan ibarət idi. Onun raportundan, məqalələrindən və "Sərbəst firqə xatirələri" əsərindən də aydın şəkildə göründüyü kimi, bu zaman Atatürkün ətrafında ona yarınan və yaltaqlanan insanlar var idi. Ə.Ağaoğlu isə sözü həmişə üzə deyən olmuş, düşündüyünü söyləmişdir. Əslində Atatürkün Ə.Ağaoğlunu yüksək dəyərləndirməsinin əsasında da məhz bu özəllik dururdu. O, Atatürkə qarşı gerçək sayğı və səmimiyyət göstərirdi, ürəkdən sevdiyin bir adamın çatışmazlığını göstərdiyin kimi, millətin yetişdirdiyi böyük adamların da çatışmazlığını demək eyni bir şey olduğunu göstərir. Bu cür adamlara münasibətlə bağlı yazır: *"Axı bunlar ümumi və ortaq səadət və bəxtiyarlığın qaynağıdırlar. deməli, onlara qarşı daha səmimi, daha doğrucul olmaq daha əsaslı bir borc sayılmalıdır. İkiüzlü və yaltaq adamlarsa bunun tam tərsini edirlər.*

*Böyük adamlara daşımadıqları sifət və qabiliyyətləri də verir, çatışmazlıq və yanlışlıqlarını üstünlük kimi göstərirlər. Doğrunu, həqiqəti onlardan gizləyir, onları daim əyri yollara çəkirlər. Bütün bunlar sırf şəxsi mənfəətləri üçün edilir"* [8, s.25].

Buradakı fikirlər Ə. Ağaoğlunun xəyali ölkəsindən daha çox yaşadığı cəmiyyətə aid olub, bu cəmiyyətin xarakterini əks etdirir. Əsərin bütün yarımfəsillərində xəyali ölkə ilə real ölkənin müqayisəsi davam edir. Nizamnamənin dördüncü "Xəbərçilik edənlər sərbəst ölkənin vətəndaşı ola bilməzlər" maddəsində də azadlıqla çuğulçuluğun yan-yana ola bilməməsi fikri nəzəri və praktik cəhətdən əsaslandırılır. Ümumiyyətlə, Ə. Ağaoğlu bütün maddələri izah edərkən nəzəri hissəni Sərbəst insanlar ölkəsinə şamil edir. Onun əksini göstərmək üçün isə yaşadığı cəmiyyətin, ən çox da müşahidə etdiyi hadisələri önə çəkir. Onun fikrincə, azadlıqla

çuğulçuluq yan-yana yaşaya bilməz: *"Çuğulçuluq olan yerdə azadlıq olmaz, azadlıq olan yerdə də ondan-bundan çuğulçuluq etmək. Təsadüfi deyil ki, azadlığın istifadə etdiyi ən təsirli vasitə çuğulçuluqdur. İstibdadın ilkin istəyi odur ki, vətəndaşlar arasında tərəddüd və şübhə toxumları səpsin, onların bir-birinə inam və arxayınçılığına yol verməsin. Bu səbəbdən istibdad quruluşları çuğullamalara böyük önəm verir, gizli xəbərçiliyi ən qüdrətli vasitə sayır"* [8, s.26]. Yalançılıq da bu cəmiyyət üçün yad xüsusiyyət hesab olunur; ona görə ki, "yalançı ata, ana və müəllimin" yetişdirdikləri uşaqlar da mütləq yalançı olurlar. Ona görə də on dörd maddəlik qaydalar içərisində yaltaq və riyakar adamların daşa basılması ilə bağlı maddə gördükdə Fərdin heyrət içində pirlərdən "*Məgər vəzifə və qüvvət sahibi olan adamlar gərək təriflənməsinlər, onlara sitayiş olunmasın? Ədəbiyyatdakı bunca parlaq qəsidələrin heç qiyməti yoxdurmu?"*-sualını verir. Bu dialoqda müəllif şüurlarda olan köhnəliklə yeniliyi qarşılaşdırmaq istəmişdir. Əsərin bir neçə yerində müəllif Şərq-Qərb qarşılaşdırmasından da istifadə edir. Millətin təşəkkülü prosesində ədəbiyyatın da həlledici rolunu qeyd edən müəllif Şekspir, Milton, Lokk, Spenser, Höte, Şiller, Kant, Hegel, Milyer, Volter, Russo, Hüqo, Makiavelli, Bruno, Puşkin, Lermantov, Tolstoy kimi filosof, şair və ədiblərin alman, fransız, ingilis, italyan, rus millətçilərinin formalaşmasındakı roluna istinad edir. Şərq ədəbiyyatı və ictimai fikrinin mahiyyətcə Qərbdəkindən fərqli olduğunu irəli sürən müəllif "Şərq ədəbiyyatı məhsulu mühitə, insan və təbiət mühitinə yad qalmışdır. Daim havalarda, boşluqlarda gəzmişdir" qənaətinə gəlir və Şərqdə də milli hərəkatı ədəbiyyat və ictimai fikrin bu yola düşdüyü gündən başlamağın məqsədəuyğun olduğunu bildirir. Ədəbiyyatşünas Ə.Mirəhmədov Ə.Ağaoğlunun Şərq-Qərb qarşılaşmasındakı Fərdin dilindən deyilən bu fikirləri qəbul etməyərək yazır: *"Gənc akademikin bu mühakimələrində traktat müəllifinin özünə xas olan və bizim yuxarıda da gördüyümüz nihilizmin, Şərq mədəniyyətinə qeyri-obyektiv münasibətin aşkar izləri vardır. Ağaoğlunun özü kimi, onun alim qəhrəmanı da klassik Şərq ədəbiyyatının mahiyyəti və problematikasını düzgün səciyyələndirmir, onun "daim havalarda, boşluqlarda" gəzdiyini söyləməklə həyatın sosial məzmununu inkar etməli olur"* [54,

s.202]. Fikrimizcə, Ə.Ağaoğlunun Şərq ədəbiyyatı ilə bağlı bu fikirlərində onun mahiyyəti və məzmunu inkar edilmir, daha çox qəsidələrdən, ədəbiyyatın həyatı obyektiv şəkildə əks etdirməməsini göstərmək istəmişdir.

Ə.Ağaoğlu əsərdə Sərbəst insanlar ölkəsinin mitinqlərindən də danışır; çünki mitinqlər azadlığın və demokratiyanın əsas atributlarından biridir. Bu şəhərdə park vardır. Buraya "Azadlıq" parkı deyirlər. Parkın içində bir heykəl qoyulmuşdur. Heykəlin altında "Sərbəst ölkənin ilk azad qəhrəmanı" yazılmışdır. Bu istibdada qarşı azadlıq bayrağını qaldıran ilk vətəndaşın şərəfinə ucaldılıb. Ölkə ilk azad qəhrəmanını şərəfini uca tutduğu kimi, buraya dəstə-dəstə adamlar gələrək mitinqlər keçirir, hökuməti tənqid etməkdən belə çəkinmirlər. Mitinqlərin birində gənc bir kişi hökuməti tənqid edirdi. O, bu tənqidində hökumətin partiya proqramına sadiq qalmadığını, işsiz vətəndaşların hələ də küçələrdə dolaşdığını, statistik məlumatlardan ölkə əhalisinin 0,02 faizinin oxuyub yazmaq bilmədiyini, bunun isə ölkədən ötrü bir ayıb, başıaşağılıq olduğunu göstərirdi.

İkinci mitinqdə isə orta yaşlı bir kişi gənc nəsildə gördüyü çatışmazlıqları (gənclərin daha çox pula qaçmaları, iş adamı olmaq həvəsilə yüksək bəşəri duyğulardan və yurdsevərlik keyfiyyətlərindən uzaqlaşmaları, xasiyyətcə get-gedə iradəsiz olmaları və s.) sadalanırdı. Natiq bu əlamətlərin gələcək üçün qorxulu olduğuna diqqət çəkir və bunun qarşısını almaq üçün maarif sisteminin dəyişdirilməsini irəli sürürdü. Üçüncü mitinqdə isə gənc bir xanım qadınların siyasi hüquqlarından söz açılırdı. Ölkədə qadınlarla kişilərin hüquqlarının eyni olmasına rəğmən, yalnız şəhər başçısının kişi ola bilməsi qadınları narazı salırdı. Natiq qadınların doğub bəslədiyi kişinin bu vəzifəni tutmalı olduğu halda, nədən qadınların tuta bilməməsinə etiraz edir, sərbəst insanlar ölkəsində tək bir adamın da başqalarından hüquqca aşağı olmasını azadlıq üçün bir ləkə hesab edirdi.

Ə.Ağaoğlu burada oxucunun diqqətini natiqlərin əda və üslublarına yönəldir; onlar bütün çıxışlarını olmuş və ola biləcəklər üzərində qurur, sözlərində şübhə və tərəddüd doğuracaq qarışıq bir nöqtə qoymamağa çalışırdılar. Söylədikləri təmiz və saygılı olduğu kimi, tənqidə tutduqları adamların da ləyaqətinə toxunacaq tək bir

kəlmə də işlətməkdən çəkinirdilər. Sərbəst insanlar ölkəsində gördüklərini ölkəsində gördükləri ilə müqayisə edən müəllif yazır: *"Aman tanrım, o nə iyrənc mənzərə idi! Necə söyüşlər səslənər, neçə suçlar sadalanardı?! Necə qarışıq sözlər, qapalı eyhamlar, örtülü və iyrənc açıqlamalar söylənərdi! Bəzən elə olurdu ki, dinləyənlər və oxuyanlar nifrətlə qulaqlarını tıxayar, gözlərini yumar və hər yandan tələb edərdilər ki, bu boğucu çirkab və üfunətə qarşı bir sədd çəkilsin. Bax o zaman bu qüvvə ortaya çıxar, söyləyənlərin ağzını, dinləyənlərin qulağını qapayar və insanlar yenə sükutdan, səssizlikdən boğulmağa başlayardılar"* [8, s. 29]. Bununla yazıçı, əslində yaşadığı cəmiyyətdəki ziddiyyətləri, problemləri tənqid edirdi.

"Sərbəst insanlar ölkəsində" əsərində idarəetmə məsələlərinə də toxunulur. Qeyd olunur ki, azad olmayan ölkələri tək bir şəxs idarə edir. Hər yerdə hökmdarın iradəsi hakimdir, hamı ona baş əyməyə bocludur. Belə ölkələrdə "vətəndaşların dolanışıq və səadətindən çox, həmin şəxsin şıltaqlıqlarının" yerinə yetirilməsinə diqqət yetirilir. Buna görə də o adam, səlahiyyəti oldu-olmadı, istədiyi şəxsi işə götürə, yaxud işdən azad edə bilir. Amma o yerdə ki, hakimiyyət xalqın əlindədir, ölkəni xalqın öz aralarında seçdiyi adamlar idarə edir. Seçki təbiəti baxımından əxlaqa, ləyaqətə, səriştə və ixtisasa söykənir. Ona görə də xalqın yönəltdiyi dövlət istibdad quruluşunda olduğu kimi, səriştəsizlərin əlində təcrübə taxtası ola bilməz. İdarəetmədə nəzarət əsas şərtlərdən biridir. Müəllifin azadlıq konsepsiyasında bu məsələyə münasibət belədir: *"Azadlıq nəzarətlə varlığını qoruyur. Azadlıq demək-nəzarət deməkdir. Nəzarət olmayan yerdə azadlıq olmaz və ola bilməz! Bax buna görə də sərbəst ölkədə nəzarətdən keçirmək vətəndaşların həm haqqıdır, həm borcu. Bu üzdən haqdır ki, onların həyatlarına, müqəddəratlarına aid bir işdir. Ona görə borcdur ki, bu işi görməmək vətəndaşın təməl haqqından vaz keçməkdir"* [8, s. 33]. Həm burdan, həm də Ə. Ağaoğlunun digər əsərlərindən də görünür ki, o, hakimiyyətin xalq tərəfindən idarə olunmasına üstünlük verir.

Lakin nəzarət etməyin özü azad olmaq qədər çətin bir işdir; nəzarət heç də hər kəsin ağzına gələni söyləməsi və haqlı-haqsız kimisə pisləməsi deyil. Belə nəzarət əslində iyrənc və zərərlidir. Sərbəst insanlar ölkəsində də şəxsiyyəti alçaldan böhtan

və şaiyədən ibarət olan nəzarətə yol verilmir və buna cəsarət edən hər bir vətəndaş dərhal şəhərdən çıxarılır.

Ə. Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərində toxunduğu problemlərdən biri də azadlıqla xarakter arasındakı bağlılıqdır. Çünki azadlıq yalnız fədakar xarakterə söykənir. Azadlığa qarşı təhlükələri, təhdidləri yalnız bu xarakterlə dəf etmək olar. Cəmiyyətdə biganəlik artdıqda isə bu xarakter formalaşa bilmir və azadlıq həmişə təhlükə ilə üz-üzə qalır. Müəllif burada diqqəti azadlıq və xarakterlə bağlı nitq söyləyən natiqin nə əvvəldə, nə də nitqindən sonra alqışlamamasına çəkir və göstərir ki, Sərbəst insanlar ölkəsində natiqin kürsüyə çıxarkən və çıxışını bitirərkən alqışlanması qadağan imiş.

Sərbəst insanlar ölkəsinə yeni qəbul olunan vətəndaş ölkənin müxtəlif yerlərində, müxtəlif tədbirlərdə olarkən, əslində özünün yaşadığı cəmiyyətlə müqayisə edərək azadlığın mahiyyətini başa düşməyə çalışır. O, başa düşür ki, bu ölkədə yaşamaq üçün ləyaqət sahibi və həqiqətə dözümlü olmalısan, səndə ruh və qəlb təmizliyi olmalıdır. Başa düşür ki, azadlıq-sərbəst düşünmək, düşündüyünü sərbəst və səmimi şəkildə söyləməkdir. Vətəndaşa və bütövlükdə insan ləyaqətinə hörmət sərbəst ölkə insanlarının əsas qaydalarındandır.

Ə. Ağaoğlu əsərinin qəhrəmanını Sərbəst ölkənin akademiyasına, Universitetinə və İnstitutuna da aparır. Bu təsadüfi deyil; bununla yazıçı ölkədə ziyalı mövqeyini ortaya qoymağa çalışır. Çünki Ə. Ağaoğlunun yaşadığı cəmiyyətdə ziyalı mövqeyi hələ tam şəkildə formalaşmamışdı. Məhz buna görə Ə. Ağaoğlu öz fəaliyyətində çox çətinliklərlə qarşılaşmışdı. Onun qəhrəmanı isə Akademiyada alimlərin, ixtiraçıların, "son savaşda ölkənin ordularına komandanlıq edən və qələbədən -qələbəyə aparan" generalın və akademiya prezidentinin hüzurunda vəfat etmiş akademiya üzvünün yerinə yenicə seçilmiş alimin məruzəsinin müzakirəsini təsvir edir. Məruzənin iştirakçılar tərəfindən müzakirəsi, əslində ziyalı mövqeyini ortaya qoyur. Məruzəçi millətin formalaşmasında ziyalıların, yazıçı və filosofların rolunu yüksək qiymətləndirir, Şekspir, Milton, Lok, Spenser, Höte, Şiller, Kant, Hegel, Molyer, Volter, Viktor Hüqo, Bruno, Puşkin, Lermantov, Tolstoy və başqaları

öz millətlərinin formalaşmasında rolu böyük olmuşdur. Onun fikrincə: *"...ziyalı zümrə milləti təmsil etdiyi kimi, onun yüksəlişinə və ya geriləməsinə də cavabdehdir. Çünki ziyalı zümrə genişləndikcə mühit də yüksəlir. Bu zümrə daralıb geriləyəndə mühit də geriləyir"* [8, s. 50-51].

Azad olmaq istəyən adam (Fərd) yalnız ölkənin bütün strukturları ilə tanış olduqdan və Anayasanı öyrəndikdən sonra son qərarını "hazıram", - deyə verməli olur. Bu zaman pirlər onu bir evə -azadlıq mələyinin qanadı altında and içməyə aparır və ona *"- Ey azad olmaq istəyən insan oğlu! Yaxşı düşündünmü? Qəti qərara gəldinmi?" - deyə sual verirlər. Yalnız "Qərarım qətidir!" dedikdən sonra sağ əlini mələyin başına qoyub pirlərin söylədiklərini təkrar edərək and içir:*

*"Azadlığa sadiq qalacağıma and içirəm!";*

*"Sərbəst insanlar ölkəsi Qanununun bütün maddələrinə nöqtəbənöqtə əməl edəcəyimə and içirəm!";*

*"Olduğum hər yerdə Azadlığı yayacağıma və qanunun maddələrini misal gətirəcəyimə and içirəm!";*

*"Azadlığı və sərbəst insanlar ölkəsinin Qanununu qorumaq üçün lazım gələrsə, öz xeyrimdən əl çəkməyə and içirəm!";*

*"Bu andlarımı pozsam Azadlıq Mələyi mənim cəzamı versin!"* [8, s. 80].

Ə. Ağaoğlu "Sərbəst insanlar ölkəsində" əsərində cəmiyyət üçün son dərəcə vacib olan bir çox problemlərə toxunur. Burada müəllifin həm cəmiyyətə sosial baxışları, həm hüquqi müstəvidə qiymətləndirməsi, həm də mənəvi təkamül probleminə münasibəti aşkarlanır. Professor Vaqif Sultanlı yazır: *"Sərbəst insanlar ölkəsində" əsərində müəllif bir səyyah kimi təsvir etdiyi hadisələrin fonunda cəmiyyətin mənəvi təkamülünə mühüm dəyər verir. Xalqın savadlanmasını, maariflənməsini, cəmiyyətin azadlığı, xoşbəxtliyi üçün vacib şərtlərdən hesab edən yazıçı bu yolda ədəbiyyatın üzərinə böyük missiya düşdüyünü göstərməklə, həmçinin Şərq ədəbiyyatının "...içində bulunduğu mühitə, insan və təbiət mühitinə yabançı qaldığına qeyd etməkdən çəkinmir"* [63, s. 8].

Ə. Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri ilə "Sərbəst firqə xatirələri" əsərləri arasında çox dərin bağlılıq və yaxınıq vardır. Belə ki, hər iki əsər, demək olar ki, eyni dövrdə yazılmışdır. Bu elə bir dövr idi ki, Ə. Ağaoğlunun artıq Cümhuriyyət Xalq Partiyası ilə bağları qırılmışdı. O, Türkiyə cəmiyyətinin inqilabdan sonra yeni bir mərhələyə daxil olmasını aydın görür və bu mərhələdə çoxpartiyalılığın, liberalizm və demokratizmin olmasını son dərəcə vacib hesab edirdi. Əgər 1930-cu ildə yazdığı "Sərbəst insanlar ölkəsində" əsərində bir çox hallarda utopik (əslində isə real ola biləcək!) hadisələrdən danışılır, məsələlərə nəzəri baxış bucağından baxılırsa, "Sərbəst firqə xatirələri"ndə birinci əsərdə qoyulmuş nəzəri məsələlər praktik həllini tapır. Bu əsər Türkiyə siyasi, ictimai mühitinin real bir güzgüsü kimi yazılıb. Məsələn, "Sərbəst insanlar ölkəsində" əsərinin "Parlamentdə nələr gördüm?" bölməsində baş verən hadisələrin təsviri, əslində müəllifin özünün də iştirak etdiyi müzakirələrin astar üzü idi. Burada isə yazıçı maliyyə nazirinin büdcə haqqında məruzəsi və onun müzakirəsi, eləcə də ölkənin ali məclisində partiya qrupları, yığıncaqlarının keçirilməsi qaydaları, mübahisələr, müzakirələr və səsvermələrlə bağlı söhbət gedir. Bu müzakirələr əsnasında "kiçicik bir əsəbilik əlaməti" görməyən, bir-birini tənqid etdikləri halda çox hörmətli dil ilə danışdıqlarına diqqət çəkməsi Fərdin özünün də üzvü olduğu mövcud parlamentdəki müzakirələrin əksi idi.

Ə. Ağaoğlunun "Sərbəst firqə xatirələri" əsərində "Sərbəst insanlar ölkəsində" əsəri ilə səsləşən məqamlar çoxdur. Sadəcə olaraq birinci əsər sənədliliyə əsaslandığından onu zamanında dərc etdirmək mümkün olmamışdır. Sərbəst firqə ilə bağlı hadisələrin gedişi və demokratiyanın məğlubiyyəti onu deməyə əsas verir ki, Ə. Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri Türkiyə mühitində o zaman açıq şəkildə yazıla bilməzdi. Ona görə ki, siyasi elita, eləcə də Türkiyə ictimai-siyasi mühiti burada qoyulan problemləri hələ həzm etmək iqtidarında deyil. Maraqlıdır ki, "Sərbəst insanlar ölkəsində" əsəri əvvəlcə "Cümhuriyyət" qəzetində sonra isə kitab şəklində dərc olunduğu halda, "Sərbəst firqə xatirələri"nin çapını gözləmək üçün iyirmi ilə qədər bir zaman lazım olmuşdur. Çünki bu əsərdə 20-30-cu illər Türkiyəsi və onun siyasi elitası haqqında bir çox sərt həqiqətlər də səslənir. Bu həqiqətlər o

zaman düzgün başa düşülmürdü, yalnız zaman keçdikcə, buradakı həqiqətlər öz həllini tapdıqca əsərin çapı üçün real şərait yaranmışdır. Əsər yazıldığı dövrdən Atatürkün vəfatına qədər nəşri ona görə mümkün deyildi ki, burada bəzi real gerçəkliklər vardır. Atatürkün vəfatından (1938) sonra isə İsmət İnönünün hakimiyyət dövrü (1938-1950) başlayır ki, bu dövrdə də kitabın çapı reallaşa bilməzdi. Çünki müəllif Türkiyədə gedən bu proseslərdə demokratiyanın tormazlayıcısı kimi məhz İsmət İnönünü göstərir. Ona görə də "Sərbəst firqə xatirələri"nin ilk çapı Ə. Ağaoğlunun ölümündən on bir il sonraya (1950) təsadüf edir. Məhz bu il Demokratik Partiyanın Türkiyədə hakimiyyətə gəldiyi ildir. Kitabı yazıçının oğlu Demokratik Partiyanın üzvü, Menderes hökuməti dönəmində baş nazirin müavini işləmiş Səməd Ağaoğlu çapa hazırlamışdı. Əsər 1969-cu ildə İstanbulda ikinci, 1995-ci ildə Ə. Ağaoğlunun görkəmli tədqiqatçılarından biri Ufuk Özcanın ön sözü ilə üçüncü dəfə nəşr edilmişdir. Azərbaycan dilində isə, ilk dəfə yalnız bu yaxınlarda, "Seçilmiş əsərləri"ndə (2007) oxuculara çatdırılmışdır [7].

Hər iki əsərdə problemin demokratik cəmiyyət və idarəetmə məsələsi olsa da, birinci əsərdə ad çəkilməmiş, bədii, fəlsəfi didaktik üslubda yazılmış, ikinci əsər isə xatirə üslubunda yazılmış, əsərin obrazları və süjet xətləri həyatdan götürülmüşdür. Əsərdə adı keçən siyasi şəxsiyyətlərin yaşaması da onun həmin dövrdə nəşrinin reallaşmasına imkan verməyən amillərdəndir.

## 3.2. Didaktik və utopik əsərlərində yeni cəmiyyət obrazı

Ə. Ağaoğlunun Türkiyə yaradıcılığının bütün ana xətlərini özündə birləşdirən bir problematika vardır; bu da yeni cəmiyyət quruculuğu yolunda axtarışlarıdır. Onun bütün əsərlərində, məqalələrində, çıxışlarında, demək olar ki, cəmiyyət hadisələrini təhlil edir, yeni cəmiyyət quruculuğunda fikirlərini, konsepsiyasını ortaya qoyurdu. “Mən nəyəm”, “Könülsüz olmaz”, "Tanrı dağında", “Peyami səfaya axirətdən məktublar” və onlarla əsərlərində yeni cəmiyyət axtarışlarına geniş yer verilir. Bu

əsərlərin həm ədəbi, bədii dəyəri, həm də ictimai funksionallığı yeni cəmiyyətdə axtarışlarında müəllifin mövqeyini tam mənası ilə ifadə edir. Bu əsərlər məzmununa, ideyasına, üslubuna görə də ədəbiyyatımızda yeni və orijinaldır. Məzmununa, ideyasına və üslubuna görə bu əsərləri yalnız Ə. Hüseynzadənin "Siyasəti-fürusət", M. Ə. Rəsulzadənin "Əsrimizin Səyavuşu" ilə müqayisə etmək olar. Lakin Ə. Ağaoğlunun bu əsərləri ideya tutumuna, polifonizminə görə Qərb filosoflarının əsərlərilə daha çox yaxınlıq təşkil edir. Burada həm reallıq, həm didaktika, həm də utopiya olduğunu aydın şəkildə görmək olar.

"Könülsüz olmaz" bu əsərlər içərisində ilk yazılanlardandır. Publisistin birdən-birə gündəlik siyasi məsələləri əhatə edən əsərlərdən bir qədər mücərrəd və nəzəri xarakter daşıyan əsərlər yazmağa başlaması, onun özünün siyasi durumu və mövcud cəmiyyətin fərqli baxışa münasibətindən irəli gəldiyini söyləmək mümkündür. Belə ki, 20-ci illərin sonlarına doğru Ə. Ağaoğlu kamalizmdən ayrılmasa da, cəmiyyətdəki və siyasi proseslərdəki bir çox məsələlərlə də heç cür razılaşa bilmirdi. Ona görə də bu cəmiyyətə aid fikirlərini açıq tendensiya ilə deyil, dolayısıyla ifadə etməyə çalışırdı. "Könülsüz olmaz" əsəri bu tendensiyada yazılmışdır. Didaktik-utopik mövzuda qələmə aldığı bu əsər üzərində 20-ci illərin sonlarından işləməyə başlayıb. Bu o zaman idi ki, artıq Ə. Ağaoğlunun ölkənin gələcəyi, ictimai-siyasi proseslərlə bağlı qəti fikirlər formalaşmışdı. Doğrudur, bu fikirləri açıq şəkildə bildirmək ölkədəki ictimai-siyasi proseslərə qarşı getmək demək idi ki, bu da son dərəcə çətin idi. Çətin idi ona görə ki, bütün həyatı boyu Atatürkü və onun qurduğu Cümhuriyyəti cani-dildən müdafiə edən Ə. Ağaoğlunu həm dava arkadaşları, həm də kütlə, xalq özü düzgün anlamayacaqdı. Necə ki, 1926-cı ildə yazdığı Raportunda da buna yaxın fikirləri düzgün başa düşülməmişdi. İctimai həyatda çox zaman belə olur; nəzəriyyə ilə praktika bəzən uyğun gəlmir. Cümhuriyyətin qurulmasından (1923) keçən üç il bir çox problemləri üzə çıxarmışdı. XX illərin ortalarında Ə. Ağaoğlu xəyalındakı Cümhuriyyətlə yaşadığı, real Cümhuriyyət arasında xeyli ziddiyyətlər görmüş və bu səbəbdən də 1926-cı ildə Atatürkə və baş nazir İsmət İnönüyə ünvanladığı məktubunda ölkənin siyasi həyatı, gələcəyi ilə bağlı fikirlərini son dərəcə açıq və

obyektiv şəkildə bildirmişdi. Cümhuriyyət dönəminin ilk illərində millət vəkili olan Ə. Ağaoğlu ictimai-siyasi proseslərin içində olduğundan gözlənilən Cümhuriyyətin qurulmadığından əndişələnirdi. Çünki xalqın mütləq əksəriyyəti inqilabi dəyişikliklərdən heç bir şey əldə etmədiyini, cəmiyyətdəki təbəqələşmənin əvvəlki qaydada davam etdiyini, hətta bir qədər də dərinləşdiyi qənaətində idi. Atatürkə və İsmət İnönüyə yazdığı Raportun əsasında da məhz bu narahatlıq dayanırdı. Əsərin yazıldığı dövrdə onun qənaətləri daha da dərinləşmişdi. Lakin indi fikirlərini əvvəlki metodla, məktub şəklində yazmağın mümkün olmadığını da bilirdi. "Könülsüz olmaz" əsəri də məhz bu duyğuların təsiri altında yazılmağa başlamışdır. Bu mənada əsəri avtobioqrafik səciyyəli əsər də hesab etmək olar. Baxmayaraq ki, əsər didaktik-utopik üslubda qələmə alınmış, real tarixi şəxsiyyətlərin adı çəkilməmişdi, bununla belə, əsərdə söhbətin hansı cəmiyyətdən getdiyi məlum idi. Atatürkün sağlığında bu əsəri dərc etdirmək mümkünsüz görünürdü. Ona görə də "Könülsüz olmaz" əsəri ilk dəfə Ə. Ağaoğlunun ölümündən sonra 1942-ci ildə yazıçının oğlu Səməd Ağaoğlu tərəfindən nəşrə hazırlanmış ikicildliyində yer almışdı.

"Könülsüz olmaz" əsərində cəmiyyət hadisələri, dövlət, fərd, ictimai-siyasi proseslər bədii şəkildə təsvir edilir. Əsər üçün yazıçı maraqlı süjet xətti qurmuşdur. Belə ki, əsərin qəhrəmanı (müəllifin özü olması şübhə doğurmur) indi əlli yaşında olan gənclik dostu Turqutu uzun illərdir ki, görə bilmirdi. Onunla bir məktəbdə təhsil almış, birlikdə türk ədəbiyyatına milli vətənpərvərlik motivləri gətirən Namiq Kamalın (1840-1880), Tənzimat dövrü türk siyasi və dövlət xadimi Ziya Paşanın (1826-1880) əsərlərini oxuyaraq məmləkətin keçirdiyi fəlakətlərdən, istibdaddan qurtulmaq yollarını düşünmüş, inqilabın ölkəyə gətirdiyi mənfəətlərdən söhbət açmışdılar. Turqutun o illərdə dediyi sözlər hələ də onun qulaqlarında səslənirdi: *"Ah, zalımlar! Ah, alçaqlar! Bir gün gələcək cəzanıza çatacaqsınız!" - deyə hədələyib mənə xitabən: "Ah, qardaşım, o zaman necə də xoşbəxt günlər olacaq! Nəhayət, türklər də başqaları kimi zülm və əsarətdən qurtulacaqlar. Biz də başqaları kimi sərbəst və şərəfli bir həyat keçirə biləcəyik", - deyərək məni qucaqlayır və gözlərindən yaşlar axıdırdı"* [5, s.91].

Daha sonra onların yolları ayrılır, biri Almaniyaya, digəri isə Fransaya təhsil dalınca gedir. Bir müddət məktublaşdıqdan sonra geri vətənə dönürlər. Vətəndə olan inqilabın əsas memarlarından biri də Turqut olur. Lakin bu zamandan başlayaraq əsərin baş qəhrəmanının Turqutdan xəbəri olmur. Müfəttiş olduğu zaman vilayətləri dolaşarkən vaxtilə inqilabda iştirak etmiş Turqut Yurd kəndində sakit bir həyat yaşayır, siyasətlə məşğul olmur, torpaq əkib becərərək onunla dolanır. O, kənddə də hər kəslə əlaqə saxlamır, heç kəsi qəbul etmir, özü və keçmişi haqqında da məlumat vermirdi. Qəhrəmanı maraqlandıran, hər şeydən əvvəl, coşğulu, inqilabçı Turqutun bir müddət keçdikdən sonra necə sakit bir həyat sürməsi idi. Onu ictimai-siyasi proseslərdən çəkindirən nə idi? Məktəb yoldaşı Turqutun həyatı ilə bağlı suallar çox olduğundan onu görmək üçün Anadolunun Yurd kəndinə getməli olur. Qəhrəmanla Turqutun cəmiyyət söhbətləri də məhz burada baş tutur.

Kənddə Turqutla görüşən məktəb yoldaşına məlum olur ki, Turqut Fatma adlı bir qadınla evlənmiş, bu kəndə gələrək yüz dönüm torpaq almış, inək, öküz, toyuq, qaz, hindtoyuğu saxlayaraq özü üçün bir həyat düzəltmişdir. İndi onun cəmiyyəti Fatmadan və bu ev heyvanlarından ibarətdir. Oxumuş, mədəni, uzun müddət Fransada yaşamış, çoxlu ictimai-siyasi mübarizələrdə olmuş bir insanın mədəni zövqlərdən, komfortdan özünü məhrum edərək belə bir yerdə yaşamasının səbəbləri təkcə dostu üçün deyil, çağdaş oxucu üçün də əhəmiyyət daşıyır. Turqut ilə dostunun bu istiqamətdə dialoqunda da məhz cəmiyyət, həyat, ictimai münasibətlər göstərilir. Özü də bu dialoqda yalnız iki nəfərin deyil, bütünlüklə cəmiyyətin diaqnozu qoyulur. Dostunun ondan o həyatı qoyub bura nə səbəbə gəlməsini və əvvəlki həyatı üstün hesab etməsinə Turqut belə cavab verir: *"-Əzizim, həyat və səadət haqqında fikirlər, duyğular müxtəlifdir. Birisinin səadət saydığı bir şey digəri üçün əsl fəlakət ola bilər. Sənin mədəni həyat, mübarizə-filan dediyin şeyləri yaşadığım zaman bircə dəqiqə də, başa düşürsənmi, bircə dəqiqə də rahatlıq və səadət duymadım. Ruhum daim bir təlaş, bir həyəcan, bir təşviş içində boğulurdu. Nəsibim ələm, kədər, iztirab idi. Hələ onu demirəm ki, hər şeydən ağır, hər şeydən işgəncəli olan ruhumun öz-özü ilə təzadı idi. Bu təzadın ucbatından həyat başdan-başa bir cəhənnəm əzabı idi"* [5, s.95-96].

Fransızların Tantal əfsanəsində olduğu kimi, həyatı cəhənnəm əzabına məhkum olan Turqut əyalətə gəldikdə dinclik tapmış, rahatlığa qovuşmuşdur. O, siyasi mübarizələrdən bezərək kəndə gəldikdən sonra kəndlilər üçün çalışmaq, onlar üçün kooperativlər təşkil etmək, yardım cəmiyyəti düzəltmək və gecə kursları açmaq fikrinə düşsə də heç nə alınmır. Çünki kəndli ona və onun səmimiyyətinə inanmır. Bu inamsızlığın səbəbini Turqut camaata qarışmayan, kimsəylə görüşməyən səksən yaşlı bir qocadan öyrənməyə çalışır və "- *Çünki adamlarda könül qalmayıb. Könülsüz iş olmaz, əfəndim" [5, s.96] cavabını alır. Sonra onların arasında dialoq aşağıdakı kimi davam edir: " - Qoca, nə demək istəyirsən?*

*O güldü:*

*- Başa düşmürsən? Demək istəyirəm ki, bizim buramızda könül yerinə daş vardır. Daş üzərində ot, ağac bitərmi?*

*- Bitməz.*

*- Könülsüz də iş olmaz. Kəndli, sən, mən-hamımız sinə, könül yerinə daş gəzdiririk. Daş isə rişə atmaz, kök bağlamaz, ağac yetirməz. Madam ki, belədir, yəni madam ki, könül yerini daş tutub, sənin, mənim, hamının gördüyünüz işlər əbəsdir, bihudə tutmaz, olmaz"* [5, s.97].

Əslində, Ə. Ağaoğlu inqilabi proseslərdə yaxından iştirak etmiş bir şəxsin əyalətə çəkilməsi və onun kəndliləri bir yerə yığa bilməməsinin səbəblərini aramağa çalışır. Yəni vaxtilə vətənin gələcəyi üçün canlarını verənlər indi ölkədə gedən ictimai-siyasi proseslərə son dərəcə laqeyd idilər. Kəndlilər daha onlara inanmırdılar, onlara verilən vədlərin limiti bitmişdir. Yaxud əyalətlərdəki vəziyyətlə danışılan arasındakı ziddiyyət "Konülsüz olmaz" məsəlini yaratmışdır. Turqut "könülsüz olmaz" ifadəsinin dərinliklərinə getdikcə cəmiyyətdə gedən proseslər tamamilə əsərin qəhrəmanı üçün aydınlaşır. Turqutun kənd yerində bir ölümlə bağlı şahidin, qaimməqamın, müstəntiqin, imamın və kənd camaatının özünü necə aparması ilə əyalətdə gedən ictimai prosesi bütün çılpaqlığı ilə üzə çıxarır. Kənd camaatının yaşayışının ağırlığı, evlərinin ibtidailiyi, insanların yoxsulluğu, süstlüyü və s. onları bu vəziyyətə salmışdır. Ən dəhşətlisi isə odur ki, rəsmi adamlar camaata laqeyd

münasibət bəsləyir, onların problemləri ilə maraqlanmırdılar. Bu vəziyyət Turqutun dostunda mağara dövrünü xatırladır. Şəhərdə yaşayan və müfəttiş işləyən dostunun "Millət budurmu?" sualına Turqut belə cavab verir*:" - Bəli, budur. Bu həmin millətdir ki, sənin əzəmət və ixtişaşına Vyana sərhədlərinə, Varşava ucqarlarına, Qafqaz dağlarına, Afrikanın son nöqtələrinə qədər aparıb çatdırmışdır, sənin padşahlarına, sədr-əzəmlərinə, sərdarlarına, vəzirlərinə, şeyxülislamlarına o min bir zövqlə dolu yaşayışı, dünya gözəlləri olan o məşuqələri, qılmanları, o möhtəşəm sarayları, köşkləri, xəzinələri vermişdir. Fəqət, o özü necə vardısa, genə elədir. O genə o oyuqda köpəkləri, öküz və inəkləri ilə birgə yaşayır, üstəlik, bu gün səni də, məni də dolandırır. Sən indiyə qədər bunu bilirdinmi?*

*-Əzizim, bilmirdim. Kaş heç bilməyəydim də"* [5, s.104].

Turqut dostuna kənd həyatının sirlərindən danışdıqca "könülsüz olmaz" ifadəsinin dərin qatlarına enir; xalq dühasının könül varlığı ilə mülk varlığını bərabər tutduğuna bir daha inanır. Ona məlum olur ki, insan demək, elə könül deməkdir. Könül viran olsa, insan da viran olar. İnsan varlığı isə mülk varlığıdır. Turqut hətta dünyada iz qoyub gedən Musa, İsa, Məhəmməd, Budda, Brahma, Konfutsi, Qaliliey, Həllac Mənsur, Janna Dark, Kant, darvin kimi adamları da könül adamları hesab edir. Lakin indi vəziyyət başqadır. Məhz könül adamlarının olmaması səbəbindən bu gün bu vəziyyət alınmışdır. Bir ölüm hadisəsi nümunəsində kəndin, əyalətin imamı, həkimi, müstəntiqi, hakimi və camaatın könülsüzlüyü bütün detalları ilə ortaya qoyulur. Məcudiyyətini almamış dua oxumayan imamın davranışı, qaimməqamın özünü hakim kimi aparması, xalqdakı eqoizm kənddə (geniş mənada ölkədə!) yeni situasiyanı yarandığını göstərir. Lakin o ümidini kəsməmişdir, əksinə yolu dəyişdirməyin lazım olduğu düşüncəsindədir. Turqut bu vəziyyətin çıxılmaz olduğunu da düşünmür: *"Bu gün təqlid etdiyimiz mədəni millətlərin müxtəlif tarixi dövrləri yadındadır? Qəlbin yolunu açan həmin o dövrlərdir. Bir zamanlar orda da xalqın tərbiyə amili olan din bir qəflət və riya alətiydi: bu qəfləti işlədən də cahil keşişdi. Fəqət, islahat dövründən sonra vəziyyət dəyişir: din bir şəfqət və mərhəmət, əfv və ehsan, bir həmrəylik və yardım amili olur"* [5, s.108].

Turqut istibdadı yıxdıqlarına heyfslənmir, əksinə, bunun zəruru və təxirəsalınmaz məsələ olduğuna inanır. Onun fikrincə, bu baş verməsəydi istibdad xalqı yıxacaq, məmləkəti və xalqı məhv edəcəkdi. Fəqət, istibdadı yıxarkən əldə edəcəkləri təsisatın fövqündə olacağımızı bilmək lazım idi. Çünki bu təsisatın kökü və əsası yüksəlmiş, təmizlənmiş insan qəlbidir. Uzun müddət davam etmiş istibdad xalqı zülmü və cəbr altında əzmiş, təbiətində üsyan qabiliyyətindən əsər-əlamət qoymamışdır. O, cəbr və zorakılığa dözdüyü kimi, yeri gələndə özü də "ləzzətlə, həvəslə cəbr və zorakılığa" əl atır.

Ə. Ağaoğlu Turqutla müfəttiş dostunun dialoqunda vurğuladığı əsas problemlərdən biri əyalətin yaddan çıxması, hökumətin burada öz varlığını göstərməməsidir. Əyalətlərdə baxımsızlıq baş alıb gedir, həkim bu kəndə yalnız cinayət baş verəndən-verənə gəlir. Camaat ehtiyac və məhrumiyyət içində qovrulur. Dialoqdan çıxan nəticə də xeyli düşündürücüdür: könül yolunu tapmaq və könül yolunu tutmaq. Bu isə o deməkdir ki, insanlar özlərində eqoizm yerinə altruizm və fədakarlığı, acgözlük yerinə şikəstnəfsliyi, tamah yerinə qənaəti, cəbr yerinə dözümü, zorakılıq yerinə mərhəməti, qürur yerinə təvazönü, ədavət yerinə məhəbbəti, hiylə yerinə dostluğu, yalan yerinə doğruluğu, riya yerinə açıqlığı, yaltaqlıq yerinə sədaqət kimi keyfiyyətləri özlərində tərbiyə etməlidirlər. Millətin həyatını başdan-başa dəyişdirmək iddiasında olanlar, hər şeydən əvvəl, gərək özlərini dəyişdirsinlər. Bu keyfiyyətlər Ə. Ağaoğlunun "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri", eləcə də "Axın" qəzetindəki müxtəlif məqalələrində də vurğulanırdı. Deməli ki, Ə. Ağaoğlunu 20-ci illərin sonlarında ən çox düşündürən məsələlərdən biri cəmiyyəti dəyişdirmək olmuşdur. İki keçmiş inqilabçının gəldiyi nəticə bundan ibarətdir ki, inqilab etsələr də, özlərini və mühitlərini dəyişdirmək mümkün olmamışdır. Əcdadlarımızdan qalma mühitdən qalmış acgözlük, tamah, cəbr, eqoizm kimi keyfiyyətlər hələ də qalmaqdadır. Onlar həmin illərdə inqilab dalğasının üstündə üzsələr də, dərinliklərə gedib çıxa bilməmişlər, istibdadı yıxmaqla öz işlərini bitmiş hesab etmişlər. Halbuki, istibdadı yıxmaq, onun bəzi təsisatlarını kənara atmaqla iş bitmir, istibdadın köklərini arayıb məhv etmək və onun yerinə yeni təsisat yaratmaq

lazım gəlirmiş. Əsas məsələ isə pisliyin kökünü tapıb onunla mübarizə aparmaqdan ibarət olmalıydı.

Ə. Ağaoğlunun Türkiyə siyasi həyatındakı daxili mübarizəsini, yaxud siyasi düşüncəsini əks etdirən əsərlərindən biri də "Ben neyim?" (bu əsər V. Quliyevin təqdimatında "Mən kiməm?" adı ilə dərc edilmişdir - M.K.) əsəridir. Bu əsər "Cümhuriyyət" qəzetində 5 sentyabr 1936-cı ildən çıxmağa başlamışdır. Bu seriyadan müəllifin beş məqaləsi dərc olunmuş, sonra davam edilməmişdir. Yalnız 19 fevral 1939-cu ildə yenidən bu yazılara qayıdılmış və yenə də "Cümhuriyyət" də çapını davam etdirmişdir. Oxucularla yeni görüşünə Ə. Ağaoğlu bu sözlərlə gəlmişdi: *"Bir zamanlar "Cümhuriyət"də "Ben neyim?" adlı yazılar yazmağa başlamışdım. Dostlarımın və oxucuların təkidi ilə həmin yazılara davam edirəm"* [73].

Ə. Ağaoğlunun "Ben neyim?" əsəri kitab halında ilk dəfə ölümündən sonra İstanbulda çap olunan "Ağaoğlu külliyyatı"ında yer almışdır. Yazıçının oğlu S. Ağaoğlu bir çox qəzetlərdə, məcmuələrdə dərc edilmiş məqalələrini bir yerə toplayıb kitab şəklində dərc etdirmişdir. Azərbaycan dilində isə ilk dəfə əsər tədqiqatçı alim Vilayət Quliyevin dilimizə uyğunlaşdırması ilə "Mən kiməm?" adı ilə "Seçilmiş əsərləri"ndə dərc edilmişdir [5]. "Seçilmiş əsərləri"ndə bu adla dərc edildiyindən bundan sonra biz də əsəri bu cür adlandırmağa üstünlük verdik.

Ə. Ağaoğlunun "Mən kiməm?" əsəri də "Sərbəst firqə xatirələri", "Sərbəst insanlar ölkəsində", "Könülsüz olmaz" əsərləri kimi müəllifin Türkiyə ictimai-siyasi həyatının yazıçının öz daxilindəki psixoloji mübarizəsini əks etdirir. Əsərdə müəllif öz-özü ilə daxili mübarizəsini dialoqunda özünü olduğu kimi görmək və gördüyü kimi göstərmək qərarına gəlir. Yəni İçi ilə Çölünü qarşı-qarşıya gətirir və fransız şairinin *"Ey qadiri-mütləq! Mənə öz içimi nifrət etmədən görmək qüdrətini bəxş elə!"* - fikirlərinə istinad edir. Avtobioqrafik səciyyəli əsərin lap əvvəlində yazıçı İçi və Çölünə aid öz həyatından bir nümunə gətirir: *"Bu hallar məni qəribə vəziyyətlərə salır. Məsələn, Əli Kamal zamanlarında əməli və ölçülü-biçili düşünən İçim məni Əli Kamalla anlaşmağa, qəzetində məqalələr yazmağa və inamadığım Qurtuluş savaşına qarşı çıxmağa sövq etmişdi. Bu dəfə isə xalqa xitabən söylədiyim çox təsirli, çox*

*həyəcanlı nitqimdə Əli Kamaldan, onun zamanından və Qurtuluş hərəkatına inanmayanlardan nifrətlə bəhs etmişdim"* [5, s.50].

Yazıçı bu sətirlərlə vaxtilə türk qəzetçisi Əli Kamalın (1869-1922) Qurtuluş savaşına və Atatürkə qarşı çıxmasına və özünün də Əli Kamala qoşulmasına işarə edir. Bu fakta yazıçı "Sərbəst firqə xatirələri" əsərində də toxunur. Ə. Ağaoğlunun Türkiyə siyasi fəaliyyətində yeganə faktdır ki, o, irəlini görüb və vaxtında qiymətləndirə bilmir. Nəticədə, çox doğru olaraq, o, cəbhə dəyişdirərək Atatürkün tərəfində durur. Məlumdur ki, Əli Kamalın Qurtuluş savaşı əleyhinə yazıları "Sabah" qəzetində dərc olunurdu. Daha sonra isə Ə. Ağaoğlunu Atatürkün yanında görürük. O, Əli Kamal əleyhinə nifrətindən danışır. Deməliyik ki, Əli Kamal 1922-ci ildə həbs edilsə də, iş məhkəməyə çatmadan İzmirdə əsgərlər tərəfindən linc edilmişdi. Müəllif ona da toxunur ki, bir nəfər tanımadığı Əli Kamalın qohumlarından olan adam yanına gələrək onun Əli Kamala yazdığı dəstək məktubunu çatdırır və "Məktubu alın və bundan sonra ona daha əmin-arxayınlıqla lənət yağdırın" [5, s.51], - deyir. Yazıçı özünün Qurtuluş savaşına, yaxud Əli Kamala qarşı münasibətində İçi ilə Çölünü qarşılaşdırır, içindəki "nəcib", "insaniyyət", "haqq", "vətən", "vətəndaşlıq", Çölündəki "eqoizm" kimi keyfiyyətləri qarşı-qarşıya gətirərək belə bir nəticəyə gəlir: *"Mənim iki üzüm var-Eqoizm və altruizm. Lakin min təəssüf ki, mən yalnız istəkdə, arzuda, boş danışıqlarda altruistəm. İndiyə qədər məndən altruizmimə dəlalət edəcək tək bir hərəkət də görünməmişdir. Eqoizm isə bütün hərəkətlərimə rəhbərdir. Çölüm fayda və mənfəət olmayan yerə bircə addım da atmaz!"* [5, s.52]. Yazıçı "Könülsüz olmaz" əsərində bəhs etdiyi eqoizm xarakteri ilə bağlı burada daha dərin qatlara girir, onu ictimai münasibətlər kontekstində təhlil edir, Çölünün bu qədər eqoist və özünə vurğun olmasının səbəblərini axtarır.

Ə. Ağaoğlu Eqoizm və altruizm kontekstində müzakirəni bir daha cəmiyyət hadisələrinə gətirir, qərb-şərq cəmiyyətlərini qarşılaşdırır. Bu cəmiyyətlərə Eqoizm və Altruizm kontekstindən yanaşan publisist Qərb cəmiyyətinin qüvvətli cəhətlərinə nəzər yetirərək Qərbdə hər kəs hər kəsin "haqqının, şərəfinin, izzət-nəfsinin" qoruyucusu olmasını təqdir edir. Şərq cəmiyyətinə xas olan "Mənə nə?", "nə işimə

qalıb ki, gedim başımı bəlaya salım?" kimi düşüncənin Qərbdə olmaması müəllfə görə cəmiyyətin formlaşmasında mühüm rol oynayan amillərdəndir.

"Mən kiməm?" əsərində müəllif Şərqdə olan eqoizmdə gen-bol rifah içində yaşamağın əsas amillərdən biri olduğunu önə sürür. Eqoist adamlar bahalı paltarlara, zəngin mülklərə, cıdır yarışmalarına, barlara, ballara məftun olur, hər yerdə birinci olmaq istəyir, çox pul xərcləmədiyi gün özünü bədbəxt sayır. Bəzən İçində oyanan altruizm duyğusu ona əzab verərək bu qədər lazımsız xərclərin "bir-iki kasıb məktəb uşağına" etməyin mümkünlüyünü yada salır. Lakin Çölü dərhal qarşısını kəsərək bu fikrin reallaşdırılmasına mane olur.

Müəllif Eqoizmin onda doğurduğu xəstəliklərdən bəhs edərkən cəmiyyəti içindən yeyən yarınmaq kimi xarakterin üzərində də dayanır; baxmayaraq İçinin yarınmaqdan zəhləsi gedir, çünki yarınmağın bir üzü də yaltaqlıqdır. Lakin İçinin yarınmaq və yaltaqlanmağa qarşı bu təpkisi həmişə Çölü tərəfindən etirazla qarşılanır, İçinin əksinə olaraq yenə də yarınmağa çalışır. Üstəlik onu "Axmaqlıq təkcə bizəmi qalıb?", - deyə danlayır, axmaq İçin boş sözlərinə uymamağı məsləhət görür: *"Məlumun olsun ki, o səndə yaşayır, lakin başqaları üçün çalışır. Mən isə bütün qüdrət və qüvvətimi sənə sərf etməkdəyəm. Səni qoruyan, səni qurtaran, səni sən edən itaət deyilmi?"* [5, s.59].

Çölün həddindən artıq eqoizmi onu yalançılığa da aparıb çıxarmışdır; İçi həqiqət, quruculuq aşiqi olsa da, Çölü buna razılıq vermir, dərhal ona qarşı çıxır. Nəticədə mühərrir və alim olan İçi inanmadığı mövzunun qanan şəklində şərh edir, bilmədiyi bir hadisəni bilən kimi danışır. Bunu da Çölünün təhriki ilə edir, Çölü ona lazımı yerdə, lazımi məqamlarda yalanı, uydurmanı təlqin edir. Bu məqamda İçi ilə Çölü arasında gedən dialoq cəmiyyətin barometrini aydın şəkildə ifadə edir: "Bir dəfə İçim dayana bilmədi, müdaxilə etdi və Çölümə müraciət edərək*: "heç olmazsa, bir az utan! Bir az da həya lazımdır! Bu cür hərəkət artıq rəzalətdir",-dedi.*

*Çölüm istehzalı qəhqəhə ilə cavab verdi:*

*-Utanmaq! Nəyə? Sən bu kəlmələrin mənalarını anlayaraq deyirsən, yoxsa ağzına gəldiyi üçün havaya sovurursan? Bilmirsən ki, utanmaq və həya, yalnız əfkari*

*ümumiyyə olan yerlərdə lazımdır? Çünki həya və utanmaq əfkari-ümumiyyənin ortaya atdığı hökmlərə qiymət vermək, onları saymaq deməkdir.*

*-Məgər bizdə əfkari-ümumiyyə yoxdur?*

*-Var, amma o da sənin kimi qınına girmiş, büzülmüş, sıxılmış bir haldadır. Heç olmasa, mənim həyasızlığım qədər onun da varlığı olsaydı, ən azı məni də bu həyasızlıqdan uzaqlaşdırardı. Lakin heç bir qüvvət mənim qarşımı ala bilməz"* [5, s.60-61].

Zaman-zaman İçi ilə Çölü arasında bu cür dialoqlar davam edir; bəzən də Çölünün miskin vəziyyətə düşməsi İçini ona qarşı qaldırır, onu ittiham edir. İçinin qənaətinə görə "izzət-nəfs sahibi bir adam" bu qədər yalvarmaz, özünü alçaltmaz, eləcə də bükülməz və əyilməz. Məhz bu məqsədlə də Çölü susdurmaq, ona meydan verməmək qənaətinə gəlir. Başa düşür ki, Çölü kimilər çox olsa, cəmiyyətdə insanların bir-birinə olan inamları, vəfaları, sədaqətləri aradan qalxar, qara qüvvələr çoxalar və onlar meydan sulayarlar. Ona görə də camaatın və səmimiyyətin düşmənini cəmiyyətdən qovmaq qərarına gəlir.

Riyakarlıq məsələsində də İç ilə Çöl heç cür uyğunlaşa bilmirlər. Çünki Çölün eqoizmindən irəli gələn riyakarlıq da cəmiyyəti içindən dağıdan amillərdən biridir. Heç bir düşüncə və duyğuya qiymət verməmək xüsusiyyətinə malik olan insan gündə neçə dəfə mövqe dəyişdirməli olur; səhərçağı pozitivist, günorta rasionalist, axşam isə metafizik olur. Bu barədə İçin ittihamları ilə üzləşən Çöl ona cavab verir: *"Çölüm qürurlu bir səslə İçimə: "Sən heç bir zaman adam olmayacaqsan. Həyat nədir? anlamayacaqsan. Axmaq! Düşündüyümü və hiss etdiyimi olduğu kimi söyləmək mənəmi qalmışdır? Get, başqalarını tap. Məni aldada bilməzsən. Digərlərinin fikir və hisslərini üzlərinə qarşı mədh və sitayiş edəndə, arxadan onlara gülən də tək mən deyiləm. Ətrafına bax-hamı eyni işi görür"* [5, s.65].

İçi ilə Çölü arasındakı bu mübarizə qəhrəmanın özünün də cəmiyyətdəki mövqeyini müəyyən etmir. Çünki İçi ilə Çölü arasında vurnuxur, onların fəlsəfi, əxlaqi düşüncələrinin arasında qalır; hansına inansın, hansını seçsin. Məsələn, Çölü ona özünü istəmək, özünü sevməyi öyrədir. Bu isə qəhrəmanı hərisliyə aparır və onun

iki böyük ehtirası üzə çıxır; zəngin olmaq və yüksək vəzifə tutmaq. Əlbəttə, İçin əxlaqına görə zənginlik və vəzifə tutmaq bəzi şərtlər nəzərə alınarsa, təbiidir, hətta cəmiyyətin özü üçün də faydalı ola bilər. Bilik, zəka, qabiliyyət sahibi birisinin də vəzifə tutması camaat üçün xeyirlidir. Lakin Çölü bunlara sahib olmaq üçün heç də bu yolu seçmir, asan yolla zəngin olmağın, zəhmət çəkmədən, müxtəlif kombinasiyalar quraraq layiq olmadığı vəzifəni tutmağın mümkünlüyü haqqında danışır. Zəngin olduğu zaman isə insanlara, həyata münasibət dəyişir. Həmişə olduğu kimi, bu məsələdə də İç Çöl qarşısında Don Kixot mövqeyində qalır.

Eqoizmin qəhrəmanda bəsləmiş olan xüsusiyyətlərdən biri hökmranlıq duyğusudur. Çölün içi hökmranlığa məftun olduğu halda, İç buna etiraz edir. Çölün düşüncəsində görə əsrlər boyu daim əyənlər və əyilənlər olmuş və bu hal ruhi bir funksiya almışdır. Zəiflər güclüləri gördükdə öz-özlərinə əyilir, güclülər isə daim zəiflər üzərində hökmranlıqlarını göstərməyə çalışırlar. Qəribəsi isə odur ki, özündən zəiflərin ona qarşı aldıqları zəlil vəziyyətdən nə qədər xoşlanırsa, özündən qüvvətlilərin və böyüklərin önündə o qədər də rəzil vəziyyətə düşür. Çölün ayrı-ayrı məqamlarda bu vəziyyətə düşdüyünü görən İç yenə onu ittiham edir, onun düşdüyü bu vəziyyəti "*Allah məzlumların intiqamını alır*", - deyə ittiham edir. Yenə də Çöl öz fəlsəfəsini işə salaraq İçə cavab verir: *" - Axmaq, yenə də eyni havaları çalırsan: "Allah", "məzlumların intiqamı". Birdəfəlik başa düş ki, allah-filan bu işlərə qarışmaz. Hökmranlıq həyatda bir nərdivandır. Həm aşağıdan yuxarı, həm də yuxarıdan aşağı gəlir. Pillələr yüksəldikcə hökmranlığın zoru və qüvvəti də çoxalır. O birisi məndən artıq müqavimət göstərirmiş. Təbii ki, göstərməli idi. Bir dəfə duyduğu təzyiqin siqləti hələ azdır. Digər tərəfdən itirəcəyi şey də o qədər əhəmiyyətli deyil. Mənə gəlincə, iş başqadır. Yalnız həyata tam yabançı olduğum üçün anlamadığım bir şey var: bu kimi işlərdə həddindən artıq həssaslıq göstərməyə dəyməz. Yetkin olmaq lazımdır. Anlayırsanmı?"* [5, s.70-71].

"Mən kiməm?" əsərində Çölün malik olduğu xüsusiyyətlərdən gözügötürməzlik, qısqanclıq kimi keyfiyyətlər də kəskin tənqid olunaraq cəmiyyət üçün yararsız, ziyanlı hesab edilir və hər ikisi eqoizmin məhsulu olaraq təhlilə cəlb

olunur. Çölün qısqanclığı o dərəcəyə çatmışdır ki, hətta donosbaza da qısqanclıq etmişdir. Çünki onun verdiyi donosu o özü vermək istəyirdi. Əsərdə, çox doğru olaraq, qısqanclıq cəmiyyətin ən böyük bəlalarından biri hesab edilir. Bir məclisdə birisinin şeir oxuması və bu şeirin hamının xoşuna gəlməsi Çölün qısqanclığına səbəb olur və bu şeirin təsirini azaltmaq, sahibini alçaltmaq üçün bir yığın iradlara əl atmalı olur. Bu zaman İçin ona *"-Axı sən özün heç mühərrir də deyilsən! Sən pisliyi sadəcə pislik eləmək üçün edirsən, nə həyasız, nə iyrənc məxluqsan! O zavallı haqqında o iftiraları necə uydurdun? Faydan nə idi?", -iradına "-Sən belə işləri başa düşə bilməzsən. Şair, mühərrir, mütəfəkkir və s. bu kimi şəxslər yer tapıb etibar qazanarlarsa, mənə nə* qalar? Mən hər kəsdən və hər şeydən artıq özümü düşünürəm, özümü qoruyuram" [5, s.73], - sözlərinin əsasında namusu bir həyat dayanırdı. .

Göründüyü kimi, cəmiyyətin bir fərdinin şəxsində İç ilə Çöl arasında gedən mübahisə, mübarizə cəmiyyəti içindən yeyən dağıdan problemləri özündə ehtiva edir. Qəhrəman daxilində gedən mübarizənin fərqindədir; onun daxilində həm insaf, mürüvvət, həm də zalımlıq yer alır. Lakin bu belə davam edə bilməz. Bu xəstəliyin çarəsini tapmaq lazımdır. Onun gəldiyi nəticə isə belədir; iradə zəifliyi. O, dərk edir ki, daxilindəki bütün xəstəliklərin mənbəyi iradəsinin zəif olmasındadır. Başa düşür ki, o, bir varlıq olaraq Çölünün əsiridir, bütün qərarları verən də, icra edən də odur. Lakin onun mənliyi yalnız Çölündən ibarət deyil, İçi də vardır. Zəif də olsa Çölə qarşı dayana bilir, zəif də olsa mövcuddur və Çölü ilə birlikdə deyil. Mənliyinin İçini daim Çölündən üstün tutması da göstərir ki, bu xəstəliyə qalib gəlmək olar. Yalnız iradəsinin güclü olması hesabına Çölünə qalib gələcəyinə və ondan bir kölə kimi istifadə etmək gücünə malik olacağına inanır.

Ə. Ağaoğlu "Mən kiməm?" əsərinin sonunda cəmiyyətin idarə edilməsi problemindən söhbət açır və həmişə olduğu kimi, burada da Qərb cəmiyyətinə üz tutur. Hiss olunur ki, bununla mövcud idarəetmənin boşluqlarını göstərmək istəmişdir. Onun fikrincə, ingilis cəmiyyəti məhz fərdin İçinin qüvvətlənməsi sayəsində güclü olmuşdur. Ə. Ağaoğlu İngiltərədə maliyyə nazirinin büdcə elan olunmamışdan əvvəl öz dostlarına onun barəsində danışması ilə bağlı məclisə sorğu

göndərilmiş, orada isə *"Mister Tomas namuslu insandırsa, əlbəttə ki, öz vəzifəsində qalmaq barədə düşünməz",* - deyilmişdi. Nəticədə maddi cəhətdən sui-istifadə halına yol verməyən nazir istefa verməli olmuşdur.

Müəllifin ingilis cəmiyyətinə aid başqa bir nümunəsi, ingilis kralının səyahətə çıxarkən qəzetlərin manşetində geniş şəkildə deyil, orta səhifələrdə xəbər olaraq verildiyini təqdir etməsidir. Müəllif bu cür hadisələri demokratik cəmiyyət üçün əsas məsələlərdən biri hesab etməklə, bunun səbəbini azadlıqda, ingilis əfkari-ümumiyyəsinin sərbəstliyində görürdü. O, inanır ki, azadlığına qovuşan bizlərdə də əfkari-ümumiyyə gücləndikcə İçi də qüvvətlənəcək və bir gün Çölünə qalib gələcək. Yazıçının Çölü ilə bağlı yekun fikirləri də Türkiyə cəmiyyətinin təxirəsalınmaz tədbirləri təsiri bağışlayır: *"Xülasə, bu həqiqət bütün acılığı ilə qəbul edilməlidir. Mənim Çölümlə cəmiyyət arasında dərin bir təzad vardır. Və Çölüm cəmiyyəti də əsasından sarsıtmadadır. Cəmiyyətin yaşaması naminə buna çarə tapmalıdır. Zahirimin islahdan başqa yolu olmadığından bu əməliyyatı ən təcili şəkildə həyata keçirmək lazımdır"* [5, s.77].

Ə. Ağaoğlunun 30-cu illərdə yazdığı əsərlərdən biri- "Tanrı dağında" əsərinin mövzusu əski türk həyatından alınmışdır. Bu əsər digər əsərlərindən fərqli olaraq ictimai, siyası mövzuda deyil. Ancaq müəllifin əvvəlki əsərlərilə səsləşən mesajlar vardır ki, məhz bu baxımdan ona nəzər salmaq və təhlil etmək lazım gəlir. "Tanrı dağında" əsəri ilk dəfə silsilə məqalələr şəklində "Cümhuriyyət" qəzetində (1939-cu il 2 fevral) dərc edildikdən sonra "Ağaoğlu külliyyatı"nın birinci cildinə daxil edilmişdir. Azərbaycanda isə bu əsərin varlığından ilk dəfə tədqiqatçılar Vurğun Əyyub və Məhəmməd Allahmanlı məlumat vermişlər [32]. Onlar yalnız əsəri tapıb ortaya çıxarmamış, həm də onu Azərbaycan türkcəsinə çevirərək oxuculara təqdim etmişlər və beləliklə, azərbaycanlı oxucular 1992-ci ildə əsərlə tanış olmaq imkanı qazanmışlar. Tədqiqatçılar əsəri "hekayə-əsatir" adlandırırlar. Əsərin tədimatında onun mənbəyini göstərir və müəllif qeydlərinə əsasən onun mövzusunun V. İ. Serejovskidən götürüldüyünü də yazırlar: *"Böyük filosof, siyasətçi, hüquqçu, jurnalist kimi tanınan Əhməd bəy Ağayevin əsərləri ilə yaxından tanışlıq onun ədəbi*

*fəaliyyətinin yeni, maraqlı səhifələrini açır. Bu böyük şəxsiyyətin əsərlərinin tam külliyyatının birinci cildində (İstanbul, 1939) biz onun "Tanrı dağında" adlı bir hekayəsinə rast gəldik. Müəllifinin özünün yazdığı qısa ön sözdən məlum olur ki, hekayə məşhur rus mütəfəkkiri Serejovskinin "Yaqutlar" adlı əsərindən tərcümə edilmiş, bəlkə də onun motivləri əsasında qələmə alınmışdır"* [32].

Əsərin mövzusu məşhur rus türkoloqu V. İ. Seroşevskinin Sibir və Altay türklərinin mifologiyası, dili və dinindən bəhs edən "Yakutı. Opıt etnoqrafiçeskoqo issledovaniya" kitabındakı süjetlərdən birindən istifadə edilərək yazılmışdır. Lakin Ə. Ağaoğlu əsəri yazarkən yalnız həmin mənbə ilə kifayətlənməmiş, digər mənbələrdən və bədii fantaziyasından da istifadə etmiş, hətta bəzi məkanları milliləşdirmişdir. Burada şamanlar Şamanını Qaraqurumlu Göyçə adlandırır. Onun belindəki tütəyin isə Göygöldən alınmış qutlu bir qamışdan olduğunu bildirir. Ümumiyyətlə, "Tanrı dağında" əsərində müəllifin əsas məqsədi kökə, torpağa qayıdışı tərənnüm etməkdən ibarətdir.

"Tanrı dağında" əsərində qəhrəmanın bir şamanla Tanrı hüzuruna getməsi təsvir edilir. Yol çətin və qorxulu olsa da, onlar yollarına davam edirlər. Çünki Tanrıya qovuşmaq o qədər də asan deyildi. Yolda onlara iki canavar rast gəlir. Ac canavarlar qorxunc bir nərə ilə üstlərinə atılmaq üzrə idi ki, şaman belindəki tütəyi çıxarıb çalmağa başlayır. Canavarların ikisi də tütək səsindən heyran olaraq onu dinləyirlər. Məlum olur ki, qamışda Tanrı qüvvəsi vardır. Şaman canavarların bu cür heyranlıqla dinləmələrini belə izah edir: *"-Bil, anla ki, məndə, səndə, bu dağlarda, daşlarda, quşlarda, ağaclarda yaşayan bir cövhər, bir kök vardır. Biz o cövhərin müxtəlif şəkilləriyik! Ayrı-ayrı görünürüksə də, cövhərimiz bir olduğu üçün həqiqətdə birik. Canavarları gördünmü? Nəfəsə tab gətirə bilmədilər. Çünki nəfəs aslinə qayıtdı, özünü tapdı, birliyi oyandırdı. Böyləcə, əslə qayıdan hər nəfəs hər şeyi özünə ram edər!"* [5, s.79].

Tanrı dağına gedərkən onların Ellik ulusuna gəlmələrinin də rəmzi mənası vardır. Hər tərəfi yaşıllıq, gül-çiçəklərdən ibarət olan bu ulus Tanrının sevdiyi uluslardandır. Ulusun atası Tanrının qulu Ellikdir. Elliyin əlində südlə dolu qaşıq

tutaraq etdiyi dua da kökə qayıdışı əks etdirir: *"Bizi yaradan yiyəmiz tanrı! Bizi saxlayan sahibimiz ana! Ey Tanrı! Ey səkkiz göyü yaradan! Ey dörd göyün sahibi ana! Ey doqquz günəşli yer! Ey səkkiz guşəli yaradıcı səhra! Ey az ormanlıqlı, qalın otlu orta dünya! Doğurdunuz bizi! Sayənizdə yaşayırıq"* [5, s.80]. Bu dua türk xalqının qədim inanclarından gələn dualardandır. Əsərdəki digər detallar da türklərin tarixi inaclarından gəlir.

Onlar Tanrı dağına qədər yeddi çay keçirlər. Bunlar Yeddi qardaş çayıdır, hamısı mənbəyini Tanrı dağından alır. Tanrıya qovuşmaq istəyənlər burada çimir, ruhlarını təmizləyir, qəlblərini saflaşdırır və Tanrı hüzuruna çıxmağa layiq olurlar. Şamanın dediyinə görə, vaxtilə belə deyildi, Tanrı qulluğu vardı. Qaraqurum qövmü qorxmazdı, özü-sözü birdi, birlikdə oturub birlikdə qalxardılar. O zamanlar Qaraqurum sağa, sola, önə, arxaya ağa idi. Amma sonralar qayda-qanun pozuldu, elin qayğısını çəkən olmadı, hamı özbaşına qaldı, qarqurum dağıldı və qövmü zəlil oldu. Müəllif artıq bir neçə əsərində türklərin birliyi ideyasına toxunmuşdur. Burada da türk qövmlərinin birliyini onların gələcək həyatının təminatçısı rolunda görür.

Bu məqsədlə də onlar dərələr, təpələr keçərək Tanrı dağına qədər gedirlər. Bütün şamanlar bura toplanmışdı; Cunqariya şamanları, Qırğız şamanları, Orxon şamanları, Qaşqar şamanları, Altay şamanları, Qobi şamanları və Qaraqum şamanları. Onlar Allahdan mərhəmət diləyirlər. *"-Ey qövmün elçiləri! Budur, gəldim! Nə istəyirsiniz? Sizi buralara sürükləyən nədir" Söyləyiniz! Söyləyiniz!",-səsinə şamanlar " - Ey ulu Tanrı! Bəndələrinə rəhm elə! Suç işlətdiksə, bağışla! Çəkdiyimiz yetər! Mərhəmət et! Yol göstər!"* [5, s.81],-deyə ona üz tuturlar. Tanrının dediyindən məlum olur ki, Tanrı ellər arasından onu seçmişdir. O zaman bu el də söz birliyinə, həmrəyliyə sahib olub, dünyanın bir ucundan o biri ucuna qədər "insaniyyət yayıb", "mədəniyyət saçıb", "bəxtiyarlıq verib". Fəqət bir zaman gəlib ki, ulus söz birliyinə baxmayıb, Tanrını unudub, ayaqları tutulub, əlləri işləməyib, gözləri görməyib, beyni düşünməyib, iməciliyə çıxmayıb, yetim uşaqları və dul qadınları unudub. Babalarda olan o istək də qalmayıb, bir sözlə keçmişini, ənənəsini unudub və ondan ayrılıb.

Diz üstə durmuş şamanlar Tanrının bu sözlərindən başlarını aşağı salırlar. Türk ellərinin elçiləri Tanrını dinlədikdən, göstərdiyi yolu bəllədikdən sonra əllərini göyə doğru qaldırıb and içirlər: *"Yerin, göyün, canlı-cansız hər şeyin yaradanı uca Tanrıya bu andı içirsiz: haqdan başqa bir kimsəyə uymayacağız! Əlimiz var-işləyəcək, ayağımız var-gedəcək! Beynimiz var-düşünəcək, könlümüz var-duyacaq! Bir-birimizə sarılacağız. Varlığa, yoxluğa, aclığa, toxluğa, bolluğa, sıxıntıya baxmayacağız! Yürüyəcəyiz! Başımız dik, ürəyimiz açıq, sözümüz ötkəm-yürüyəcəyiz! Heç bir əngəl bizi durdurmayacaq! Sönmüş ocaqlarımızı işıqlandırmaq, dağılmış yurdumuzu qurmaq üçün yürüyəcəyiz!"* [5, s.89].

Bu əsərdən də aydın görünür ki, Ə. Ağaoğlu Türkiyənin və türk xalqlarının gələcəyini çox düşünürdü və onu həm də türk xalqlarının birliyində görürdü. Əsərin əsas ideyasını doğru müəyyən edən tədqiqatçılar V. Əyyub və M. Allahmanlının aşağıdakı qənaətləri onun əsas mahiyyətini ifadə edir: "Əsər ümumtürk təfəkkürünün, dünya və kainat haqqında məlumatların, şamanizmin, şaman ayinlərinin öyrənilməsi, türklər haqqında etno-psixoloji biliklər baxımından böyük əhəmiyyətə malikdir. Hekayə-əsatirin sonunda tanrının şamana müraciətində oxucu əslində türkün itirilmiş mənəvi-əxlaqi keyfiyyətlərinin, azadlığının, müstəqilliyinin, şərəfinin geri qaytarılması, türk dünyası bütövlüyünün arzusunda olan maarifçi-filosofun öz səsini eşidir. Tərcümənin dili heyrətamiz dərəcədə sadə, aydın və anlaşıqlıdır. Müəllif əsatirə məxsus ifadə tərzinin, o dövrə aid onomastika sistemini saxlamaqla yanaşı, türk dilinin ilkinlik və qədimliyini də qorumuşdur" [32].

Beləliklə, Ə. Ağaoğlu yaradıcılığında ümumtürk təfəkkürünün formalaşdığını və müəyyən bir mərhələyə gəldiyini aydın görmək olar. XX əsrin əvvəllərində Türk dünyasında, xüsusilə Türkiyə və Azərbaycan ictimai fikrində bu meyil Ə. Hüseynzadə, M. Hadi, A. Şaiq və başqalarının yaradıcılığında Turançılıq şəklində olsa da, 20-ci illərdə dünyada və regionda baş verən ictimai-siyasi hadisələr bu ideyanı gündəmdən tamamilə çıxarmışdır. Ona görə də 30-cu illər Türkiyəsində bu birlik ideyasını müdafiə etmək olduqca çətin idi. Çünki bunun konturları görünmürdü. Lakin Sovetlər dağıldıqdan sonra bu ideyanın gerçəkləşməsi üçün

müəyyən imkanlar yarandı. Bu cəhətdən Ə.Ağaoğlunun "Tanrı dağında" əsərindəki bu günə yönəlik mesajlarının bir reallığa çevrildiyini yazıçının aktivinə yazmaqla, onun böyük uzaqgörənliyini xüsusi qeyd etmək olar.

# NƏTİCƏ

Beləliklə, XX əsr Azərbaycan ictimai fikrini görkəmli nümayəndəsi publisist, yazıçı, siyasətçi Əhməd bəy Ağaoğlunun Türkiyədəki yaradıcılığına və ictimai-siyasi fəaliyyətinə nəzər salarkən bir insan ömrünə sığmayan son dərəcə zəngin bir yaradıcılığın, gərgin fəaliyyətin, keşməkeşli,ziqzaqlı bir tərcümeyi-halının olduğunu gördük. Demək lazımdır ki, ötən əsrin 20-ci illərində Türkiyədə gedən ictimai-siyasi proseslərin dünyanın diqqət mərkəzində olduğunu nəzərə almış olsaq, Ə Ağaoğlunun fəaliyyətinin o zamankı cəmiyyət üçün son dərəcə önəmli olduğunu yəqin etmək olar. Onun yaradıcılığı və fəaliyyəti çoxtərəfli, çoxjanrlı, sistemli və davamlı şəkildə davam etmiş, son nəfəsinə qədər xalqına, millətinə, kültürünə bağlı olduğunu göstərmişdir. O, həm bir publisist, yazıçı, redaktor, mədəniyyətşünas, siyasətçi və xalqın gələcəyi üçün narahat olan ziyalı olmuşdur. İyirmi bir yaşında Paris kimi xarici, tanış olmayan mühitdə yaradıcılığa başlamasından son yazısına-cənazə məsrəflərinin qarşılanmasına qədər yazıları zəngin bir irs qoyub getmişdir. Azərbaycan və Türkiyə mühitində Ə. Ağaoğlu kimi ikinci bir şəxsiyyət yoxdur ki, əsərlərini dörd dildə - Azərbaycanca, türkcə, fransızca və rusca yazmış və bu ölkələrdə yayınlamış olsun. Onun bu dillərdə yazdığı yüzlərlə əsəri Paris, London, Bakı, Tiflis, Moskva, Orenburq, Kazan, Peterburq, Baxçasaray, Ankara, İstanbul və eləcə də Türkiyənin bir çox şəhərlərində dərc edilmişdir. Elə bir fikir adamı olmamışdır ki, yaradıcılığı Azərbaycan və Türkiyə mühitini, problemlərini eyni dərəcədə əhatə etsin, bu ölkələrin ictimai-siyasi, elmi, mədəni problemlərini əhatə etmiş olsun. Eyni zamanda, elə bir fikir adamı olmamışdır ki, yaradıcılığı bu qədər zəngin və çoxjanrlı olsun; publisistik, ədəbi, bədii, elmi, tənqidi, ictimai-siyasi, fəlsəfi, əxlaqi, didaktik və s. Onun fəaliyyəti də çoxyönlü və hərtərəfli olmuşdur; həm bir redaktor, müxbir, qurucu ("Həyat", "İrşad" və "Tərəqqi", "Axın" və s.), həm ictimai təşkilat rəhbəri ("Difai"), partiya üzvü və ideoloqu ("Ittihad və Tərəqqi"), həm millət vəkili, həm də bir müxalifətçi kimi yaşayıb yaratmışdır. XX əsrin əvvəllərində Azərbaycan və Türkiyə mühitini, ictimai-siyasi proseslərini Ə. Ağaoğlusuz təsəvvür

etmək mümkün deyildir. Araşdırmalar göstərir ki, Ə. Ağaoğlunun Azərbaycandakı yaradıcılığı və fəaliyyəti nə qədər zəngin və əhəmiyyətlidirsə, Türkiyə yaradıcılığı da o qədər əhəmiyyətlidir. Bütün bunları nəzərə alaraq, Ə. Ağaoğlunun Türkiyə yaradıcılığı və ictimai fəaliyyəti ilə bağlı aşağıdakı nəticələrə gəlmək olar:

1. Ə. Ağaoğlunun Türkiyə yaradıcılığı Azərbaycandakı yaradıcılığının mövzu və problematika baxımından davamı olub onu daha geniş arenada tamamlayır və inkişaf etdirir (türkçlük, müasirlik, islamçılıq, ictimai-siyasi proseslərə münasibət və s.).

2. Ə. Ağaoğlu Türkiyədə yaşadığı və yazdığı əsərlərində, ictimai-siyasi fəaliyyətində islahatçı, obyektiv, sözünü açıq deyən, cəmiyyətin çıxarıları üçün çalışan, vətəndaşlığı hər şeydən üstün tutan bir ziyalı olmuş və əsərlərində də bu cür ziyalı tipinin formalaşmasında önəmli rol oynamışdır.

3. Ə. Ağaoğlunun bütün yaradıcılığı cəmiyyəti inkişaf etdirməyə yönəlmiş və əməli fəaliyyəti ilə üst-üstə düşmüşdür. Bu cəhətdən onu bir cəmiyyətşünas, sosioloq kimi də dəyərləndirmək mümkündür.

4. Ə. Ağaoğlu bir mədəniyyətşünasdır; məqalələrində, publisistik, didaktik, fəlsəfi əsərlərində türk mədəniyyətini, düşüncəsini daim müdafiə etmiş və dünya mədəniyyətindəki yerini müəyyənləşdirməyə çalışmışdır. "Üç mədəniyyət" əsəri Azərbaycan və türk mədəniyyətşünaslığında yazılmış ən yaxşı əsərlərdən biridir.

5. İslamçılıq, onun dünəni, bugünü və gələcəyi onu çox narahat etmiş, ayrı-ayrı onlarla məqalələrində, araşdırmalarında islam aləminin problemlərini aydınlatmağa çalışmış, tarixinə hərtərəfli nəzər yetirmiş, dövr üçün ziddiyyətli fikir və mülahizələri aydınlatmış, müasir cəmiyyətdəki yerini və mövqeyini müəyyənləşdirməyə nail olmuşdur.

6. "İttihad və tərəqqi" partiyasının üzvü kimi Türkiyədə gedən siyasi proseslərdə (eləcə də Azərbaycanda) yaxından iştirak etmiş və ittihadçı kimliyini axıradək qoruyub saxlaya bilmişdir.

7. Ə. Ağaoğlu Türkiyədə yaşamasına baxmayaraq Azərbaycanda gedən siyasi-ictimai prosesləri də dərindən izləmiş, mümkün olduğu qədər fəaliyyəti ilə buradakı

proseslərdə iştirak etmişdir. Onun Nuru paşanın müşaviri olaraq Azərbaycana gəlməsi, burada millət vəkili seçilməsi və Paris Sülh konfransında iştirak etmək üçün Fransaya nümayəndə heyəti tərkibində olması da bunu bir daha göstərir. Təəssüf ki, düşmən qüvvələr onun Fransaya getməsinə mane olur, İstanbulda İngilis qüvvələri tərəfindən həbs edilərək Maltaya sürgün edilir. Sovet Azərbaycanının ilk illərində buraya gələrək fəaliyyətini davam etdirməsi ilə bağlı N. Nərimanovla məktublaşmaları da sübut edir ki, Azərbaycana gəlmək, siyasi fəaliyyətini burada davam etdirərək doğma xalqına və vətəninə xeyir vermək onun başlıca məqsədlərindən biri olmuşdur.

8. Ə. Ağaoğlunun Türkiyə yaradıcılığında milliyyət anlayışı başlıca yer tutur; bu istiqamətdə onun fikirləri Avropa millətçilərinin fikirləri ilə yaxınlıq təşkil edir. Dili milliyyətin qurucu təməli olaraq görən Ə. Ağaoğlunun yaradıcılığında türkçülük yeni mahiyyət qazanır. Onun yaradıcılığında islamçılıqla türkçülük bir-birini inkar edən yox, tamamlayan anlayışlar kimi qəbul edilir.

9. Müasirlik Ə. Ağaoğlunun həm əsərlərində, dünyagörüşündə və ictimai-siyasi fəaliyyətində söykəndiyi və onu inkişaf etdirdiyi ən önəmli faktorlardan biridir. Avropalaşma və müasirləşmə, demək olar ki, onun yaradıcılığının və siyasi fəaliyyətinin ana xəttidir.

10. Ə. Ağaoğlu Türkiyə Cümhuriyyətinin qurulmasında və Böyük Millət Məclisinin fəaliyyətinin ilk illərində son dərəcə əhəmiyyətli rola sahib olmuş, Qarsdan millət vəkili kimi bir sıra önəmli işlər görmüşdür. Cəsarətlə demək olar ki, Cümhuriyyətin qurulmasında, onun siyasi cəhətdən formalaşmasında Atatürkün ən yaxın köməkçilərindən biri də Ə. Ağaoğlu olmuşdur. Həmin dövrdə o, həm bir funksioner (Anadolu Ajansının qurulması, millət vəkili kimi fəaliyyəti və s.), həm də bir ideoloq kimi çıxış etmişdir.

11. Ə. Ağaoğlu həm də Türkiyədə bir ilkə imza atmışdır; Türkiyədə müxalifətçilik institutunun formalaşmasında ən böyük rolu məhz o oynamışdır. Belə ki, Sərbəst Firqənin yaranması zamanı və bağlanmasından sonra da Ə. Ağaoğlu müxalifətçi funksiyasını ləyaqətlə yerinə yetirmiş, partiya bağlandıqdan sonra

Cümhuriyyət Xalq Partiyasına dönməmiş, "Axın" qəzetini nəşr edərək müxalif mövqedən məqalələr yazmış və bir redaktor kimi də fərqli mövqe sərgiləyərək demokratik cəmiyyətin formalaşmasında önəmli rola sahib olmuşdur.

12. Ə. Ağaoğlunun "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri", "Mən kiməm?", "Könülsüz olmaz", "Tanrı dağında" və s. əsərləri, eləcə də yüzlərlə məqalələri, məktubları Azərbaycan və Türkiyə ədəbi, ictimai, fəlsəfi fikrində ən önəmli yerlərdən birini tutur.

13. Ə. Ağaoğlunun zəngin ədəbi, publisistik, elmi, bədii, fəlsəfi irsini təşkil edən əlyazmaları və kitabları Azərbaycana gətirilərək müxtəlif istiqamətlər və problemlər baxımından araşdırmaya cəlb olunmalı, hələ də nəşrini gözləyən əsərlərinin külliyyatı dərc edilməli və fundamental araşdırmaya cəlb edilməlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Ağaoğlu,Ə.H. Bəs bizim ziyalılarımız haradadır?: "Kaspi"dən seçmələr /Ə. Ağayev; tərt. ed., rus dil. tərc., ön söz, izah və şərh. V. Quliyev.- Bakı: Qanun, - 2019.- 159, [1] s.

2. Ağaoğlu,Ə.H. Xatirələr / Ə. Ağaoğlu; tərt. ed., türk. uyğunlaşdırma, müqəddimə, izah və şərhlər V. M. Quliyev.- Bakı: TEAS Press, - 2019.- 214 s.

3. Ağaoğlu, Ə.H. İran və inqilabı / Ə.Ağaoğlu. - Bakı: Azərnəşr, - 2009. - 150 s.

4. Ağaoğlu,Ə.H. Malta xatirələri // Ədəbiyyat. –2016. Malta məktubları: Malta sürgünündə olduğu zaman ailəsinə yazdığı məktub / Ə.Ağaoğlu // Ədəbiyyat qəzeti. – 2015. – 6 iyun. – S.14; 13 iyun. – S.11; 26 iyun. – S.27; 4 iyul. – S.6: 1 avqust. – S.9 ; 15 avqust. – S.9; 19 sentyabr. – S.18-19.

5. Ağaoğlu,Ə.H. Mən kiməm? / Ə. Ağaoğlu; toplama, tərt. ed., rus və türk dillərindən tərcümə, müqəddimə, izah və şərhlər V. Quliyev; red. A. Məsud.- Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi, - 2019.- 598, [2] s.

6. Ağaoğlu,Ə.H. Rus ədəbiyyatının ümumi səciyyələri //- Bakı:Azərbaycan jurnalı, - 1989. № 1, - s. 147-165.

7. Ağaoğlu,Ə.H. Seçilmiş əsərləri / Ə.Ağaoğlu.- Bakı: Şərq-Qərb, - 2007.- 392 s.

8. Ağaoğlu,Ə.H. Sərbəst insanlar ölkəsində / Ə.Ağaoğlu.- Bakı: Tutunəşr, - 2001.- 80 s.

9. Ağaoğlu, Ə.H. Şuşa, Peterburq və Paris xatirələri: (Atatürkə iki məktub): [Əhməd bəy Ağaoğlunun doğumunun 150-ci ildönümünə ithaf] /Ə. Ağaoğlu; tərt. ed. D. Əhməd; red. G. Muxtarova.- Bakı: Çapar yayınları, - 2019.- 123, [1] s.

10. Ağaoğlu,Ə.H. Üç mədəniyyət / Ə.Ağaoğlu.- Bakı: Mütərcim,- 2006.- 154 s.

11. Ağaoğlu,S.Ə. Hekayələr, memuarlar / S.Ağaoğlu. - Bakı: Ozan,- 2008. - 352 s.

12. Ağayev,Ə.H. Aləmi-islama bir nəzər // İrşad. - 1907, 17 noyabr.

13. Ağayev,Ə.H. Avropa və aləmi-islam // Kaspi. - 1903, 25 sentyabr.

14. Ağayev,Ə. H. Doktor N. Nərimanova məktub // Kommunist. - 1921, 19 iyun.

15. Ağayev,Ə.H. Millət və millətçilik // Tərəqqi. - 1909, 22 yanvar, № 16; 26 yanvar, № 19; 29 yanvar, № 22; 5 fevral, № 28.

16. Ağayev,Ə.H. Osmanlı ədəbiyyatına bir nəzər // İrşad. - 1908, 22 aprel.

17. Ağayev,Ə.H. Şiə dinində Məzdəki inancları (Fransızcadan çevirəni H.Qoca) //- Bakı: Mədəniyyət dünyası, - 2005. X buraxılış, - s. 57-62.

18. Ağayev,Ə.H. Tərəqqipərvərlər, yaxud gənc türklər // Kaspi. - 1903, 21 noyabr.

19. Ağayev,Ə. H.Türkiyədən məktublar (rusca) // Kaspi. - 1909, sentyabr.

20. Ağayev,Ə.H.Yeni türklər, panizlamizm və osmanlı materializmi // İrşad. – 1907.

21. Akalın,G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu / G.Akalın.- Bakı: Az. ATAM, - 2012. - 164 s.

22. Akçura,Y. H.Türkçülüyün tarixi / Y.Akçura. - Bakı: Qanun, - 2010. - 272 s.

23. Azərbaycan Xalq Cümhuriyyəti. Məqalələr məcmuəsi. - Bakı: Elm, - 1998, 260 s.

24. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə]. - Bakı: ASE Baş Redaksiyası, - c. 1. – 1976. - 592 s.

25. Böyük ədib və mütəfəkkir Əli bəy Hüseynzadə / Tərtibçilər: Nikpur Cabbarlı, Şamil Vəliyev. - Bakı: Elm, - 2015. - 483 s.

26. Cabbarlı,N.M. Azərbaycan mühacirət nəsri / N. Cabbarlı. - Bakı: Elm və təhsil, - 2011. - 140 s.

27. Əhmədov,B.B. Azərbaycan mühacirət ədəbiyyat / B.Əhmədov. - Bakı: Elm və təhsil, - 2017. - 376 s.

28. Əhmədov,B.B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / B.Əhmədov. -Bakı: Elm və təhsil, - c. 3. -2011. - 560 s.

29. Əhmədov,B.B. XX yüzil Azərbaycan ədəbiyyatı; problemlər, istiqamətlər, mərhələlər / B.Əhmədov. - Bakı: Elm və təhsil, - 2015. -552 s.

30. Əhmədov,B.B. "Türkləşmək, müasirləşmək, islamlaşmaq" üçlü düsturu kimindir? I məqalə // 525-ci qəzet. - 2015, 19 dekabr.

31. Əliyeva (Kəngərli), A.İ. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük / A.Əliyeva (Kəngərli). - Bakı: Elm, - 2002. - 332 s.

32. Əyyubov,V.Ə., Allahmanlı,M. Əhməd Ağaoğlu irsindən yeni səhifələr / Oğuz eli. - 1992, 4-10 fevral.

33. Fikrin karvanı: görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları / Tərtib edəni, redaktoru və ön sözün müəllifi Elçin. - Bakı: Yazıçı, - 1984. - 348 s.

34. Göyalp,Z.T. Türkçülüyün əsasları / Z.Göyalp. - Bakı: Maarif, - 1991. - 175 s.

35. Həbibbəyli,İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik / İ. Həbibbəyli. - Bakı: Nurlan, - 2007. - 696 s.

36. Hüseynov,Ş.A. Əhmədbəy Ağaoğlunun dünyagörüşü / Ş.Hüseynov. -Bakı: Azərnəşr, - 1997. - 126 s.

37. Hüseynova,Ü.Ə. Əhmədbəy Ağaoğlunun ədəbi-tənqidi görüşləri / Ü. Hüseynova. - Bakı: Nurlan, - 2006. -146 s.

38. Hüseynzadə,Ə.Ə. İntiqad ediyoruz, intiqad ediliyoruz // Füyuzat. –1907. № 23.

39. Hüseynzadə,Ə.Ə. Seçilmiş əsərləri / Ə.Hüseynzadə. - Bakı: Şərq-Qərb, - 2007. - 480 s.

40. Hüseynzadə,Ə.Ə.Türklər kimdir və kimlərdən ibarətdir / Ə .Hüseynzadə.- Bakı: Mütərcim, - 1997. - 291 s.

41. Karahan,M.A. Əhməd Ağaoğlu Türkiyə ədəbi, ictimai-siyasi mühitində / - Bakı: Tarix və onun problemləri, - 2017. №1.- s. 63-70.

42. Karahan,M.A. Əhməd Ağaoğlu yaradıcılığında dünyəvi dövlət və cəmiyyət arayışları / Sumqayıt: Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. Cild 12, - 2016. № 4. - s. 42-46.

43. Karahan,M.A. Əhməd Ağaoğlunun "Könülsüz olmaz" əsərində Türkiyə gerçəklikləri / - Bakı: Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, - 2017. №1. - s. 194-196.

44. Karahan,M.A.Əhməd Ağaoğlunun “Sərbəst firqə xatirələri” əsərində Türkiyə gerçəklikləri” // Türkoloji elmi-mədəni hərəkatında ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq Konfrans, - Bakı: - 14-15 noyabr, - 2016.- s.413-418.

45. Karahan,M.A. Əhməd Ağaoğlunun “Sərbəst insanlar ölkəsində”əsərində yeni cəmiyyət prinsipləri / - Bakı: Filologiya məsələləri, - 2017. №3. - s. 423-429.

46. Karahan,M.A. Əhməd Ağaoğlunun Türkiyə ictimai fikrində rolu / - Bakı: Tarix və onun problemləri, – 2018. №3. – s. 39-45.

47. Quliyev,V.M. Ağaoğlular / V.Quliyev. - Bakı: Ozan, - 1997. - 236 s.

48. Quliyev,V.M. Atasına layiq oğul-Səməd Ağaoğlu // Ağaoğlu S. Hekayələr, memuarlar. - Bakı: Ozan, - 2008. - s. 3-27.

49. Quliyev,V.M. Əhməd Ağaoğlu // Ə. Ağaoğlu. Seçilmiş əsərləri. - Bakı: Şərq-Qərb, 2007. - səh. 3-15.

50. Quliyev,V.M.Əhməd Ağaoğlu-Sonuncu mogikan //Ayna. - 2007, 8 sentyabr.

51. Quliyev,V. M.Son illərin yazıları / V.Quliyev. - Bakı: Ozan, - 2009. -600 s.

52. Qurbanov,Ş. Cəmaləddin Əfqani və türk dünyası / Ş. Qurbanov. - Bakı: Azərnəşr, - 1996. - 220 s.

53. Malta məktubları, yaxud "burada həyat kurulmuş bir makine gibidir // Ədəbiyyat. - 2015, 19 sentyabr.

54. Mirəhmədov,Ə.M. Əhməd bəy Ağaoğlu / Ə.Mirəhmədov. - Bakı: Ərgünəş, - 2014. - 264 s.

55. Mirəhmədov,Ə.M. Əhməd bəy Ağayev // - Fikrin karvanı. - Bakı: Yazıçı, - 1984. - səh. 80-95.

56. Ordubadi,M.S. Qanlı illər / M.S.Ordubadi. - Bakı: Şərq-Qərb, - 2007. - 168 s.

57. Osmanqızı,L.O. Əhmədbəy Ağaoğlunun publisistikası: "Kaspi" qəzetinin materialları əsasında / L. Osmanqızı. - Bakı: Elm və təhsil, - 2012. - 404 s.

58. Rəsulzadə,M. Ə. Ə.Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə. - Bakı, [n. y.], - 2015. - 152 s.

59. Rəsulzadə, M.Ə. Ə.Əsərləri / M.Ə.Rəsulzadə. - Bakı: Elm, -c. 3. – 2012. - 96 s.

60. Rüstəmov,Y.İ. Türk fikir tarixi haqqında mülahizələr / Y.Rüstəmov. - Bakı: Çaşıoğlu, - 2005. - 224 s.

61. Sofiyev, X. Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu / X.Sofiyev. - Bakı: Ocaq, - 2004. - 240 s.

62. Sultanlı,V.S. Azərbaycan mühacirət ədəbiyyatı / V.Sultanlı. - Bakı: Şirvannəşr, - 1998. - 160 s.

63. Sultanlı,V.S.Əhməd Ağaoğlu fenomeni // Ədəbiyyat. – 2006, 1 sentyabr. – s.3-14.

64. Süleymanlı,M.A. Əhməd Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində məzdəki inancları / M.Süleymanlı. -Bakı: Letterpress, - 2007. - 125 s.

65. Süleymanlı,M.A.Əhməd Ağaoğlunun "İslama görə və islamlıqda qadın" əsərinə elmi-tənqidi yanaşmalar / M.Süleymanlı. -Bakı: Letterpress, - 2008. - 145 s.

66. Tahirli,A.H. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991) /A.Tahirli. - Bakı, [n. y.], -2005. - 528 s.

67. Talıbzadə, K.Ş. Əhməd Ağaoğlu // - Bakı: Azərbaycan,- 1989. № 1, - s. 135-146.

68. Talıbzadə,K.Ş. Əhməd Ağaoğlu və onun "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəri. Seçilmiş əsərləri: [2 cilddə] / K.Talıbzadə. - Bakı: Azərnəşr, - c. 2. – 1994. -305 s.

69. Vəliyev, Ş.Q. Füyuzat ədəbi məktəbi / Ş.Vəliyev. - Bakı: Elm, - 1999. - 442 s.

70. "Yeni Kafkasiya", (ərəb qrafikasından transliperasiya edən və şərhlərin müəllifi Yavuz`Akpınar): [2 cilddə]. - Bakı: Elm, - c. 1. - 2012. - 216 s.

71. "Yeni Kafkasiya", (ərəb qrafikasından transliperasiya edən və şərhlərin müəllifi Yavuz`Akpınar): [2 cilddə]. - Bakı: Elm, - c. 2. - 2012. - 208 s.

**Türk dilində**

72. Ağaoğlu,A.H. Ahmet Cevdet Beye Cevaplarım // Vatan. - 1923.

73. Ağaoğlu,A.H.Ben Neyim? / A.Ağaoğlu. –İstanbul: [n. y.], -1939. - 70 s.

74. Ağaoğlu,A.H. Böyük Millet Meclisi // Akın. –1933,13 Haziran.

75. Ağaoğlu,A.H.Bu Akın! Hedefe Koşuyor // Akın. - 1933, 13 Eylül.

76. Ağaoğlu,A.H. Bu Gün Akın Kim Ve Ne İçin 3 Kuruşa Çıkıyor? // Akın. – 1933.

77. Ağaoğlu,A.H. Demokrasi ve Devletçilik // Cümhuriyyet. – 1935, 6 Haziran

78. Ağaoğlu,AH. Ergenekon ve Bozkurt // Tercümani Hakikat. - 1914, 12 Eylul.

79. Ağaoğlu,A.H. Gazetemiz Aleyhine Bir Dava Açıldı // Akın. - 1933, 12 Haziran.

80. Ağaoğlu,A.H. Gazetemizin Yolu, Dileği ve Tarzı // Akın. – 1933, 29 Mayıs.

81. Ağaoğlu,A.H. Gönülsüz olmaz, Ağaoğlu Külliyyatı / A.Ağaoğlu. - Ankara: Zerbamat Basımevi, - 1941. - 48 s.

82. Ağaoğlu,A.H. Hüseyin Cahit beye Cevabım // Hakimiyyeti Milliyye. –1923, 6 Aralık.

83. Ağaoğlu,A.H. İran ve İnkilabı / A.Ağaoğlu. –Ankara: Zerbamat Basımevi,- 1941.

84. Ağaoğlu,A.H. İslamlıkda kadın (Türkceye çeviren: Hasan Ali Ediz) / A. Ağaoğlu. – İstanbul: Nebioğlu Yayınevi, - 1959. - 56 s.

85. Ağaoğlu,A.H. İsmayıl bey Gasprınski // - İstanbul: Türk yurdu, - 1916. № 12.

86. Ağaoğlu,A.H. İstanbulda Davayi Milliyet, Türkiyede İslamçılık Düşüncesi / A.Ağaoğlu. - İstanbul: Tevzi-yi Tabiat Matbaası, - 2001.

87. Ağaoğlu,A.H. Kurultay Münasibetiyle // - İstanbul: Türk Yurdu, –1926. №18, - s. 626-640.

88. Ağaoğlu,A.H. “Mecburi Bir İzah”// Akın. – 1933. - s. 1-9.

89. Ağaoğlu,A.H. Milli Cereyan // - İstanbul: Türk Yurdu VIII–1918. № 2, - s. 2529.

90. Ağaoğlu,A.H. Milli İrade Bu mudur? // Son Posta. – 1930, 31 Ekim.

91. Ağaoğlu,A.H. Milli Kültür Nasıl Kurtulur // Cümhuriyyet. - 1934, 3 Agustos.

92. Ağaoğlu,A.H. Milli Vahdet // Milliyyet. - 1926, 17 Nisan.

93. Ağaoğlu,A.H. Milliyetçilik Cereyanının Esasları // - İstanbul: Türk Yurdu, – 1925. №11, - s. 394-395.

94. Ağaoğlu,A.H. Mütareke ve Sürgün Hatıraları / A.Ağaoğlu. - İstanbul:Doğu Kitab Evi, - 2010. - 167 s.

95. Ağaoğlu,A.H. Necat Kendi Elimizdedir // Tercümani Hakikat. -1914, 28 Ocak.

96. Ağaoğlu,A.H. Parlamentarizm ve Şahsi Hükümet // Akın. - 1933,19 Temmuz.

97. Ağaoğlu,A.H. Serbest Fırka Hatıraları (3 baskı) / A.Ağaoğlu. - İstanbul:İletişim Yayınları, - 1994. - 256 s.

98. Ahmet A.H. Serbest Fırkaya Meş'um Diyorlar Şeamet Nerededir? //Son Posta. - 1930, 18 Ekim. - s.1,7.

99. Ağaoğlu,A.H. Tarihi Devirler Arasında Milliyet //- İstanbul: Türk yurdu, - 1925. № 1,- s. 534-537.

100. Ağaoğlu,A.H. "Türk Kadınına Verilen Seçme ve Seçilme Hakkı" // Cümhuriyyet. -1934,6 Aralık. - s. 9.

101. Ağaoğlu,A.H. Türk Medeniyeti Tarihi //- İstanbul: Türk yurdu, - 1926. № 4, -s. 530-540.

102. Ağaoğlu,A.H. Türklüyün Nazarında Kadın // - İstanbul: Türk yurdu, - 1917. №13.

103. Ağaoğlu, A.H. Üç medeniyet / A.Ağaoğlu. – İstanbul: Doğu Kitabevi, - 2013. - 112 s.

104. Ağaoğlu,S.A. Babamdan Hatıralar / S.Ağaoğlu. - Ankara: [n.y.], - 1940. - 213s.

105. Ağaoğlu,S.A. Babamın Arkadaşları / S.Ağaoğlu. - Ankara: İletişim yayınları, - 1957. - 239 s.

106. Ağaoğlu,S.A. Babamın Arkadaşları (III baskı, ilavelerle) / S.Ağaoğlu. – İstanbul: Baha matbaası, - 1969. - 262 s.

107. Ağaoğlu,S.A. Bir ömür böyle geçdi (Sessiz gemiyi beklerken) / S.Ağaoğlu. - İstanbul: [n.y.], - 1973. - 226 s.

108. Ağaoğlu,S.A. Hayat bir Macera! Çoçukluk ve genclik hatıraları / S.Ağaoğlu. – İstanbul: Kitap Yayınevi, - 2003. - 198 s.

109. Ağayef,A.H. Alemi-İslam: Türkiyede Mühacerat //- Bakü:Sirat-i Müstakim, - 1908. №102, -s. 407-408.

110. Ağayef,A.H. Alemi İslam: Vaziyat-i Siyasiye-i Hazıramız // - Bakü: Sirat-i Müstakim, - 1908.№ 111.

111. Ağayef,A.H. Alemi-İslam ve Siyasiyat-ı Ümumiye: Bizim Takib İdeceğimiz Meslek // - Bakü: Sirat-i Müstakim, - 1908. № 98-99.

112. Ağayef,A.H. Cemaleddin Afgani "Vahdeti Cinsiye (İrkiye) Felsefesi //- İstanbul: Türk yurdu, - 1912.

113. Ağayef,A.H. Cevaba Cevab //- İstanbul: Türk yurdu, - 1913. № 12, -s. 825-844.

114. Ağayef,A.H. İki kuvvet arasında // Tercümani-Hakikat. – 1912, 29 Temmuz.

115. Ağayef, A.H. İslam Aleminde Görünün İnhitatın Sebebleri // - İstanbul: İslam Mecmuuası, - 1914.№ 1-2.

116. Ağayef,A.H. “Terbiye-i Milliye” // - İstanbul:İçtihad, - 1911. №:27, - s.782-786.

117. Akçura,Y.H. Türkçülük ve Dış Türkler / Y.Akçura. – İstanbul: Toker Yay., - 1990. - 360 s.

118. Akçura,Y.H. Üç Tarz-ı Siyaset / Y.Akçura. – Ankara: Türk Tarih Kurumu Yay., - 1987. - 57 s.

119. Akçura,Y.H. Yeni türk devriminin öncülleri / Y.Akçura. – Ankara: Kültür Bakanlığı, - 1981.- 220 s.

120. Akyol,T.M. Liberalizm və Milliyetçilik, Modern Türkiyede Siyasi Düşünce / T.Akyol. – İstanbul: İletişim yay., - cilt 4. - 2002. - 1024 s.

121. Attar,A. Şimşir Sebahattin. Tarihten günümüze Türkiyede yaşayan Azerbaycan Türkleri. / A.Attar. - Ankara: Berikan Yayınevi, - 2013. - 212 s.

122. Bayat, A. Ali bey Hüseynzade ve Türkiyede yayınladığı eserleri / A.Bayat. - İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, - 1992.

123. Çetin,Y. Atatürkün Başarısız Demokrasi Devrimi / Y. Çetin.- Serbest Cümhuriyyet Fırkası, – İstanbul: Toplumsal Dönüşüm Yayınları, - 1997. - 301 s.

124. Erişirgil,M.E. Türkçülük devri. Milliyyetçilik devri. İnsanlık devri / M.E.Erişirgil. - Ankara:Maarif Yayınevleri,- 1958. - 224 s.

125. Fisekci, O. Kurulusunun 50. Yılı Dolayısıyla Ankara Hukuk Fakultesi Ogretim Uye ve Yardımcılarının Bibliyografyası 1925–1975. / O. Fisekci. - Ankara: Ankara Universitesi Hukuk Fakultesi Yayınları, - 1977.

126. François,G. Ahmet Ağaoğlu: Aydınlanma və Devrim Hayranı Bir Türk Aydını, toplumsal tarih. - 1996. № 36, Aralık, - s. 28-35.

127. Gökalp, Z.M. Türkleşmek, İslamlaşmak, Muasırlaşmak / Z.Gökalp. – İstanbul: Ötüken neşriyatı, - 2015. - 88 s.

128. Gülseven,F. Ahmet Ağaoğlunun hayatı, fikirleri, siyasi ve sosyal mücadileleri //- Bakü: Azerbaycan,- 1989. №268, - s. 72-109.

129. Gündoğdu,A. Ümmetten Millete. (Ahmet Ağaoğlunun Sırat-ı Müstakim ve Seblürreşad Dergilerindeki yazıları üzerine Bir İnceleme) / A.Gündoğdu.– İstanbul: Kültür Sanat Yayınçılık, - 2007.

130. Hüseyin,T. Türk yurdu (1911-1931) Üzerine bir inceleme / T. Hüseyin. - Ankara: Kültür bakanlığı, - 1990.- 547 s.

131. Karahan,M.A. Ahmet bey Ağaoğlunun sanatında islam // VII.Uluslararası Karşılaştırmalı edebiyat Bilimi Kongresi bildiri kitabı, -Sivas: Kreter, -10-12 oktyabr. – 2018.

132. Kayabaş,E. “Bir Yavuz Hükukçu”: Ahmet Ağaoğlu. // - İstanbul Üniversitesi Hukuk Fakültesi Mecmuası, -2012. №1, - s. 441 – 452.

133. Köprülüzade,M. F. "Türklük, İslamlık, Osmanlılık" //- İstanbul: Türk yurdu, - 1917.

134. Kurat, A. N. Ahmet Ağaoğlunun Ölümü //İkdam. –1939, 20 Mayıs.

135. Mehmetzade,M. B. Milli Azerbaycan Hareketi / M.B.Mehmetzade. - Ankara: Azerbaycan Kültür Dernegi Yayınları, - 1991.

136. Mumçu, A. Ankara Adliye Hukuk Mektebinden Ankara Universitesi Hukuk Fakultesine (1924-1975) / A. Mumçu. - Ankara: Ankara Universitesi Hukuk Yayınları, - 1977. -379 s.

137. Öz, Ş. Cümhuriyyetin ilk yıllarında medeniyet tesevvürleri Ahmet Ağaoğlu özelinde //- İstanbul: International Periodical For the Languages, Literature and History of Turkish or Turkic,- 2009. № 4/3, - s. 1794-1803.

138. Özcan,U. Ahmet Ağaoğlu ve rol değişikliği: yüzyıl Dönümünde Batıcı bir Aydın / U.Özcan. - İstanbul: Donkişot Yayınevi, - 2002. - 316 s.

139. Özkaya,Y. Ahmet Ağaoğlunun Hüseynzade Ali beye mektubları //- İstanbul: Türk Yurdu,- 2011. №284, - s. 14-25.

140. Sadoğlu,H. Bir türkçünün trajik öyküsü //- İstanbul: Türk yurdu, - 2011. №281, -s. 22-28.

141. Sakal F, Ağaoğlu Ahmet Bey / F. Sakal. - Ankara: Türk Tarih Kurumu, - 1999. - 248 s.

142. Süleyman,N. "Ahmet Ağayef Beyefendiye Cevab" // - İstanbul: İçtihad, - 1913.

143. Süleyman,N. "Cengiz Hastalığı" // – İstanbul: İçtihad, - 1913. № 71.

144. Şimşir, B. N. Malta Sürgünleri / B.N.Şimşir. –İstanbul:Bilgi Yay., - 1985.- 568 s.

145. Şimşir, S. Azerbaycanın istiklal mücadelesi / S.Şimşir. - İstanbul: İQ kültür sanat yayıncılık, - 2002.

146. Şimşir, S. Azerbaycanlıların Türkiyede siyasi ve kültürel faaliyetleri (1920-1991) / S.Şimşir. -Ankara: Azerbaycan Kültür Derneği Yayınları, - 2000.

147. Şissler, A. H. İki İmperatorluq Arasında. Ahmet Ağaoğlu ve Yeni Türkiye / A. H. Şissler. – İstanbul: Bilgi Universitesi Yayınları, - 2005.

148. Tunaya,T. Z. İslamcılık Cereyanı / T.Z.Tunaya. - İstanbul: İstanbul Bilği Universitesi, - 1962.- 295 s.

149. Türk Dili ve Edebiyatı Ansiklopedisi, “Ağaoğlu, Ahmet”. - İstanbul: Dergah Yayınevi, - 1977.- s. 44-45.

150. Uyar,H. 1930’larda Türkiye Basınında “Liberal Mühalifet” Ağaoğlu Ahmet’in Akın Gazetesi // -997. № 41, -s. 43-50.

151. Yılmaz,M. Ahmet Ağaoğlu ve liberalizm anlayışı // - İstanbul: Türkiye Günlügü, - 1993. № 23, - s.56-71.

152. Yılmaz,Ö. Ahmet Ağaoğlunun Hüseynzade Ali beye mektupları // - İstanbul: Türk yurdu, - 2011. № 284, - s.14-25.

153. Yüce,N. “Ağaoğlu Ahmed (1869-1939) Türk Gazetecisi ve Siyaset Adamı”, Türkiye Diyanet Vakfı İslâm Ansiklopedisi, İstanbul. - c.1. -1988. - s. 464-466.

## RUS DİLİNDƏ

154. Аралов,С.И. Воспоминания советского дипломата (1922-1923гг.) / С.И.Аралов. – Москва: [n. y.], - 1960. - 384 с.

155. Балаев,А.Н. Патриарх тюркизма. Ахмед бек Агаоглу (1869-1939) / А.Балаев. –Баку, TEASPress, - 2018. - 508 с.

156. Карахан М.А. Роль Ахмеда Агаоглу в общественном мнении Турции / - Киев: Мова і культура, - *2016. Выпуск 23, Том 183.* - с. 165-173.

## İNGİLİS DİLİNDƏ

157. Jacob M. Landau. Pan-Turkism in Turkey: A Study *in* Irredentism / M. Jacob. - Hamden, Connecticut*:* Archon Books, - 1981. - 219 p.

158. Shissler,A. Holly. Between Two Empires: Ahmet Agaoglu and the New Turkey / A.Shissler. - London: I.B.Tauris, - 2003. - 280 p.

159. Madina Karahan. Ahmad bay Aghaoglu’s Activity in Literary and Cultural Criticism // Baku: Khazar Journal of Humanities and Social Sciences, - 2019. № 4, - p.45-57.

## İNTERNET RESURSLARI

160. Anar. Əhməd bəy Ağaoğlu: Mən kiməm? [Elektron resurs] / 525-ci qəzet.- Bakı, 2019.

URL:http://www.anl.az/down/meqale/525/2019/sentyabr/673131.htm

161. Eldar Əzizov. "Difai" Partiyasının yaranması [Elektron resurs] / Ədalət.- Bakı, 2011.

URL: http://anl.az/down/meqale/adalet/2011/fevral/160838.htm

162. Əhməd bəy Ağaoğlu – üç dövlətin vəkili [Elektron resurs] / AZƏRTAC.- Bakı, 2019

URL: https://azertag.az/xeber/Ahmed_bey_Agaoglu___uch_dovletin_vekili-1337248

163. Əhməd bəy Ağaoğlu: Nəhəng fikir və əməl adamı [Elektron resurs] / Güney Azərbaycanın Azadlıq Səsi. - Bakı, 2013.

URL: https://www.gunaz.tv/az/meqaleler/ehmed-bey-agaoglu-neheng-fikir-ve-emel-adami-m10001

164. Dilqəm Əhməd Atatürkün böyük oyunu [Elektron resurs] / kultura.az.- Bakı, 2013.

URL: https://kultura.az/news/20130708065038948